## İnsan hüquqları təqvimi

***İlin hər günü insan hüquqları günüdür!***

| | |
|---|---|
| **Fəslin mövzusu** | *İnsanın ümumi hüquqları* |
| **Çətinlik dərəcəsi** | 2-ci səviyyə |
| **Yaş həddi** | 8-13 yaş |
| **Tələb olunan vaxt** | Təqvimi tərtib etmək üçün 120 dəqiqə, əlavə aylıq məşğələlər |
| **İştirakçı sayı** | 2-24 uşaq |
| **Fəaliyyətin növü** | Şəkil çəkmə, rəngləmə, kəsmə, informasiyanın qrafik təsviri |
| **Xülasə** | İnsan hüquqlarına aid mühüm tarixi günləri qeyd etmək üçün qrupun təqviminin tərtib edilməsi |
| **Vəzifələr** | • İnsan hüquqlarının çoxsaylı aspektləri haqqında danışmaq<br>• Zamanın bölünməsi (məsələn, aylar, həftələr, həftənin günləri), bayramlar və xüsusi hadisələr haqqında məlumat vermək<br>• Planlaşdırma bacarığını aşılamaq<br>• Bayram günlərini qeyd etməyi öyrətmək |
| **Hazırlıq** | • Sütunlarda həftənin günlərini qeyd etmək şərti ilə hər aya aid bir təqvim səhifəsi hazırlamaq<br>• Hər qrup üçün əlamətdar günlərin siyahısını hazırlamaq və surətini çıxartmaq<br>• Hər şagird, həmçinin müəllim üçün kağızdan “AD GÜNÜ” yazısı qeyd olunan kvadratlar hazırlamaq |
| **Materiallar** | • Plastik və ya kartona yapışdırılan A-4 ölçüdə 12 kağız vərəq<br>• Mühüm tarixlər qeyd olunan paylama materiallarının surətləri<br>• Hər qrup üçün qələm, marker, rəngli karandaşlar<br>• Yapışqan lent, yapışdırıcı<br>• Hər bir uşaq və müəllim üçün “AD GÜNÜ” yazılmış kağız kvadratlar |

- Əlavə material: müxtəlif şəkillər, orta ölçülü təqvim, “Uşaq Hüquqları Konvensiyası”nın adaptasiya olunmuş mətni

**Təlimat**

**Mərhələ 1.**

1. Uşaqlara insan hüquqları ilə əlaqəli mühüm hadisələri qeyd edərək bir təqvim hazırlayacaqları haqqında məlumat verin və izahatlar aparın.
2. “İnsan hüquqları nədir?” mövzusunda müzakirə keçirin və uşaq hüquqlarının nə olduğunu izah edin (əgər onların bu haqda məlumatları yoxdursa). Uşaq hüquqlarına aid nümunələr gətirmələri üçün uşaqlara müraciət edin, lazım olduqda özünüz nümunələr gətirin.
3. İnsan hüquqları və ya uşaq hüquqları ilə əlaqəli mühüm hadisələrə aid hansı tarixlərin onlara məlum olduğu haqqında sual verin. Başqa bayramlar haqqında nə bildiklərini soruşun, insan hüquqları və ya uşaq hüquqları ilə əlaqələndirilməsini xahiş edin (məsələn, dini bayramları, fikir və vicdan azadlığını düşüncələrlə, milli bayramları vətəndaşlıq hüququ ilə, mədəniyyət sahəsində bayramları mədəniyyət hüququ ilə əlaqələndirmək olur). Hamısını sadalayın. Uşaqlardan yaradıcı düşünməyi və bəzi günləri insan hüquqları ilə əlaqələndirməyi xahiş edin. Çalışın ki, onlar özləri bunu müstəqil düşünüb tapsınlar. Sonra uşaqların bilmələri üçün vacib olan mühüm tarixi günlərin, bayramların siyahısını qruplara paylayın. Müzakirə zamanı qeyd olunan digər bayramları siyahıya əlavə edin. Bayramların insan hüquqları ilə əlaqəsini göstərən nüansları aşkar edin və bu bayramları necə qeyd etmək olar istiqamətində müzakirə aparın.

   Uşaqları dörd qrupa bölün və hər qrupa üç ayın adını verin. Hər qrupa üç təqvim vərəqi, rəngləmək üçün materiallar, rəngli kağız və təqvim hazırlamaq üçün digər ləvazimatlar paylayın.
4. Təlimat verin:
   a. Hər ay üçün ayrıca vərəqlərdə tarixləri qeyd edin.
   b. Sonra hər ay üçün xarakterik olan mühüm hadisələrin, bayramların adlarını təqvimdə qeyd edin və nəzərə çarpsın deyə həmin kvadratları rəngləyin. Bayramı göstərən işarə və ya bəzək bayramın mövzusu və ya araşdırılan insan

hüququ ilə əlaqəli olmalıdır. Bayram bir gündən artıq davam edirsə, ayın digər günlərini də işarələyin. Məktəb bayramlarını da təqvimə əlavə edin.

c. Xüsusi günləri qeyd etmək üçün “BAYRAM” sözü yazılmış bir üzlük düzəldin və onu yapışqanla təqvimin müvafiq yerinə yapışdırın. Onun açılması sürpriz effektini verməlidir.

5. Səhifələr doldurulduqdan sonra hamının görə bilməsi üçün onları lövhəyə asın. Bir neçə bayramın qeyd olunmadığını deyin və izahatlar verin.
6. Hər bir uşağa “AD GÜNÜ” sözü yazılmış kvadrat kağız verin və doğum gününə uyğun olan təqvim səhifəsinə yaxınlaşıb həmin tarixin üstündə “AD GÜNÜ” sözünü yazaraq, əlindəki kvadratı yapışqan lent vasitəsilə yapışdırmağı tapşırın (kvadrat elə yapışdırılmalıdır ki, istənilən vaxt onu çıxartmaq mümkün olsun). Tapşırıq yerinə yetirildikdən sonra, “Ad günləri nəyə görə insan hüquqları ilə bağlıdır?” sualını verin. Sonra hər bir insanın yaşamaq hüququ və ad hüququ olduğunu qeyd edin.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualları verərək oyunu müzakirə edin:
   a. Oyun xoşunuza gəldimi?
   b. Təqvim haqqında siz nə öyrəndiniz? İnsan hüquqları haqqında hansı yeni məlumatlarla tanış oldunuz?
   c. Siz hansı əlamətdar günü gözləyirsiniz? Nə üçün?
2. “Biz vaxtaşırı bəzi əlamətdar günləri qeyd etdiyimizə baxmayaraq, insan hüquqlarından hər gün istifadə edirik” fikrini qeyd edin. Belə suallar verin:
   a. Gündəlik həyatınızda siz hansı insan hüquqlarından istifadə edirsiniz? Hal-hazırda siz hansı insan hüquqlarından istifadə edirsiniz?
   b. Hər bir uşağın belə hüquqları vardırmı? Hər bir uşaqda bu hüquqlardan istifadə imkanları vardırmı?
   c. Hər bir uşağın hüquqlarının müdafiə olunmasının təminatı üçün biz nə edə bilərik? Bu kimin işidir?
3. Hər ayın əvvəlində təqvimin yeni səhifəsinə müraciət edin.
   a. Yaxınlaşan hadisələri göstərmək üçün üzlükləri açın.
   b. İnsan hüquqları ilə əlaqələndirərək, bayramın əhəmiyyətini izah edin.
   c. Hər bir bayramı necə qeyd edəcəyinizi birgə planlaşdırın.

**Davam üçün təkliflər**

Həftə ərzində insan hüquqları ilə bağlı əlamətdar gün qeyd olunanda, “Kompasito”dan bu əlamətdar gün ilə bağlı bir oyun seçin. Əlavə verilən tematik sxemdən istifadə edin, bu sizə seçimdə kömək edə bilər.

**Fəaliyyət üçün ideyalar**

- Uşaqlardan ad günlərini daxil etmək şərti ilə əlamətdar günləri bayram kimi qeyd etmək üçün plan hazırlamağı xahiş edin.
- Uşaqlar bəzi tarixi günləri öz regionlarında qeyd etmək üçün arzu və təkliflərini irəli sürə bilər. Məsələn, insan hüquqları və ya uşaq hüquqları gününü.

**Aparıcılara məsləhətlər**

- Əlamətdar günlərin tam siyahısını yazmayın, hətta onların bu bayramın olması haqqında məlumatları yoxdursa belə, sizin qrup üçün daha əhəmiyyətli olanları seçin.
- İş zamanı bütün qruplara baş çəkin və əmin olun ki, uşaqlar hər bir bayramın əhəmiyyətini anlayırlar.
- Əgər siz milli və ya regional xalq mədəniyyəti ilə bağlı bayramları və dini bayramları siyahıya daxil edirsinizsə, çalışın ki, qrupda olan uşaqların ailələrində qeyd olunan bayramları da buraya daxil edəsiniz. Bu istiqamətdə tərəddüd olduqda, uşaqlardan bayramların siyahısını evdən gətirməyi xahiş edin.
- Hər bir uşağın ad gününü eyni tərzdə qeyd etmək məqsədilə qrup üçün eyni hüquq, eyni salamlaşma və qonaqlıq ritualı işləyin. Bu zaman yerli mədəniyyəti, adət və ənənləri də nəzərə ala bilərsiniz.
- Təqvimi rəngarəng və səmərəli etmək üçün nə edə biləcəyiniz haqqında düşünün. Hər bir bayram üçün müvafiq olan müxtəlif simvol və başqa dillərdən götürülən sözlərdən istifadəni dəstəkləyin.
- Adaptasiyalar:

  a. Balaca uşaqlar üçün:
  - Təqvimdən ayın günlərini köçürməyi tapşırın. Ayda 28, 29, 30 və ya 31 gün ola biləcəyini qeyd edin və ayların həmişə həftənin eyni günündən başlamaması səbəbinin bununla bağlı olduğunu göstərin.
  - Əlavə olunacaq günlərin siyahısını və təqvimi onlara verin və xüsusi günləri əlavə etməyi xahiş edin.

  b. Böyük yaşlı uşaqlara Uşaq Hüquqları Konvensiyasının və ya İnsan Hüquqlarının Ümumi Konvensiyasının uşaqlar üçün adaptasiya edilmiş

variantını paylayın və öz səhifələrində qeyd olunan bayram günlərini bu sənədin müəyyən maddələri ilə əlaqələndirməyi tapşırın.

**Əlavə 1**

PAYLAMA MATERİALLARI: TƏKLİF OLUNAN ƏLAMƏTDAR GÜNLƏR

| | |
|---|---|
| **1 yanvar** | Ümumdünya Sülh Günü |
| **8 mart** | Beynəlxalq Qadınlar Günü |
| **21 mart** | Ümumdünya Meşə Günü |
| **22 mart** | Ümümdünya Su Ehtiyatları Günü |
| **7 aprel** | Ümumdünya Sağlamlıq Günü |
| **22 aprel** | Yer Günü |
| **1 may** | Beynəlxalq Əmək Günü |
| **8 may** | Ümumdünya Qırmızı Aypara və Qırmızı Xaç Günü |
| **9 may** | Avropa Günü |
| **15 may** | Beynəlxalq Ailə Günü |
| **1 iyun** | Beynəlxalq Uşaq Günü |
| **5 iyun** | Beynəlxalq Ətraf Mühitin Mühafizəsi Günü |
| **21 iyun** | Beynəlxalq Sülh və Dua Günü |
| **7 avqust** | Beynəlxalq Təhsil Günü |
| **8 sentyabr** | Beynəlxalq Savadlılıq Günü |
| **1 oktyabr** | Beynəlxalq Musiqi Günü |
| **5 oktyabr** | Beynəlxalq Müəllim Günü |
| **16 oktyabr** | Beynəlxalq Ərzaq Günü |
| **25 oktyabr** | Birləşmiş Millətlər Təşkilatı Günü |
| **9 noyabr** | Irqçiliklə Mübarizə Günü |
| **16 noyabr** | Dözümlülük Günü. |
| **20 noyabr** | Ümumdünya Uşaq Günü |
| **3 dekabr** | Ümumdünya Əlillər Günü. |
| **10 dekabr** | Ümumdünya İnsan Hüquqları Günü |

*Qeyd: Uşaq günü həm 1 iyunda, həm də 20 noyabrda qeyd edilir. Bundan əlavə bəzi ölkələrin özünün də Uşaq Günləri vardır.*

**Əlavə 2**

| Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə | Şənbə | Bazar |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Arxamdakı kimdir?**

***Sizcə, mən kiməm?***

| | |
|---|---|
| **Mövzu:** | İnsan hüquqları, diskriminasiya, kütləvi informasiya vasitələri və internet |
| **Yaş səviyyəsi:** | 10-13 yaş |
| **Çətinlik dərəcəsi:** | 2 |
| **Dərsin müddəti:** | 30 dəqiqə |
| **İştirakçıların sayı**: | 10-20 uşaq |
| **Oyunun növü**: | fotoşəkillər haqqında stereotip cavablara əsaslanan tapmaca oyunu, müzakirə |
| **Xülasə:** | Uşaqlar kürəklərinə yapışdırılmış şəkildəki insanın kim olduğunu digər uşaqların cavablarına əsasən tapırlar. |
| **Tapşırıqlar:** | • Ayrı-ayrı şəxs və qruplara münasibətdə stereotiplərin təsirini müzakirə etmək.<br>• diskriminasiya, stereotíp və önmühakimə arasındakı əlaqəni aydınlaşdırmaq.<br>• Önmühakimə və stereotiplərin genişlənməsində KİV-in təsirini analiz etmək. |
| **Hazırlıq**: | Müxtəlif ölkələrdən olan və müxtəlif situasiyaları əks etdirən 25 fotoşəkil toplayın. Şəkilləri kartonlara yapışdırın və onları nömrələyin. Əlavə: kartonu laminə edə bilərsiniz. Fotoşəkilləri nömrələyin. |
| **Resurslar:** | • Kartona yapışdırılmış 25 ədəd fotoşəkil<br>• Knopka və ya yapışqanlı lent;<br>• Kağız və qələm;<br>• Üzərində iri vərəqlər olan lövhə və marker. |

**Təlimat**

**1. Oyunu izah edin:**

a. Sizin hər brinizin kürəyinə insan fotoşəkli yapışdırılacaq.

b. Hamı otaq boyu gəzəcək. Digər içtirakçıların kürəyinə yapışdırılmış şəkillərə baxın və bu insan haqqında cəmiyyətin ümumi fikrini ifadə edən bəzi sözlər deyin. Bu, sizin şəxsi rəyiniz olmaya da bilər; daha çox bu tip insanlar barədə danışarkən istifadə olunan

stereotip ifadələr, “damğa” sözlər olmalıdır. Bu sözlər müsbət və mənfi, hətta kəskin ola bilər.

**2.** Sizin ünvanınıza deyilən sözləri yazın və “hansı insan olduğunuzu” müəyyən etməyə çalışın.

**3.** Şəkilləri uşaqların kürəyinə elə yapışdırın ki, özləri şəkli görməsinlər. Onun haqqında deyilənləri yazmaq üçün uşaqlara kağız və qələm verin.

**4.** Oyuna başlayın, uşaqlar görüşərkən bir-birini təsvir etməlidirlər. 10 dəqiqədən sonra qrupu yığın.

**5.** 1 №-li fotoşəkildən başlayın, digər uşaqların cavablarına əsasən yapışdırılmış şəkildəki insanın şəxsiyyəti barədə uşağın fikirlərini öyrənin. Hər uşaqdan öz təxminini izah etməyi xahiş edin. Sonra bu fotoşəkil haqqında hansı sözlərin deyildiyini uşaqlardan növbə ilə soruşun. Həmin sözləri onun nömrəsinin yanında qeyd edin.

a. Bütün fikirlər deyildikdən sonra şəkli çıxarın və qrupa göstərin. Hər fotoşəkli qısaca müzakirə edin.

b. Sizcə, şəkildəki adam haradadır?

c. O, nə edir?

d. Sizcə, bu insan hansısa hüquqlarından istifadə edirmi?

**Təhlil və qiymətləndirmə:**

**1.** Aşağıdakı sualları verməklə oyunu təhlil edin:

a. Fotoşəkildə təsvir olunan insanlar haqqında düzgün sözlər tapmaq çətin idimi?

b. Fotoşəkildəki insan haqqında ədalətsiz və kobud ifadələr işlədərkən özünüzü necə hiss etdiniz?

c. İnsanların fotoşəklinə əsasən söylənilən fikirlərə görə onun şəxsiyyətini müəyyənləşdirmək çətin idimi?

d. Sizin təqdim etdiyiniz insan haqqında başqaları danışarkən nə hiss edirdiniz?

e. Fotoşəkildəki insan haqqındakı təsəvvürləriniz digərlərinin fikirlərindən fərqlənirdimi?

f. Hamı öz şəkilini tapdı? Sizcə, bu, bəziləri üçün niyə çətin idi?

**2.** Verilən sözlərin siyahısını nəzərdən keçirin və bunların insan hüquqları ilə əlaqəsini tapın. “Stereotiplər” və “damğalar” haqqında da danışmağı unutmayın. Sonra isə bu siyahı barədə suallar verin:

a. Sizcə, sizin şəhərinizdə yaşayan insanların əksəriyyəti nə vaxtsa belə insanlarla rastlaşıblarmı?

b. Onlar bu insan haqqındakı fikirlərini necə formalaşdırırlar? Onlar öz fikirlərini dəyişə bilərlərmi?

c. Siz nə vaxtsa kiminsə haqqında fikirlərinizi dəyişmisinizmi?

d. Nə üçün stereotiplər və damğlar ədalətsiz olur?

e. Stereotiplər və damğalar insan hüquqlarını necə poza bilər?

f. Bu cavablar bizim hər birimizin başqalarını müxtəlif cür görüməyimiz haqda nə deyir? Biz əşyalara eyni cür baxmalıyıqmı?

g. Fikir verin ki, bizim insanlar haqqında təsəvvürlərimiz əksərən KİV-in təsiri ilə formalaşır (məsələn, radio, televiziyalar). KİV-in stereotiplərin formalaşmasında rolunu nəzərə alaraq belə suallar verin:

h. KİV digər ölkə və mədəniyyətlərə mənsub olan insanları necə təqdim edir? Onlar öz vətənində yaşayan zaman? Sizin ölkənizdə yaşayan zaman?

i. KİV damğa və stereotiplərin tətbiqini necə gücləndirə bilər?

**Davam etmək üçün təkliflər**

Bir neçə oyun stereotiplərə həsr olunub:

- “Şəkillərlə oyun”, “Dünya yay düşərgəsi” müxtəlif sterotipləri nəzərdən keçirir.
- “Oğlanlar ağlamaz”, “Biri var idi, biri yox idi” oyunları gender stereotiplərini təhlil edir.
- “Bağlı gözlərlə”, “Bilik fiquru” kimi oyunlar imkanları məhdud uşaqların stereotiplərinə toxunur.

**Fəaliyyət üçün ideyalar**

- Uşaqlar rayonlarındakı digər uşaqların və ya böyüklərin eyni şəkillərə münasibəti ilə bağlı tədqiqat apara, alınan nəticələr əsasında stereotip və önmühakimələri nə cür qiymətləndirməyi müəyyən edə bilərlər.
- Müxtəlif ölkə və mədəniyyətə mənsub uşaqların iştirakı ilə hər hansı bir hadisəni seçin və qəzet, radio və televiziyanın bu problemi və orada insanların rolunu necə təqdim etdiklərini təhlil edin. Müxtəlif KİV-lərin eyni hadisəni necə işıqlandırdığını müqayisə edin. İnsan hüquqları problemləri necə göstərilmişdir?
- Əgər uşaqların fotoaparatı varsa, öz rayonlarında “İnsan hüquqlarına baxış” və “Şəxsiyyət müxtəlifliyi” mövzularında fotosərgi təşkil edə bilərlər.

**Aparıcılara məsləhətlər:**

- Gender bərabərliyi, kasıblıq və sosial təcrid kimi insan hüquqlarına dair istənilən mövzulara uyğun fotoşəkil və suallardan istifadə ilə bu oyunu adaptə etmək mümkündür.
- Fotoşəkillərin seçimi çox vacibdir. Təqvim, jurnal və açıqcadan rəngli şəkillər seçin. Google-dan da şəkillər seçə bilərsiniz. Bu fotoşəkillərdə mətn olmamalıdır, yalnız şəklin altında şərh və ya digər məlumatları özünüz üçün saxlayın ki, suallara cavab vermək mümkün olsun.

- Oyunun qaydalarını bir şəkil üzərində izah etmək olar ki, uşaqların hamısı başa düşsün.
- Fotoşəkillər "Yer üzərində həyat"ın geniş spektrini göstərməlidir: müxtəlif yaş səviyyəsi, mədəniyyətlər və imkanlara malik insan və insan qrupları. Bu, şəhər və kənddə yaşayan, sənaye və kənd təsərrüfatında müxtəlif işlərlə məşğul olan, müxtəlif irq və dinə mənsub insanların şəkilləri olmalıdır. Şəkilləri nömrələyərkən onları müəyyən ardıcıllıqla düzməyə çalışmayın.
- Seçilmiş şəkillər uşaqların şəxsi keyfiyyətlərinə toxunmamalıdır, çünki bu, onları utandıra bilər.
- Uşaqların bir çoxu stereotip cavablar və öz şəxsi fikirləri arasında fərqi tapmaqda çətinlik çəkə bilərlər.

**Uyğunluq**

Uşaqlar yaş səviyyəsi və təcrübəsinə, eləcə də stereotiplər barədə ümumi anlayışlarına görə bir-birindən çox fərqlənirlər. Təhlili qrupun qabiliyyətlərinə görə uyğunlaşdırın.

**Bağlı gözlərlə**

***Baxma, sadəcə qulaq as!***

| | |
|---|---|
| **Mövzular:** | Diskriminasiya (ayrı-seçkilik), sağlamlıq və rifah, iştirak |
| **Çətinlik dərəcəsi:** | 1 |
| **Yaş həddi:** | 6-8 |
| **Müddət:** | 45+dəqiqə |
| **İştirakçıların sayı:** | 4-20 uşaq |
| **Oyun növü:** | səhnələşdirmə, müzakirə |
| **İcmal**: | Uşaqlar gözləri bağlı vəziyyətdə kağız gəlinciyi geyindirməyə çalışırlar. |
| **Tapşırıqlar:** | **-** sağlamlıq imkanları məhdud uşaqların xüsusi hüquq və tələbatlarını anlamaq;<br>- qrupda müxtəlif ünsiyyət formalarını və əməkdaşlığı inkişaf etdirmək; |
| **Hazırlıq:** | **-** kağızda və ya kartonda gəlincik fiqurları çəkin/hər 4 uşağa 1 ədəd;<br>- onları divara bərkidin;<br>- hər fiqur üçün kağızdan paltar dəsti düzəldin;<br>- hər qrup üçün materiallar dəsti (fiqur, paltarlar, şərf) gətirin. |
| **Materiallar:** | - 4 nəfərdən ibarət olan hər komandaya 1 şərf;<br>- fiqur və paltarlar üçün kağız və ya karton;<br>- fiqurlara paltarları yapışdırmaq üçün plastilin, yapışqanlı lent və ya dəftərxana düymələri. |

**Təlimatlar:**

1. Uşaqlardan soruşun, əlilliyi olan insanlar tanıyırlarmı? İnsanlarda hansı məhdud imkanlar ola bilər?

2. Uşaqlardan soruşun, onlar “kor olmaq nə deməkdir?” barəsində nə vaxtsa düşünüblərmi? Onlara izah edin ki, bu oyun zəif görən insanın hisləri haqqında bəzi təsəvvürlər yaradacaqdır.

3. Uşaqları 4 nəfərdən ibarət qruplara bölün. Onlara kağız gəlincikləri və hər bir gəlincik üçün paltar dəstini göstərin. Hər bir qrup üzvünün növbə ilə kağız gəlinciyi bağlı gözlərlə geyindirəcəyini izah edin. Qrupun digər hissəsi təlimatlar verərək kömək edə bilər.

4. Hər qrupdan 1 uşağın gözlərini şərflə bağlamağı xahiş edin. Sonra ona kağız gəlinciyin üzərində düzgün yerləşdirmək üçün paltarın bir hissəsini verməyi xahiş edin. Onlar bacardıqca az danışmalıdırlar, lakin oyunçuya kömək lazım olduğu vaxt danışa bilərlər.

5. Oyuna olan marağın itməməsi üçün 4 dəqiqədən sonra kağız gəlinciyi geyindirə bilsələr də, bilməsələr də, uşaqların rollarını dəyişin. Hər kəs özünü “kor” rolunda sınayana qədər davam edin.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualları verin:

a) Kor olmaq necədir?

b) Tapşırıq çətin idimi? Nə üçün?

c) Qrupun təlimatları sizə kömək etdimi? Onlar sizə daha necə kömək edə bilərdilər?

ç) Siz göstərişlər verəndə nə hiss edirdiniz? Bəzi məqamları izah etmək çətin idimi?

d) Əgər siz doğrudan kor olsaydınız, ən çətin nə olardı? Əvvəlcə asan, sonra isə daha çətin yerinə yetirilə bilən tapşırıqların adlarını sadalayın.

e) Əgər sizin imkanlarınız məhdud olsaydı, nəyi məmnuniyyətlə edə bilərdiniz? Nəyi etmək daha çətin olardı? Heç nəyə baxmayaraq bunu etməyi xoşlayardınızmı?

2. Aşağıdakı sualları verərək sağlamlıq imkanları məhdud olan insanlarla münasibətdə mövcud olan stereotipləri göstərin:

a) Siz necə fikirləşirsiniz, sağlamlıq imkanları məhdud olan uşaqlar nə etməyi xoşlayırlar? Bu, sizin böyük həvəslə etdiyinizdən fərqlənirmi? Nə üçün “bəli” və nə üçün “xeyr”?

b) Necə fikirləşirsiniz, sağlamlıq imkanları məhdud olan uşaqların dostları varmı? Onların bütün dostları da sağlamlıq imkanları məhdud olanlardır? Nə üçün belə uşaqla dostluq etmək asan deyil? Nə üçün bu dostluq maraqlı ola bilər?

c) Necə fikirləşirsiniz, sağlamlıq imkanları məhdud olan uşaqlar böyüyəndə nə olmaq istəyirlər? Bu arzular sizinkindən fərqlənirmi? Nə üçün "bəli" və nə üçün "xeyr"?

ç) Bu oyun anlamağa kömək edəcək ki, yaxşı görənlərin asanlıqla etdikləri işləri yerinə yetirmək üçün zəif görən uşaqlara hərdən kömək lazımdır. Ətrafdakıların köməyinə ehtiyacı olan digər əlilllik növlərinin adlarını deyə bilərsinizmi?

d) Dolğun həyat yaşamaq üçün hər bir kəsin ona lazım olan əşyalar hüququ var. Sizə hansı əşyalar lazımdır? Bu əşyalar sağlamlıq imkanları məhdud olan uşaqlara da lazımdırmı?

**Davam etmək üçün təkliflər:**

- Uşaqlara bağlı gözlərlə oynaya biləcəkləri oyun haqqında fikirləşməyi xahiş edin. Təhlükəsizlik baxımından oturaq vəziyyətdə keçiriləcək bir oyun seçin (Məsələn, tapmaca oyunu, rollu oyun). Əldə edilmiş və çatışmayan bacarıqları müəyyənləşdirmək üçün təhlil aparın. Zəif görən uşaqların da iştirakı üçün oyunu necə uyğunlaşdırmaq olar?
- Köməkçidən də müəyyən səy tələb olunduğunu göstərmək üçün "Etimad gəzintisi" adlı qısa bir oyun oynaya bilərsiniz. Bu oyunda bir uşaq gözübağlı olan digər uşağı bir yerdən başqa yerə aparır. Sonra uşaqlar rollarını dəyişirlər. Oyunu təhlil edin.
- Uşaqlara müxtəlif məhdud imkanları təcrübədən keçirməyi təklif edin, məsələn, məhdud hərəkət ("torbalarda qaçış", qoltuq ağacları ilə təcrübə, bir əli bağlı) və ya danışmaq, oxumaq, saymaq əngəlləri.
- Sağlamlıq imkanları məhdud uşaqların vəziyyətini təhlil edən digər oyunlar da var. "Səssiz natiq" oyunu kar uşaqların təcrübəsidir. "Bilik fiquru" oyunu sağlamlıq imkanları məhdud olan uşaqların inkişafına təcridolunmanın təsirini təhlil edir.

**Fəaliyyət üçün ideyalar**

- Uşaqlar öz yaşayış yerlərini, məktəb və ya rayonu qiymətləndirə bilərlər:

Sağlamlıq imkanları məhdud olan insanlar burada yaşaya, işləyə və ya rahat, təhlükəsiz oynaya bilərmi? Bu yerlərin daha əlçatan olması üçün nə etmək olar?

- Bu rayonda sağlamlıq imkanları məhdud olan uşaqlar harada yaşayırlar və onlar hansı məktəbə gedirlər? Uşaqlar sağlamlıq imkanları məhdud olan uşaqların harada yaşadıqlarını və harada oxuduqlarını, həmçinin niyə onlara digər uşaqların arasında rast gəlməyin mümkün olduğunu (və ya olmadığını) öyrənə bilərlər.
- Başqa məktəbdən, təşkilatdan və ya uşaq qrupundan olan sağlamlıq imkanları məhdud uşaqlarla bir mübadilə günü edin.

**Aparıcıya məsləhətlər**

- Bu məşğələni apardığınız sinifdə uşaqlardan heç birinin əlilliyi olmadığı güman edilir. Lakin bəzi uşaqların görünməsə də, sağlamlıq imkanları məhdud ola bilər (məsələn,

eynək taxan uşaqları zəif görən hesab etmək olar). Uşaqlarla, onların özləri haqqında təsəvvürləri, öz bacarıqları və ya məhdudiyyətləri ilə həssas davranın. Sağlamlıq imkanları məhdud uşaqları sinifdə bəzi suallara cavab verməyə cəlb edin, lakin bunu yalnız təklikdə onların razılığını aldıqdan sonra edin.

- Sağlamlıq imkanları məhdud insanlara lazım olan kömək haqqındakı müzakirəni onların özlərinin də çox şeylər edə biləcəkləri fikri ilə əlaqələndirin. Sağlamlıq imkanları məhdud insanların da hər bir insan kimi əsas tələbat və hüquqları olduğunu qeyd edin.

**Variasiyalar**

- Siz bir və ya iki gəlincikdən istifadə edib, bir neçə uşaqdan gəlincikləri geyindirməyi xahiş edə bilərsiniz.

Əgər sizin iki kağız gəlinciyiniz varsa, onları oğlan və qız gəlincik kimi təqdim edə bilərsiniz, lakin  əgər sizin yalnız bir gəlinciyiniz varsa, onda bu gəlincikdən iki dəfə istifadə edin: bir dəfə oğlan kimi, bir dəfə də qız kimi. Həmçinin sağlamlıq imkanları məhdudiyyəti ilə bağlı gender məsələlərini və stereotipləri də müzakirə edə bilərsiniz.

- Əgər böyük kağız vərəqləriniz varsa, siz qrup üzvlərinin fiqurlarını düzəldib onlardan kağız gəlincik kimi istifadə edə bilərsiniz.

## BİLİK FİQURU

***Bu qədər cox bildiyimi bilmirdim!***

**Mövzu** Diskriminasiya, təhsil və istirahət, sağlamlıq və rifah

**Çətinlik dərəcəsi** 1-ci dərəcə

**Yaş həddi** 7-13 yaş

**Tələb olunan vaxt** 2x60 dəqiqəlik məşğələ

**İştirakçı sayı** 4 – 30 uşaq

**Oyunun növü** Kollaj yaratmaq, müzakirə

**Xülasə** Uşaqlar bədən fiqurunun hər bir üzvünə aid bilik və bacarıqlar qeyd edirlər. Bu məlumatları necə əldə etmək barədə sualları müzakirə edirlər: Əgər sizin bilik almaq imkanınız və ya hüququnuz yoxdursa, nə baş verər? Bədənin bəzi hissələri normal inkişaf etməyibsə, nə olar?

**Vəzifələr**

- Özünün və başqalarının qabiliyyətlərini və biliklərini aşkarlamaq;
- Bilik almaq yolları və yerləri haqqında daha çox məlumat əldə etmək;
- Təhsil hüququnu müzakirə etmək;
- Müxtəlif imkanlara malik insanların varlığını anlamaq.

**Hazırlıq**

- Şəkilli jurnallar toplayın

**Materiallar**

- Böyük vərəqlər
- Markerlər
- Kəsmək üçün şəkilli jurnallar
- Qayçı, yapışqan və kollaj düzəltmək üçün digər materiallar

**Təlimat**

**Məşgələ 1**

1. Uşaqlara öyrənmək və inkişaf etmək hüquqları olduğunu xatırladaraq, mövzuya giriş edin. Onların hətta özlərinin təxmin etmədiyi bir çox bilik və bacarığa sahib olduğunu qeyd edin. Uşaqlardan xahiş edin ki, beş-altı yaşında bacarmadıqları,

lakin indi bacardıqları şeyləri adlandırsınlar (məsələn, oxumaq, yazmaq, hesablamaq, saatı bilmək). İzah edin ki, bu oyun onların öyrənmək və inkişaf etmək hüquqlarını araşdırır.

2. Uşaqları dörd nəfərlik qruplara bölün və hər qrupa iri vərəq verin. Vərəq üstündə bir uşağın bədəninin konturu çəkiləcək və daxilində şəkillər yapışdırılacaq qədər böyük olmalıdır. Oyunun qaydalarını izah edin.

a) Hər qrup bir uşağın konturunu çəkir.

b) Daha sonra nə bildiyiniz və nə bacardığınız barədə düşünün. Bunun üçün bədənin hansı hissəsinə ehtiyacınız var? Fiziki (məsələn, mahnı oxumaq, velosiped sürmək), zehni (məsələn, riyazi misalları həll etmək, lətifələri yadda saxlamaq), şəxsi bacarıqlar (məsələn, dostluq etmək, sirləri qorumaq) nəzərə alın.

v) Bu biliyi və ya bacarığı qeyd edin: bu işi görən bədən hissəsinin üzərində şəkil çəkin və ya şəkil yapışdırın. Məsələn, yaxşı futbolçusunuzsa, fiqurun ayağına bir futbol topu çəkin. Yaxşı oxuyursunuzsa, kitab şəkli kəsib gözlərin yaxınlığına və ya başın yanına yapışdırın. Mahnı oxuya bilirsinizsə, fiqurun ağzının yanında not şəkli çəkin.

q) Bildiyiniz və bacardığınız bütün şeyləri yada salın.

3. Qoyun uşaqlar fiqur rəsmlər, şəkillər, qeydlərlə dolana qədər işləsinlər.

4. Hamını bir yerə yığın və hər bir qrup öz "uşağ"ını təqdim etsin, onun bilik və bacarıqlarını izah etsin. Mümkündürsə, qoyun bu fiqurlar növbəti dərsədək divarda qalsın.

**Məşğələ 2**

1 Uşaqlardan öz fiqurlarını götürüb kiçik qruplarına dönmələrini xahiş edin. Aşağıdakı təlimatları verin:

a) Öz "uşaq fiquru"nuzda təsvir etdiyiniz bilik və bacarıqlar barədə yenidən düşünün. Bu bilik və bacarıqları necə əldə etmisiniz? Hansı yer və ya şəxs, təşkilat və ya vəziyyət bununla bağlı sizə kömək etmişdir? Məsələn, siz toxumağı nənədən, kart oynamağı babadan öyrənmisiniz; qonşu uşaqlardan hər hansı bir oyun öyrənmisiniz və ya məktəbdə ölkənizin tarixi ilə tanış olmusunuz.

b) Bilik və bacarıqlarınızın mənbəyini müəyyən etdikdən sonra onlardan fiqurun kənarına oxlar çəkin və bilik və bacarığın mənbəyini yazın.

2 Bir daha uşaqları bir araya toplayaraq bütün qrupa öz nəticələrini təqdim etmələrini xahiş edin. Bilik qaynaqlarını sadalayın.

**Analiz və qiymətləndirmə**

1 Bu cür sualların köməyi ilə oyunu təhlil edin:

a) Bütün bacardıqlarınızın siyahısını hazırlamaq asan idimi?
b) Kollajlar bir-birindən çox fərqlidir?
c) Kollajda hansısa mühüm bacarıqları unutmamısınız ki?
d) Bilik və bacarıqlar əldə etdiyiniz yerləri həmişə xatırlayırsınızmı?
e) Bütün bunları yalnız bir yerdə və ya yalnız bir nəfərdən öyrənmisiniz?
f) Sizcə, bu bilik və bacarıqları necə öyrəndiyinizi sizdən nə üçün soruşuruq?

2 Aşağıdakı sualların köməyi ilə insan hüquqları ilə əlaqəni göstərin:

a) Necə düşünürsünüz, bütün uşaqlar sadaladıqlarınızii öyrənə bilərmi? Niyə bəli və ya niyə yox?
b) Bu bilik və bacarıqları öyrənmək üçün uşaqlara hansı insanlar və ya təşkilatlar lazımdır?
c) Bəzi insanlar və ya təşkilatlar digərlərindən daha vacibdirmi (məsələn, məktəb bir idman klubundan daha vacibdir)?
d) Əgər hər hansı bir bilik mənbəyi olmasa nə baş verər?
   - Məsələn, məktəb olmasa? Uşaqlar yazmağı və oxumağı necə öyrənər? Onlar bu bilikləri qazanmasa, nə olar? Bu vacibdirmi? Bu onların qalan həyatına necə təsir edəcək?
   - Məsələn, digər uşaqlar - oyun yoldaşları, ailənin başqa üzvləri yoxdursa? Gənclər təşkilatı və klublar yoxdursa?
   - Məsələn, əlilliyi olan uşaq məktəbə, kluba gedə bilmirsə, digər uşaqlarla oynamaq imkanı yoxdursa?
e) Siz bədəninizin müxtəlif hissələrini müxtəlif bilik və bacarıqlarla əlaqələndirmişdiniz. Əlil uşaq bədəninin bu və ya digər əzasından istifadə edə bilmirsə, nə baş verəcək? Öyrənməyin başqa yolları varmı? Əlilliyi olan bir uşaq bacarıqlarını necə inkişaf etdirə bilər?

f) Öyrənmə çətinliyi olan uşaq tanıyırsınızmı? Sizcə, o bunu bacarırmı? Siz ona kömək edirsinizmi?
g) Nə düşünürsüz: niyə uşaqlar bilik almaq və inkişaf etmək hüququna malikdirlər?

**Davam üçün təkliflər**

- Hər kəs görsün deyə kollajları divardan asın.
- «Bağlı gözlərlə» və "Səssiz natiq" oyunları uşaqlara əlilliyin öhdəsindən gəlməyi oyrədir. "Əziz gündəlik" oyunu üç fərqli mövqedən eyni vəziyyətə münasibəti göstərir. Buradakı uşaqlardan biri öyrənmə çətinliyindən, digəri isə xroniki xəstəlikdən əziyyət çəkir.

**Fəaliyyət üçün ideyalar**

- Öyrənmə çətinlikləri olan uşaqlar yaxud bu qrup uşaqların öyrədilməsi istiqamətində işləyən QHT nümayəndələri dəvət edin. Bu çətinliyi və alternativi müzakirə etmək üçün strategiyalar qurun.
- Uşaqlara öyrənmə üslubları barədə məlumat verin. Qeyd edin ki, fərqli intellekt növləri və öyrənmə yolları vardır. Uşaqlardan öz öyrənmə üslublarını və yollarını təyin etmələrini xahiş edin. Onlara çətin gələn şeyləri də qeyd etsinlər. Uşaqlarla birlikdə öyrənmə prosesində bir-birlərinə dəstək strategiyası hazırlayın.

**Aparıcılara tövsiyə**

- Bu oyunu cütlüklərlə də etmək olar.
- "Uşağa" ad verməyi və bu adı, həmçinin kollajı hazırlayan uşaqların adlarını iri vərəqdə yazmağı tapşırın.
- Bəzi uşaqlara, xüsusilə də informal təhsil almışlara, bu və ya digər biliyi harda aldıqlarını xatırlamaq çətin ola bilər. Onlara xatırladın ki, bir-birindən, eləcə də ailə üzvlərindən və digər böyüklərdən çox şey öyrənirlər. Onlara digər uşaqlarla əlaqə qurmağın əhəmiyyətini göstərin. Əlilliyi olan bir uşaq isə bu imkandan məhrum olur. Bizi öyrədənlərin hər birini qeyd etməyə ehtiyac yoxdur. Məqsəd budur ki, uşaqlar bir çox bilik və inkişaf mənbələrinin əhəmiyyətini anlasınlar.
- Vurğulamaq lazımdır ki, hər kəsin öyrənmə hüququ var, lakin hamı eyni şəkildə öyrənə bilmir.

**BİR ADDIM İRƏLİ**

**Biz hamımız bərabərik – lakin bəziləri başqalarından daha bərabərdir.**

| | |
|---|---|
| **Mövzular:** | Diskriminasiya, yoxsulluq və sosial təcrid, ümumi insan hüquqları. |
| **Çətinlik dərəcəsi:** | Səviyyə 2. |
| **Yaş həddi:** | 10-13 yaş |
| **İştirakçıların sayı:** | 10-30 uşaq |
| **Oyunun növü:** | Rollu oyun, imitasiya (təqlid etmə), müzakirə. |
| **Müddəti:** | 60 dəqiqə. |
| **Xülasə:** | Uşaqlar özlərini başqalarının yerində təsəvvür edir və bərabərsizliyi diskriminasiya və təcridin mənbəyi kimi nəzərdən keçirirlər. |
| **Vəzifələr:** | • Bizdən fərqlənən insanların dərdinə şərik olmaq hislərini yaratmaq;<br>• Diqqəti cəmiyyətdə imkanların bərabər olmadığına cəlb etmək;<br>• Milli, etnik, cinsi və s. azlığa mənsubluğun mümkün nəticələrini anlamaq |
| **Hazırlıq:** | • Rol və situasiyaları qrupunuza adaptasiya edin. Hər bir uşaq üçün rol kartları hazırlayın.<br>• Rol vərəqlərinin surətini çıxarın, zolaqlara bölün və elə yerləşdirin ki, mətnlər görünməsin. |
| **Materiallar:** | • Rol kartları;<br>• Situasiyaların siyahısı;<br>• *Əlavə material:* nişan və ya şəkillərin hazırlanması üçün bədii materiallar. |

**Təlimat**

**1.** Oyunun şərtlərini izah edin və uşaqlardan "Nə vaxtsa özlərini başqalarının yerində təsəvvür ediblərmi?", - deyə soruşun. Onlardan nümunələr gətirməyi xahiş edin. İzah edin ki, bu oyunda onlar özlərini tamamilə fərqli insanların yerində təsəvvür edəcəklər.

**2.** Uşaqlara izah edin ki, hamı özünün yeni şəxsiyyətini göstərən kağız zolağını götürəcək. Onlar orada nə yazıldığını sakitcə oxumalı və kim olduğunu heç kəsə

dememəlidirlər. Əgər uşaq götürdüyü rol kartındakı sözün mənasını başa düşməsə, sakitcə əlini qaldırmalı, aparıcının ona yaxınlaşmasını və izah etməsini gözləməlidir.

**3.** Bu yerdə suallara cavab verməyin. Onlara izah edin ki, öz personajları haqqında çox şeyi bilməsələr də, sadəcə təəssüratlardan istifadə etməlidirlər. Uşaqların rolu yaxşı ifa etməsi və rolun real görünməsi üçün onlardan xüsusi bir şey etmələrini xahiş edin. Məsələn:

a) Özünə ad vermək. Özünü kimin yerində təsəvvür etdiyini xatırladan nişan hazırlamaq.

b) Öz şəklini çəkmək.

v) Evin, otağın və küçənin şəklini çəkmək.

q) Özünü başqasının yerində hiss edərək otaq boyu gəzişmək.

**4.** Təsəvvürləri gücləndirmək üçün həzin bir musiqi qoyun, uşaqlardan əyləşməyi, gözlərini yummağı xahiş edin və sualları ucadan oxuyun:

a) Siz harada doğulmusunuz? Siz balaca olanda həyatınız necə idi? Bəs ailəniz necə idi? İndi ailəniz necə dəyişib?

b) Sizin həyatınız bu gün necədir? Harada yaşayırsınız? Hansı məktəbə gedirsiniz?

v) Siz səhərlər nə edirsiniz? Bəs günün ikinci yarısında nə edirsiniz? Axşamlar nə edirsiniz?

q) Hansı oyunları oynamağı sevirsiniz? Kiminlə oynayırsınız?

d) Valideynləriniz hansı işlə məşğul olurlar? Onların aylıq maaşı nə qədərdir? Sizin həyat səviyyəniz yaxşıdırmı?

e) Tətilinizi necə keçirirsiniz? Sevimli ev heyvanınız varmı?

j) Sizi xoşbəxt edən nədir? Nədən çəkinirsiniz?

**5.** Uşaqlardan tam sakitliyə riayət etmələrini, start xəttində olduğu kimi cərgəyə düzülmələrini xahiş edin. Onlar cərgəyə düzüləndən sonra uşaqlarla bağlı baş verə biləcək bəzi situasiyaları təsvir edəcəyinizi izah edin. Əgər onların personajı üçün səslənən mülahizə düzgün olacaqsa, onlar bir addım irəli hərəkət etməlidirlər. Əks halda yerlərindən tərpənməməlidirlər.

**6.** Bir situasiyanı oxuyun. Hər bir mülahizədən sonra uşaqların bir addım irəli hərəkət etmələri üçün fasilə edin. Başqalarının harada qaldığını görmək üçün onlara geriyə baxmağı tapşırın.

**7.** Oyunun sonunda hamını olduğu yerdə əyləşməyə dəvət edin. Hər bir uşaqdan növbə ilə öz rolu haqqında danışmağı xahiş edin. Bundan sonra onlardan oyunun sonunda harada qaldıqlarına baxmalarını xahiş edin.

**8.** Təhlilin başlanmasına qədər rollu oyunu bitirin. Uşaqlardan gözlərini bağlamağı və yenə də özləri olmağı xahiş edin. İzah edin ki, siz 3-ə qədər sayacaqsınız, sonra isə onlar öz adlarını ucadan deməlidirlər. Beləliklə, siz oyunu bitirirsiniz və əmin olursunuz ki, uşaqlar öz rollarından çıxıblar.

**Təhlil və qiymətləndirmə**

**1.** Aşağıdakı sualları verərək oyunu təhlil edin:

a) Bu oyun zamanı nə baş verdi?

b) Öz rolunu oynamaq çətin yoxsa asan idi?

c) Siz rolunu oynadığınız insanı necə təsəvvür edirdiniz? Ona oxşayan kimisə tanıyırsınızmı?

d) Başqa insanın yerində özünüzü necə hiss etdiniz? Ümumiyyətlə, bu şəxs sizə oxşayırdımı? Ona oxşayan kimisə tanıyırsınızmı?

**2.** Belə suallar verərək oyunu diskriminasiya, sosial və iqtisadi bərabərsizliklə əlaqələndirin:

a) İrəli hərəkət etdikdə və ya yerinizdə dayananda sizdə hansı hislər yaranırdı?

b) Siz irəli tez-tez addımladıqca digərlərinin geridə qaldığını hiss edirdinizmi?

v) Sizin təsəvvür etdiyiniz insan irəli hərəkət edirdimi, yoxsa yox? Nə üçün?

q) Siz ədalətsizlik hiss etdinizmi?

d) Bu oyun real həyata bənzəyirmi? Nə üçün?

e) Bizim cəmiyyətdə bəzi insanları başqalarına nisbətən daha imkanlı edən nədir? Məhdud imkanın səbəbi nədir?

**Davamı üçün təklif**

Kiçik yaşlı uşaqların bir çoxuna stereotiplərin nə olduğunu anlatmaq çətindir. Bu ideyaları inkişaf etdirən oyunlarla (məsələn, “Şəkillərlə oyun”, “Arxamdakı kimdir?”, “Dünya yay düşərgəsi” və “Zabderfilio”) öyrənməni dərinləşdirin.

**Fəaliyyət üçün ideyalar**

Kimin daha çox və ya kimin daha az imkanı olduğunu uşaqlarla müzakirə edin. Hamı üçün bərabər imkanlar yaratmaq üçün hansı addımları atmaq lazımdır? Qrupda və ya cəmiyyətdə uşaqların həll edə biləcəyi bərabərsizlik halları varmı?

**Aparıcılara məsləhətlər**

• Öz rol kartlarınızı hazırlayın. Bizim kartlar ancaq nümunədir. Kartlar uşaqlarınızın həyatını nə qədər yaxşı əks etdirərsə, onlar oyunlar vasitəsilə dünyanı bir o qədər yaxşı dərk edərlər.

• Uşaqları pərt etməmək üçün kartlardakı mətnləri dəyişin – kiminsə şəxsi situasiyası kartdakına çox oxşaya bilər.

• Həmçinin aparıcı hər kəsin həyat situasiyasını bilmədiyinə görə bəzi uşaqlar oyun zamanı həyəcanlı ola bilərlər. Ona görə də bu oyun zamanı aparıcı çox həssas olmalıdır. O, özünü qeyri-adi aparan, məşğələ bitdikdən sonra öz rolundan çıxa bilməyən uşaqlara xüsusi diqqət yetirməlidir. Belə halda aparıcı uşaqla təkbətək danışmalıdır.

• Rol aldıqdan sonra uşaqların susmağı çox mühümdür. Həmin insanın həyat şəraitinə uyğun addım atarkən, personajın həyatını təsəvvür edərkən sakitliyə riayət etmək lazımdır. Bununla həm uşağın personaja marağı artır, həm də susmaq rola uyğunlaşmağa və yayınmamağa kömək edir.

• Hər bir uşağın təhlil zamanı fikir söyləmək şansı olmalıdır. Bu oyun güclü emosiyalar yaradır və uşaqlar özlərini və fikirlərini nə qədər yaxşı ifadə edə bilsələr, bu məşğələdən daha çox nəticə çıxararlar. Lazım gələrsə, təhlilə daha çox zaman ayırın.

• Bu oyunu açıq havada və ya böyük bir otaqda keçirmək olar. Sonda qoy uşaqlar öz yerlərində qalsınlar, çünki fərqi görmək və onu insan rolu ilə əlaqələndirmək üçün kiçik yaşlı uşaqlara vizuallıq lazımdır. Lakin təhlil zamanı uşaqların bir-birini eşitməsi üçün onlar dairə yaratmalı və ya otaqda olmalıdırlar.

• Bu oyunun gücü iştirakçılar arasında, xüsusilə də oyunun sonunda partlayış effekti yaratmasıdır. Bu təsiri gücləndirmək üçün uşaqların real həyatını əks etdirən rollar seçin. Rolları elə bölüşdürün ki, yalnız bir neçə nəfər irəli addımlaya bilsin (yəni “hə” cavabı verə bilsin).

• Təhlil və qiymətləndirmə zamanı uşaqların öz həyat personajları haqqında haradan öyrəndiklərini aydınlaşdırın. Öz şəxsi təcrübəsindənmi, yoxsa başqa mənbələrdənmi? Siz əminsinizmi ki, o məlumatların mənbəyi etibarlıdır? Bununla da siz stereotiplərin və yanlış fikirlərin təsirini göstərə bilərsiniz.

• Adətən uşaqlar başqalarının pulunun onlardakından az və ya çox olduğunu bilirlər. Bununla yanaşı, onlar özlərinin imtiyazlı olduğunu heç də həmişə dərk etmirlər. Bu oyun uşaqlara öz həyat perspektivlərini görmək üçün kömək edə bilər.

## PAYLAMA MATERİALI: ROL KARTLARI

*Aparıcı üçün qeyd:* Öz kartlarınızı hazırlayın! Kartlarınız sizin uşaqların həyat təcrübəsini nə qədər yaxşı əks etdirərsə, oyun bir o qədər səmərəli olar. Bu kartlar ancaq nümunə kimi işlədilir.

- Sizin 8 yaşınız var. Siz və iki qardaşınız böyük bağı və hovuzu olan gözəl evdə yaşayırsınız. Sizin atanız şəhərdə bank rəhbəridir. Ananız evin və ailənin qayğısına qalır.
- Sizin 10 yaşınız var. Siz şəhərdən kənarda – fermada şəxsi evdə yaşayırsınız. Sizin atanız fermerdir, ananız isə inəklərə, qazlara, toyuqlara baxır. Sizin üç qardaşınız və bir bacınız var.
- Siz 12 yaşlı qaraçı uşağısınız. Kiçik kəndin kənarında, vanna otağı olmayan balaca bir evdə yaşayırsınız. Sizin 6 qardaş və bacınız var.
- Sizin 11 yaşınız var. Doğulandan uşaq evində yaşayırsınız. Siz valideynlərinizin kim olduğunu bilmirsiniz.
- Sizin 9 yaşınız var və siz ailədə yeganə uşaqsınız. Valideynlərinizlə şəhərdə çoxmənzilli binada yaşayırsınız. Atanız tikinti ustası, ananız isə poçtalyondur. Sizin yaxşı idman qabiliyyətləriniz var.
- Sizin 13 yaşınız var. Siz 6 uşaqdan ən böyüyüsünüz. Atanız çox vaxt evdə olmur – o, yük maşını sürücüsüdür, ananız isə ofisiantdır – axşamlar işləməli olur. Siz uşaqlara baxmalısınız.
- Siz bu şəhərdə doğulmusunuz, lakin valideynləriniz bura Asiyadan gəliblər. Onların çox gözəl restoranı var və siz bacınızla onun üstündəki evdə yaşayırsınız. Məktəbdən sonra ikiniz də restoranda kömək edirsiniz. Sizin 13 yaşınız var.
- Siz yeganə uşaqsınız. Ananızla şəhərdəki mənzildə yaşayırsınız. Sizin ananız zavodda işləyir. Musiqi və rəqs qabiliyyətləriniz var. Sizin 9 yaşınız var.
- Siz əlilsiniz və əlil arabasından istifadə etməlisiniz. Siz şəhərdəki mənzildə valideynlərinizlə və 2 bacınızla yaşayırsınız. Valideynləriniz müəllimdir. 12 yaşınız var.
- Sizin 9 yaşınız və əkiz qardaşınız var. Siz şəhərdəki mənzildə ananızla yaşayırsınız. O, univermaqda işləyir. Sizin atanız həbsxanadadır.
- Valideynləriniz və siz vətəniniz Afrikadakı müharibədən xilas olaraq bu ölkəyə gəlmisiniz. İndi sizin 11 yaşınız var, artıq 3 ildir ki, burada yaşayırsınız. Bura gələndə isə 9 yaşınız var idi. Evinizə nə vaxt qayıdacağınızı bilmirsiniz.

• Siz uşaq olanda valideynləriniz boşanıblar. İndi 12 yaşınız var. Ananız və onun dostu ilə birlikdə yaşayırsınız. İstirahət günlərində atanıza, onun yeni həyat yoldaşına və onların iki balaca uşağına baş çəkirsiniz.

• Sizin 11 yaşınız var. Uşaqlıqdan sizi övladlığa götürən insanlarla yaşayırsınız, çünki, sizin öz valideynləriniz sizə qayğı göstərə bilməyiblər. Sizin valideynləriniz gözəl insanlardır. Başqa 4 nəfər yetim uşaq da sizinlə birlikdə kiçik bir evdə yaşayırlar.

• Sizdə öyrənmə çətinliyi vardır və siz 2 sinif geri qalırsınız. 10 yaşınız var və siz 8 yaşlıların hamısından hündürsünüz. Sizin valideynləriniz işləyir, ona görə də ev tapşırıqlarının yerinə yetirilməsində sizə kömək etməyə vaxtları olmur.

• Sizin 8 yaşınız var, 3 uşaqdan ən kiçiyisiniz. Ailəniz böyük şəhərdəki kiçik bir mənzildə yaşayır. Atanız mexanikdir, lakin indi o, işsizdir, ona görə sizin pulunuz azdır. Əvəzində atanızın sizinlə keçirməyə xeyli vaxtı var.

• Sizin 11 yaşınız var. Siz valideynləriniz, qardaş və bacınızla şəhərdən kənarda, kənddə yaşayırsınız. Valideynlərinizin çörək dükanı var. Hərdən sizə sataşırlar. Çünki siz kifayət qədər köksünüz.

• Siz ölkənizdə ABŞ səfirinin yeganə uşağısınız. Beynəlxalq məktəbdə oxuyursunuz. Enli şüşəli eynək taxırsınız və bir az kəkələyirsiniz. Sizin 11 yaşınız var.

• Sizin 8 yaşınız var. Bacınız, baba və nənəniz ilə birlikdə vilayətdə, kiçik bir şəhərdə yaşayırsınız. Valideynləriniz boşanıblar, ananız şəhərdə katibə işləyir. Atanızı isə nadir hallarda görürsünüz.

• Siz doğulan zaman ananız rəhmətə gedib. Sizin atanız yenidən evlənib, ögey ananız və onun iki qızı ilə yaşayırsınız. Sizin 8 yaşınız var, bacılarınız isə yeniyetmədir. Atanız vəkildir.

• Siz hələ körpə ikən bu ölkəyə köçüb gəlmisiniz. İndi sizin 10 yaşınız var. Bir çox digər mühacirlər sizin atanız işləyən dükanın yaxınlığında, qonşuluqda yaşayırlar. Siz həm keçmiş, həm də yeni vətəninizdə danışılan dillərdə danışırsınız və öz ananız, nənəniz üçün tez-tez tərcümə edirsiniz.

• Sizin astmanız var və xəstəliyə görə, xüsusilə qışda tez-tez məktəb məşğələlərini buraxırsınız. Vaxtınızın çox hissəsini evdə – yataqda televizora baxaraq, internetdə dolaşaraq və kompüterdə oynayaraq keçirirsiniz. Siz tənhasınız, çünki valideynlərinizin hər ikisi işə gedir və evdə tək qalırsınız. Sizin 13 yaşınız var.

• Böyük qardaşınız və siz fizika, riyaziyyat, dillər və başqa bir çox fənlər üzrə çox istedadlısınız. Sizin valideynləriniz universitetdə müəllim işləyirlər. Onlar sizi yarışlara hazırlaşmaq üçün həmişə xüsusi kurslara və tədris düşərgələrinə göndərirlər.

## MÜLAHİZƏLƏR

**Situasiya və hadisələr**

Aşağıdakı situasiyaları ucadan oxuyun. Hər bir situasiyanı oxuduqdan sonra uşaqlara irəli addımlamaq və öz vəziyyətini digər uşaqlarla müqayisə üçün vaxt verin.

**1.** Sizin və ailənizin tələbatlarınızı ödəmək üçün kifayət qədər pulunuz var.

**2.** Sizin telefon və televizoru olan yaxşı mənziliniz var.

**3.** Başqalarından fərqlənən xarici görünüşünüzə və ya məhdud imkanlarınıza görə sizə sataşan və ya sizinlə dostluqdan imtina edənlər yoxdur.

**4.** Sizinlə bağlı qərar qəbul edən zaman ailəniz sizin fikirlərinizlə maraqlanır.

**5.** Siz yaxşı məktəbdə oxuyursunuz, məşğələlərdən sonra idman dərnəklərinə və klublara gedirsiniz.

**6.** Dərsdən sonra siz musiqi və rəsm üzrə əlavə məşğələlərə gedirsiniz.

**7.** Polisin sizi saxlayacağından qorxmursunuz.

**8.** Sizi sevən böyüklərlə yaşayırsınız və onlar sizin maraqlarınızı qəlbən qəbul edirlər.

**9.** Siz heç vaxt özünüzün, valideynlərinizin mənşəyinə, əhatənizə, din və ya mədəniyyətinizə görə diskriminasiyaya məruz qalmamısınız.

**10.** Siz, hətta xəstə olmadıqda belə, davamlı olaraq həkimə, stomatoloqa gedirsiniz.

**11.** Siz ildə bir dəfə ailənizlə məzuniyyətə gedirsiniz.

**12.** Siz öz dostlarınızı evinizdə nahara və ya gecələməyə dəvət edə bilirsiniz.

**13.** Siz böyüyüb hər hansı universitetdə oxuya, istədiyiniz işi və ya xoşladığınız ixtisası seçə bilərsiniz.

**14.** Siz küçədə, məktəbdə və yaşadığınız yerdə rişxəndlərdən qorxmursunuz.

**15.** Televizorda yaxud kinoda adətən sizin kimi yaşayan və görünən insanları göstərirlər.

**16.** Siz və ailəniz ayda bir dəfədən az olmayaraq kinoya, zooparka, muzeyə, təbiət qoynuna və ya başqa maraqlı yerlərə getməyi özünüzə rəva bilirsiniz.

**17.** Sizin valideynləriniz, babanız, nənəniz, hətta ulu baba və nənəniz də bu ölkədə anadan olublar.

**18.** Ehtiyac olan kimi sizə təzə paltarlar və ayaqqabı alırlar.

**19.** Sizin oyun oynamağa çoxlu vaxtınız və oyun üçün dostlarınız var.

**20.** Sizin kompüteriniz və internetdən istifadə imkanınız var.

**21.** Siz hiss edirsiniz ki, sizi bacardığınız işlərə görə qiymətləndirir və bütün qabiliyyətlərinizin inkişafı üçün sizi istiqamətləndirirlər.

**22.** Böyüyəndə sizi xoşbəxt gələcək gözləyir.

**Biri var idı, biri yox idi**

***Məşhur nağıl qəhrəmanlarının rollarını dəyişsəniz, nə baş verər?***

| | |
|---|---|
| **Mövzular:** | Demokratiya, ayrı-seçkilik, gender bərabərliyi |
| **Səviyyə:** | 2-ci səviyyə |
| **Yaş həddi:** | 7-13 yaş |
| **Müddəti:** | 40 dəqiqə |
| **İştirakçıların sayı**: | 5-15 uşaq |
| **Oyunun növü**: | Nağılın nəql olunması, müzakirə |
| **Xülasə:** | Qəhrəmanların cinslərini dəyişməklə tanış bir nağıl və ya hekayənin yenidən nəql edilməsi və bunun əsasında gender stereotiplərinin müzakirəsi. |
| **Məqsəd**: | - Nağıldakı və gündəlik həyatda olan gender rolları və xüsusiyyətlərinə aid olan stereotiplər barədə məlumat vermək.<br>- Ənənəvi və qeyri-ənənəvi gender rollarını müzakirə etmək.<br>- Gender bərabərliyini təşviq etmək. |
| **Hazırlıq**: | Nəqlinə 10 dəqiqədən çox vaxt sərf olunmayan məlum hekayədəki (roman, nağıl, film) qəhrəmanların cinslərini dəyişməklə yenidən yazın. Personajların adlarını və başqa detalları da dəyişin. Ənənəvi şəkildə davranan həm qadın, həm də kişi personajları olan bir hekayə seçin (Aşağıda göstərilən "Zoluşka" nümunəsinə baxın). |
| **Resurslar**: | Flipçart və qələmlər |

**Təlimatlar**

**1.** Uşaqları dairədə rahat oturdun. Onlara bir hekayə nəql edəcəyinizi izah edin. Onlara başa salın ki, hekayəyə diqqətlə qulaq assınlar və hekayədə onlara qeyri-adi təsir bağışlayan məqamı qeyd etsinlər. Dəyişdirilmiş hekayəni uşaqlara oxuyun. Vaxtaşırı dayanın və uşaqlardan soruşun: "Bu hekayədə sizə qeyri-adi təsir bağışlayan məqam varmı?" Əgər bütün uşaqlar cinslərin dəyişildiyini başa düşsələr, onda hekayəni tam danışmağınıza ehtiyac olmayacaq. O zaman nəticələri müzakirə edə bilərsiniz.

**2.** Aşağıdakı sualları verərək hekayəni müzakirə edin:

- Hekayə sizin xoşunuza gəldimi?
- Hekayədə qeyri-adi bir şey var idimi?
- Nə zaman hekayədəki qeyri-adiliyi hiss etdiniz? Hekayədən nümunələr göstərməyi xahiş edin.

**3.** Uşaqlara izah edin ki, gündəlik təcrübə və gözləntilərimizdən fərqli olan şeylər bizə qeyri-adi görünür. Uşaqlardan gündəlik həyatda kişilərin və qadınların tipik xarakterləri və gördükləri tipik işlər haqqında fikirləməyi xahiş edin.

Aşağıdakı cədvəldə onların fikirlərini qeyd edin.

***Cədvəl 1.*** **Stereotip gender rolları**

| | ***Kişilər/Oğlanlar*** | ***Qadınlar/Qızlar*** |
|---|---|---|
| *Adi xüsusiyyətlər* | Hər şeylə maraqlanan, ağıllı, cəsur, hay-küylü, macəra axtaran, aqressiv, ambisiyalı, qısa saç düzümlü. | Nəzakətli, sakit, başqalarına qarşı diqqətli, həssas, utancaq, hər şeylə maraqlanan, intizamlı, don geyirlər, uzun saçlı. |
| *Adi davranışlar* | İdmanı sevirlər, dalaşqandırlar, işə gedirlər, aktivdirlər, yük maşını sürürlər. | Evdə otururlar, ev işləri ilə məşğul olurlar, çox asanlıqla ağlaya bilirlər, qeybətcildirlər, qəşəng geyinməyi sevirlər, böcəklərdən qorxurlar. |

**4.** Bu cədvəli müzakirə edin:

- Bu cədvəli nağılın ilkin versiyası ilə müqayisə edin. Oradakı iştirakçılar öz rollarına və cinslərinə aid tipik xüsusiyyət və davranışlara malikdirlər (Məsələn, Zoluşka evdə oturur, ağlayır, onunla çox pis rəftar edirlər. Şahzadə həyat yoldaşı axtaran zaman ona gözəl paltar verilir. Şahzadə Zoluşkanı axtararkən ağıllı bir plan həyata keçirir).

➢ Uşaqlardan xahiş edin ki, qəhrəmanların özlərini ənənəvi qaydada apardığı və tipik xüsusiyyətlərə malik olduğu digər hekayələri yada salsınlar. Bu hekayələrin adlarını qeyd edin. Niyə bu hekayələri seçdiklərinin səbəbini şagirdlərdən soruşun.

**5.** Bugünkü həyatımızda yaşayan qadınlar və kişilər üçün bu xüsusiyyətlər və hərəkətlər xarakterikdirmi?

Aşağıdakılara uyğun cədvəl qurun və uşaqlardan xahiş edin ki, hekayələrdə və real həyatda müşahidə etdikləri qeyri-adi davranışları qeyd etsinlər.

***Cədvəl 2.*** **Qeyri-stereotip gender rolları**

| | ***Kişilər/Oğlanlar*** | ***Qadınlar/Qızlar*** |
|---|---|---|
| *Qeyri-adi xüsusiyyətlər* | *Hekayədə:* Köməyə ehtiyacları var.<br>*Sizin təcrübənizdən*: | *Hekayədə*: amiranə, ağıllı.<br>*Sizin təcrübənizdən*: |
| *Qeyri-adi davranışlar* | *Hekayədə*: Ağlayırlar, ev işlərini görürlər, qəşəng paltarlar istəyirlər, evdə otururlar.<br>*Sizin təcrübənizdən*: | *Hekayədə*: Həyat yoldaşı axtarmaqda fəaldırlar, bunun üçün yollar axtarırlar.<br>*Sizin təcrübənizdən*: |

6. Aşağıdakı sualları verərək hər iki cədvəli müqayisə və müzakirə edin:

➢ Elə bir hekayə xatırlayırsınızmı ki, oradakı insanların qeyri-adi xüsusiyyətləri və qəribə davranışları olsun? Bu hekayələrin adlarını qeyd edin və şagirdlərdən niyə bu hekayələri seçdiklərinin səbəbini soruşun.

➢ Real həyatda qeyri-tipik xüsusiyyətləri və hərəkətləri olan kişi və qadınları tanıyırsınızmı? Uşaqlardan onların qeyri-adi keyfiyyətlərini və davranışlarını təsvir etmələrini və qeyri-adiliyin nədə təzahür etdiyini izah etməyi xahiş edin.

7. "Stereotip" sözünü izah edin və nümunələr verin.

8. Uşaqlardan xahiş edin ki, tipik xüsusiyyətlər və davranışlar göstərilən cədvələ baxsınlar, bioloji reallığı əks etdirən xüsusiyyət və davranışları təsəvvürlər, baxışlar və stereotiplərin nəticəsi olanlardan ayırsınlar.

9. Qeyd edin ki, bu gün pul qazanmaq, uşaqların tərbiyəsi ilə məşğul olmaq, ev işlərini görmək kişi və qadınların ümumi vəzifələridir.

**Təhlil və qiymətləndirmə**

**1.** Uşaqlar "stereotip" anlayışını dərk etdikdən sonra onlara aşağıdakı suallarla müraciət edin:

➢ Kişi və qadınların özlərinə uyğun gəlməyən davranışları zamanı digər insanların onlara qarşı münasibəti necə olur?

➢ Nə üçün bizim həm kişilərə və oğlanlara, həm də qadınlara və qızlara qarşı stereotiplərimiz ədalətsizlik sayılır.

➢ Gender stereotipləri kişilərlə qadınlar, oğlanlarla qızlar arasında bərabərsizliyi necə yaradır?

**2.** Stereotiplərə qarşı çıxmaq üçün nə edə bilərsiniz?

**3.** Uşaqlardan soruşun ku, insan hüquqları və gender stereotipləri arasındakı əlaqəni görürlərmi? Onlara başa salın ki, hər bir insanın cins və gender diskriminasiyası da daxil olmaqla, diskriminasiyadan qorunmaq hüququ vardır.

**4.** Uşaqlardan bu oyun haqqında nə düşündüklərini soruşun.

**Davam etmək üçün təkliflər**

➢ Uşaqlardan xahiş edin ki, elə bir hekayə axtarıb tapsınlar ki, oradakı qız və oğlanın hüquqları müəyyən dərəcədə bərabər, davranış və xüsusiyyətləri isə qeyri-ənənəvi olsun.

➢ "Oğlanlar ağlamaz!", "Mən nəyi sevirəm və nə edirəm?" oyunlarında da gender stereotipləri və onların təsirləri nəzərdən keçirilir.

**Fəaliyyət üçün ideyalar**

1. Uşaqlardan soruşun: "Bizim bölgəmizdəki insanlar özlərini hamı tərəfindən qəbul olunmuş davranışlara uyğun aparmadıqları halda (kişilər, qadınlar və ya qızlar) diskriminasiyaya məruz qalırlarmı?"

➢ Uşaqlardan xahiş edin ki, gündəlik həyatlarından nümunələr gətirsinlər.

➢ Uşaqlardan xahiş edin ki, diskriminasiyaya qarşı çıxmaq üçün nə edə biləcəklərini söyləsinlər.

**Aparıcıya məsləhətlər**

➢ Bu oyunda sizin məqsədiniz gender bərabərliyini rəğbətləndirmək və həm özlərinin, həm də başqalarının gender rollarına tənqidi münasibət bəsləməkdir.

➢ Ayrı-ayrı ölkələrdə, cəmiyyətlərdə və hətta ailələrdə kişilər və qadınların davranışları müxtəlifdir. Qeyd edin ki, bərabərlik həmişə "eynilik" demək deyildir.

➢ "Təhlil və qiymətləndirmə" bölməsində suallar verərkən həssas olmaq lazımdır, çünki bəzi uşaqlar qeyri-ənənəvi gender davranışlarına malik olan uşaqlarla dost olmaqdan imtina etdirlər. Onlara utanc verə biləcək bir müzakirəyə icazə verməyin.

➢ Kiçik yaşlı uşaqlarla işləyərkən "gender" və ya "gender rolları" kimi terminlərdən istifadə edilməməlidir. Lakin tədqiqatlar göstərir ki, hətta məktəbəqədər yaşlı uşaqlar artıq gender gözləntilərini anlayırlar.

**Adaptasiya**

➢ Böyük qrup üçün: dörd nəfərdən ibarət kiçik qruplar təşkil edin. Hər qrupa cədvəl 1-i verib xahiş edin ki, kişilərin və qadınların tipik hərəkətlərini və keyfiyyətlərini qeyd

edərək öz nəticələrini təqdim etsinlər. Bütün qruplarla ənənəvi və qeyri-ənənəvi davranışları müzakirə edin. Sonra uşaqlardan öz kiçik qruplarına qayıtmalarını, kişilərin və qadınların qeyri-ənənəvi xüsusiyyətlərini və davranışlarını 2-ci cədvəldə qeyd etmələrini xahiş edin. Oyunu müzakirə edərək sona çatdırın.

- Böyük uşaqlar üçün: nağıl əvəzinə bir roman və ya tanış olan bir film seçilir. Müəllim hekayədəki qəhrəmanların cinslərini dəyişərək hekayəni danışmağa başlayır. Yarımçıq qalan hekayəni tamamlamağı uşaqlara tapşırır. Uşaqlar hekayəni yazdıqdan sonra təqdim edir.

## PAYLAMA MATERİALI: OYUN ÜÇÜN MATERİALLAR

### Zoluşka

Biri var idi, biri yox idi, bədbəxt bir **gənc oğlan** var idi. **Atası** vəfat etmişdi. **Anası** evə iki **oğlu** olan bir **dul kişi** gətirmişdi. **Atalığı,** ümumiyyətlə, **oğlanı** sevmirdi. Bütün yaxşı, xoş sözlər və xüsusi imtiyazlar öz **oğulları** üçün idi. Onların qəşəng paltarları, dadlı yeməkləri və xüsusi imtiyazları var idi. Amma yazıq **gənc** üçün heç nə edilmirdi. Ona təzə paltarlar alınmırdı. Ancaq ögey **qardaşlarının** köhnə paltarlarını geyirdi. O, köhnə, artıq qalmış yeməkləri yeyirdi. Ona heç bir güzəşt edilmir və istirahət verilmirdi. Bütün günü ağır işlər görürdü. **Oğlan** yemək bişirməli, paltar yumalı və evi təmiz saxlamalı idi. Ona yalnız axşam düşəndə, mətbəxdə ocağın külünün yanında oturmağa icazə verilirdi.

Axşamlar tək qalarkən ağlayardı və pişik ilə söhbət edərdi. Pişik cavabında miyoldayardı ki, bu da "fikir vermə, səndə **qardaşlarında** olmayan bir gözəllik var".

Pişiyin dedikləri həqiqət idi. O, qaralmış, çirkli üzu ilə, geydiyi cırıq paltarla da cəlbedici görünürdü. Onun **qardaşları** isə eleqant geyinməklərinə baxmayaraq çox eybəcər idilər.

Bir gün evə gözəl paltarlar, ayaqqabılar və zərgərlik məmulatları gətirdilər. Kraliça öz sarayında bal təşkil edəcəkdi. **Qardaşlar** da həmin bala getməyə hazırlaşırdılar. Onlar daim güzgünün qarşısında bəzənirdilər. Bu **oğlan** onlara qəşəng paltarlarını geyinməyə kömək etməli idi. O, soruşmağa cəsarət edə bilmirdi: "Bəs mən bala getməyəcəyəm?" Çünki cavabın nə olduğunu çox yaxşı bilirdi: "Sən? Əziz **oğlum**, sən evdə qalacaq, yemək bişirəcəksən, qabları yuyacaqsan, **qardaşlarının** yatağını düzəldəcəksən, çünki onlar evə çox yorğun və yuxulu gələcəklər".

**Qardaşlar** və **ataları** bala getdikdən sonra yazıq **oğlan** göz yaşlarını silərək pişiyə dedi: "Mən necə də bədbəxtəm!", pişik isə miyoldadı. Bu zaman qəfil bir işıq mətbəxi işıqlandırdı və sehrbaz peyda oldu. Sehrbaz dedi: "Qorxma, **oğlan,** sənin bütün əziyyət və ahlarını külək mənə çatdırıb. Mən bilirəm, sən bala getmək istəyirsən. Sən mütləq gedəcəksən". **Oğlan** dedi: "Mən bu köhnə geyimlə necə gedə bilərəm? Gözətçilər məni

qovarlar?” Sehrbaz gülümsədi. O, öz sehrli çubuğunu ehmalca oğlana vurdu. Oğlan gördü ki, onun əynində çox gözəl geyim var.

Sehrbaz dedi: "Paltarla problemi həll etdik", indi sənin üçün kareta lazımdır. Həqiqi centlmen heç vaxt bala piyada getməz! Tez ol, mənə bir balqabaq gətir!

“Hə, əlbəttə”, - deyib **oğlan** balqabağı gətirməyə getdi.

Sonra sehrbaz pişiyə dedi: "Sən isə mənə yeddi siçan gətir!"

Tezliklə **oğlan** bir balqabaq, pişik isə yeddi siçan tutub gətirdi. "Yaxşı!", - deyə sehrbaz söylədi. Sehrli çubuq bir toxunuşla möcüzələr yaratdı. Balqabaq parlaq bir karetaya, siçanların altısı ağ ata, yeddinci siçan isə kareta sürənə çevrildi. **Oğlan** gözlərinə inanmadı.

"Mən səni saray əhlinə təqdim edəcəyəm. **Şahzadə qız** sənin gözəl görünüşünə heyran olacaq. Ancaq unutma! Gecə yarısı balı tərk edib evə qayıtmalısan. Çünki bu anda sehr sona çatacaq. Kareta yenidən balqabağa, atlar və kareta sürən də siçana çevriləcək. Əynindəki paltarlar əvvəlki köhnə paltarlara, ayaqqabın isə taxta başmaqlara çevriləcək. Anladın?

**Oğlan** gülümsədi və dedi: "Bəli, başa düşdüm!"

Gənc **oğlan** sarayın rəqs salonuna girəndə sükut çökdü. Oradakı insanlar onun zərifliyini, gözəlliyini seyr etmək üçün söhbətlərini yarımçıq dayandırdılar.

"Bu kim ola bilər?", – deyə, insanlar bir-birindən soruşdular. İki **qardaş** da bu qəribin kim olduğunu bilmək istəyirdi. Amma heç vaxt ağıllarına gəlməzdi ki, bu gənc **oğlan** onların pişiklə söhbətləşən ögey **qardaşları** ola bilər. **Oğlanın** gözəlliyi **şahzadə qızı** da cəlb etdi. Ona yaxınlaşaraq, rəqs etməyə dəvət etdi. Bütün digər pərəstişkarlarının qısqanclığına baxmayaraq **şahzadə qız** bütün gecəni gənc **oğlanla** rəqs etdi.

"Sən kimsən, gözəl **oğlan**?", - deyərək maraqlandı.

**Oğlan** cavab verdi: "Sizin üçün nə fərqi var ki, mən kiməm? Axı siz məni bir daha görməyəcəksiniz”.

"Mən sizi bir daha görəcəyimə əminəm!", - deyə **şahzadə qız** cavab verdi.

**Oğlan** balda çox gözəl vaxt keçirtdi. Ancaq birdən saatın zəngini eşitdi: gecəyarısı olduğunu bildirən ilk zəng vuruldu! Sehrbazın ona söylədiklərini xatırladı, **şahzadə qız** ilə sağollaşmadan pilləkənlərlə aşağı düşməyə başladı. O, qaçarkən ayaqqabısının bir tayı ayağından çıxdı. **Oğlan** ayaqqabını götürmək üçün dayanmadı. Fikirləşdi ki, gecəyarısının sonuncu zəngi vurularsa, fəlakət olacaq! O, saraydan qaçdı və qaranlıqda gözdən itdi.

Ona dəlicəsinə vurulmuş **şahzadə qız** ayaqqabını yerdən götürdü. O, bildirdi ki, ayaqqabı hansı **oğlanın** ayağına uyğun gələrsə, onunla evlənəcək. Şahzadə qız nazir

xanımlara dedi: "Gedin, hər yerə baxın, bu ayaqqabının sahibini tapın. Mən onu tapana qədər sakitləşməyəcəyəm!" Odur ki, nazir xanımlar çalışdılar ki, bu ayaqqabını bütün cavanların ayağına geyindirsinlər.

**Nazir qadınlardan** biri kasıb **oğlanın** yaşadığı evə gəldi. Nazir xanım soruşdu: "Bu ayaqqabını evdəki bütün cavan **oğlanların** ayağına geyindirə bilərəmmi?" İki **qardaş** heç barmaqlarını ayaqqabının içinə sala bilmədilər. **Nazir qadın** evdə digər gənclərin olub-olmadığını soruşduqda, ögey **ata** cavab verdi: "Heç kim yoxdur". Ancaq bu zaman **nazir xanımın** diqqətini onun paltarını çəkərək mətbəxə doğru dartan pişik cəlb etdi.

Ocağın yanında yoxsul bir **gənc** oturmuşdu. **Qadın nazir** ayaqqabını ona geyindirdi. Ayaqqabı onun ayağına tamamilə uyğun gəldi. **Qadın** təəccübləndi.

**Atalığı** dedi: "Bu pinti **oğlan** bala gedə bilməzdi. Şahzadəyə deyin ki, o mənim **oğlanlarımdan** birinə ərə gəlməlidir. Siz görmürsüz ki, bu oğlan necə eybəcər və çirkindir?"

Birdən onun nitqi tutuldu - sehrbaz meydana çıxdı.

"Yetər!", - deyə sehrli çubuğunu qaldırdı. Bir azdan gəncliyi və gözəlliyi ilə işıq saçan bir **oğlan** göründü. Onun ögey **atası** və **qardaşları** təəccüblə ona baxırdılar. **Nazir xanım** dedi: "Gedək mənimlə, gözəl **oğlan**!" **Şahzadə qız** səni gözləyir ki, nişanlanmağınız şərəfinə sənə bir üzük bağışlasın!" Gənc **oğlan** sevinərək onunla birlikdə getdi. Bir neçə gün sonra **şahzadə qız** onunla evləndi və gənclər sonadək bir yerdə xoşbəxt yaşadılar.

Pişik isə sadəcə miyoldadı.

**Mənbə:**

**Zoluşka haqqında nağıl:** www.ucalgary.ca/~dkbrown/cinderella.html

# BİSKVİT BƏDHEYBƏT

Mənə ver, mənə ver, mənə ver!

**Mövzu:** Sülh və insan təhlükəsizliyi, yoxsulluq və sosial təcrid

**Çətinlik səviyyəsi**: 2-ci səviyyə

**Vaxt:** 40-60 dəqiqə

**İştirakşı sayı:** 6-12 uşaq

**Yaş həddi:** 8-13 yaş

**Oyun növü:** qruplar arasında danışıqların aparılması və müzakirə

**Şərh:** Qruplar şirniyyatın bölünməsi barədə aralarında danışıqlar aparırlar

**Məqsədlər:**

- Dünyada danışıqlar aparma prosesi haqqında öyrənmək
- "Hüqüqların bərabərliyi" problemini müzakirə etmək
- Yoxsulluq problemini nəzərdən keçirmək

**Hazırlıq:**

- Aşağıda göstərilən paylama materialları çap edin və ya lövhəyə köçürün.
- Şirniyyat hazırlayın.

**Materiallar:**

- Ən azı 40 növ şirniyyat (məsələn, peçenye, kişmiş, qoz)
- Paylama materiallarının surətləri

**Təlimat**

1. Uşaqları iki qrupa bölün və hər qrupa qaydaların surətini və 20 növ şirniyyat verin.

2. Qaydaları izah edin və əmin olun ki, uşaqlara aydındır, əsasən də bu qayda ki, əgər qruplar razılaşa bilməsə, bütün şirniyyat müəllimə qaytarılmalıdır.

a. Oyun zamanı şirniyyatın iki komanda arasında necə bölünməsi haqqında qərar qəbul etmək lazımdır. Hər komandanın 20 porsiya şirniyyatı var. Üç raund keçiriləcək. Hər komanda sıra ilə hər üc raundda iştirak edəcək.

b. Hər raundda şirniyyatı öz qrup üzvləri arasında və digər komanda ilə necə bölməli olduqları izah olunacaq. Birinci komanda digərinə şirniyyatı bölmək üsulu təklif edir. İkinci komanda isə razılaşıb-razılaşmaya bilər. Əgər komanda qəbul edirsə, şirniyyat təklif olunan üsulla bölünür. Əgər qəbul etməzsə, komanda ikinci üsul

təklif edər. Əgər yenə də komanda razılaşmazsa, bu dəfə şirniyyat müəllimə qaytarılır və komandalar şirniyyatsız qalır.

1) Məsələn ,A komandasına 10 porsiya şirniyyat bölmək təklif olunub və A komandası 8 porsiyanı özünə, 2 porsiyanı isə B komandasına vermək istəyir. B komandası razılaşmır və A komandasına ikinci şans verilir və komanda yarıya bölmək qərarına gəlir. B komandası razılaşır və hər komanda 5 porsiya şirniyyat alır.

2) Digər tərəfdən, əgər növbəti dəfə A komandası 7 porsiya özünə, B komandasına isə 3 porsiya verməyi təkləf etdikdə, B komandası imtina etsə, 10 porsiya şirniyyat müəllimə veriləcək.

c. Birinci komanda öz təkliflərini irəli sürdükdən sonra, ikinci komanda eyni qaydada şirniyyatı necə bölməyi təklif edir.

d. İkinci raund birinci kimi kecir. Bu zaman komandalara şirniyyat bölgüsü ilə bağlı yeni təlimat verilir.

3. Nəticələri lövhədə qeyd edin. Raundların sonunda hər komandanın neçə porsiya aldığını qeyd edin.

| | A komandası | B komandası | Müəllim |
|---|---|---|---|
| 1-ci raund | 5 | 5 | |
| 2-ci raund | 0 | 0 | 13 |
| 3-cü raund | 8 | 8 | |
| Ümumi | 13 | 13 | 13 |

4. Şirniyyatla nə etmək olduğunu uşaqlara izah edin:

a. Uşaqlar oyunda aldıqları şirniyyatı təhlildən sonra yeyə bilər.

b. Şirniyyatı qırıb hissələrə bölmək olmaz.

c. Oyun zamanı yeyilən şirniyyat yenisi ilə əvəz olunmur.

d. Bir daha vurğulayın ki, komandalar razılığa gəlmədikləri halda, şirniyyat müəllimə qaytarılır.

**Təhlil və qiymətləndirmə**

1. Fikri yayındırmamaq məqsədi ilə şırnıyyatı yığın və onları oyunun sonunda yeməyə icazə verdiyinizi izah edin.

2. Suallar verərək, oyunu müzakirə edin:

a. Oyun zamanı nə baş verdi?

b. Oyun zamanı özünüzü necə hiss edirdiniz? Nələr sizi həyəcanlandırdı və nələr məyus etdi?

c. Sizin strategiyanız var idimi?

d. Kİmsə danışıqlar apardımı? Danışıqlar uğurla nəticələndimi?

e. Əgər bir daha bu oyunu oynasanız, öz addımlarınızda nəyisə dəyişərdinizmi?

f. Sizcə,alınan nəticə ədalətli oldumu?

3. Oyunun alt mənasını müzakirə edin:

a. Siz digər komandanın ədalətli bölgü aparmağına inanırdınızmı? Niyə?

b. "Ədalətli"deyəndə siz nəyi nəzərdə tutursunuz? "Bölmək" nə deməkdir?

c. "Etibar" və "bölgü" sözləri arasında ümumi nə var? (birgə istifadə edilən)

d. Hansı həyati situasiyanı misal cəkə bilərsiniz ki, orada uşaqlar paylaşmalıdır? Ədalətli bölmək vacibdirmi? Ədalətli bölgü olmasa, nə baş verir?

e. Hansı həyati situasiyanı misal cəkə bilərsiniz ki, orada böyüklər paylaşmalıdır? Böyüklər ədalətsiz paylaşarsa, nə baş verər?

f. Ədalətsizcəsinə az pay alan insanlar haqqında həyatdan misal gətirə bilərsinizmi?

g. Gündəlik həyatda nə edə bilərik ki, hər kəs payına düşəni ədalətlə alsın?

4. Oyunu insan hüquqları ilə əlaqələndirin:

a. Hər bir insana layiqli həyat yaşamaq və stabil həyat tərzi üçün nələr lazımdır?

b. Bunlar olmadıqda insanın həyatında nələr baş verir? (məsələn, yemək qıtlığı, evsizlik, təhsil, ailə olmadıqda)

c. İnsan hüquqları və lazımi əşyalardan "ədalətli pay" arasındakı əlaqəni görə bilirsinizmi?

**Davam etmək üçün təkliflər**

- "Görünməzlər gəlir" və "Qəsri fəth et" oyunları da birgə ümumi "düşmənə" qarşı çıxmağı əhatə edir.
- "Yeni torpaqlara səyahət", "Hüquqlarımın kainatı" oyunları arzu edilən və ehtiyac olanlar arasında fərq qoyur.

**İdeyalar**

- Birgə istifadənin qrupda, evdə və cəmiyyətdə necə daha ədalətli etmək barədə düşünməyi və misal gətirməyi xahiş edin.
- Ədalətli ticarət aparan yerli və ya milli qeyri-hökümət təşkilatlarına müraciət edin. Öz fəaliyyətləri barədə məlumat verməkləri üçün onları sinfinizə dəvət edin. Bu QHT-ləri dəstəkləmək üçün tədbirlər keçirin.

**Müəllim üçün məsləhətlər**

- İnsan hüquqları və insanın ehtiyacları arasındakı əlaqə insan hüquqları sahəsində təhsilin əsasıdır. Əgər bu termin hələ də formalaşmayıbsa, bu oyundan öncə "Yeni torpaqlara səyahət" oyununu kecirməyinizi təklif edirik.
- Bu oyunu ikinci dəfədə keçirə bilərsiniz. O zaman uşaqlara maraqlı olsun deyə fərqli şirniyyat təklif edin.
- Bu oyunu eyni zamanda bir necə qrup oynaya bilər. Ancaq yaddan cıxarmayın ki, bir qrupun addımlarını o biri qrup təkrarlaya bilər. Birgə işi rəğbətləndirmək üçün hər raundun sonunda xalları lövhədə qeyd edin ki, qruplar bölgünün necə aparıldığından agah olsun.

| | Komanda 1, A qrupu | Komanda 1, B qrupu | Komanda 1, Müəllim | Komanda 2, A qrupu | Komanda 2, B qrupu | Komanda 2, Müəllim |
|---|---|---|---|---|---|---|
| 1-ci raund | 6 | 5 | 0 | 6 | 5 | 0 |
| 2-ci raund | 0 | 0 | 13 | 6 | 7 | 0 |
| 3-cü raund | 8 | 8 | 0 | 8 | 8 | 0 |
| **Ümumi** | **14** | **13** | **13** | **20** | **20** | **0** |

- Əgər uşaqlar oyundan sonra şirniyyatı aralarında bölmək istəsələr, mane olmayın.

**Uyğunlaşma**

- Oyunu nisbətən asanlaşdırmaq üçün porsiyaların sayını tək edin. Amma bu strategiya sizin qrup üçün çətindirsə, hər iki komanda üçün şirniyyat porsiyalarının sayını çüt rəqəm edin.
- Oyunu çətinləşdirmək üçün qayda  əlavə edin ki, A komandasının pozisiyası güclənsin.

  Əgər B komandası təklifi rədd edərsə, B komandası heç nəsiz qalar, amma A komandasına 3 porsiya şirniyyat qalacaq.
- Oyunun insan hüquqları ilə  əlaqəsini gücləndirmək istəyirsinizsə, əgər bir necə aparıcınız varsa, uşaqları kiçik qruplara da bölə bilərsiniz. Qrup nə qədər kiçik olsa, müzakirə bir o qədər dərin olacaq. Sonda qrupları nəticə cıxarmaq üçün  yığın və düşünmək  üçün 30 dəqiqə vaxt verin.

## PAYLAMA MATERİALI: TƏLİMAT KATRTLARI

### A qrupu

- Sizin qrupun 20 porsiya şirniyyatı var. Bunları öz aranızda və digər komanda ilə bölməlisiniz.
- Oyun 3 raund davam edəcək.
- Hər raundda  aşağıdakı cədvələ uyğun şirniyyat porsiyanız olacaq.

| **1-ci raund** | **2-ci raund** | **3-cü raund** |
|---|---|---|
| 6 posiya | 3 porsiya | 11 porsiya |

Bu şirniyyatları qorumaq üçün siz bunları digər B komandası  ilə bölməlisiniz. Hər raundda siz iki variant təklif edə bilərsiniz. Əgər B komandası təkliflərdən birini

qəbul edirsə, şirniyyatlar iki komanda arasında bölünür. Əgər təklifləri rədd etsə, şirniyyatlar müəllimə qaytarılır və hər iki komanda şirniyyatsız qalır.

**Misal**

- 1-ci raund: 6 porsiyanı bölməlisiniz.
- Siz təklif etdiniz ki, 2 porsiyanı B komandasına verəsiniz, qalan 4 isə sizin olsun.
- Əgər B komandası deyirsə: "Bəli,razıyıq", o, 2 porsiya şirniyyat alır, siz isə 4.
- Əgər B komandası deyirsə: "Yox, razı deyilik", siz ikinci təklifi irəli sürürsünüz. Bu təklif birinci kimi də ola bilər, fərqli də ola bilər.
- Əgər B komandası ikinci təklifinizi qəbul edirsə, şirniyyatlar təklif etdiyiniz kimi bölünür.
- Əgər B komandası ikinci təklifinizi də rədd edirsə, hər iki komanda şirniyyatsız qalır və bütün şirniyyat müəllimə qaytarılır.

**B qrupu**

- Sizin qrupun 20 porsiya şirniyyatı var. Bunları öz aranızda və digər komanda ilə bölməlisiniz.
- Oyun 3 raund davam edəcək.
- Hər raundda  aşağıdakı cədvələ uyğun şirniyyat porsiyanız olacaq.

| **1-ci raund** | **2-ci raund** | **3-cü raund** |
|---|---|---|

| | | |
|---|---|---|
| 5 porsiya | 10 porsiya | 5 porsiya |

Bu şirniyyatları qorumaq üçün siz bunları digər B komandası  ilə bölməlisiniz. Hər raundda siz iki variant təklif edə bilərsiniz. Əgər B komandası təkliflərdən birini qəbul edirsə, şirniyyat iki komanda arasında bölünür. Əgər təklifləri rədd etsə, şirniyyat müəllimə qaytarılır və hər iki komanda şirniyyatsız qalır.

**Misal**

- 1-ci raund: 5porsiyanı bölməlisiniz.
- Siz təklif etdiniz ki, 2 porsiyanı B komandasına verəsiniz, qalan 3 isə sizin olsun.
- Əgər B komandası deyirsə: "Bəli, razıyıq", o, 2 porsiya şirniyyat alır, siz isə 3.
- Əgər B komandası deyirsə: "Yox, razı deyilik", siz ikinci təklifi irəli sürürsünüz. Bu təklif birinci kimi də ola bilər, fərqli də ola bilər.
- Əgər B komandası ikinci təklifinizi qəbul edirsə, şirniyyatlar təklif etdiyiniz kimi bölünür.
- Əgər B komandası ikinci təklifinizi də rədd edirsə, hər iki komanda şirniyyatsız qalır və bütün şirniyyat müəllimə qaytarılır.

## Biz ailəyik

| | |
|---|---|
| **Mövzu** | Ayrı-seçkilik, ailə, gender |
| **Çətinlik dərəcəsi** | 2-ci dərəcə |
| **Yaş həddi** | 8-10 yaş |
| **Tələb olunan vaxt** | 60 dəqiqəlik məşğələ |
| **İştirakçı sayı** | 8 – 30 uşaq |
| **Oyunun növü** | Rəsm çəkmək, müzakirə |
| **Xülasə** | Uşaqlar ailə anlayışını, ailə strukturlarını fotoşəkillər və rəsmlər vasitəsilə müzakirə edirlər. |
| **Vəzifələr** | - Fərqliliklərə münasibətdə müxtəlifliyə və tolerantlığa dəstək vermək<br>- Müxtəlif tərbiyə yolları haqqında düşünmək üçün uşaqlara imkan vermək, ailə tərifini nəzərdən keçirmək<br>- "Qeyri-adi" ailə tərkibli uşaqlara qarşı ayrı-seçkiliyi nəzərdən keçirmək<br>- Ailə və insan hüquqları arasında əlaqəni araşdırmaq |
| **Hazırlıq** | - İllüstrasiyalar dəsti hazırlayın: kiçik qruplara müxtəlif ailə sxemlərini (məsələn, tək ana və ya tək ata, klassik ailə, qarışıq ailələr, övladlığa götürülmüş uşaqlar, bir neçə nəslin daxil olduğu böyük ailələr) təqdim edən fotoşəkillər paylayın. |
| **Materiallar** | - Hər kiçik qrup üçün bütün fotoşəkillərin surətləri |

### Təlimat

1. Oyunun şərtlərini izah edin: qeyd edin ki, şagirdlər oyunda ailə adlandırdığımız məfhumu - insanların bir yerdə yaşamağının müxtəlif yollarını - nəzərdən keçirməlidir. Qeyd edin ki, bütün uşaqlar eyni tipli ailələrdə yaşamır.
2. Hər bir uşaqdan öz ailəsinin rəsmini çəkməyi xahiş edin (yaşamaq istədiyi ailənin deyil, reallıqda yaşadığı ailənin). Onlar istəsələr, ailə haqqında əlavə məlumat verə bilərlər (məsələn, hər bir şəxsin adı, yaşı, cinsi).

3. Uşaqlardan bildikləri digər ailə tiplərini müzakirə etməyi xahiş edin. Onlar öz ailələri haqqında təsvirləri təqdim etsinlər.
4. Birlikdə fikirləşib mümkün qədər çox ailə tipinin siyahısını çıxarın. Siyahıya yenilərini əlavə edin.
5. Uşaqları 4 və ya 5 nəfərlik kiçik qruplara ayırın və hər bir qrupa hazır şəkilləri və fotoşəkilləri əvvəlcədən verin. Qruplardan hər bir ailənin əsas fərqini və ya "qeyri-adiliyi"ni müzakirə etməyi xahiş edın. Qruplar öz ailə şəkillərini müzakirə etsinlər və onlara verdiyiniz fotoşəkillərlə müqayisədə oxşar və fərqliliklər barədə danışsınlar.

**Analiz və qiymətləndirmə**

Bu sualların köməyi ilə oyunu təhlil edin:

a) Oyun zamanı nə baş verdi?
b) Bir ailənin şəklini çəkmək və ya təqdim etmək asan oldumu?
c) Digər uşaqların rəsmləri sizi təəccübləndirdimi? Niyə?
d) Kiminsə ailə fotoşəkilləri sizi təəccübləndirdimi? Niyə?
e) Ailələr haqqında nə öyrəndiniz?
f) Necə düşünürsüz,uşaq öz ailəsinin başqalarından fərqli olduğunu görəndə nə hiss keçirir?
g) Bu uşaqları necə dəstəkləyə bilərsiniz?

2. Aşağıdakı sualları verərək oyunu insan hüqüqları ilə əlaqələndirin:

a) Bütün uşaqlar ailədə yaşamaq hüququna malikdirlərmi?
b) Ailədə yaşamaq vacibdirmi? Niyə “hə” və ya niyə “yox”?
c) Hansı uşaqlar ailədə yaşamırlar? Onlar harada yaşayırlar?
d) Bu cür uşaqların hüquqlarını kim qoruyur?
e) Siz belə uşaqlar tanıyırsınızmı? Bu cür uşaqlara necə kömək edə bilərsiniz?

**Davam üçün təkliflər**

- "Kim qərar verməlidir?" oyunu ailənin necə yaşadığını və birlikdə verdiyi qərarları araşdırır.

- Bəzi oyunlar stereotip gözləntilərə aiddir: "Şəkillərlə oyunlar", "Arxamda kim var?", "Dünya yaz düşərgəsi".

**Fəaliyyət üçün fikirlər**

- Siniflə məsləhətləşib yerli uşaq evlərinə və ya internat məktəblərinə ziyarət təşkil edin.
- Bəzi yerlərdə belə təşəbbüslər vardır: "Nənəni/babanı qızlığa/oğulluğa qəbul et" və ya "Atanı/ananı oğulluğa/qızlığa qəbul et". Sizin sinfin şagirdləri də bu təşəbbüslərə qoşula bilər.
- Bəzi uşaqlar özləri yerli məktəblərdə və ya icmada "Oğulluğa/qızlığa qardaş/bacı qəbul et" təşəbbüsünü irəli sürə bilər.

**Aparıcılara tövsiyə**

- Əmin olun ki, bəzi uşaqların qeyri-adi və ya başqalarından fərqli ailə tipləri digər uşaqlarda qıcıq yaratmasın və bu informasiya sakit qarşılansın. Oyun zamanı ailə ilə əlaqəli olan hissləri və dəyərləri vurğulayın, səbrli, tolerant olmağı aşılayın.
- Sizin qrupunuzdakı uşaqların ailə vəziyyətlərini bilmək və oyunu uyğunlaşdırmaq vacibdir ki, uşaqlar öz situasiyaları barədə xəcalət çəkməsinlər və utanmasınlar.
- Bu oyundan əvvəl "Ailə və ya alternativ qayğı" haqqında məlumat əldə edin. Siz müxtəlif ailə və ailə strukturları haqqında da anlayışlar tapa bilərsiniz.

**Uyğunlaşma**

Bu oyunu qısaltmaq üçün əlavə ailə fotoşəkillərindən istifadə etməyə bilərsiniz. Uşaqları kiçik qruplara bölərək, onların çəkdikləri ailə şəkillərini müzakirə etməyi xahiş edin. Lakin qrupda təmsil olunan digər ailə tiplərini də müzakirə etmək və ya onlara istinad etmək vacibdir.

**DÖYÜŞƏ HAZIRLIQ**

**Hüquqlarını yarımçıq bilmək onları heç bilməməkdən yaxşıdır**

| | |
|---|---|
| **Mövzular:** | İnsanın ümumi hüquqları |
| **Mürəkkəblik səviyyəsi:** | Səviyyə 2. |
| **Yaş həddi:** | 8-13 yaş. |
| **Müddəti:** | 60 dəqiqə (böyük qruplar üçün daha az) |
| **İştirakçıların sayı:** | 10 uşaq və 3 aparıcı. |
| **Oyunun növü:** | Açıq havada fəal qrup oyunu. |
| **İcmal:** | Uşaqlar itmiş hüquqlarının yarısını tapmağa çalışırlar. |
| **Tapşırıqlar:** | Qrup dinamikasını dəstəkləmək. |
| **Hazırlıq:** | İnsan hüquqlarının müzakirəsinə imkan vermək. |

Oyunun mənasını başa düşmək üçün təlimatı və rol kartlarını diqqətlə oxuyun. Bu, bütün oyunçular üçün mürəkkəb rollu oyundur. Bir neçə aparıcı tələb edilir: 10 oyunçuya minimum 3 aparıcı (1 koordinator, mərkəzi posta 1 nəfər və 1 ovçu) və 2 nəfər ehtiyat oyunçu lazımdır.

Oyunda iştirak edəcək aparıcı və uşaqların rol kartlarının surətini çıxardın.

Aparıcı və oyunçuları təlimatlandırın.

10-15 nəfərdən ibarət qrup üçün ümumilikdə cəmi 50 kart olmaqla, rəngli kağızlarda hüquqlar yazılmış 10 ədəd kartın surətini çıxarın. Hər 5 əlavə uşağa başqa rəng verin (məsələn, 25 uşağa 7 rəngdən ibarət 70 kart lazımdır).

- Ayrı-ayrı hüquqlar yazılmış kartları kəsin.
- Hüquqlar yazılmış kartları tən ortadan kəsin.
- Kartların yarısını 2 hissəyə bölün.
- Bir hissəni mərkəzi posta verin, digər hissəni isə kartlı adamlar arasında bölüşdürün.
- Oyun yerini yoxlayın və oyun meydançasının sərhədlərini təyin edin. Mərkəzi postun və oyunçuların yerini göstərin.

**Materiallar**

- 50-70 ədəd müxtəlif rəngli ortadan iki hissəyə kəsilmiş zolaqlar hazırlamaq.
- Qayçı.
- Kartların birləşdirilməsi üçün yapışdırıcı.
- Bütün kartların göstərilməsi üçün dəftərxana sancağı və ya yapışdırıcı.

- “Ov mövsümü”nün başlanması və oyunun bitməsi siqnalını vermək üçün fit və ya buna bənzər başqa bir alət.
- Ovçular üçün şlyapa və ya digər fərqləndirici bir geyim.
- Tövsiyə olunanlar: apteçka (dərman qutusu), su.

**Təlimat**

1. Mərkəzi postun uşaqlarını toplayın və oyunun şərtlərini onlara izah edin: döyüşə hazırlıq elan edilmiş və onlardan ölçü götürmək tələb edilmişdir. Məlum olur ki, uşaqların 10 hüququ həmişəlik yox olub. Lakin itmiş hüquqların parçalarını xilas etmək mümkün olmuşdur. Onların məqsədi itmiş parçaları tapmaq və hüquqları tam olaraq bərpa etməkdir. Əgər onlar kartları müəyyən edilmiş zaman ərzində toplaya bilsələr, ovçulara qalib gələcəklər.

2. Oyunun davametmə müddətini müəyyən edin (kiçik qruplar üçün - 30 dəqiqə; 20 və ya daha çox uşaq olan qrup üçün isə 20 dəqiqə). Oyunun sərhədlərini göstərin, onun başlamağını və ya bitməyini bildirən səs siqnalı haqqında onları məlumatlandırın. İzah edin ki, siz oyunda iştirak etməyəcək, ancaq kənardan uşaqların təhlükəsizliyini və oyuna riayət qaydalarını təmin edəcəksiniz.

3. Aparıcı mərkəzdə dayanır, kartların yarısını uşaqların hər birinə paylayır və qalanını özündə saxlayır. Uşaqlara izah edin ki, oyunun məqsədi tam hüquqlar olan kartları tamamlamaq üçün kartların digər yarısını tapmaqdır. Kartların yarısı onların rənginə və hüquqların nömrəsinə uyğun olmalıdır.

4. Uşaqlar kartların hər iki yarısını mərkəzi nöqtəyə gətirməlidirlər.

5. Mərkəzi nöqtənin rolunu uşaqlara izah edin:

a) Oyun mərkəzi nöqtədən başlayır və bitir.

b) Hüquqlar yazılmış kartların hər iki yarısını mərkəzi nöqtəyə gətirin.

v) Sizə başqa kart təklif edəcəklər.

6. Uşaqlara “kartlı adamlar”ın rolunu izah edin;

a) “Kartlı adamlar”da itmiş kartların yarısı tapılacaq.

b) Onlar oyun meydançasının müxtəlif yerlərində, oyunçuların onları tapa biləcəkləri hissələrdə olacaqlar. Kartı olanların çox hissəsi bir yerdə dayanacaq, ən azı biri isə gəzəcək.

v) “Kartlı adam”a yaxınlaşın və ona öz kartınızın yarısını göstərin. Əgər onda bu kartın ikinci yarısı varsa, onu sizə verəcək. Bütün kartları mərkəzə gətirin, digər hissəni götürün və yenidən başlayın.

q) Əgər kartı olan adamda kartların ikinci yarısı yoxdursa, siz başqasına yaxınlaşmalısınız.

d) Ov mövsümü zamanı yeganə təhlükəsiz yer kartlı adamdan əl çatacaq qədər məsafədə dayanmaqdır. İndi kartlı adamlar çıxacaqlar və öz mövqelərini tutacaqlar.

7. Uşaqlara ovçuların rolunu və "ov mövsümü" sistemini izah edin:

a) Ov mövsümü zamanı ovçular sizi tutmağa və hüquqlarınızı əlinizdən almağa cəhd göstərəcəklər.

b) Ovçular sizi tutan zaman sizin kartınızı alıb iki hissəyə böləcəklər. Onlar cırılmış hissənin birini sizə verəcək, digər hissəsini isə kartlı adamlara verəcəklər. Bu o deməkdir ki, kartlar daha kiçik hissələrə bölündüyü üçün onları bütünlüklə toplamaq hər dəfə daha da çətinləşir.

v) Bir dəfə çalınan fit səsini eşitdiyiniz zaman ov mövsümü başlayır. Mövsüm bitdikdə isə iki dəfə fit çalınacaq.

q) Yadda saxlayın: ovçuların sizi tuta bilməyəcəyi yeganə yer – kartlı adamdan uzanmış əl qədər olan məsafədir.

8. Oyunu başlayın. Uşaqlar öz kartlarını toplamaq üçün kartlı adamları axtararaq oyun meydançası boyu qaçmağa başlayırlar.

9. Bütün kartlar toplanan zaman oyunu bitirin.

**Təhlil və qiymətləndirmə**.

1. Suallar verərək oyunu təhlil edin.

a) Oyun zamanı nə baş verdi?

b) Ən maraqlı anlar hansı idi?

c) Sizin hansısa bir strategiyanız var idi?

d) Siz bu oyunu yenidən oynasaydınız, başqa nə edərdiniz?

e) Siz bu oyun haqqında nə düşünürsünüz?

2. Bu sualları verməklə oyunu insan hüquqları ilə əlaqələndirin:

a) " ........ hüququ " dedikdə biz nə başa düşürük?

b) Siz necə fikirləşirsiniz, bu hüquqlar hər kəs üçündürmü? Onlara bütün dünyada riayət edirlərmi?

c) Real həyatda kim "ovçu" və kim "kartlı adam" ola bilər?

d) Biz öz həyatımızda hamının bərabərhüquqlu olmasını təmin etmək üçün nə etməliyik?

**Davam üçün ideyalar**

Gündəlik həyatda hansı hüquqlarla qarşılaşdıqlarını uşaqlarla müzakirə edin və sizin yaşadığınız yerdə bu hüquqların inkişaf etdirilməsi üçün hansı konkret fəaliyyətlərin həyata keçiriləcəyini müəyyənləşdirin.

**Aparıcıya məsləhətlər**

Bu oyun üçün bir neçə aparıcı tələb edilir. Ən azı bir aparıcı koordinator kimi oyundan kənarda olmalıdır. Aparıcı və uşaqlar kartlı şəxs ola bilərlər, ancaq təkcə aparıcılar mərkəzi postda dayanmalı, yaxud ovçu olmalıdırlar. Oyunda nə qədər çox uşaq iştirak edirsə, oyunun təhlükəsiz və şəffaf keçməsi üçün daha çox aparıcı tələb edilir.

**- Kiçik qruplar üçün tələb edilən aparıcıların minimal sayı:** 3 aparıcı (1 koordinator, 1 nəfər mərkəzi post üçün və 1 ovçu) və 2 kartlı adam.

**- 20 oyunçudan ibarət qrupun aparıcılarının minimal sayı:** 4 aparıcı (1 koordinator, 1 nəfər mərkəzi post üçün və 2 ovçu) və 3-4 nəfər kartlı adam .

**- 25 oyunçudan ibarət qrupun aparıcılarının minimal sayı:** 5 aparıcı (1 koordinator, 1 nəfər mərkəzi post üçün və 3 ovçu) və 4-5 nəfər kartlı adam.

- Bu oyunu açıq havada oynamaq daha yaxşıdır (məsələn, oyun meydançası, idman meydançası, park, meşə). Onu hətta böyük bir məkanla əvəz etmək də olar.
- Bu oyunun kifayət qədər təhlükəsiz olmasına baxmayaraq, məktəbdən kənarda və ya açıq havada təşkil olunan oyunlar üçün apteçka (dərman qutusu) və şüşədə su götürmək tövsiyə edilir.

## PAYLAMA MATERİALI: ROLLU KARTLAR

**Koordinatorun rolu (1 aparıcı)**

Əvvəlcə oyunun şərtlərini izah edin və sərhədi qurun. Siz həm də oyunu dayandırarkən və ya digər fövqəladə hallar zamanı hansı siqnaldan istifadə ediləcəyini göstərməlisiniz, bu siqnal “ov mövsümü”nün açılışı siqnalından tamamilə fərqli olmalıdır.

Uşaqlar və aparıcıların öz rollarını başa düşdüyündən əmin olun. Oyun prosesində siz uşaqlar üçün təhlükəli hərəkətlərin olmamasını və kobudluğa yol verilməməsini təmin etməlisiniz. Lazımi hallarda oyuna müdaxilə edin və ya oyunu saxlayın. Sizdə ehtiyat üçün apteçka və ehtiyat su olmalıdır. Vaxt bitdikdə oyunu bitirin və oyunu təhlil edin.

**Mərkəzi postun rolu (1 aparıcı)**

Adından göründüyü kimi, bura mərkəz olmalıdır. Oyun burada başlayır və qurtarır. Siz kartların bir hissəsini uşaqlara paylayırsınız, bir hissəsini isə özünüzdə saxlayırsınız. Kartların digər bir hissəsi isə kartlı adamlardadır.

- Hüquqlar yazılan kartların ikinci hissəsini tapan uşaqlar onları sizə gətirəcək. Uşağa yeni hissəni tapmağa imkan verin.
- Uyğun gələn kartları bir-birinə yapışdırın. Bütün kartları divardan elə asın ki, uşaqlar öz uğurlarını asanlıqla görə bilsinlər.

- Uşaqlar kartların yeni hissəsini seçməyə başladıqları zaman eyni rəngli kartların toplanması üzrə öz xüsusi strategiyalarını yenidən hazırlamağa başlayırlar. Siz belə strategiyanın hazırlanmasına təşəbbüs göstərmək əvəzinə onları buna həvəsləndirməlisiniz.
- Oyundan çıxan uşaqların mərkəzi postda sizə kömək etməyinə icazə verin.

**"Kartlı adamlar"ın rolu (2 və daha artıq uşaq və ya aparıcı)**

Kartların yarısının bütöv hissəsini öz aranızda bölüşdürün.

- Oyun meydançasında özünüzə yer tutun. Siz gizlənməli deyilsiniz, amma müxtəlif yerlərdə dayanmalısınız. Uşaqlar sizi tapmalıdırlar.
- Bir nəfər istisna olmaqla, bütün kartlı adamlar bir yerdə dayanmalıdırlar. Kartlı adamlardan biri aparıcıya bütün oyunu diqqətlə izləmək imkanı verməklə oyun zamanı yerini dəyişir.
- Oyunçular sizə yaxınlaşacaq və kartların yarısını göstərəcəklər. Əgər sizdə bu kartların ikinci hissəsi varsa, onu oyunçuya verin.
- Ov mövsümü zamanı sizin ətrafınızda təhlükəsizlik zonası yaranır. Bu zona hüdudlarında ovçular oyunçuları tuta bilməzlər.
- Əgər hətta sizdə yarımkartlar yoxdursa, oyunun bitməsi haqqında xəbər verən final siqnalı səslənənə kimi öz yerinizdə durun.

**Ovçular (1 və daha artıq aparıcı)**

- Sizin rolunuz oyunçuları tutmaq və ov mövsümü zamanı onların əlindən hüquqlarını almaqdır. Oyunçunu tutduğunuz zaman onun kartını iki hissəyə bölün. Bölünmüş hissələrdən birini oyunçuya qaytarın, digər hissəni isə kartlı adama verin. Bu o deməkdir ki, oyunçuya bütün kartları tamamlamaq daha çətin olacaq.
- "Ov mövsümü" uşaqlar üçün həyəcanlı oyundur. Onu ardıcıl, lakin qısa vaxt ərzində həyata keçirin. "Ov mövsümü" oyununu başlayarkən bir dəfə, bitirərkən isə iki dəfə fit çalın.
- Ovçular hamısı eyni formada geyinməlidirlər (məsələn, hamısı eyni şlyapa, palto, şərf geyinməli və ya üstlərində hər hansı bir fərqləndirici işarə olmalıdır). Ov mövsümü zamanı uşaqları həvəsləndirmək üçün səs-küy salın.
- "Ov" zamanı oyunun məqsədi ilk növbədə uşaqların ələ keçirilməsi deyil, onların oyuna təşviq edilməsidir. Əgər siz daha çox uşaq və ya eyni oyunçunu davamlı tutsanız, onda uşaqlar özlərinə olan inamı itirə bilərlər.

Aşağıda verilmiş cədvəlin surətini çıxarın və hüquqları ayrı-ayrı kəsin. Kəsilmiş hüquqları yenidən iki hissəyə bölün. Hər bir hüquq eyni rəng və eyni nömrədə olmaqla iki hissədən ibarət olacaq. Kartların yarısını uşaqlarla bölüşdürdükdən sonra qalan bütün kartlar mərkəzi postda qalır, ikinci hissə isə kartlı adamlar arasında bölünür. 10-15 uşaqdan ibarət qrup üçün hüquqlar yazılan 5 müxtəlif rəngli 50 kartın surətini çıxarın. Əlavə edilən hər 5 uşağa başqa rəng təklif edin (məsələn, 25 uşaqdan ibarət qrup üçün bizə 7 rəngli 70 kart lazım olacaq). Əgər surətini çıxarmaq sizə çətindirsə, əllə yazın.

1. HƏR BİR UŞAĞIN MÜDAFİƏ HÜQUQU VAR.
2. HƏR BİR UŞAĞIN TƏHSİL HÜQUQU VAR.
3. HƏR BİR UŞAĞIN SAĞLAMLIQ HÜQUQU VAR.
4. HƏR BİR UŞAĞIN SƏRBƏSTLİK VƏ ƏYLƏNCƏ HÜQUQU VAR.
5. HƏR BİR UŞAĞIN VƏTƏNDAŞLIQ HÜQUQU VAR.
6. HƏR BİR UŞAĞIN DİNİ SEÇMƏK HÜQUQU VAR.
7. HƏR BİR UŞAĞIN İNFORMASİYA ALMAQ HÜQUQU VAR.
8. HƏR BİR UŞAĞIN BİRLƏŞMƏK HÜQUQU VAR.
9. HƏR BİR UŞAĞIN ÖZ AİLƏSİ İLƏ YAŞAMAQ HÜQÜQU VAR.
10. HƏR BİR UŞAĞIN ƏDALƏTLİ MƏHKƏMƏ SEÇİMİ HÜQUQU VAR.

# Dünya necə də gözəldir

***Siz necə yaşamaq istəyirsiniz?***

| | |
|---|---|
| **Fəslin mövzusu** | Ayrı-seçkilik (diskriminasiya), ətraf aləm, yoxsulluq və sosial təcrid |
| **Çətinlik dərəcəsi** | I dərəcə |
| **Yaş həddi** | 8 – 13 yaş |
| **Tələb olunan vaxt** | 50 dəqiqə |
| **İştitakçı sayı** | 1 – 20 uşaq |
| **Oyunun növü** | Rəsm, müzakirə |
| **Xülasə** | Uşaqlar yaşamaq istədikləri və ya yaşamaq istəmədikləri ətraf aləmin təzadlı şəkillərini çəkirlər. Onlar bu sualları müzakirə edirlər:<br>- hansı amillər əhəmiyyətlidir?<br>- özləri ətraf aləmə necə təsir edə bilərlər? |
| **Vəzifələr** | • Ətraf aləmin konkret və abstrakt amillərini müzakirə etmək<br>• Bizi və başqa insanları əhatə edən ətraf aləmi dəyərləndirmək<br>• Özünün və başqalarının ətraf aləmi müdafiə üsullarını və/və ya dəyişiklikləri müzakirə etmək |
| **Hazırlıq** | • Rəngləmə üçün materialları əldə etmək<br>• Hər bir uşaq üçün paylama materialının surətini çıxartmaq |
| **Materiallar** | • Kağız<br>• Rəngləmə üçün materiallar: məs., boyalar, markerlər, tabaşirlər, karandaşlar<br>• Şəkillərin asılması üçün dəftərxana düymələri və yapışqan lentlər |

**Təlimat**

- Uşaqlara müxtəlif boyalar paylayın. Onlardan xahiş edin ki, yaşamaq istədikləri – real və ya təxəyyüllərində təsəvvür etdikləri - ətraf aləm haqqında düşünsünlər və onun şəklini çəksinlər.
- Sonra uşaqlardan onların arzulamadıqları ətraf aləm haqqında düşünməyi və onun şəklini çəkməyi xahiş edin.
- Şəkillər hazır olduqdan sonra onları asın və uşaqları kiçik (mini) sərgiyə baxmağa dəvət edin.

**Təhlil və qiymətləndirmə**

1. Oyunu təhlil etmək üçün aşağıdakı sualları verin:
   a) Ətraf mühitin iki müxtəlif halı haqqında fikirləşmək asan idimi?
   b) Hansı rəsm və hansı ətraf aləm sizin daha çox xoşunuza gəlir? Nə üçün?

c) Hansı rəsm və hansı ətraf aləm sizin xoşunuza gəlmir? Nə üçün?
d) Əgər sizin çəkdiyiniz rəsmlərdə insanlar yaşasaydılar, onlar özlərini necə hiss edərdilər?
e) Hansı rəsm sizi əhatə edən real ətraf aləmə uyğundur?

2. Aşağıdakı sualları verməklə insan hüquqları ilə əlaqə yaradın.
   a) Ətraf aləm - fiziki məkandan daha böyükdür. Hansı digər amillər ətraf mühitə müsbət və ya mənfi təsir göstərir? Məsələn, perspektivlərin olması, zorakılığın olmaması, ayrı-seçkilik (diskriminasiya), azadlıq və insan hüquqları.
   b) Fiziki mühit bizə necə təsir edir? Hüquqi mühitimiz bizə necə təsir edir?
   c) Yaşadığınız məkanın hüquqi mühitini siz necə təsvir edərdiniz?
   d) Fiziki əhatənizdə siz nəyi dəyişmək istərdiniz? Bəs hüquqi mühitinizdə?
   e) Ətraf mühitinizin rəsmdə təsvir etdiyinizə oxşaması üçün siz nə edə bilərsiniz?
   f) Bütün dünya uşaqlarının onların xoşuna gələn ətraf mühiti varmı?
   g) Yaxşı ətraf mühitin olmasına bizim haqqımız çatırmı?
   h) Siz necə düşünürsünüz, yaxşı ətraf mühitə sahib olmaq hüququmuz olmalıdırmı?
   i) Dünyadakı bütün uşaqların ətraf mühitini yaxşılaşdırmaq üçün biz nə edə bilərik?

**Davam üçün təkliflər**

- "Kompasito reportyoru" oyunu və "Su damlaları" uşaqlara yaşadıqları ərazidə ətraf mühiti dəyərləndirmək imkanı verir.
- "Əziz gündəlik" oyununda uşaqlar eyni hadisələrə müxtəlif nəzərlərdən yanaşırlar.

**Fəaliyyət üçün ideyalar**

- Öz rayonunuzda gəzin və uşaqlarla fiziki ətraf mühiti, burada xoşlarına gələn və gəlməyən məsələləri müzakirə edin. Uşaqlara təcrübədə vəziyyəti necə dəyişə biləcəkləri haqqında düşünməyə kömək edin. Bu təklifləri müzakirə etmək və əməli münasibət bildirmək üçün bələdiyyə işçilərini dəvət edin.
- Böyüklərin uşaqların ətraf mühit haqqında ideyalarını bilməsi üçün rayonda uşaqların rəsmlərindən ibarət sərgi təşkil edin.
- Uşaqlarda ətraf mühitin dəyişdirilməsi üçün daha çox ideyalar formalaşdırın. Ətraf mühitimizi yaxşılaşdırmaq üçün nə edə bilərik?
- Uşaqların daha əlverişli olmayan mühitdə yaşayan başqa uşaqlara dəstək göstərdiyi layihələri tapın. Böyük uşaqlar isə özləri də yeni layihələr təşkil edə bilərlər.

**Aparıcılara məsləhətlər**

- Uşaqlara "ətraf aləm"in konkret, fiziki amillərlə yanaşı hüquq və azadlıqların səviyyəsi kimi abstarkt amillərdən ibarət olduğunu başa düşməkdə kömək edin. Yaxşı ətraf mühit üçün bizə hər iki amilin lazım olduğunu vurğulayın. Kiçik uşaqlara ətraf aləmin abstrakt konsepsiyasını başa düşmək çətin ola bilər.
- Ətraf mühitin hansı konkret aspektlərini nəzərdən keçirəcəyinizi oyundan əvvəl düşünün. Müzakirə "ətraf mühit"in müəyyən problemləri üzərində qurulmasa, təhlil çox böyük və abstrakt olacaq.

**Variantlar**

Eyni rəsmin müxtəlif rəngləmə üsullarından istifadə edin, məsələn, mum təbaşirləri, boyalar, kağız şəbəkəsi (mozaikası).

**Dünya yay düşərgəsi**

**Mənin sevimli məşğuliyyətim favoritlərimi seçməkdir!**

| | |
|---|---|
| **Mövzu:** | Diskriminasiya, ümumi insan hüquqları. |
| **Çətinlik dərəcəsi:** | 2-3. |
| **Yaş həddi:** | 8-13 yaş. |
| **Müddəti:** | 45-60 dəqiqə. |
| **İştirakçı sayı:** | Maksimum 20 uşaq. |
| **Fəaliyyətin növü:** | Prioritetlərin müəyyən olunması, danışıqlar, müzakirələr. |
| **İcmal:** | • Uşaqlar siyahıya əsasən öz “çadır” yoldaşlarını seçirlər və hansı ehtimallar əsasında seçim etdiklərini izah edirlər. |
| **Məqsədlər:** | • Öz stereotip və önyarğılarını öyrənmək və onların nədən qaynaqlandığını araşdırmaq.<br>• Diskriminasiyadan uzaq bərabərliyi və azadlığı müdafiə etmək. |
| **Hazırlıq:** | • Düşərgədə istirahət edən 12 nəfər uşağın siyahısını hazırlayın. Bunun üçün verilmiş siyahıdan istifadə edə və ya həmin siyahıya yenilərini əlavə edə bilərsiniz. Onlardan ən azı bir nəfər mövcud olmayan ölkənin vətəndaşı olmalıdır.<br>• Altertnativ olaraq: Siyahını lövhədə yazın.<br>• Hər uşaq üçün oyunu və düşərgəni təsvir edən materialların, tapşırıqların və 12 uşağın siyahısının surətini çıxarın. |
| **Materiallar:** | • Oyunla bağlı materiallar və hər uşaq üçün qələm.<br>• Hər qrup üçün vərəq və markerlər. |

**Təlimat**

1. Oyun materiallarını və qələmi uşaqlara paylayın. Materiallarda oyunun ssenarisi və təlimat qaydaları olmalıdır. Düşərgədə istirahət edən uşaqların xüsusiyyətlərini ucadan oxuyun.

2. Uşaqlara müstəqil işləməyi və çadırda birlikdə qalmaq üçün düşərgədəki uşaqlardan üçünü öz istəklərinə görə seçməyi tapşırın. Bu mərhələdə heç kim danışmamalıdır.
3. Seçim bitdikdən sonra onları üç-beş uşaqdan ibarət qruplara bölün və tapşırığı izah edin:
    a. Düşərgənin siz olan hissəsində dörd çadır var. Hər çadır üçün dörd uşaq nəzərdə tutulub. Əgər siz qrupunuzdakı uşaqları və siyahıdakı üç uşağı yenidən hesablasanız, ümumi 16 nəfər olacaq. Düşərgədə istirahət edən uşaqların hansı çadırda qalacağına qrupunuzla birlikdə qərar verin. Vərəqdə dörd çadır şəkli çəkin, hər birinin üzərinə çadırda qalacaq uşaqların adlarını yazın və vərəqi lövhəyə yapışdırın.
    b. Əgər qrupunuzda 16-dan çox uşaq varsa, qrupun qərarı ilə qrupdan bir nəfər xaric olunmalıdır. Əgər bir neçə uşaq eyni adamı seçərsə, onda qrup siyahıdan başqa bir uşağı seçməlidir.
4. Uşaqlara digər qrupların çadır sxeminə baxmağa vaxt verin. Sonra siyahı üzrə düşərgədə istirahət edən uşaqların adlarını oxuyun və qrup üzrə kimin hansı çadırda qalacağına qərar verildiyini müəyyən edin. Beləliklə, uşaqlar kimin eyni yoldaşı seçdiyini görə biləcəklər.

**Təhlil və qiymətləndirmə**

1. Oyunun nəticələrini müzakirə edin:
    a. Çadırda qalmaq üçün üç qonşu seçmək çətin deyildi ki? Niyə “hə” və ya niyə “yox”?
    b. Bəzi uşaqları çadır yoldaşı kimi bir neçə dəfə seçmisinizmi? Niyə?
    c. Heç seçilməyən uşaq qaldımı? Niyə?
    d. Siz gəldiyi yer haqqında məlumatsız olduğunuz uşaqla bağlı hansı qərarı verdiniz?
2. Oyun haqqında nə düşünürsünüz?
    a. Qrup şəklində müzakirə edərkən əyəncəli vəziyyət yarandımı?
    b. Qrupla razılaşmaq çətin deyildi ki?
    c. Nəticədən kim razı və kim narazıdır?
    d. Siz özünüz haqqında, yəni necə seçim etmək haqqında nə isə öyrəndiniz?
3. Bu oyunu real həyat hadisələri ilə müqayisə edin:
    a. Vəziyyət reallığa uyğun idimi?

b. Kiminlə qalacağınızı özünüzün seçdiyiniz real bir situasiya xatırlaya bilərsinizmi?
c. Seçim etmək nədir?
d. Həyatda seçilən və ya seçilməyən olmaq necə hissdir?
e. Real həyatda siz bu seçimi necə edirsiniz?
f. Bütün uşaqların seçmək və seçilmək hüququ varmı?

4. Başqa insanlar, hətta heç vaxt görmədiyimiz insanlar haqqında fikirlərimizin necə formalaşdığını müzakirə edin.
   a. Uşaqları bir-birinə bənzədən nədir? Onları fərqli edən nədir?
   b. Heç vaxt görmədiyiniz uşaqlar haqqında təsəvvürünüz necə yaranır?
   c. Onların harada doğulduqları haqqında təsəvvürünüz necə yaranır?
   d. Sizə münasibətdə stereotipləri olan insanlar varmı? Bəs uşaqlara qarşı münasibətdə stereotiplər varmı?
   e. Sizin başqa insanlarla münasibətdə stereotipləriniz varmı?
   f. Başqa insanlara qarşı haqsız stereotiplərin yaranmaması üçün nə etmək lazımdır?
   g. Stereotiplər niyə diskriminasiyaya aparır?

**Davam üçün təkliflər**

- “Əziz gündəlik” oyunu eyni günün fərqli mənalarda təsvirini göstərir.
- “Zabderfilio” oyunu naməlumluq qarşısında qorxunun təsirini göstərir.
- “Bağlı gözlərlə”, “Şəkillərlə oyunlar”, “Mənim arxamdakı kimdir?” oyunlarında müxtəlif stereotiplər göstərilmişdir.

**Fəaliyyət üçün ideyalar**

- Növbəti dəfə qrupa yeni yoldaş və ya komanda seçmək lazım gəldikdə uşaqlara bu oyunu və seçki haqqında öyrəndiklərini xatırladın.
- Özünüz yay düşərgəsi təşkil edin: bu kimi düşərgələri maliyyələşdirən bir neçə Avropa fondlarının proqramları var. On üç  və yuxarı yaşlı uşaqlara yay düşərgəsinin təşkili üçün Avropa Komissiyasının “Gənclər fəaliyyətdə” adlı proqramına müraciət edin.

**Aparıcılara məsləhətlər**

- Ehtiyatlı olun ki, stereotiplər güclənməsin.  Bu, oyunun məqsədlərinə ziddir.

- Yaxşısı budur, kiçik qruplar 4 nəfərdən ibarət olsun və qrupdakı hər uşaq üç yoldaşdan ibarət siyahı yazsın. Lakin oyunu kiçik qruplarla da başlamaq olar: bu zaman sonda 16 nəfərin qalmağı üçün siyahıya yeni uşaqlar əlavə etmək və ya çıxarmaq olar.
- Oyunun təlim məqsədlərinə uyğun olmağı üçün düşərgədə istirahət edən uşaqların siyahısını diqqətlə seçmək lazımdır. Qrupunuzdakı hər hansı uşağın düşərgədə istirahət edən bir uşağı xatırlatmadığına əmin olun. Kiçik yaşlı şagirdlərin anlamağı üçün də siyahıda uşaqlar haqqında verdiyiniz təsvirləri sadələşdirin. Bununla belə, siyahıda ən azı bir nəfər mövcud olmayan ölkədən gəlmiş uşaq saxlayın. Bu, uşaqlara insan haqqında heç nə bilmədən onunla bağlı qərar qəbul etməyi göstərmək üçündür.
- Əgər yay düşərgəsində və çadırda yaşamaq uşaqlar üçün uyğun deyilsə, siz onları əhatə edən başqa bir mühit seçə bilərsiniz (məsələn, parta, gənclər yataqxanası və ya mehmanxana).
- Düşərgə iştirakçılarının siyahısı ilə bağlı sualları cavablandırmayın. Uşaqlara yalnız siyahıya əsasən qərar verməli olduqlarını izah edin.
- Ola bilər ki, uşaqlardan bəziləri seçim edə bilmədiklərini və çadırda kiminlə qalmağın onlar üçün fərq etmədiyini desinlər. Bu halda onlardan kiminlə çadırda yaşamaq istəmədiklərini soruşun. Alınan nəticəni isə kiçik qrupların nəticələri ilə müqayisə etmək olar.
- Qrupun bəzi üzvləri çadırı öz aralarında bölə və "yadları" isə digər çadırlarda yerləşdirə bilərlər. Müdaxilə etməyin, çünki nəticə çox şey göstərəcək. Uşaqlarda "özünə bənzəyən insanların xeyrinə qərar vermək pis hərəkətdir" fikrini yaratmayın. Çünki seçim hər zaman diskriminasiya demək deyil.

**Adaptasiya**

- Oyunu qısaltmaq üçün:
    - Hər uşağın iki və ya üç yoldaş seçə biləcəyi kiçik çadırlar götürün.
    - Düşərgədə istirahət edən uşaqların ümumi sayını azaldın.
    - Üçüncü addımı kiçik qruplarla işdə tətbiq etməyin.
    - Kiçik qruplarda işi asanlaşdırmaq üçün qrup üzvləri tərəfindən seçilmiş uşaqların siyahısını hazırlayın. Daha sonra seçilməmiş

uşaqların hamısı çadırlara yerləşdirilənədək uşaqlar növbə ilə seçim edirlər.

- **Kiçik uşaqlar üçün**
  - Oyunu qısaltmaq üçün yuxarıda sadalanan məsləhətləri tətbiq edin.
  - Kiçik yaşlı məktəblilərin daha yaxşı anlamağı üçün uşaqların təsvir formalarını dəyişin (məsələn, ola bilər ki, kiçik yaşlı məktəblilər Monqolustan və ya kunq-fu üçün köynəyin nə olduğunu bilməsin).

## Paylama materialı

## Dünya yay düşərgəsi

İndi siz və dünyanın hər yerindən uşaqlar dünya yay düşərgəsinə gəlmisiniz. Heç kim bir-birilə tanış deyil. Təlimatçılar qərar verdilər ki, növbəti iki həftə kiminlə eyni çadırda qalacağınızı özünüz seçəsiniz. Hər çadırda dörd uşaq qalır. Siz çadırda qalmaq üçün digər üç yoldaşınızı seçə bilərsiniz.

### Düşərgədə istirahət edən uşaqlar

Eyni çadırda qalmaq istədiyiniz 3 uşağı siyahıdan seçin!

1. ________________________________
2. ________________________________
3. ________________________________

1. Ayağı sınıq və əsa ilə gəzən uşaq.
2. Sizin ölkədən qızıl sırqalı qaraçı uşaq.
3. Avstraliydan narıncı saçlı, çilli uşaq.
4. Yaponiyadan kunq-fu köynəyi geyinmiş uşaq.
5. Transmarinadan utancaq uşaq.
6. Afrikadan immiqrant uşaq.
7. ABŞ-dan kök uşaq.
8. Təlimli iti olan kor uşaq.
9. Qalın linzalı eynəyi olan və üzü sızanaqlı uşaq.
10. Böyük Britaniydan məktəb forması geyinmiş uşaq.
11. Almaniydan gözü yaralı və kəllə təsvir edilmiş köynək geyinən uşaq.

12. Milli geyimli Latın Amerikalı uşaq.
13. Əl hərəkətləri ilə ünsiyyət quran lal-kar uşaq.
14. Monqoliyadan uzun qara saçlı uşaq.
15. Sizin ölkədən elə də ağıllı olmayan uşaq.
16. Fələstindən tək əlli uşaq.
17. Çox düzgün danışan, sarışın uşaq.
18. Sanki bütün gün hıçqıran uşaq.
19. Sizin gödəkçəyə bənzəyən gödəkçə geyinən uşaq.
20. Bütün gün MP3 dinləyən uşaq.

**Əgər...**

***...dünya müstəvi şəklində olsaydı...***

| | |
|---|---|
| **Mövzular:** | Ümumi insan hüquqları, təhsil və asudə vaxt, yoxsulluq və sosial izolyasiya. |
| **Çətinlik səviyyəsi:** | III səviyyə. |
| **Yaş həddi:** | 8-13 yaş. |
| **Müddəti:** | 60 dəqiqə. |
| **İştirakçıların sayı:** | 8-20 uşaq. |
| **Oyunun növü:** | Təhlil, səhnələşdirmə və müzakirə. |
| **Tapşırıqlar:** | • Hüquqların təsirini və qarşılıqlı əlaqəsini nəzərdən keçirmək;<br>• Gündəlik həyatda hüquqları nəzərdən keçirmək. |
| **İcmal:** | Uşaqlar hər bir situasiyanın mümkün nəticələrini təqdim edir, sonra isə bu nəticələri səhnələşdirirlər. |
| **Hazırlıq:** | • Uşaqların problemlərinə və təcrübəsinə uyğun gələn situasiyalar seçərək uyğunlaşdırın və ya yeni situasiyalar düşünün.<br>• Situasiya kartlarının surətini çıxarın və kəsin.<br>• Nəticələr kaskadının surətini çoxaldın. |
| **Materiallar:** | • Situasiya kartları;<br>• Təqdimat üçün kağız və qələmlər;<br>• Nəticələr kaskadının surəti. |

**TƏLİMATLAR**

1. Hər kəsə "Əgər..." oyununun mahiyyətini izah edin. Bəzən biz yaxşı situasiyaları (məsələn, "Əgər bir daha müharibə olmasaydı"), bəzən isə xoşagəlməz situasiyaları (məsələn, "Əgər müharibə mənim ölkəmdə olsaydı") təqdim edirik. Bu oyunda uşaqlar müəyyən bir situasiyanın təsviri əsasında onun insanların həyatına necə təsir edəcəyini nəzərdən keçirəcəklər.

2. Nəticələr kaskadını izah edin və müəyyən bir situasiyanın hansı nəticələrə səbəb olacağını ardıcıllıqla göstərin. Sadə və tanış situasiyalardan istifadə edin (məsələn, "əgər bizə məktəbə getməyə icazə verilməsəydi – biz oxumağı öyrənməzdik – yazılı təlimatları oxuya, xəritəni başa düşə bilməzdik, yazı yazmağı, kompüterdən istifadə etməyi bacarmazdıq).

3. Uşaqları kiçik qruplara bölün, hər qrupa situasiya, nəticələr kaskadının sürətini və qələm verin. Nəticələr kaskadını necə doldurmağı uşaqlara izah edin.

4. Uşaqlar nəticələr kaskadını doldurduqdan sonra onlara bu situasiya nəticəsində nəyin baş verəcəyini göstərən səhnəcik hazırlamağı tapşırın. Uşaqlara hazırlaşmaq üçün vaxt verin.

5. Hər bir qrupdan öz situasiyasını növbə ilə ucadan oxumağı və səhnəciyi göstərməyi xahiş edin.

6. Hər təqdimatdan sonra aşağıdakı sualları verin və uşaqlardan rəy bildirməyi xahiş edin:

a) Bu situasiyanın başqa bir nəticəsi ola bilərmi?

b) Bu situasiyada insanın hansı hüquqlarına toxunulmuşdur? Bu situasiya hansısa bir hüququ pozurmu? Yaxud da o, hüquqları qoruyur və dəstəkləyirmi?

c) Bu situasiyanın nəticələrində hansı hüquqlar əks olunmuşdur?

**TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ**

1. Suallar verərək, oyunu təhlil edin.

a) Siz bu oyun haqqında nə fikirləşirsiniz?

b) Sizə verilən situasiyanı təsəvvür etmək çətin idimi?

c) Bu situasiyanın hansı nəticəyə gətirəcəyini düşünmək çətin oldumu?

d) Sizcə, bu situasiyalar realdırmı? Nə üçün “Hə”, nə üçün “Yox”?

e) Sizcə, dünyada bu cür hallar varmı?

i) Siz belə situasiyada necə reaksiya verərdiniz?

f) Situasiyanı dəyişmək üçün biz nə edə bilərik?

2. Suallar verərək insan hüquqları ilə qarşılıqlı əlaqəni göstərin:

a) Hər hansı bir hüquq pozulan zaman digər hüquqa necə təsir edir? Təqdimatdan hər hansı bir nümunəni yadınıza sala bilərsinizmi?

b) Bir hüquq qorunduğu və dəstəkləndiyi zaman digər hüquqa necə təsir edir? Təqdimatdan hər hansı bir nümunəni yadınıza sala bilərsinizmi?

c) Nə üçün bütün hüquqlar bizə lazımdır?

**DAVAMI ÜÇÜN TƏKLİFLƏR**

• “Yeni torpaqlara səyahət” və “Kim üçün daha mühümdür?” oyunları hüquqların qarşılıqlı asılılığını təhlil edir.

• “Bilik fiquru” oyunu uşaqları öyrənmə mənbəyinin olmamasının nəticələri haqqında düşünməyə məcbur edir.

**FƏALİYYƏT ÜÇÜN İDEYALAR**

“Qrupumuzun konstitusiyası” oyunu uşaqları öz hüquqi mühitlərinin yaxşılaşdırılması üçün işlərə cəlb edir. Qrup konstitusiyasının mövcudluğu real həyatda hüquqi bazanın müxtəlif təsirlərini göstərir.

**APARICILARA MƏSLƏHƏTLƏR**

• Bu oyunun səmərəsi sizin uşaqlara təklif etdiyiniz situasiyaların növündən asılıdır. Uşaqların maraq və təcrübələrinə uyğun gələn yeni situasiyalar işləyib hazırlayın. Situasiyalar insanın ümumi hüquqlarını, yaxud konkret mövzuları əhatə etməlidir. Məsələn, siz gender bərabərliyi və ətraf mühit kimi sosial və iqtisadi hüquqlar, yaxud xüsusi mövzular üzrə situasiyalar işləyib hazırlaya bilərsiniz. Siz buraya müsbət situasiyalarla yanaşı (məsələn, “Əgər kişilər və qadınlar eyni miqdarda qazansaydılar”, “Əgər bizim şəhərdə hamı tullantıların miqdarını ikiqat azaltsaydı”), mənfi situasiyalar da (məsələn, “Əgər təkcə kişilərin mülkiyyət hüququ olsaydı”, “Əgər bizim şəhərdə hər bir adamın şəxsi maşını olsaydı”) daxil edin.

• Keçmişdə və ya hazırda mövcud olan situasiyalardan bəzi nümunələr hazırlayın (məsələn, qadınların mülkiyyət və ya məktəbə getmək hüququnun olmaması; gənclərin və qızların orduda xidmət etməyə məcbur edilməsi).

**VARİANTLAR**

• Bütün qruplara eyni situasiyanı tapşırın. Mümkün nəticələr əsasında yaranan müxtəlif ideyaları müqayisə edin.

• Uşaqları oğlanlardan və qızlardan ibarət ayrı-ayrı qruplara bölün və eyni gender situasiyalarına onların cavablarını müqayisə edin.

• Vaxta qənaət etmək üçün səhnəciklərdən imtina edin və ya uşaqlar situasiyaları pantomimlər, “canlı şəkillər” və ya “donmuş pozalar”ın köməyi ilə təqdim edə bilərlər.

**ADAPTASİYALAR**

• *Kiçik uşaqlar üçün:* nəticələr kaskadından imtina edin və dərhal səhnəciklərə keçin. Kiçik uşaqlarda hüquqların mənası ilə bağlı çətinliklər yarana bilər; bütün hüquqlarımızdan istifadənin əhəmiyyətini qeyd edin.

• *Böyük uşaqlar üçün:* “Uşaq Hüquqları haqqında Konvensiya”nın və ya “İnsan Hüquqlarının Ümumi Deklarasiyası”nın ayrı-ayrı bəndlərini şərh etməyi xahiş edin.

## PAYLAMA MATERİALI: SİTUASİYALAR

Aşağıda bəzi situasiya nümunələri verilmişdir. Onlardan qrupunuz üçün ən əhəmiyyətli olanını seçin və ya yenisini fikirləşin. Buraya həm müsbət, həm də mənfi situasiyaları daxil edin.

**Situasiya 1.**

Hökumət bütün məktəb və universitetləri bağlamağı qərara aldı. Sabahdan etibarən bütün uşaqlar məktəbə getmək əvəzinə istədiklərini edə bilərlər.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 2.**

Pula qənaət etmək üçün hökumət bütün xəstəxanaları bağlamağı qərara aldı. Daha nə həkim, nə də əczaxana olmayacaq. Bunun əvəzində otlarla müalicə vasitələri haqqında ucuz qiymətə kitablar satılacaq.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 3.**

Hökumət qərar verdi ki, ictimai yerlərdə – küçədə, parkda, məktəbdə və ya başqa yerlərdə oynamaq qadağandır. Bundan başqa, bütün oyuncaq mağazaları bağlanacaq, heç kəs oyuncaq sata bilməyəcək. Kim evdə oynasa, məhkəməyə cəlb ediləcək və həbs olunacaq.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 4.**

Hökumət qərara aldı ki, sabahdan etibarən ancaq qızlar məktəbə gedə və boş vaxtlarında oyun oynaya bilərlər. Bütün oğlanlar zavodda işləməlidirlər.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 5.**

Hökumət qərara aldı ki, sabahdan başlayaraq iki nəfərdən artıq adam toplaşa bilməz. İki nəfərdən artıq insanın bir yerdə toplaşması qadağandır. Qanun pozuntusu azadlıqdan məhrum olma ilə cəzalandırılacaq.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 6.**

Hökumət qərara aldı ki, hər bir məktəbdə kifayət qədər kompüter olan kompüter sinifləri olmalı və hər bir uşağın onlardan həftədə 3 saatdan az olmayaraq istifadə etmək imkanı olmalıdır.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 7.**

Hökumət uşaqların problemləri üzrə şəhər sovetinə məsləhətlər vermək üçün gənclər şurası yaratdı. Şəhərimizdə hər bir məktəb bu şurada fəaliyyət göstərmək üçün iki nümayəndə seçə bilər.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 8.**

Hökümət qərara aldı ki, beynəlxalq anlaşmanı dəstəkləmək üçün hər bir uşağın 13 yaşa çatanadək digər bir Avropa ölkəsinə səyahət imkanı olmalıdır.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 9.**

Hökumət qərara aldı ki, sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətdə iştirakını daha çox rəğbətləndirmək lazımdır. Onların iştirakı üçün maneələri aradan götürmək və uşaqlara istənilən yardımı göstərmək (məsələn, əlil arabası, eşitmə aparatları, korlar üçün kitablar və kompüterlərlə təmin etmək) lazımdır. Belə uşaqlar mümkün qədər məktəbdə digər uşaqlarla birgə oxumalıdırlar.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**Situasiya 10.**

Hökumət qərara aldı ki, sabahdan başlayaraq imtahanda pis nəticə göstərən hər bir uşaq məktəbdən kənarlaşdırılacaq. Ancaq qeyri-kafi qiyməti olmayan şagirdlərə təhsillərini davam etdirmək imkanı veriləcək.

Bu situasiyanın hansı nəticələri ola bilərdi? Bəs sonrakı illərdə?

**NƏTİCƏLƏR KASKADI**

**Situasiya**



# Əziz gündəlik

***Özünü başqasının yerinə qoy...***

| | |
|---|---|
| **Fəslin mövzusu** | Ayrı-seçkilik (diskriminasiya), səhhət və rifah, yoxsulluq və sosial təcrid |
| **Çətinlik dərəcəsi** | II dərəcə |
| **Yaş həddi** | 8 – 13 yaş |
| **Tələb olunan vaxt** | 60 dəqiqə |
| **İştitakçı sayı** | 16 – 20 uşaq |
| **Oyunun növü** | Gerçək hadisələrin müzakirəsi |
| **Xülasə** | Uşaqlar həyatdan götürülən eyni hadisənin 3 müxtəlif rəyini oxuyurlar və insanlar haqqında yaranmış səhv fikirləri müzakirə edirlər |
| **Vəzifələr** | • Ünsiyyət qurmaq və müşahidə etmək bacarıqlarını təcrübədə tətbiq etmək<br>• Digər insanın halına acımağı tərbiyə etmək<br>• Qərəzli qərarların olduğunu dərk etmək<br>• Fərdi təcrübənin subyektivliyini (tək bir şəxsə məxsus olduğunu) başa düşmək<br>• Təhsil, asudə vaxt və sağlamlıq hüququnun müzakirəsi |
| **Hazırlıq** | • Nəzərdə tutulmuş hadisələri uşaqların həyatına və ya məşğələnin məqsədlərinə uyğunlaşdırın |
| **Materiallar** | • 3 gerçək hadisənin mətni |

**Təlimat**

1. Qrupda söyləyin ki, üç uşaq keçən yay düşərgədə yaşadıqlarını gündəliklərində qeyd ediblər və bizə həmin gündəliklərin oxunmasına icazə veriblər. Uşaqları 3 qrupa bölun və hər qrupa bir hadisənin mətnini paylayın.

2. Mətnləri oxuduqdan sonra uşaqları bir yerə toplayıb paylanmış mətnlərin əsasında “Düşərgənin bir günü” mövzusunda müzakirə aparın (məsələn, tapmaca tapmaq, nahar, futbol məşqi, salın qurulması, çayı keşmə). Hər hadisə ilə tanış olduqdan sonra kiçik bir fasiləyə edin. Uşaqlardan soruşun: hadisənin qəhrəmanları nə edirdilər, nə düşünürdülər, hansı hisləri keçirirdilər? Bu mərhələdə uşaqlara hadisə qəhrəmanlarının etdiklərinin və hislərinin səbəblərini izah etmək lazım deyil.

3. Qrup üzvlərindən xahiş edin ki, onlar oxuduqları hadisənin müəllifini təsvir etsinlər. Eyni hadisələrə üç uşağın belə fərqli yanaşmasının səbəblərini müzakirə etmək üçün aşağıdakı sualları verin:

a) Nə üçün uşaqlar bir-birini düzgün anlamayıblar?
b) Siz necə düşünürsüz, onlar bir-birlərinin həyatı ilə daha yaxından tanış olsaydılar, özlərini başqa cür aparardılar? Bunu necə təsvir edərdiniz?
c) Onların bir-biri haqqında hansı yanlış təəssüratları var idi?
d) Həmin səhvlərə necə yol vermişdilər?
e) Siz digər şəxs haqda nə zamansa yanlış fikirdə olmusunuz?
f) Başqaları haqda səhv fikirdə olanda nə baş verir?
g) Başqa insanların haqqımızda səhv düşünməmələri üçün nə etməliyik?

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualların köməyi ilə oyunu təhlil edin:
   a) Bu 3 hekayə haqda nə düşünürsünüz?
   b) Günün bu cür keçməsi sizin xoşunuza gələrdimi? Cavabınızı əsaslandırın.
   c) Bu hekayələr həqiqətə bənzəyirmi?
   d) Siz özünüzü həmin uşaqlardan birinə bənzədə bilərsinizmi? Hansına? Niyə?
   e) Əgər siz kasıb olsaydınız və oxumağı bacarmasaydınız, dostunuz olardımı?
   f) Dostluq nədir?
   g) Sizin məhəllənizdə kasıb insanlar yaşayırmı? Kimlərdir?
   h) Bu vəziyyəti dəyişmək üçün biz nə edə bilərik?
2. Oyunu insan hüquqları ilə uzlaşdırmaq üçün suallar verin:
   a) Düşərgədə uşaqların hansı insan hüquqları var idi?
   b) Evdə hansı insan hüquqları var?
   c) Hansı uşağın hüququ pozulur?

d) Hüquqların pozulması uşaqlara necə təsir edir? Bu onların gələcəyinə necə təsir edə bilər?
e) Bu cür hüquq pozulmalarının qarşısını almaq üçün nələr etmək olar?

**Davamı üçün təkliflər**

- Hekayə hadisələrini rəsmlərdə təsvir edin (məsələn, "Böyük macəralar günü"nün hadisələri, uşaqlar ev şəraitində və b.).
- "Kimin üçün daha vacib" və "Yeni torpaqlara səyahət" oyunlarında bir vəziyyətlə bağlı fərqli hərəkət və dəyərlər haqda danışılır.

**Fəaliyyət üçün ideyalar**

Qrupda anlaşılmazlığın qarşısını almaq üçün uşaqlarla birlikdə ünsiyyət qaydalarını işləyin.

**Aparıcılara məsləhətlər**

- Bəzi uşaqlara hekayələr yad və ya gerçəklikdən uzaq görünə bilər. Həyatda baş vermiş hadisələri və uşaqların problemlərini əks etdirmək üçün, həmçinin bəzi uşaqları digərlərindən təcrid etməmək və onlara yaxın situasiyalarla pis vəziyyətə salmamaq üçün hekayələrdə bəzi dəyişikliklər etmək lazımdır.
- Yoxsul ailələrdən olan uşaqlara özünüdərk məsələlərində xüsusi həssaslıqla yanaşın. Qrupunuzda yoxsul ailələrdən olan uşaqların problemlərini müzakirə etməyə imkan yaradın, amma mütləq vurğulayın ki, bütün uşaqların istədikləri həyatı yaşamaq imkanı olmalıdır və onların hüquqları qəbul olunmalıdır.
- Bəzi uşaqlar özlərini hekayələrin qəhrəmanlarına bənzədə bilərlər. Bu səbəbdən oyun dərin təhlil tələb edir. Hekayələrin bəzi uşaqlarda stereotiplərin və tənqidi yanaşmanın yaranmasına səbəb ola biləcəyini unudmayın. Bu həm imtiyazlı uşaqlara münasibətdə (məsələn, "Onların problemləri yoxdur", "Onlar snobdurlar"), həm də yoxsul uşaqlara münasibətdə (məsələn, "Ailələri onlara kömək etmir", "Onlar tənbəldirlər") özünü biruzə verə bilər. Bu hekayələrin mənası ondadır ki, uşaqlar düşünsünlər: niyə bəzi insanlar yanlış fərziyyələr əsasında tələsik nəticələrə gəlirlər.
- Müzakirələrdə qəhrəmanın nə etdiyi, nə düşündüyü və nə hiss etdiyi arasında fərq qoyun.

**Variantlar**

- Hekayələri ucadan oxuyun və ya xahiş edin ki, uşaqlar özü oxusunlar. Sonra hekayələri *Təlimatın* 3 addımındakı kimi müzakirə edin. Təhlil üçün hər hekayədən sonra suallar verin.
- Qruplara tapşırın ki, yay tətilini düşərgədə keçirən 3 uşağın gündəlik həyatını canlandırsınlar. Onlardan bu zaman nə hiss etdiklərini söyləməyi xahiş edin. İki nəfərdən hekayələrdəki hər uşağın obrazını canlandırmağı xahiş edin: biri oxuduğunu ətrafdakılar üçün danışır və edir, başqası isə uşağın düşüncələrini və hisslərini ucadan ifadə edir.

**Uyğunlaşdırma**

- Gün ərzində düşərgədə baş verənləri yadda saxlamaq üçün azyaşlı uşaqlara əyani material gərəkdir. Məlumatın çox olması azyaşlı uşaqlarda diqqətin yayılmasına və müzakirə zamanı çətinliklərin yaşanmasına gətirə bilər. Uşaqların bir hekayəni anladıqlarından əmin olun, sonra isə növbəti hekayənin müzakirəsinə keçin.

## Paylama materialı

**Uşaqların çoxu yayda düşərgələrə gedir. Aşağıda verilən hekayələri biz birinci dəfə yay düşərgəsində rastlaşan üç uşağın gündəliyindən götürmüşük. Onlar yaşıddırlar və eyni oyunlarda iştirak edirlər. Bir dəfə dəstə rəhbəri "Böyük macəralar günü" oyununu keçirdirdi. Həmin gün axşamçağı üç uşaq oyun zamanı baş verənləri öz gündəliklərində yazmışdılar.**

---

***Marqaret bu hekayəni yorğanın altında fənərin işığında yazıb.***

Əziz gündəlik!

Necə gözəl bir gün idi. Biz ağla gəlməz şeylər eləmişdik və mən düşünürəm ki, bu mənim həyatımın ən gözəl günü idi. Biz çox maraqlı və bəzən təhlükəli oyunlarda iştirak etdik. Amma mənə heç qorxulu deyildi. Məndən fərqli olaraq oyun dostlarımın xoşuna gəlmədi. Hərçənd ki, mən əksinə ümid bəsləyirdim.Təəssüf ki, Elza və Rikardo bu gün çox qəribə idilər.

Gəlin hekayəmi ən başdan başlayım.

Biz yuxudan ayılanda rəhbərimiz bizi müxtəlif qruplara böldü. Mən, Elza və Rikardo bir qrupa düşdük. Onların hər ikisindən xoşum gəlir: dünən də biz bir qrupda idik və müxtəlif zarafatlar edib xeyli gülmüşdük. Rəhbərimiz bizə 3 şifrə olunmuş məktub verib onların şifrələrini açmağı tapşırdı. Mən tapşırığın öhdəsindən birinci gəldim. Bir azdan Rikardo da öz tapşırığını yerinə yetirdi, Elzanın işi isə ləngiyirdi. Mən ona öz köməyimi təklif edəndə, o mənə cavab verdi ki, oyun onun xoşuna gəlmir və şifrənin açılması maraqsız bir işdir. Mən gördüm ki, o, vərəqi tərsinə tutub və güldüm. Dedim ki, o, şifrəni heç vaxt açmayacaq. O mənə hirsli baxdı və vərəqi tullayıb dedi: "Mən oynamaq istəyirəm, bunu oxumaq istəmirəm". Mən düşünürəm ki, o çox da ağıllı deyil. Ümumiyyətlə, görəsən Elza oxumağı bacarır? Bu mənə qəribə gəldi, çünki mənim yaşıdlarımın əksəriyyəti oxumağı və yazmağı bacarır. Buna baxmayaraq, nəhayət, 3 şifrənin hamısını qıra bildik. Sonra biz futbol oynadığımız rəqib komanda ilə çayın sahilinə yollandıq. Vaxtımız çox şən keçdi.

Qalib gələcəyimizə az qalmışdı, amma məhz Elzanın səhvi üzündən uduzduq. Hər dəfə top ona yaxınlaşanda Elza ona əli ilə toxunurdu, başqa uşaqları ayağı ilə vururdu və milyon səhv buraxırdı. Elə bil ki, o, əvvəllər heç vaxt futbol oynamamışdır. Bu qəribə idi, çünki biz hamımız dərsdən sonra futbol oynayırıq. Gələn dəfə mən Elza ilə ayrı-ayrı qruplarda olmaq istəyirəm.

Nahardan sonra (burada yemək çox pisdir) biz çayı keçmək üçün bir sal düzəltməli idik. Bu çox maraqlı idi, çünki biz ağac parçalarını axtarmalı idik, sonra ipdən müxtəlif düyün vurmalı idik. Elza və mən yaxşı odun tapırdıq, Rikardo isə yalnız nazik çubuqlar gətirirdi. Mən ona dedim ki, o oğlan olduğundan bizdən qat-qat yaxşı işləməlidir. Rikardo cavab verdi ki, onun başı gicəllənir və beli ağrıyır. Mən düşünürəm ki, bu işləməmək üçün bir bəhanə idi. Biz tapşırığı bitirəndə ən yaxşı bizim sal hesab olundu. Hətta dəstə rəhbərimiz də bunu qeyd etdi. Sonra o, "Bir, iki, üç!" komanda verdi və biz hamımız sala hoppanıb çayı bir yerdə keçməyə hazırlaşdıq. Mən birinci hoppandım, amma suya düşdüm. Brrrr...su həddindən artıq soyuq idi, hətta mən əvvəlcədən qışqırdım. Xoşbəxtlikdən dəstə rəhbərimiz mənə sudan çıxmağa kömək etdi, sonra biz hamımız gülüşdük. Mən yoldaşlarıma suyun necə soyuq olduğunu danışanda Rikardo dedi ki, səyahəti davam etmək istəmir. Mən düşünürəm ki, o, soyuq sudan qorxdu. Mən heç bilməzdim ki, o, belə zəifdir! Əvvəl odunlar, indi də su. Mən deyəndə ki, bir az cəsarətli olmaq lazımdır, o, ağlaya-ağlaya qaçdı. Heç düşünmürəm ki, mən bir daha onunla eyni qrupda olmaq istəyəm. Bəli, gələn dəfə rəhbərdən xahiş edəcəm ki, məni ayrı qrupa salsın, çünki Elza səfeh, Rikardo isə sadəcə zəifdir. Ondan sonra mən Elza və Rikardo ilə danışmadım və ... oy, deyəsən, dəstə rəhbərlərimiz bizim otağa gəlirlər. Gecən xeyrə qalsın, əziz gündəliyim. Sabah sənə yenə təzə xəbərlər çatdıracam.

Sevgi ilə, Marqaret.

---

***Növbəti gündəlikdə qeydləri Elzanın əvəzinə rəhbər etmişdir.***

Gündəliyim, salam!

Sən mənim ilk gündəliyimsən, mən isə Elzayam. Ümüd edirəm ki, sən mənimlə uzun müddət bərabər olacaqsan. Mən dəstə rəhbərindən xahiş etdim ki, bu səhifəni mənim əvəzimə yazsın. O dedi ki, böyüyəndə düşərgədə nə etdiyimi mən özüm oxuya biləcəm. Bu fikir mənim xoşuma gəldi. Biz başqa uşaqlardan kənarda oturmuşuq, çünki mən istəmirəm kimsə bilsin ki, rəhbər mənə kömək edir.

Bu gün tədbirlərlə zəngin bir gün idi. Səhər mən Marqaret və Rikardo ilə eyni qrupda olmalı idim. Mənim Rikardodan daha çox xoşum gəlir. Cünki Marqaret həmişə hamıdan çox bildiyini düşünür.

Hər şey şifrənin açılması tapşırığından başladı. Hələ yazıb oxumağı tam yaxşı bacarmadığım üçün belə tapşırıqlardan xoşum gəlmir. Marqaret isə daima qışqırıb digərlərini tələsdirirdi. Mən cox istərdim ki, yaxşı oxuyum. O zaman mən yer üzündəki bütün kitabları oxuyaram. Amma atam gedən gündən mən evdə oturmalı oldum və anam işdən gələnədək evin kiçik uşaqlarına baxmalı idim. Mən həqiqətən də məktəbə getməyi çox istəyirəm. Amma anam həmişə deyir ki, kitab oxumağı bilməkdənsə, yemək tapmaq daha vacibdir. Mən istəmirdim Rikardo və Marqaret mənim oxuya bilmədiyimi başa düşsünlər. Ona görə də özümü elə aparırdım ki, guya şifrəni açmağa çalışıram. Amma sonra Marqaret mənə güldü və mən buna görə həm dilxor oldum, həm də ki əsəbiləşdim. Sonra eyni hal futbolda da yaşandı. Mən komandamızın qalib olmasını çox istəyirdim. Amma nə edirdimsə, hamısı səhv olurdu. Məndən başqa hamı bu oyunu bilir. Mən uşaqların məktəbdən qayıdan zamanı necə futbol oynadıqlarını görürəm. Amma anam deyir: “Əgər sənin oynamağa vaxtın varsa, deməli işləməyə də vaxtın var”. Ona görə də mən futbol oynamağı öyrənə bilmədim.

Nahardan sonra biz çayı keçmək üçün sal hazırlamalı idik. Düşünürdüm ki, mən bu işdə Rikardo və Marqaretdən yaxşıydım. Çünki mən düyün bağlamağı və möhkəm salın düzəltməsi üçün hansı ağac parçalarının lazım olduğunu bilirəm. Amma Rikardo özünü çox qəribə aparırdı. Marqaret suyun necə soyuq olduğunu dedikdə o, qorxusundan az qalmışdı ki şalvarını batırsın. Ümüd edirəm ki, biz sabah yenə eyni qrupda olacağıq. Onlara sübut etmək istəyirəm ki, mən çox şeyi bacarıram! Və düşərgəmizin dəstə rəhbərləri mənim çox xoşuma gəlir!

Hələlik, gündəlik. Sabahadək.

Elza

---

***Rikardonun bir neçə il ərzində yazdığı böyük gündəliyi var. "Böyük macəralar günü" haqqında yazdıqları bunlardır.***

Mənim əziz gündəliyim!

Mən necə üzgün və kədərli olduğum haqqında danışmaq üçün yenə sənə yazıram. Səhər mənim sevdiyim oyunlarda iştirak edirdik. Şifrə mənim üçün çox asan idi, çünki evdə mən tez-tez sehrli şifrələrin açması ilə məşğulam. Futbolda isə həmişəki kimi qapıçı oldum.
Nahar əla idi, bəlkə də mənim indiyədək yediklərimdən daha dadlı idi. Burda mən çoxlu yeyirəm, evdə isə kiçik qardaş və bacılarımın yeyib qurtarmasını gözləməli oluram. Amma burda belə deyil! Mən hətta təkrar-təkrar yeyə bilərəm. Bu mənim elə xoşuma gəlir ki! Düşünürəm ki, mən hətta sağalacam. Artıq evə gedəndə cılız oğlan olmayacam.
Amma günün ikinci yarısı dəhşətli idi. Biz ağır odunları daşımalıydıq, sonra isə soyuq suya girməli idik. Bu mənim xoşuma gəlmədi, cünki mən 100 faiz xəstələnə bilərdim. Və mən bu işlə daha məşğul olmaq istəmədim. Mənim atam demişdi ki, o, yeni iş yeri tapan kimi məni xəstəxanaya aparacaq və mən yenə sağlam olacam. O deyir ki, onda mənim istədiyim bütün oyunlarda iştirak etməyə imkanım olacaq və daha bütün günümü yataqda keçirməyə məcbur olmayacam. Mən çox istəyirdim ki, atam günü sabah özünə iş tapsın. Onda mən tez sağalaram! Mən düşərgədəki başqa uşaqlara bu haqda demək istəmirəm. Çünki o zaman onlar biləcək ki, bizim evdə pul yoxdur və buna görə mənə güləcəklər.
Əziz gündəlik, mən nə zaman sağalacam? Mən başqa uşaqlar kimi olmaq istəyirəm. Mən də oynamaq, qaçmaq və hoppanmaq istəyirəm. Ümüd edirəm ki, bu tezliklə baş verəcək. Amma qorxuram ki, bu heç zaman olmayacaq.
Əziz gündəliyim, gecən xeyrə qalsın. Sabah mən sənə yenə nəsə danışacam. Mənim sirlərimi yalnız sən bilirsən.

Rikardo

# Gəlinciklər hekayə danışır

*...siz isə xoşbəxt sonluq fikirləşirsiniz!*

| | |
|---|---|
| **Mövzu:** | İnsan hüquqları |
| **Çətinlik dərəcəsi:** | II dərəcə |
| **Yaş həddi:** | 8-13 yaş |
| **Tələb olunan vaxt:** | 120 dəqiqə |
| **İştirakçı sayı:** | 8-24 uşaq |
| **Oyunun növü:** | Gəlinciklər vasitəsi ilə hekayələrin səhnələşdirilməsi, müzakirə. |
| **Xülasə:** | Uşaqlar onlara tanış olan hüquqların pozulduğu əhvalatları xatırlayır, həmin əhvalatların əsasında hekayə fikirləşib gəlinciklərlə səhnələşdirirlər. Hekayəyə yeni sonluq düşünürlər. |
| **Vəzifələr:** | Tanış əhvalatlarda insan hüquqlarını görmək.<br>Hüquqlar pozulduqda həlli yolunu tapmaq.<br>Birlikdə şənlənib çalışmaq. |
| **Hazırlıq:** | Nümunə üçün gəlincik hazırlayın. |
| **Materiallar:** | Marionet kuklalar, gəlinciklər və ya gəlincik düzəltmək üçün materiallar.<br>Kukla teatrı və ya səhnə düzəltmək üçün materiallar. |

**Təlimat**

1. Uşaqlardan xahiş edin ki, tanış hekayələrdə haqsız davranış göstərilən personajları yada salsınlar. Bu personajların və hekayələrin real həyatda baş verənləri əks etdirdiyini onlara anladın. Uşaqlar müxtəlif mənbələri analiz edə bilərlər (məsələn, xalq nağılı, uşaq kitabından, kinofilmdən, verilişdən səhnələr).

2. Uşaqlar bir neçə fikir deyəndən sonra onları 3-4 nəfərdən ibarət kiçik qruplara bölün. Qrupda hər uşaq ona tanış olan hekayəni qrupun digər iştirakçılarına danışmalıdır. Bütün iştirakçılar hekayələrini danışdıqdan sonra qrupdan hüquq pozuntularını sadalamağı xahiş edin.

3. Öz hekayələrini danışdıqdan sonra bir hekayəni seçib səhnələşdirməyi təklif edin. Hər qrupa marionet kuklaların hazırlanması, səhnəciyin məşqi üçün 30 dəqiqə vaxt verin. Hər uşağın səhnəcikdə ən azı bir rolu olması şərtdir. Marionet kuklanın necə hazırlanmasını göstərin.

4. Sıra ilə hər qrupu öz kukla səhnəciyini təqdim etməyə dəvət edin. Çıxış edənlər hüquqların pozulmasına çatanda siz və ya digər qrup üzvləri “Stop!“ deməlidir. Hərəkət dayandırılır və uşaqlar aşağıdakıları müzakirə edirlər.

a. Hansı hüquq pozulub?

b. Personajı müdafiə etmək üçün səhnəciyin gedişatını necə dəyişə bilərik?

5. Səhnəcik təqdim edən qrupdan bir və ya daha çox sonluq improvizə etməyi xahiş edin.

**Analiz və qiymətləndirmə**

1. Aşağıda verilən sualların köməyi ilə oyunu analiz edin:

a. Öz səhnəciyiniz haqqında nə düşünürsüz?

b. Niyə sizin qrup səhnələşdirmək üçün məhz bu hekayəni seçdi?

c. Hekayə seçərkən hansı üsuldan istifadə etdiniz? Bəs rolları müəyyənləşdirəndə?

2. Aşağıdakı suallar vasitəsi ilə oyunu insan hüquqları ilə uzlaşdırın.

a. Səhnəciklərdə təqdim edilən hadisənin qəhrəmanı və ya eyni hadisənin şahidi olmusunuz?

b. Bu hadisələri insan hüquqları ilə nə bağlayır? Hər hansı hüquq pozulmuşdurmu? Hər hansı hüquq müdafiə və ya istifadə olunmuşdurmu?

c. Təqdim olunan səhnəciklərdə insan hüquqlarının pozulması problemi aradan qalxdımı?

d. Belə problemi həll etmək üçün öz həyatınızda nə edə bilərsiniz?

**Davamı üçün təkliflər**

Hadisələr, xüsusən həll yolu tapmaq cəhdləri uşaqlarda insan hüquqları haqqında suallar yarada bilər və onları cavablandırmaq üçün əlavə informasiya almaq istəyi yaranar. Uşaq Hüquqları Konvensiyasından suallarına cavab tapmaqda onlara kömək edin. Uşaqların nə edə biləcəyi haqqında danışmaq üçün müvafiq orqanların təmsilçilərinin dəvəti barədə düşünün.

**Fəaliyyət üçün ideyalar**

Başqa uşaqlar, valideynlər və ya qonşular üçün tamaşa hazırlayın. Tamaşada təsvir edilən insan hüquqlarını, onların pozulmasını tamaşaçılara izah etmələrini uşaqlardan xahiş edin.

**Aparıcıya tövsiyələr**

- Məsləhət görürük ki, ümümi yox, konkret mövzunu götürəsiniz (məsələn, gender diskriminasiyası və ya sözlərlə təhqir).
- Aparıcı uşaqlara insan hüquqları ilə hekayə arasındakı bağı tapmaqda kömək etmək üçün hekayələrdə hansı insan hüquqlarına toxunulduğunu bilməlidir.
- Qrupda səhnəcik qurulmasında yaranan problemlər istisna olmaq şərti ilə qrupun işinə qarışmayın.

- Həll yolları düşünərkən balaca uşaqlara kömək lazım ola bilər. Əgər bir neçə həll yolu mövcuddursa, uşaqlara seçim etməkdə köməklik göstərmək lazım olacaq. Hər variantın üstünlüklərini görməkdə onlara kömək edin.
- Əgər uşaqlar böyük əsər seçərlərsə, məsələn, roman və ya film, onlara bir səhnə seçməyə kömək edin.
- Bu oyunu iki və ya üç dəfə keçirmək olar.
- Əgər sizin kukla teatrınız yoxdursa, böyük süfrə götürün, uşaqlar onun arxasında oturub, kuklalarla səhnəcik qursunlar.
- Kuklalar müxtəlif ola bilər: hazır kuklalar da istifadə edə bilərsiniz və ya özünüz də tullantı materiallarından hazırlaya bilərsiniz. Kuklalara çox zaman itirməyin. Əsas səhnəciyin təqdim edilməsidir.
- Uşaq klassikasını tövsiyə edirik: “Qırmızı papaq”, “Üç ayı”, “Zoluşka”, “Piter Pen” və s.
- Kompasitodan tövsiyə olunan digər oyunlar: “Əziz gündəlik”, “Müasir nağıl”, “Biri var idi, biri yox idi”.

**Variantlar**

- Böyük uşaqlarla işləyərkən öz şəxsi təcrübələrinə əsaslanaraq hekayələr düşün-mələrini xahiş edin (məsələn, diskriminasiya, zorakılıq və ya konfliktlərin idarə edilməsi).
- Uşaqlardan hər hansı bir qəhrəmanın xarakterik xüsusiyyətini dəyişməyi xahiş edin (məsələn, “Qırmızı papaq”dakı canavarı şayiələr qurbanı edin, ”Biri var idi, biri yox idi” oyunundakı kimi gender rollarını dəyişin).
- Bu oyunu ailələrlə evdə keçirmək olar.

# Gözəgörünməzlər gəlir

## Hüquqlarınız uğrunda mübarizə aparın!

| | |
|---|---|
| **Mövzular** | Diskriminasiya |
| **Mürəkkəblik səviyyəsi** | 2-ci səviyyə |
| **Yaş həddi** | 8-13 yaş |
| **Davam müddəti** | 120 dəqiqə |
| **İştirakçıların sayı** | 6 aparıcı ilə birlikdə 30-dan çox uşaq |
| **Oyunun növü** | Fəal qrup yarışı |
| **İcmal** | Komandalar birlikdə ümumi “düşmən”ə qarşı fəaliyyət göstərirlər. |
| **Tapşırıqlar** | Əməkdaşlıq və həmrəyliyə kömək etmək. |
| **Hazırlıq** | - Aparıcının rolu və tövsiyələr daxil olmaqla bütün oyunu öyrənin.<br>- Açıq havada yaxud böyük məkanda sizə uyğun yer tapın.<br>- Hansı hüquqlardan istifadə etməyi qərara alın.<br>- Materialları toplayın.<br>- Hər bir uşaq üçün “Paylama materialı” bölməsində olan “pasport”un surətini çıxarın.<br>- Aparıcılar və gözəgörünməzlər üçün “Paylama materialı” bölməsində olan rolların surətini çıxarın.<br>- Hər bir hüquq personasının təqdim etdiyi hüququ göstərmək üçün nişanlar hazırlayın.<br>- Gözəgörünməzlər üçün nişanlar hazırlayın.<br>- Oyundan qabaq kimin gözəgörünməz olacağını qərara alın, yaxşı olar ki, bu, böyüklər yaxud böyük yaşlı uşaqlar olsun. Minimum 1 gözəgörünməz, idealda isə 30 uşağa 3 gözəgörünməz olmalıdır.<br>- Oyundan qabaq aparıcılardan rollarına uyğun |

| | |
|---|---|
| | geyinmələrini xahiş edin: aparıcılar hər komandanın geyim rənginə uyğun geyinməlidir (hüquq personaları); 1 aparıcının isə geyimində bütün 4 rəng olmalıdır (müxtəlif rənglərə hüququ olan persona); 6-cı aparıcı isə neytral geyinir, məsələn, ağ köynək geyinir (gözəgörünməz persona). |
| **Materiallar** | - 4 rəngdə şirə və ya yoqurtlar olan şüşələr;<br>- Hər bir uşaq üçün qırılmayan fincan;<br>- Rəngli və sehrli dərman üçün bir böyük küpə;<br>- Rəngli dərmanı tökmək üçün çömçə;<br>- Şirələrinizin rənginə uyğun 4 rəngdə üz boyası;<br>- Hər bir uşaq üçün və üstəgəl bir neçə əlavə “pasport”, (paylama materialı);<br>- Gözəgörünməzlər və hüquq personası üçün nişanlar;<br>- Marker yaxud qələmlər: gözəgörünməzlər üçün 4 qara marker, hüquq personaları üçün komandaların rənginə uyğun 4 marker;<br>- Hər ehtimala qarşı ilk yardım üçün tibb çantası;<br>- “Ov mövsümü”nü elan etmək, oyunu başlamaq və bitirmək üçün fit və ya şeypur. |

**Təlimat**

**1.** Aparıcılar hüquq personalarına və gözəgörünməzlərə rollarını izah etdikdən sonra onlar öz rənglərində paltar geyməli və nişanlarını taxmalıdırlar. Oyun başlayana qədər gözəgörünməzlər kənarda qalmalıdırlar.

**2.** Oyunu dramatik təsvirlə başlayın:

a) Həyat rəngarəngdir – bu, çox yaxşıdır. Lakin rəngbərəng dünyanı böyük təhlükə gözləyir. Hər yüz ildən bir kosmosdan gözəgörünməzlər axışıb gəlirlər. Gözəgörünməzlər rənglərə nifrət edirlər. Onlar dünyada bütün rənglərdən qurtulmaq və bizi özləri kimi rəngsiz və gözəgörünməz etmək istəyirlər.

b) Nə qədər ki, gec deyil biz onları saxlamalıyıq! Yeganə üsul qədim ayinləri təkrar etməkdir. Biz güclü təsir edən “rəngli dərman” hazırlamalı və onu içməliyik. Əgər bizdə alınacaqsa, dünya xilas olacaq və gözəgörünməzlər yüz illik yox olacaqlar. Rəngarəng olmaq hüququ uğrunda döyüş başladı.

**3.** Uşaqları 4 komandaya bölün və hər bir komandaya şirələrin rənginə uyğun rəng təyin edin. Hər bir komandaya üz yaxud digər əşyaları (məsələn, şlyapa, parça) rəngləmək üçün boya verin ki, özlərini rəngləsinlər.

**4.** Oyunu izah edin. Oyun iştirakçıları üçün rollar budur:

a) öz komandasına uyğun rəngdə geyinmiş 4 hüquq personası.

b) rənglərə nifrət edən "gözəgörünməzlər".

c) öz komandasının rənginə uyğun geyimli uşaqlardan ibarət 4 komanda

**5.** Rəngli dərmanı hazırlamaq üçün siz küpəni 4 rəngli şirə ilə doldurmalısınız (hər bir uşağa fincan paylayın).

**6.** Bunun üçün siz fincanı rənginizə uyğun şirə ilə doldurmalısınız; bu şirəni sizin rənginizə uyğun hüquq personasından almaq olar. Hər bir persona hər hansı bir hüququ bildirir (Qrupun hüquq personasını təqdim edin və onlardan hansı hüquqları təqdim etdiyini izah etməyi xahiş edin. Sonra onlar kənara çəkilib dayanacaqları yer haqqında danışmalıdırlar).

a) Sizin fincana şirə süzülsün deyə 4 hüquq personasından imza almalısınız. Fincanı doldurmazdan qabaq sizin hüquq personanız sizdə 4 mühüm imzanın olduğunu görmək üçün "pasport"unuzu yoxlayır (hamıya "pasport" paylayın).

b) Sizin fincana şirə tökülən kimi siz müxtəlif rəngli hüquqları təqdim edən mərkəzdəki adama tərəf gedin və şirənizi küpəyə tökün. (Bu şəxsi rəngarənglik hüququnu əks etdirən insan kimi qəbul edin.)

c) Sonra isə yenidən şirə almaq üçün imza toplamağa davam edin. Bu proses, şirənin səviyyəsi küpənin üstündə qeyd olunmuş minimal qiymətə çatana qədər davam edir.

ç) Yadda saxlayın: "rəngli dərman" növbəti yüz il ərzində gözəgörünməzi aradan götürən yeganə üsuldur.

d) Gözəgörünməzlərin necə hücum etdiyini izah edin.

e) Yada salın ki, gözəgörünməzlər "rəngli dərmanı" hazırlamaqda sizə mane olmaq istəyirlər. Onlar qəfil hücum edə və sizi tutmağa cəhd göstərə bilərlər. Ovun başlanmasını qısa fit verməklə elan edin.

ə) Gözəgörünməz sizə toxunan zaman iki hadisə baş verə bilər:

- O siz topladığınız bütün imzaları pozacaq və ya
- O sizin fincanınızdakı şirəni içəcək.

Lakin gözəgörünməzlərdən müdafiə olunmaq mümkündür. Gözəgörünməzlər rəngli oyunçunu yalnız o tək olduğu zaman tuta bilərlər. Əgər müxtəlif rəngli

komandalardan olan 4 oyunçu birlikdə irəliləyirsə, onda gözəgörünməzlər gücsüzləşir və bu oyunçuları tuta bilmirlər.

**7.** Oyunun qaydasını təyin edin:

- Oyunun müddətini elan edin (bu, müəyyən vaxt da ola bilər, yaxud müəyyən qədər “rəngli dərman” toplananadək ola bilər)
- Oyunun başlanma və sona çatma siqnallarını izah edin (məsələn, 1 uzun fit - başlanğıc, 3 uzun fit - sona çatma)
- Oyun meydançasının sərhədini təyin edin.

**8.** Oyun meydançasının mərkəzində durub neytrallıq nümayiş etdirən aparıcının yanında dayanmış komandalarla meydançanın mərkəzində oyuna başlayın.

a) Oyunun bitməsi haqqında fit verin və bütün uşaqları mərkəzi postda toplayın.

b) Gözəgörünməzlər üzərində qələbəni elan edin: “Döyüş çox ağır idi, lakin biz öz rəngarənglik hüququmuzu qoruya bildik! Biz birlikdə axıra kimi dayandıq!”

c) İzah edin ki, biz birgə hazırladığımız “rəngli dərman”ı içərək, öz qələbəmizi qeyd edəcək və kiçik qruplarda döyüşü müzakirə edəcəyik.

d) 4 komandanı bölüşdrüb 4 qrupa ayırın. Aparıcını və hər bir qrupun yerləşəcəyi yeri müəyyən edin.

e) Hamını öz fincanını doldurmağa və öz qrupu ilə birləşməyə dəvət edin. Rəngli hüququ təqdim edən adam şirəni fincana süzməyə kömək edir.

**Təhlil və qiymətləndirmə**

**1.** Əməkdaşlığın mühümlüyünü qeyd edərək və belə suallar verərək oyunu təhlil edin:

a) Oyun zamanı nə baş verdi?

b) Ən maraqlı anlar hansı idi?

c) Sizin müəyyən edilmiş strategiyanız var idimi?

d) Əgər siz bu oyunu yenidən oynasaydınız, nəyi başqa cür edərdiniz?

e) Başqa komandalarla birlikdə işləyirdinizmi? Bu əməkdaşlıq nə vaxt başladı? Nə üçün belə əməkdaşlıq faydalı idi?

f) “Əməkdaşlıq” və “həmrəylik” sözlərini kim izah edə bilər? – deyə soruşun.

**2.** Belə suallar verərək, bu oyunu diskriminasiya ilə əlaqələndirin:

a. Real həyatda gözəgörünməzlər kim ola bilər? Hüquq personaları haqqında nə fikirləşirsiniz?

b. Doğrudanmı rəngarənglik hüququ mövcuddur? Bu nəyi bildirə bilər?

c. Hüquq personaları hansı hüquqları təqdim edirdilər? Bu hüquqlar bizə lazımdırmı? Bizdə başqaları varmı? Bu hüquqlardan biri ləğv olarsa, nə baş verə bilər?

d. Bizim müdafiə hüququmuz varmı? Əgər varsa, bu nə deməkdir?

e. Hamının eynihüquqlu olmasına zəmanət vermək üçün biz həyatda nə edə bilərik?

**Davam üçün təkliflər**

- Davam üçün daha sakit oyun seçin, məsələn, “Oğlanlar ağlamaz”.

**Fəaliyyət üçün ideyalar**

Uşaqlara cəmiyyətdəki müxtəliflik nümunələrini tapmaq barədə tapşırıq vermək (məsələn, evdə hansı dildə danışırlar, hansı dinə inanırlar, yaxınlıqda yaşayan insanlar harada doğulublar). Bu iş diskussiya üçün mövzu ola bilər.

**Aparıcılara məsləhətlər**

- Bu oyunda konkret hərəkətlər abstrakt fəlsəfi əhəmiyyət daşıdığı üçün oyunun təhlili həlledici məna kəsb edir. Təhlil vacibdir ki, uşaqlar bu fəaliyyəti sadəcə cəlbedici oyun kimi qəbul etməsinlər. Bəzi kiçik yaşlı uşaqlar oyunun hüquqlar və dözümlülüklə əlaqəsini başa düşməyə bilər. Böyük yaşlı uşaqlar bu əlaqəni öz sözləri ilə ifadə etməyə cəhd etməlidir.
- Bu oyun aşağıdakı rolları ehiva edir:

- 5 nəfərdən az olmayaraq hüquq personaları.

- Ən azı 1 (idealda isə 3) nəfər gözəgörünməz. Bu rolu böyüklərin oynaması tövsiyə edilir. Əgər böyüklərin sayı azdırsa, onda böyük yaşlı uşaqlar gözəgörünməz ola bilərlər. Gözəgürünməz uşaqlar qaydaları dəqiq öyrənməli və bilməlidirlər ki, “tutmaq” üçün yüngülcə toxunmaq kifayətdir.

- Qalan iştirakçılar – rənginə görə tanınan 4 komandaya bölünmüş uşaqlardır. Sizin qrupunuz nə qədər böyükdürsə, bir o qədər çox gözəgörünməz tələb edilir: 5-6 nəfər.

- Yerli adət ənənələrlə oyun arasındakı əlaqəni göstərin (məsələn, vampirlər, druidlər, trollar, kabuslar).
- Əgər mümkündürsə, gözəgörünməzlərin hücumu haqqında xəbər verən, oyunun başlaması və bitməsi haqqında məlumat verən siqnalları fərqləndirmək üçün müxtəlif səs mənbəyindən və fitlərdən istifadə edin.

**Paylama materialı: pasport**

| Rəngarənglik hüququ uğrunda döyüş pasportu | | | | | |
|---|---|---|---|---|---|
| | **I raund** | **II raund** | **III raund** | **IV raund** | **V raund** |
| **Hüquq 1** | | | | | |
| **Hüquq 2** | | | | | |
| **Hüquq 3** | | | | | |
| **Hüquq 4** | | | | | |

**Paylama materialı: rol kartoçkaları**

**Hüquq personasının rolu (4 nəfər yaşlı adam)**

- Siz ____________ hüququnu təmsil edirsiniz. Sizin rənginiz ______.
- Oyun meydançasının uzaqküncündə dayanın və oyunun sonunadək orada qalın. Sizin mövqeyiniz gözəgörünməzdən təhlükəsiz məsafədə yerləşir.
- Sizin iki tapşırığınız var:

1. Hər bir oyunçu sizdən öz pasportunu imzalamağı xahiş edəcək. Oyunçularda 4 hüquq personasının imzası toplananda onlar komandanın rənginə uyğun olan hüquq personasından bir fincan şirə ala bilərlər.
2. Sizin komandadan kimsə 4 imza ilə sizə yaxınlaşarsa, imzaları pozun və oyunçuya bir fincan şirə süzün.

- Postda isə sizə aşağıdakılar lazımdır: komandanızın rəngində marker, şirə.

**Rəngarənglik hüququnu təqdim edən oyunçunun rolu (1 nəfər yaşlı adam)**

- Siz insanın bütün hüquqlarını təqdim edirsiniz. Siz 4 rəngin hamısını daşıyırsınız.
- Oyun meydançasının mərkəzində yerləşin və sonadək öz yerinizdə qalın. Sizin mövqeyiniz gözəgörünməzdən təhlükəsiz məsafədə yerləşir.
- Sizin 3 tapşırığınız var:

1. Şirənin küpəyə tökülməsinə nəzarət etmək.
2. Oyunçuları dəstəkləmək.
3. Oyunun sonunda hamıya şirə süzmək.

- Postda sizə aşağıdakılar lazımdır: böyük küpə, çömçə.

**Gözəgörünməzin rolu (1-3 nəfər yaşlı adam yaxud böyük uşaqlar)**

- Oyunda siz dözümsüzlük və rasizmi əks etdirən şər qüvvələri təqdim edirsiniz. Dünyada rənglərin müxtəlifliyi sizin xoşunuza gəlmir və siz hər şeyi solğun etmək istəyirsiniz.

- Sizin tapşırığınız – komandaların “rəngli dərman” hazırlamağına mane olmaqdır. Siz uşaqları yalnız onlar tək olan zaman tuta bilərsiniz. Əgər müxtəlif rəngdə geyinmiş 4 uşaq əl-ələ tutubsa, siz gücsüzsünüz.
- Onları tutmaq üçün siz ehmalca uşağa toxunmalısınız.
- Gözəgörünməz olduğunuzu göstərən nişanı üzərinizdə gəzdirin.
- Siz uşağa toxunan zaman üçündən birini edə bilərsiniz:
  1. Uşağın pasportundakı imzalardan birini silmək.
  2. Uşaqdakı şirəni içmək.
  3. Əgər bunların heç biri uşaqda yoxdursa, sadəcə onu buraxmaq lazımdır.
- Bütün gözəgörünməzlər eyni zamanda təxminən hər 5 dəqiqədən bir rənglərin ovuna çıxırlar. Ovun başlanması fitlə elan edilir. Oyunun qızışmasını dəstəkləmək üçün sizə fitçalan verə bilərlər ki, bütün oyun ərzində fit verəsiniz. Hətta siz qışqıra bilərsiniz: “Mən göy rəngə nifrət edirəm!” yaxud “Rədd olsun rənglər!”
- Sizin məqsədiniz daha çox sayda uşaq tutmaq deyil, oyuna maraq qatmaqdır.
- Siz hətta uşaqları əməkdaşlığa sövq edə bilərsiniz: “Aha, mən çox şadam ki, siz birlikdə getmirsiniz, yoxsa mən sizi tuta bilməzdim”.
- Rolunuz üçün sizə fitçalan və qara marker lazımdır.

## İnsan hüquqları mobili

***Hər kəsə öz hüquqlarımı göstərə biləcəyimlə fəxr edirəm!***

| | |
|---|---|
| **Mövzular** | Ümumi insan hüquqları, gender bərabərliyi |
| **Çətinlik dərəcəsi** | II dərəcə |
| **Yaş həddi** | 10-13 yaş |
| **Müddət** | 120-180əqiqə |
| **İştirakçı sayı** | 1 – 20 uşaq |
| **Oyunun növü** | Yaradıcı oyun |
| **Xülasə** | Uşaqlar onlar üçün ən vacib olan hüquqları nümayiş etdirən mobil (tavandan asılmış hərəkətli oyuncaqlar) quraşdırırlar (oyunun sonundakı nümunəyə diqqət yetirin) |
| **Vəzifələr** | • Əsas hüquqların məzmun və əhəmiyyətinin müzakirəsi;<br>• Öz ətrafında hansı hüquqlara riayət edildiyini öyrənmək;<br>• Hüquqlarla bağlı gender fərqlərini tədqiq etmək. |
| **Hazırlıq** | • Texniki üsullara yiyələnmək üçün mobil hazırlamağı təcrübədən keçirin.<br>• Uşaqlara bunun nə olduğunu göstərmək üçün nümunə mobil hazırlayın .<br>• Flipçartda və ya sinif lövhəsində 10 hüququn qısa versiyasını yazın.<br>• İnsan fiqurları kəsin. |
| **Materiallar** | • Ağ kartondan kəsilmiş insan fiqurları;<br>• Rəngli materiallar (məsələn, mum təbaşirlər, boyalar, markerlər);<br>• Hər bir uşağa hər bir rəngdən (göy, ağ və qırmızı) 3 dənə olmaqla zolaq;<br>• Hüquqları qeyd etmək üçün flipcart və ya sinif lövhəsi;<br>• 20 sm uzunluğunda olan kiçik yüngül çubuqlar (taxta, plastik və ya metal);<br>• Nazik ip;<br>• Yapışqanlı lent, yapışqan və ya stepler; sancaqlar və ya kiçik mismarlar;<br>• Qayçı;<br>• Əlavə material: foto şəkillər kəsmək üçün jurnal. |

**Təlimatlar**

**1.** Uşaqlara mobil nümunəsi göstərərək oyunun şərtlərini və insan hüquqları mobilini hazırlayacaqlarını izah edin (şəkillərə diqqət yetirin).

**2.** Həyatda onlara vacib olan hər şeyi qeyd etmək üçün uşaqlara bir neçə dəqiqə vaxt verin (məsələn, ailə, dostlar, qida, ev, məktəb, oyun).

**3.** Hər uşağa kəsilmiş insan şəklini verin. Kəsilmiş insan fiqurlarının arxasında öz adlarını yazmağı və onları simvolizə edəcək bu fiqurları rəngləməyi uşaqlardan xahiş edin.

**4.** Əvvəlcə hamıya bütün insan hüquqlarının lazım olduğunu, lakin onları istədiyimiz kimi seçə bilmədiyimizi vurğulayın. Lakin mobilin köməyi ilə uşaqlar şəxsən onlar üçün böyük əhəmiyyət kəsb edən hüquqları göstərə bilərlər. Sonra hər uşağa 3 qırmızı, 3 mavi və 3 ağ olmaqla 9 kağız zolağı paylayın. İzah edin ki, qırmızı rəng "ən vacib", mavi "vacib", ağ isə "az vacib" deməkdir.

**5.** Hüquq siyahısı olan flipçart vərəqini uşaqlara göstərin. Sonra Uşaq Hüquqları Konvensiyasının uşaq versiyasını oxuyun və hər bir maddənin mənasını müzakirə edin. Uşaqlardan maddənin mənası haqqında nə düşündüklərini soruşun və qoy onlar hər bir hüquqa xarakterik nümunələr versinlər. İşiniz bitdikdən sonra uşaqlardan hüquqların siyahısına baxmağı, onlar üçün ən vacib olanları seçib qırmızı zolaqlarda, vacib olanları mavi zolaqlarda, az vacib olanları isə ağ zolaqlarda yazmağı tapşırın. İzah edin ki, hər bir uşağın bütün bu hüquqlara malik olmasına baxmayaraq, bu oyunda onlar üçün ən vacib olan 9 hüququ seçməlidirlər.

**6.** Bütün uşaqlar 9 hüququ 9 rəngli kağız zolaqlarda yazdıqdan sonra mobilin necə hazırlanacağını izah edin. Mobil oyuncaqda tarazlığı necə yaratmağı göstərin.

**7.** Mobilləri görünən yerlərə, məsələn, tavana bərkidin.

**Təhlil və qiymətləndirmə**

**1.** Bütün mobillər hazır olduqda hüquqların prioritetliyini (üstünlüyünü) təhlil etmək üçün aşağıdakı cədvəldən istifadə edin. Bu sualları verərək nəticələri müzakirə edin:

a. Qrupunuz üçün hansı hüquqlar daha vacibdir? Bunu necə izah etmək olar?

b. Qrupunuz üçün hansı hüquqlar daha az vacibdir? Bunu necə izah etmək olar?

c. Sizin üçün hansı hüquq daha vacibdir? Sizin şəxsi prioritetləriniz qrupun prioritetlərindən fərqlidirmi? Bunu necə izah etmək olar?

d. Oğlanların və qızların prioritetlərində fərqlər varmı? Bunu necə izah etmək olar?

e. Prioritetləri sizdən fərqli olan digər qrupları təsəvvür edə bilərsinizmi (məsələn, əlil uşaqlar, qaçqınlar, etnik azlıqlar, böyüklər)?

f. Sizin rayonda bütün bu hüquqlara riayət olunurmu?

**2.** Təhlil üçün aşağıdakı sualları verin:

a. Bu oyun haqqında nə düşünürsünüz?

b. Hüquqları prioritetə uyğun olaraq yerləşdirmək çətin idimi?

c. Oyunun hansı hissəsi daha çox xoşunuza gəldi? Nə üçün?

d. Sizi nəsə təəccübləndirdimi?

**3.** Belə sualları verərək oyunu ümumi insan hüquqları ilə əlaqələndirin:

a. Hüquq nədir?

b. Nə üçün bizim ən çox bəyəndiyimiz hüquqlara deyil, bütün hüquqlara sahib olmaq vacibdir?

c. Oğlan və qızlar bərabər hüquqlara malikdirmi?

d. Böyüklərin başqa hüquqları varmı?

e. Sizcə, dünyadakı bütün uşaqlar eyni hüquqa malikdirlərmi? Niyə "hə", niyə "yox"?

f. Bütün uşaqların eyni hüquqlara malik olmasını təmin etmək üçün biz nə edə bilərik?

**Davamı üçün təkliflər**

- "Kim üçün daha mühümdür?" oyunu hüquqların qarşılıqlı əlaqəsini daha dərindən nəzərdən keçirir.

**Fəaliyyət üçün ideyalar**

- Sinfin daha yüksək qiymətləndirdiyi hüquqlarla işləyən yerli təşkilatlarla əlaqə yaradın, onların tədbirlərinə necə qoşulmaq haqqında fikirləşin.
- Uşaqlar bəzi hüquqları az vacib hesab edə bilərlər, çünki onlarla tanış deyildirlər. Bu hüquqlardan bəziləri haqqında daha çox məlumat əldə edin və onların sizin şəhər, rayonunuz üçün nə dərəcədə vacib olduğu barədə tədqiqat aparın.
- İctimai yerlərdə (məsələn, kitabxanada, poçtda, məktəb dəhlizlərində) daha vacib hüquqlar haqqında uşaqların yazdığı şərhlər olan mobillərin sərgisini təşkil edin. 10 dekabr İnsan Hüquqları Gününü və ya digər bir bayramı qeyd etmək üçün sərgidən istifadə edin ("İnsan hüquqları təqvimdə" adlı oyuna baxın).

**Aparıcılara məsləhətlər**

- Qeyd edin ki, nə biz, nə də dövlətimiz insan hüquqlarını seçə bilmir. Bizim bütün hüquqlarımıza hər zaman ehtiyacımız var! İzah edin ki, bu təlimin məqsədi uşaqlar üçün daha vacib hüquqları müəyyən etməkdir. Təlimatın 3-cü addımında və "Təhlil və qiymətləndirmə" bölməsinin 1-ci sualındakı hüquqların qarşılıqlı əlaqəsini xüsusi vurğulayın.
- Əvvəlcədən özünüz kiçik mobil hazırlayın, tarazlıq yaratmaq üçün çəki və məsafəyə görə eksperiment aparın, yapışqan, yapışqanlı lent və kağız tikənin köməyi ilə kağızı ip və çubuqlarla daha yaxşı birləşdirməyi məşq edin.
- Uşaq Hüquqları Konvensiyasından qrupunuz üçün daha münasib olan başqa hüquqları seçə bilərsiniz.

**Variantlar**

- Bu oyunun vaxtını uzadın. Hər bir uşaq, həmçinin cəmiyyətin, Avropanın və ya dünyanın mobil oyuncağını düzəldə bilər.
- Uşaqlara 9 zolaq verin, lakin onlara seçim üçün 9-dan çox hüquq təklif edin.
- Uşaqlardan öz fiqurlarını fikirləşməyi və hazırlamağı xahiş edin.
- Uşaqlardan rəngli zolaqları kəsilmiş foto şəkillərlə və ya rəsmlərlə bəzəməyi xahiş edin.
- Daha yaxşı effekt üçün nəhəng mobil hazırlayın.
- Qrupunuzdakı uşaqların sayından, vaxtdan və aparıcıların sayından asılı olaraq uşaqlar fərdi və ya kiçik qruplarla işləyə bilər. Əgər siz qruplarla işləyirsinizsə, cinslərə görə hansı fərqlərin olduğunu bilmək üçün oğlanları qızlardan ayıra bilərsiniz.

**Uyğunlaşma**

- Kiçik uşaqlar üçün: Bu oyunda əl işlərini yerinə yetirmək üçün aparıcılara kömək lazım ola bilər.
- Böyük uşaqlar üçün: Mobilləri kiçik qruplarda hazırlamağı onlardan xahiş edin, hər bir iştirakçı mobilin hansı görünüşdə olacağı ilə razılaşmalıdır. Təhlil qrup işi ilə bağlı məsələləri və mobilin son görünüşü haqda qərarı da özündə birləşdirməlidir.

**İnsan hüquqları mobili**



**Hüquqlar siyahısının nümunəsi**

Bu cədvəli hər bir hüququn ümumi “hesab”ını çıxarmaq üçün istifadə etmək olar. Qırmızı hüquqlara 3 xal, mavi hüquqlara  2 xal və qalan ağ hüquqlara 1 xal verin.

| ***Bəzi insan hüquqları*** | ***Qızlar*** | ***Oğlanlar*** | ***Ümumi hesab*** | ***Yekun*** |
|---|---|---|---|---|
| Hər uşağın qorunma hüququ var. | | | | |
| Hər uşağın təhsil almaq hüququ var. | | | | |
| Hər uşağın səhiyyə hüququ var. | | | | |
| Hər bir uşağın sərbəst vaxt və əyləncə hüququ var. | | | | |
| Hər bir uşağın ad və vətəndaşlıq hüququ var. | | | | |
| Hər bir uşağın din seçmək hüququ var. | | | | |
| Hər bir uşağın məlumat əldə etmək hüququ var. | | | | |
| Hər bir uşağın birləşmək hüququ var | | | | |
| Hər bir uşağın ailəsi ilə birlikdə yaşamaq hüququ var. | | | | |

## İnsan hüquqları xəbərlərdə

### *Xəbərlərin olmaması yaxşı xəbərdir, elə deyilmi?*

| | |
|---|---|
| **Mövzu** | Ümumdünya insan hüquqları, kütləvi informasiya vasitələri və internet |
| **Çətinlik dərəcəsi** | II dərəcə |
| **Yaş həddi** | 10 – 13 yaş |
| **Tələb olunan vaxt** | 45 dəqiqə |
| **İştirakçı sayı** | 10 – 30 uşaq |
| **Oyunun növü** | Kütləvi informasiya vasitələrinə baxış, plakat hazırlanması və müzakirə |
| **Xülasə** | Uşaqlar qəzetlərdə insan hüquqlarının təsvir olunmuş, habelə hüquq pozuntuları və hüquqların qorunmasına dair məqalələrə nəzər salırlar |
| **Vəzifələr** | • KİV-də və gündəlik həyatda insan hüquqlarının necə işıqlandırıldığına nəzər salmaq<br>• İnsan hüquqları sahəsində problemlərin necə işıqlandırıldığını araşdırmaq<br>• Rayon ərazisində insan hüquqlarının nə dərəcədə qorunduğunu qiymətləndirmək |
| **Hazırlıq** | • Müxtəlif qəzetlərin toplanması<br>• Hər qrup üçün plakat kağızlarının hazırlanması |
| **Materiallar** | • Qəzet səhifələri<br>• Böyük kağız vərəqlər<br>• Yapışqanlı lent və ya yapışqan və qayçı<br>• Markerlər<br>• Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin uşaqlar üçün variantının surəti |

**Təlimat**

1. Şagirdlərə başa salın ki, bu oyun insan hüquqlarının xəbərlərdə işıqlandırılması ilə bağlıdır. Şagirdlərə əvvəlki oyunları xatırladın və Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən istifadə edin.

2. Şagirdləri kiçik qruplara bölün. Hər bir qrupa qəzet və ya qəzet səhifələri, qayçı, yapışqanlı lent, yapışqan, marker və aşağıdakı qeyd olunduğu kimi hazırlanmış böyük vərəq verin.
3. Oyunu izah edin. İnsan hüquqlarının yalnız xəbərlərdə deyil, eyni zamanda müxtəlif məqalələrdə necə işıqlandırıldığına dair bir neçə nümünə göstərin.

   a. Hər qrup qəzet materialları əsasında plakat hazırlayacaq. Hər üç kateqoriya üçün material toplamağı şagirdlərdən xahiş edin:

      I.hüquqlara riayət etmək və ya hüquqlardan istifadə

      II.hüquqların pozulması və ya hüquqlara etinasız yanaşma

      III. hüquqların qorunması

   b. Məlumatı ancaq xəbər blokunda deyil, reklam və idman xəbərləri arasında da axtarmağı şagirdlərdən xahiş edin.
   c. Şagirdlər insan hüquqları ilə əlaqəli məqaləni kəsib, plakatda müvafiq yerə yapışdırmalıdırlar.
   d. Şagirdlər plakatın bütün sütunlarına uyğun məqalələr tapdıqdan sonra təhlil üçün bir məqaləni seçməyi və aşağıdakı sualları cavablandırmağı onlardan xahiş edin.

4. Bu məqalədə hansı hüquqlardan danışılır? Onları sadalayın.

   a. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində hər hüquqa uyğun maddəni (maddələri) tapın və nömrəsini siyahıda qeyd edin.
   b. Şagirdlər cavabları plakatın bir hissəsində qeyd etməli və qəzetdəki maqalədə işarələməlidirlər.

5. Hər qrupdan bir şagird seçin və qrupun plakatını təqdim etməyi xahiş edin.

**Təhlil və qiymətləndirmə**

1. Hər plakatdan bir və ya iki məlumatı seçin, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi nöqteyi-nəzərindən apardıqları təhlili izah etməyi şagirdlərdən xahiş edin.

   a. Məqalələri insan hüquqları ilə uzlaşdırmaq çətin oldumu?

b. Məqalələrin mətnində insan hüquqları haqqında məlumat çox idi?
c. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin hansı maddələri ilə onları uyğunlaşdırmaq olar?
d. Gənc insan kimi hansı hüquqlar sizə daha çox toxunur?

2. Aşağıdakı sualları verməklə oyunu müzakirə edin:

   a. İnsan hüquqları haqqında hansi tip hekayəni tapmaq daha çətin (asan) idi? Nə üçün?
   b. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin hansı maddəsinə daha çox rast gəlinir? Digərlərinə isə ümumiyyətlə rast gəlinmir? Bunu necə izah edərsiniz?
   c. Neçə məqalədə insan hüquqları daha açıq nəzərə çarpır? Neçə məqalədə insan hüquqlarına toxunulub, lakin bu sözlərdən istifadə olunmayıb? Sizin fikrinizcə, nə üçün insan hüquqları barədə məlumat yoxdur?
   d. Uşaq hüquqları barədə məlumat varmı?
   e. Bu informasiya materialları əsasında dünyada insan hüquqlarının vəziyyəti, sizcə, necədir? Bəs Avropada? Bəs sizin rayonda?
   f. Bu məqalələrdə insan hüquqlarını qorumaq üçün nə edilir? Bu tədbirləri kim görür?

**Davamı üçün təkliflər**

- "Hüquqlar xəritədə" və "Kompasito müxbiri" adlı oyunlarda şagirdlər öz ətrafına insan hüquqları nöqteyi-nəzərindən baxmalıdırlar. Sonuncu oyun da uşaqları gördüklərinə şüurlu yanaşmağa sövq edir.

**Fəaliyyət üçün ideyalar**

- Plakatları asılı vəziyyətdə qoyun və şagirdlərdən əlavə qəzet materialları gətirməyi xahiş edin. Plakatların yeni məqalələrinə bir daha nəzər salın.
- Qrupun daha çox marağını çəkən hüquqlar haqqında bir mövzunu seçin və şagirdlərin təklif etdiyi səviyyədə (yerli, milli və ya beynəlxalq səviyyədə) maarifləndirmə kampaniyası keçirin (məsələn, əmlak hüququ, təhsil hüququ, xüsusilə keyfiyyətli təhsil hüququ).

**Aparıcılara məsləhətlər**

- Materialları müxtəlif yerli və reklam qəzetlərindən, informasiya jurnallarından seçin. Onların yeni olması vacib deyil.
- Xəbərlərə aid olmayan məqalələri seçməyi şagirdlərdən xahiş edin: məsələn, reklam elanlarını: əmlak hüququ; evlilik və ya dəfn haqqında bildirişləri: mədəniyyət hüququ: evlilik, fikir, vicdan və din azadlığı; istirahət hüququ; toplantılar haqqında özəl elanlar və bildirişlər.
- Tapşırığı anladıqlarına əmin olmaq məqsədilə dərsin əvvəlində şagirdlərin yanında olun.

**Variantlar**

Bütün qruplar hər kateqoriya üçün üç plakat üzərində işləyib, tapdıqları məqalələri bir araya toplayıb sinif üçün plakatlar hazırlayırlar.

**Kiçik yaşlı şagirdlərə adaptasiya**

- Yalnız iki kateqoriya üzrə işə dəvət edin: hüquqlara hörmət və hüquqların pozulması.
- III addımdakı təhlildən imtina edin.
- Təhlil üçün gündəlik həyatdan götürülmüş insan hüquqları sahəsində uşaq təcrübəsinə uyğun suallar verin.

**Yuxarı sinif şagirdlərinə adaptasiya**

- İnsan hüquqları ilə bağlı eyni məlumatların müxtəlif qəzetlərdə və informasiya vasitələrində işıqlandırılmasını müqayisə etməyi şagirdlərdən xahiş edin. Vacibliyindən asılı olaraq işıqlandırmada fərq varmı? Məlumatın xüsusiyyətləri necə vurğulanıb? Bir hadisənin müxtəlif variantları varmı? Hər hansı variantda insan hüquqlarına aşkar istinad varmı?
- Televiziya proqramlarına baxıb insan hüquqları ilə bağlı məlumatın mövzusunu və hər mövzuya ayrılmış vaxtı qeyd etməyi şagirdlərdən xahiş edin.

**PAYLAMA MATERİALI: PLAKAT NÜMUNƏSİ**

| **Hüquqlara hörmət** | | **Hüquqların pozulması** | | **Hüquqların qorunması** | |
|---|---|---|---|---|---|
| | | | | | |
| **Təhlil** | | **Təhlil** | | **Təhlil** | |
| **Hüquq** | **Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən maddə** | **Hüquq** | **Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən maddə** | **Hüquq** | **Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən maddə** |
| | | | | | |

## İNSAN HÜQUQLARININ REKLAMI

***Gəlin dünyaya insan hüquqları barəsində danışaq!***

| | |
|---|---|
| **Mövzular** | İstənilən mövzuya uyğunlaşdırılmış insan hüquqları, kütləvi informasiya vasitələri və internet |
| **Çətinlik dərəcəsi** | 3-cü səviyyə |
| **Yaş** | 10 - 14 yaş |
| **İştirakçı sayı** | 4 - 24 uşaq |
| **Müddəti** | 120 - 180 dəqiqə |
| **Oyun tipi** | Əhvalatların nəql edilməsi, rəsm, yazılı ifadə |
| **İcmal** | Şagirdlər uşaq hüquqları haqqında televiziya reklamı yaradırlar |
| **Məsələlər** | - Kütləvi informasiya vasitələri və reklam barədə tənqidi təfəkkürü inkişaf etdirmək;<br>- Yaradıcılıq və ünsiyyət bacarıqları formalaşdırmaq;<br>- Uşaq hüquqlarının lobbisini təşkil etmək haqqında düşünmək;<br>- İnsan hüquqları anlayışını dərinləşdirmək. |
| **Hazırlıq** | İmkan dairəsində, reklam çəkmək üçün video aparaturadan istifadə etmək. |
| **Vəsaitlər** | - Kağız və bədii vəsaitlər |

**Təlimat**

1. Uşaqları 3-4 nəfərlik qruplara bölün. Onlara izah edin ki, uşaq hüquqlarını reklam etmək tapşırığı alınmışdır, televiziya üçün 1-3 dəqiqəlik reklam hazırlamalıdırlar. Reklamın məqsədi insanlara uşaq hüquqlarını yaxşı anlamaqda kömək etməkdir.

2. Diqqətlərini cəlb edən istənilən bir televiziya reklamını təsvir etməyi uşaqlardan xahiş edin. “Beyin həmləsi” texnikasının köməyi ilə yaxşı reklamın xüsusiyyətlərini qeyd edin (məsələn, təsirli ifadələr, səs effektləri, yumor, ciddi ismarış).

3. İştirakçılarla reklamın kim üçün nəzərdə tutulduğunu müzakirə edin. Uşaqlar, valideynlər, müəllimlər, ictimaiyyət və yaxud onların hamısı üçün vacib olmasını qeyd edin. “Reklamı bu auditoriya üçün necə cəlbedici etmək olar?” sualını müzakirə edin.

4. İzah edin ki, hər bir qrup reklam etmək istədiyi hüququ və müraciət edilən auditoriyanı seçməlidir. Onlardan hansı hüquqi qaydanın hansı auditoriya üçün lazım

olduğunu müəyyən etməyi xahiş edin. Hər qrupdan 1 nəfəri cəlb edərək, seçdikləri hüquq və auditoriya haqqında məlumat verməyi xahiş edin.

5. Qruplar hüququ seçdikdən sonra onu necə reklam edəcəklərini düşünməlidirlər. Bu hüququn təqdimatı onları düşündürməlidir (məsələn, səhnə qurmaq, mahnı oxumaq, cizgi filmi üçün səhnələr tərtib etmək və s.). Videofilmin televiziya üçün nəzərdə tutulduğu şagirdlərə xatırladılmalıdır. Bu səbəbdən videofilm maraqlı və cəlbedici olmalıdır. Reklam yalnız "danışan başlar"dan ibarət olmalı deyil. Videogörüntü çox mürəkkəb olmamalıdır, axı 3 dəqiqəyə sığışmaq lazımdır.

6. İş prosesini izləmək üçün bir qrupdan digər qrupa keçin. İşi bitirdikdən sonra reklama ad qoymağı və praktik işə başlamağı qruplardan xahiş edin.

7. Bütün kiçik qruplar öz reklamlarını hazırladıqdan sonra onların hamısını bir yerə yığıb müzakirə etmək lazımdır. Müzakirə zamanı uşaqlar öz ideyalarını bölüşür, digərlərinin qeydlərini dinləyirlər. Hər qrupdan seçdikləri hüququ, auditoriyanı və ideyaları təsvir etməyi xahiş edin. Əgər hazırdırlarsa, reklamı nümayiş etdirə bilərlər. Hər bir təsvirdən və ya ifadan sonra digərlərindən xahiş edin ki, bu suallar əsasında öz konstruktiv təklif və tənqidlərini bildirsinlər:

a. Bu ideya seçilmiş auditoriya üçün cəlbedicidirmi?
b. Hüququn məzmunu aydın şəkildə çatdırılıbmı?
c. Bu ideyalarda sizin xoşunuza gələn nədir?
d. Onlarda nəyi isə təkmilləşdirmək olarmı?

8. Reklamı bitirmək və təcrübədən keçirmək üçün qruplara vaxt verin.

9. Hər bir qrupdan reklamlarını və bununla bağlı planlarını təqdim etməsini xahiş edin.

**Təhlil və qiymətləndirmə**

**1.**Təhlil üçün aşağıdakı sualları təklif edin:

a. Bu oyunda ən mürəkkəb olan nə idi? Ən maraqlı olan nə idi?
b. Reklam yaratma prosesi haqqında nə öyrəndiniz?
c. Sözlərlə deyil, obrazlarla düşünmək çətindirmi?
d. Müəyyən tamaşaçıları cəlb etmək yollarını təsəvvür etmək sizə çətin gəlirdimi?
e. Həmişəmi reklam pozitivdir? Niyə "hə" və ya niyə "yox"?
f. Başqalarının rəsmlərindən siz nə öyrəndiniz?
g. Bu oyun sizin televiziyanı seyr etməyinizə təsir edəcəkmi?

**2.** Bu oyunu insan hüquqları ilə əlaqələndirin.

a. Niyə sizin qrup məhz bu hüququ seçdi?

b. Niyə siz məhz bu auditoriyanı seçdiniz?

c. Sizcə, sizin reklamınız hansı reaksiyaya səbəb olacaq?

d. İnsan hüquqlarının lobbi edilməsində televiziya reklamı səmərəlidirmi? Niyə "hə" və ya "yox"?

e. Reklamınız sizin seçdiyiniz hüquqdan başqa digər hüquqlara da işarə edirmi?

f. Hər hansı bir hüquq müstəqil mövcud ola bilərmi, yoxsa o, həmişə digər hüquqlarla bağlıdır?

g. Reklam və ya səhnələşdirmək mümkün olmayan hüquqa nümunə gətirin.

h. Sizin qəhrəmanlarınız mövcud stereotipləri əks etdirirmi? Əgər elədirsə, onun neqativ nəticələri ola bilərmi? Niyə "hə" və ya niyə "yox"?

x. İnsanların öz hüquqlarını bilməsi niyə belə vacibdir?

i. Uşaq hüquqlarını öyrənmək kimlər üçün zəruridir?

**Davamı üçün təkliflər**

1. Uşaqlara izah edin ki, bir çox reklam kampaniyaları televiziya reklamlarını jurnallarda, qəzetlərdə verilən məlumatlarla, köşk, avtobus və digər ictimai yerlərdə olan posterlərlə əlaqələndirirlər. Uşaqlardan xahiş edin ki, onları cəlb edən reklamları öz yaşadıqları rayonların ərazilərində axtarsınlar və müzakirə etsinlər: Bu reklamları cəlbedici edən nədir? Sonra uşaqlardan xahiş edin ki, ikiölçülü qrafik hüquq reklamı fikirləşsinlər. Əgər imkan varsa, bu qrafik reklamı həm də kompüterdə yaratmaq olar. Bu reklamların sərgisini uşaq mərkəzlərində və ya məktəblərdə təşkil etmək olar.

2. Diqqət edin ki, bir çox reklam kampaniyalarında tanınmış insanlar iştirak edir. Uşaqlardan xahiş edin, onlara məlum olan bir neçə misal gətirsinlər. Onlar öz reklamlarına kimi dəvət etmək istəyərdi? Kim bu reklamda iştirak edə bilərdi? Niyə bu şəxs onların seçdiyi hüququn reklamı və ya auditoriya üçün uyğundur?

3. Uşaqlarla müzakirə edin: Əgər onlar insan hüquqları barədə videofilmi daha uzun çəksə idi, nə baş verərdi?

a. Bu videofilm reklamdan nə ilə fərqlənərdi?

b. Hekayənin hansı aspektləri daha vacib olardı (məsələn, yaxşı sujet; maliyyə aspekti; insan hüquqları haqqında ismarışın məğzi)?

c. Bu uzun filmdə hansı amil daha vacib olardı (məsələn, uşaqların əvəzinə səriştəli aktyorların iştirakı, çox sayda rekvizit və kostyumlar, təhlükəli səhnələr)?

**İdeyalar**

- Əgər mümkündürsə, bu reklamı videoya çəkin. Yerli televiziya studiyalarında və ya kino məktəblərində sizə işıqlandırma, səs və s. üzrə texniki yardımı edə bilərlər. Hətta pis videofilmi çəkərkən də bir çox məqamları öyrənmək olar.
- Əgər video düzəltmək imkanı yoxdursa, siz özünüzü çəkilişdə hesab edərək müxtəlif səhnələr qura bilərsiniz.
- Uşaqlardan televiziyada gördükləri reklamı qiymətləndirməyi xahiş edin.
  - O niyə televiziyada yerləşdirilib?
  - Hansı tamaşaçı üçün nəzərdə tutulub?
  - Reklam ismarışının məğzi nədən ibarətdir?
  - Tamaşaçı tərəfdən gözlənilən reaksiya necədir?

**Aparıcılara məsləhət**

- Bu, uşaqlarda yeni bacarıqları oyada bilən mürəkkəb oyundur (məsələn, dialoqların və ya mahnıların yazılışı, illustrasiyalı senarilərin yazılışı). Aparıcı uşaqların işinin gedişatını diqqətlə izləməli, onlara düzgün istiqamət verməlidir.

- Bəzi qruplar digərlərindən daha tez irəliləyəcəklər. Əgər qrup bir tapşırığı bitiribsə, ona fərdi instruksiya verərək növbəti mərhələni yerinə yetirməsini xahiş etmək lazımdır. Məşqlər və habelə qeydlər əsasında düzəlişlərin aparılması üçün qruplara çox vaxt ayırın.

- Bu oyunu reklam və onun məqsədlərinin təhlili əsasında tənqidi təfəkkürün inkişafı üçün istifadə edin.

- Bu oyundan konstruktiv tənqid təcrübəsi üçün istifadə edin.

**Adaptasiya**

Bu oyun əsasən insan hüquqları və eləcə də Uşaq Hüquqları Konvensiyası ilə tanışlıq tələb edir. Uşaqların bu haqda nə bildiklərini müəyyən etmək üçün siz insan hüquqları mövzusunu “beyin həmləsi” ilə başlaya bilərsiniz. Əgər onlara daha çox bilik lazımdırsa, digər bir oyun (məsələn, “Stolüstü oyunlar” və ya “Mənim hüquqlar kainatım”) ilə başlaya bilərsiniz. Uşaq Hüquqları Konvensiyası ilə onları tanış etmək üçün hər bir uşağa Konvensiyadan bir maddənin mətnini verin və onu illüstrasiya etməyi xahiş edin. Daha sonra uşaqlara tapşırın ki, maddəni səsləndirsinlər və illüstrasiyanı izah etsinlər.

## İNSAN HÜQUQLARININ REKLAMI

***Gəlin dünyaya insan hüquqları barəsində danışaq!***

| | |
|---|---|
| **Mövzular** | İstənilən mövzuya uyğunlaşdırılmış insan hüquqları, kütləvi informasiya vasitələri və internet |
| **Çətinlik dərəcəsi** | 3-cü səviyyə |
| **Yaş** | 10 - 14 yaş |
| **İştirakçı sayı** | 4 - 24 uşaq |
| **Müddəti** | 120 - 180 dəqiqə |
| **Oyun tipi** | Əhvalatların nəql edilməsi, rəsm, yazılı ifadə |
| **İcmal** | Şagirdlər uşaq hüquqları haqqında televiziya reklamı yaradırlar |
| **Məsələlər** | - Kütləvi informasiya vasitələri və reklam barədə tənqidi təfəkkürü inkişaf etdirmək;<br>- Yaradıcılıq və ünsiyyət bacarıqları formalaşdırmaq;<br>- Uşaq hüquqlarının lobbisini təşkil etmək haqqında düşünmək;<br>- İnsan hüquqları anlayışını dərinləşdirmək. |
| **Hazırlıq** | İmkan dairəsində, reklam çəkmək üçün video aparaturadan istifadə etmək. |
| **Vəsaitlər** | - Kağız və bədii vəsaitlər |

**Təlimat**

1. Uşaqları 3-4 nəfərlik qruplara bölün. Onlara izah edin ki, uşaq hüquqlarını reklam etmək tapşırığı alınmışdır, televiziya üçün 1-3 dəqiqəlik reklam hazırlamalıdırlar. Reklamın məqsədi insanlara uşaq hüquqlarını yaxşı anlamaqda kömək etməkdir.

2. Diqqətlərini cəlb edən istənilən bir televiziya reklamını təsvir etməyi uşaqlardan xahiş edin. “Beyin həmləsi” texnikasının köməyi ilə yaxşı reklamın xüsusiyyətlərini qeyd edin (məsələn, təsirli ifadələr, səs effektləri, yumor, ciddi ismarış).

3. İştirakçılarla reklamın kim üçün nəzərdə tutulduğunu müzakirə edin. Uşaqlar, valideynlər, müəllimlər, ictimaiyyət və yaxud onların hamısı üçün vacib olmasını qeyd edin. “Reklamı bu auditoriya üçün necə cəlbedici etmək olar?” sualını müzakirə edin.

4. İzah edin ki, hər bir qrup reklam etmək istədiyi hüququ və müraciət edilən auditoriyanı seçməlidir. Onlardan hansı hüquqi qaydanın hansı auditoriya üçün lazım

olduğunu müəyyən etməyi xahiş edin. Hər qrupdan 1 nəfəri cəlb edərək, seçdikləri hüquq və auditoriya haqqında məlumat verməyi xahiş edin.

5. Qruplar hüququ seçdikdən sonra onu necə reklam edəcəklərini düşünməlidirlər. Bu hüququn təqdimatı onları düşündürməlidir (məsələn, səhnə qurmaq, mahnı oxumaq, cizgi filmi üçün səhnələr tərtib etmək və s.). Videofilmin televiziya üçün nəzərdə tutulduğu şagirdlərə xatırladılmalıdır. Bu səbəbdən videofilm maraqlı və cəlbedici olmalıdır. Reklam yalnız "danışan başlar"dan ibarət olmalı deyil. Videogörüntü çox mürəkkəb olmamalıdır, axı 3 dəqiqəyə sığışmaq lazımdır.

6. İş prosesini izləmək üçün bir qrupdan digər qrupa keçin. İşi bitirdikdən sonra reklama ad qoymağı və praktik işə başlamağı qruplardan xahiş edin.

7. Bütün kiçik qruplar öz reklamlarını hazırladıqdan sonra onların hamısını bir yerə yığıb müzakirə etmək lazımdır. Müzakirə zamanı uşaqlar öz ideyalarını bölüşür, digərlərinin qeydlərini dinləyirlər. Hər qrupdan seçdikləri hüququ, auditoriyanı və ideyaları təsvir etməyi xahiş edin. Əgər hazırdırlarsa, reklamı nümayiş etdirə bilərlər. Hər bir təsvirdən və ya ifadan sonra digərlərindən xahiş edin ki, bu suallar əsasında öz konstruktiv təklif və tənqidlərini bildirsinlər:

a. Bu ideya seçilmiş auditoriya üçün cəlbedicidirmi?
b. Hüququn məzmunu aydın şəkildə çatdırılıbmı?
c. Bu ideyalarda sizin xoşunuza gələn nədir?
d. Onlarda nəyi isə təkmilləşdirmək olarmı?

8. Reklamı bitirmək və təcrübədən keçirmək üçün qruplara vaxt verin.

9. Hər bir qrupdan reklamlarını və bununla bağlı planlarını təqdim etməsini xahiş edin.

**Təhlil və qiymətləndirmə**

**1.**Təhlil üçün aşağıdakı sualları təklif edin:

a. Bu oyunda ən mürəkkəb olan nə idi? Ən maraqlı olan nə idi?
b. Reklam yaratma prosesi haqqında nə öyrəndiniz?
c. Sözlərlə deyil, obrazlarla düşünmək çətindirmi?
d. Müəyyən tamaşaçıları cəlb etmək yollarını təsəvvür etmək sizə çətin gəlirdimi?
e. Həmişəmi reklam pozitivdir? Niyə "hə" və ya niyə "yox"?
f. Başqalarının rəsmlərindən siz nə öyrəndiniz?
g. Bu oyun sizin televiziyanı seyr etməyinizə təsir edəcəkmi?

**2.** Bu oyunu insan hüquqları ilə əlaqələndirin.

a. Niyə sizin qrup məhz bu hüququ seçdi?

b. Niyə siz məhz bu auditoriyanı seçdiniz?

c. Sizcə, sizin reklamınız hansı reaksiyaya səbəb olacaq?

d. İnsan hüquqlarının lobbi edilməsində televiziya reklamı səmərəlidirmi? Niyə "hə" və ya "yox"?

e. Reklamınız sizin seçdiyiniz hüquqdan başqa digər hüquqlara da işarə edirmi?

f. Hər hansı bir hüquq müstəqil mövcud ola bilərmi, yoxsa o, həmişə digər hüquqlarla bağlıdır?

g. Reklam və ya səhnələşdirmək mümkün olmayan hüquqa nümunə gətirin.

h. Sizin qəhrəmanlarınız mövcud stereotipləri əks etdirirmi? Əgər elədirsə, onun neqativ nəticələri ola bilərmi? Niyə "hə" və ya niyə "yox"?

x. İnsanların öz hüquqlarını bilməsi niyə belə vacibdir?

i. Uşaq hüquqlarını öyrənmək kimlər üçün zəruridir?

**Davamı üçün təkliflər**

1. Uşaqlara izah edin ki, bir çox reklam kampaniyaları televiziya reklamlarını jurnallarda, qəzetlərdə verilən məlumatlarla, köşk, avtobus və digər ictimai yerlərdə olan posterlərlə əlaqələndirirlər. Uşaqlardan xahiş edin ki, onları cəlb edən reklamları öz yaşadıqları rayonların ərazilərində axtarsınlar və müzakirə etsinlər: Bu reklamları cəlbedici edən nədir? Sonra uşaqlardan xahiş edin ki, ikiölçülü qrafik hüquq reklamı fikirləşsinlər. Əgər imkan varsa, bu qrafik reklamı həm də kompüterdə yaratmaq olar. Bu reklamların sərgisini uşaq mərkəzlərində və ya məktəblərdə təşkil etmək olar.

2. Diqqət edin ki, bir çox reklam kampaniyalarında tanınmış insanlar iştirak edir. Uşaqlardan xahiş edin, onlara məlum olan bir neçə misal gətirsinlər. Onlar öz reklamlarına kimi dəvət etmək istəyərdi? Kim bu reklamda iştirak edə bilərdi? Niyə bu şəxs onların seçdiyi hüququn reklamı və ya auditoriya üçün uyğundur?

3. Uşaqlarla müzakirə edin: Əgər onlar insan hüquqları barədə videofilmi daha uzun çəksə idi, nə baş verərdi?

a. Bu videofilm reklamdan nə ilə fərqlənərdi?

b. Hekayənin hansı aspektləri daha vacib olardı (məsələn, yaxşı sujet; maliyyə aspekti; insan hüquqları haqqında ismarışın məğzi)?

c. Bu uzun filmdə hansı amil daha vacib olardı (məsələn, uşaqların əvəzinə səriştəli aktyorların iştirakı, çox sayda rekvizit və kostyumlar, təhlükəli səhnələr)?

**İdeyalar**

- Əgər mümkündürsə, bu reklamı videoya çəkin. Yerli televiziya studiyalarında və ya kino məktəblərində sizə işıqlandırma, səs və s. üzrə texniki yardımı edə bilərlər. Hətta pis videofilmi çəkərkən də bir çox məqamları öyrənmək olar.
- Əgər video düzəltmək imkanı yoxdursa, siz özünüzü çəkilişdə hesab edərək müxtəlif səhnələr qura bilərsiniz.
- Uşaqlardan televiziyada gördükləri reklamı qiymətləndirməyi xahiş edin.
  - O niyə televiziyada yerləşdirilib?
  - Hansı tamaşaçı üçün nəzərdə tutulub?
  - Reklam ismarışının məğzi nədən ibarətdir?
  - Tamaşaçı tərəfdən gözlənilən reaksiya necədir?

**Aparıcılara məsləhət**

- Bu, uşaqlarda yeni bacarıqları oyada bilən mürəkkəb oyundur (məsələn, dialoqların və ya mahnıların yazılışı, illustrasiyalı senarilərin yazılışı). Aparıcı uşaqların işinin gedişatını diqqətlə izləməli, onlara düzgün istiqamət verməlidir.

- Bəzi qruplar digərlərindən daha tez irəliləyəcəklər. Əgər qrup bir tapşırığı bitiribsə, ona fərdi instruksiya verərək növbəti mərhələni yerinə yetirməsini xahiş etmək lazımdır. Məşqlər və habelə qeydlər əsasında düzəlişlərin aparılması üçün qruplara çox vaxt ayırın.

- Bu oyunu reklam və onun məqsədlərinin təhlili əsasında tənqidi təfəkkürün inkişafı üçün istifadə edin.

- Bu oyundan konstruktiv tənqid təcrübəsi üçün istifadə edin.

**Adaptasiya**

Bu oyun əsasən insan hüquqları və eləcə də Uşaq Hüquqları Konvensiyası ilə tanışlıq tələb edir. Uşaqların bu haqda nə bildiklərini müəyyən etmək üçün siz insan hüquqları mövzusunu “beyin həmləsi” ilə başlaya bilərsiniz. Əgər onlara daha çox bilik lazımdırsa, digər bir oyun (məsələn, “Stolüstü oyunlar” və ya “Mənim hüquqlar kainatım”) ilə başlaya bilərsiniz. Uşaq Hüquqları Konvensiyası ilə onları tanış etmək üçün hər bir uşağa Konvensiyadan bir maddənin mətnini verin və onu illüstrasiya etməyi xahiş edin. Daha sonra uşaqlara tapşırın ki, maddəni səsləndirsinlər və illüstrasiyanı izah etsinlər.

**KİM ÜÇÜN DAHA MÜHÜMDÜR?**

**Sizin prioritetləriniz mənimkindən fərqli ola bilər!**

| | |
|---|---|
| **Mövzu:** | İnsanın ümumi hüquqları |
| **Çətinlik səviyyəsi:** | 3-cü səviyyə |
| **Yaş həddi:** | 10-13 yaş |
| **Tələb olunan vaxt:** | 60 dəqiqə |
| **İştirakçıların sayı:** | 12-24 uşaq |
| **Oyunun növü:** | prioritetlərin müəyyən edilməsi, Konsensusa nail olmaq, müzakirə. |
| **Xülasə:** | Şagirdlər Uşaq hüquqları konvensiyasının hansı maddəsini ləğv etməyi, eləcə də hüquqların qarşılıqlı asılılığını və nəticələrini müzakirə edirlər. |
| **Vəzifələr:** | Uşaq hüquqları konvensiyası ilə tanışlıq. Hüquqların universallığını, vacibliyini və bir-birindən asılılığını aydınlaşdırmaq. |
| **Hazırlıq:** | Uşaq hüquqlarının təsviri olan kartlar hazırlayın. |
| **Materiallar:** | Kağız və qələmlər. Lövhə və markerlər. Uşaq hüquqlarının təsviri olan kifayət qədər kartlar. Kartların sayı iştirakçıların sayının yarısına Uyğun olmalıdır. |

**TƏLİMAT**

1. Qrupun “Uşaq hüquqları konvensiya”sı ilə tanışlıq dərəcəsini müəyyən etmək üçün oyunu “Beyin həmləsi”ndən başlayın və ya uşaqlara bu mövzunu artıq bildiklərini xatırladın. Əgər qrup uşaq hüquqları ilə tanış deyilsə, aşağıdakı adaptasiya edilmiş versiyanı nəzərdən keçirməklə başlayın.

2. Uşaqları iki və ya dörd nəfərdən ibarət kiçik qruplara bölün və hər qrupa uşaq hüquqları olan iki kart, kağız və qələm verin. Onlara izah edin ki, hər bir kartda “Uşaq

hüquqları konvensiyası"nda verilmiş hüquqlar aydınlaşdırılır. Uşaqlara kartlardakı iki maddəni ucadan oxumağı və onlar üçün ən mühüm olan hüququ seçməyi tapşırın. Daha sonra onlar niyə məhz o hüququ seçmələrinin səbəblərini qeyd etməlidirlər.

3. Daha "az mühüm" hüquqlar olan kartları toplayın. Dörd nəfərdən ibarət hər bir qrupa seçdikləri kartla digər qrupla birləşməyi tapşırın. 8 nəfərlik bu böyük qrup 2-ci təlimatdakı fəaliyyəti təkrar etməli, onlar üçün prioritet olan hüquqları seçməli və və bu seçimin səbəblərini əsaslandırmalıdırlar.

4. "Az mühüm" hüquqlar olan kartları yenidən toplayın. Onların hamısını "Daha az mühüm hüquqlar" adlı plakatın üstündə toplayın.

5. Qruplar son seçimi etdikdən sonra hər qrupdan bir nəfərə uşaqların seçdiyi ən mühüm, yeganə kartı ucadan oxumağı və onların seçim səbəblərini izah etməyi xahiş edin. Bu kartları bir-bir "Bizim hüquqlarımız" adlı plakatın üzərində sadalayın. Qrupun ölçüsündən asılı olaraq yalnız iki yaxud dörd hüquq qalacaq.

6. Bu seçimi müzakirə edin:

a) Seçim etmək sizə çətin idimi? Nə üçün?

b) Hansı faktorlar sizi bir hüququ digərindən üstün tutmağa məcbur edirdi?

c) Oyunun gedişində hansı hüququn ən mühüm olduğu haqda təsəvvürləriniz dəyişdimi?

d) Siz başqa qrupların öz seçimini əsaslandırma səbəbləri ilə razısınızmı? Nə üçün hə, nə üçün yox?

7. "Az mühüm" hüquq kartları uşaqlara paylayın və onları ucadan oxumağı xahiş edin. Əgər biz bu hüquqları həqiqətən inkar etsək, nə baş verə biləcəyini müzakirə edin.

a) Bir neçə hüquq seçin və uşaqlardan bu hüquqlarsız nə baş verəcəyini təsəvvür etməyi xahiş edin. (məsələn, alternativ qayğı hüququ, ailə həyatı hüququ, əyləncə və mədəni tədbirlər hüququ)

b) "Daha az mühüm" hüquqlardan birinin itməsi şəxsən sizə necə təsir edəcək?

c) Bu "az mühüm" hüquqların itkisi sizin seçdiyiniz hüquqlara necə təsir edər?

**TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ**

1. Universallığın fundamental prinsipini uşaqların yadına salın: hamı eynihüquqludur. Sonra müzakirə edin:

Nə üçün bütün insanların eynihüquqlu olması mühümdür?

2. Bəzi insanları bu hüquqlardan məhrum etmək olarmı? Nə üçün?

a) Uşaq hüquqlarına tam şəkildə malik olmanın mühümlüyünü müzakirə edin. Baxmayaraq ki, “vaciblik” və ya “qarşılıqlı asılılıq” kimi terminlərdən istifadə etmək lazım gəlmir, bütün uşaqlara bütün hüquqların lazım olduğunu anlamağa kömək edin.

b) Xüsusi nümunələr üzərində hüquqların qarşılıqlı əlaqəsini göstərin (məsələn, təhsil və informasiya hüququ, ailə və valideynlərdən ayrılmamaq hüququ).

3. Hüquqların nə üçün onlara mühüm olması barədə nümunələr gətirməyi uşaqlardan xahiş edin.

a) Bir hüququn digərindən üstünlüyünün fərdi prioritetlərindən necə asılılığını müzakirə edin (məsələn, “Məni heç vaxt həbs etməyiblər”, yaxud “Mən hər iki valideynimlə yaşayıram”). Lakin Uşaq hüquqları konvensiyası dünyada bütün uşaqların tələblərini diqqət mərkəzində saxlayır.

b) Uşaqlardan elə situasiyalar fikirləşməyi xahiş edin ki, orada “az mühüm” hüquqlardan hər biri hansısa uşağın sağ qalması və rifahı üçün həlledici olsun.

**DAVAM ÜÇÜN TƏKLİFLƏR**

“Bizim qrupun konstitusiyası” oyunu hüququ vəzifə ilə əlaqələndirilir.

Uşaq hüquqları konvensiyasını öyrənən digər oyunlar – “Stolüstü oyunlar” və “ Dovşanın hüquqları”

“Yeni torpaqlara səyahət” oyunu da uşaqların qarşısında hüquqların prioritetliyini müəyyən etmək məsələsini qoyur.

**FƏALİYYƏT ÜÇÜN İDEYALAR**

Uşaqlardan müzakirə edilən hüquqlardan gündəlik həyatda necə faydalandıqları barədə nümunələr gətirmələrini xahiş edin.

Onlara tanış olmayan siyuasiyalarda uşaq hüquqlarının müdafiəsi yaxud pozulması haqda məlumatlar seçin, məsələn, uşaq əməyi ilə bağlı.

**APARICILARA TÖVSİYƏLƏR**

Yəqin ki, kiçik uşaqlara bəzi hüquqların daha ətraflı izahı gərək olacaq.

Aparıcı qrupun bütün qərarlarını şərhsiz qəbul etməlidir. Qrupun qərarına istənilən etiraz uşaqlar tərəfindən olmalıdır.

Uşaqların konsepsiyanı başa düşmələri üçün “qarşılıqlı asılılıq” və “qarşılıqlı əlaqə” kimi hüquqi terminlərdən istifadə etmək mütləq deyil.

Analitik müzakirə gedişində konkret nümunələr gətirməyə hazır olun ki, hər hansı bir hüquq götürülsə, nə baş verə bilər.

Uşaqlar başa düşməlidirlər ki, heç də hər şey hüquq deyil.

**ADAPTASİYA**

Bu oyun Uşaq hüquqları konvensiyası barədə bəzi biliklərin olmasını tələb edir. Əgər uşaqlar bu Konvensiya ilə tanış deyillərsə, oyunu uşaq hüquqları mövzusundan başlayın: sonra qoy uşaqlar özləri hüquq kartları hazırlasınlar. Onları cütlərə bölün, Uşaq hüquqları konvensiyasının uşaq versiyasının bir yaxud iki maddəsinin mətnlərini və kartlar üçün bərk kağızları, bədii materialları paylayın. Onlara hər bir maddəni ayrı-ayrı kartlarda yazmağı və onu şəkillərlə illüstrasiya etməyi xahiş edin. Kartlar hazır olan zaman hər bir cütlük öz hüquqlarını oxuyub, orada nə deyildiyini izah etməli və öz illüstrasiyasını bütün qrupa göstərməlidir. Sonra N2-dən başlayıb təlimatı yerinə yetirin. Maddələrdə nə deyildyini başa düşməkdə aparıcı uşaqlara kömək etməlidir.

## PAYLAYICI MATERİAL: HÜQUQ KARTLARI

### Uşaq Hüquqları Konvensiyası

**Maddə 7.**

**Ad və vətəndaşlıq hüququ**

Uşaq doğulduqdan sonra dərhal qeydə alınmaq və doğulduğu andan ad və vətəndaşlıq almaq, həmçinin öz valideyinlərini tanımaq, mümkün qədər onların qayğısında olmaq hüququna malikdir.

**Maddə 3.**

**Uşaq hüquqlarının ən yaxşı şəkildə təmin edilməsi**

Uşaqla bağlı bütün fəaliyyətlərdə və qərarlarda ilk növbədə diqqət onun maraqlarının ən yaxşı təmin edilməsinə yönəlməlidir.

**Maddə 6.**

**Yaşamaq və inkişaf hüququ**

Hər bir uşağın yaşamaq, qayğı və inkişaf hüququ vardır.

**Maddə 12.**

**Fikrini ifadə etmək hüququ**.

Uşaqlar necə düşündüklərini, nə baş verdiyini danışmaq hüququna malikdirlər. Böyüklər onların problemləri ilə bağlı qərar qəbul etdikdə  belə, oz fikirlərini söyləmək hüquqları var.

**Maddə 9.**

**Valideynlərindən ayrılmamaq hüququ**.

Uşaqlar, əgər onların xoşbəxtlikləri üçün maneə yoxdursa,  öz valideynlərindən ayrılmalı deyillər (əgər valideynlərdən biri onlarla pis rəftar edirsə). Valideynləri ayrılan uşaqların hər iki valideynlə təmasda olmaq hüququ var. Müxtəlif ölkələrdə yaşayan ailələrin yerlərini dəyişmək və birləşmək hüququ var.

**Maddə 27.**

**Həyat səviyyəsi hüququ.**

Valideynlər uşağın inkişafı üçün adekvat həyat şəraitini təmin etməyə borcludurlar. Hökumət, xüsusilə valideynlər işlədiyi zaman uşaqlara dəstək üçün xidmət göstərilməsi yolu ilə valideynlərə kömək etməlidir.

**Maddə 28.**

**Təhsil hüququ.**

Uşaqlar insan hüquqlarına, milli və mədəni dəyərlərə hörmət edən, şəxsiyyətə və qabiliyyətin inkişafına imkan yaradan təhsil hüququna malikdirlər. İbtidai təhsil pulsuz olmalıdır. Məktəbdəki nizam-intizam uşaqların insani ləyaqətinə hörmət etməlidir.

**Maddə13.**

**İnformasiya almaq  hüququ**.

Uşaqlar müxtəlif kütləvi informasiya vasitələrindən birgə informasiya almaq və faydalanmaq hüququna malikdirlər. Televiziya, radio və qəzetlər uşaqların başa düşə biləcəyi materialı təqdim etməlidirlər, onlara zərər gətirəcək materiallar  bəyənməməlidirlər.

**Maddə 24, 26.**

**Sosial təminat və sağlamlıq hüququ.**

Uşaqlar sağlam və firavan qalmaları üçün yüksək keyfiyyətli səhiyyə, sosial təminat xidmətləri, təmiz su, qida, təmiz ətraf mühit hüququna malikdirlər.

**Maddə 18.**

**Ailə həyatı hüququ.**

Ailənin əsas funksiyası uşağın tərbiyəsidir. Valideynlər uşağın tərbiyəsinə görə eyni məsuliyyət daşıyırlar, onlar hər zaman hər bir uşaq üçün nəyin yaxşı olduğu barədə düşünməlidirlər.

**Maddə 40.**

**Azyaşlıların hüququ.**

Qanun pozuntusunda təqsirləndirilən uşaqlar hüquqi kömək almalıdırlar. Uşaqlar üçün həbs cəzası ancaq ən ciddi qanun pozuntusu zamanı verilməlidir.

**Maddə 14.**

**Fikir azadlığı, vicdan və məzhəb hüququ.**

Uşaqların fikirləşmək, istənilən bir şeyə inanmaq, etiqad etmək hüququ var, əgər bu, başqalarının öz hüquqlarından faydalanmağına mane olmursa. Valideynlər öz uşaqlarını bu məsələlər üzrə yönəltməlidirlər.

**Maddə 16.**

**Şəxsi həyat hüququ.**

Uşaqların şəxsi həyat hüququ var. Qanun uşaqları onların həyat tərzinə, təmiz adına, ailəsinə və evinə olan müdaxilələrdən qorumalıdır.

**Maddə 30 və 31**

**Əyləncə və mədəni tədbirlər hüququ.**

Bütün uşaqların istirahət və əyləncə, həmçinin mədəni və bədii fəaliyyət hüququ var.

**Maddə 15.**

**Sərbəst birləşmə hüququ.**

Uşaqların qrup və təşkilatlarda sərbəst birləşmə hüquqları var, əgər bu, başqalarının öz hüquqlarından faydalanması mane olmursa.

**Maddə 21.**

**Alternativ qayğı və övladlığa götürülmə hüququ**.

Hökumətin vəzifəsi uşaqları alternativ qayğı ilə təmin etmək, uşaqların dini etiqadına, mədəni, etnik mənşəyinə hörmət etmək, zəmanət verməkdir ki, ancaq səlahiyyətli orqanlar övladlığa götürməni həyata keçirsinlər.

**KOMPASİTO müxbiri**

***Əllərində fotoaparatlar olan KOMPASİTO tərəfdarları insan hüquqlarını müdafiə edirlər!***

| | |
|---|---|
| **Mövzular:** | Ətraf mühit, sağlamlıq və rifah, iştirak |
| **Çətinlik dərəcəsi:** | 2 |
| **Yaş həddi:** | 10-13 yaş |
| **Müddət:** | 90-120 dəqiqə |
| **İştirakçıların sayı:** | 8-24 uşaq |
| **Oyun növü:** | Fotoreportaj və ya reportajın digər formaları |
| **İcmal**: | Uşaqlar öz rayonlarındakı insan hüquqlarının vəziyyəti haqqında məlumat verirlər. |
| **Tapşırıqlar:** | - Gündəlik həyatda insan hüquqlarını görmək bacarığını inkişaf etdirmək;<br>- Hüquqların həm pozulmasını, həm də müdafiə olunmasını anlamaq;<br>- İnsan hüquqlarının fəal müdafiəsi və qanun pozuntularını aradan qaldırmaq məqsədilə əməkdaşlıq vərdişini inkişaf etdirmək. |
| **Hazırlıq:** | - Öz rayonunuzun həyatından sağlamlığa, təhlükəsizliyə və ətraf mühitə aid olan bir neçə hadisəni seçin (məsələn, tualetlər, restoranlar, tullantıların emalı).<br>- İnsan Hüquqları Deklarasiyasının və Uşaq Hüquqları Konvensiyasının uşaqlar üçün variantının müvafiq maddələrini qeyd edin, hər bir uşaq üçün bu maddələrin surətini çıxardın.<br>- Rayon xəritəsinin surətini çıxardın.<br>- Bu oyun bəzi yerli müəssisələri tənqid edə biləcəyinə görə əvvəlcədən müvafiq vəzifəli şəxslərə məlumat verin.<br>- Uşaqların öz nəticələrini, təkliflərini təqdim etmək və |

mümkün olan dəyişiklikləri müzakirəyə çıxarmaq üçün bu vəzifəli şəxslərlə görüş təşkil etməyə çalışın.

**Materiallar:**

- İnsan Hüquqları Deklarasiyasının və Uşaq Hüquqları Konvensiyasının uşaqlar üçün variantının hər komanda üçün nüsxələri və ya aşırma kağız vərəqlərinin olduğu yazı taxtasında böyük surətləri;
- Hər bir komanda üçün bir ədəd rəqəmsal fotoaparat və ya “Polaroid” fotoaparatı;
- Qeydlər, fotoların altında imzalar üçün bloknot və qələmlər;
- Rayon xəritəsinin surəti;
- Əlavə material: fotoların çap olunması üçün printer (çap maşını).

**Təlimatlar**

1. Uşaqlarla müxbirlərin mətbuatda və televiziyada nə ilə məşğul olduqlarını müzakirə edin. İzah edin ki, onlar özləri də fotomüxbirlər olacaqlar və buna görə də öz rayonlarındakı sağlamlıq, təhlükəsizlik və əlverişli ətraf mühit hüquqlarının necə təmin olunmasının şəkillərini çəkə bilərlər. Onlar bu hüquqların necə qorunması, onlardan necə istifadə olunması və ya əksinə onların necə pozulmasına aid misallar tapmalıdırlar.

2. Bu hüquqları uşaqlarla təkrar edin. İnsan Hüquqları Deklarasiyasının və Uşaq Hüquqları Konvensiyasının uşaqlar üçün variantının seçilmiş maddələrinin surətlərini paylayın. Siz, həmçinin İnsan Hüquqları Deklarasiyasından 25-ci maddəni, 3.3-cü maddəni, Uşaq Hüquqları Konvensiyasının isə 24 və 27-ci maddələrinin surətini aşırma plakata köçürə və bu maddələrin mənasını müzakirə edə bilərsiniz. Uşaqlara izah edin ki, onlar bu hüquqlar haqqında reportaj hazırlayacaqlar və onların bu maddələrlə harada rastlaşa biləcəklərinə aid misallar gətirin (məsələn, məktəbdə yanğın təhlükəsizliyi, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, satışı və ya qida hazırlanması üçün təhlükəsiz şərait, təmiz hava, su və ətraf mühit). Uşaqlarla onların rayonunda bu hüquqlara necə riayət edilməsini müzakirə edin və onlardan bir neçə misal gətirmələrini xahiş edin.

3. Uşaqları 3 və ya 4 nəfərdən ibarət olan qruplara bölün. Hər qrupa fotoaparat və ayrıca tapşırıq verin. Məsələn:

a) A qrupu məktəbdə və digər ictimai yerlərdə təhlükəsizlik şəraitini yoxlaya bilər. (Məsələn, odsöndürən balonlar harada yerləşirlər? Onlar işlək vəziyyətdədirmi? Qəza

çıxışları asan və əlçatandırmı? Uşaqlar fövqəladə hallarda nə etmək lazım olduğunu bilirlərmi?)

b) B qrupu hərəkətin təhlükəsizliyini yoxlaya bilər. (Məsələn, təhlükəsiz səkilər varmı? Küçəni keçmək üçün təhlükəsiz yerlər varmı? Küçələr və səkilər yaxşı təmir olunubmu? Hərəkət sürətinə nəzarət edilirmi? Gecələr küçə işıqlandırılması işləyirmi?)

c) C qrupu qidalanma şəraitini yoxlaya bilər. (Məsələn, bazar və restoranların sanitariya şəraiti, menyudakı yeməklər haqqındakı məlumat, ərzaq mallarının və içkilərin keyfiyyəti, təhlükəsiz su təchizatının yoxlanması)

ç) Ç qrupu ətraf mühit məsələləri ilə məşğul ola bilər. (Havanın keyfiyyəti haqqında öyrənmək olarmı? Yaxınlıqda yaşıllıq sahələri varmı? Küçələr və digər ictimai yerlər təmizdirmi? Zibil müntəzəm olaraq daşınırmı? Təkrar emal üçün plastik, kağız, şüşə və s. üçün zibil qutuları varmı?)

4. Mövzunu müzakirə etmək və sübutlar axtarıb onu necə planlaşdırmaq üçün qruplara vaxt verin. Bəzi yerlərə giriş əldə etmək üçün onların kiminlə əlaqəyə girmək lazım olduğunu bildiklərinə əmin olun (Məsələn, məktəbdə və ya parkda nizam-intizam üçün cavabdeh olan məsul şəxs). Onlar hamısı fotoaparatdan istifadə etməyi bacarmalıdırlar. Hər bir qrupdan qeydlər aparan və şəkillər üzərində yazılar yazan azı 1 uşaq olmalıdır, o biri  uşaq şəkilləri insan hüquqları ilə uyğunlaşdırmalı, üçüncüsü isə qrupların cavablarını yazmalıdır.

5. Hər qrupdan öz planları haqqında bütün sinfə məlumat verməsini xahiş edin. Müxbir tapşırıqlarının yerinə yetirilməsi üçün son müddət təyin edin.

6. Qruplar şəkil çəkdikdən sonra onlara mini sərgi hazırlamaq üçün vaxt verin. Hər sərgidə bunlar olmalıdır:

a) Başlıq;

b) Qrupdakı uşaqların adları;

c) Hər şəklə aid harada çəkildiyini bildirən yer, vaxt və nəyi göstərir – yazılar olmalıdır;

ç) Hansı insan hüquqlarına riayət olunması və ya hansı insan hüquqlarının pozulması haqqında rəylər;

d) Vəziyyətin qaydaya salınması üçün tövsiyələr və yaxşı misallar üçün təşəkkür.

7. Valideynləri və yerli sakinləri sərgiyə baxmağa dəvət edin.

8. Yerli ictimaiyyətin nümayəndələrini sərgiyə baxmaq, uşaqlarla görüşüb onların qayğıları haqqında eşitmək, təkliflərini dinləmək və mümkün dəyişiklikləri müzakirə etmək üçün dəvət etməyə çalışın (məsələn, mer, məktəb direktoru, bələdiyyə üzvləri, yerli təşkilatlar).

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı suallarla oyunu təhlil edin:

a) Müxbir olmaq xoşunuza gəldimi?

b) Lazım olan misallar tapmaq çətin idimi?

c) Vəziyyəti şəkildə “tutmaq” çətin idimi?

ç) Şəkillərə yazılar əlavə etmək çətin idimi?

d) Təşəkkür etmək çətin idimi? Bəs tövsiyələr vermək?

e) Öz rayonunuz haqqında nəsə öyrəndinizmi? Bəs özünüz haqqında? Nəyi yenidən gördünüz?

ə) Vəziyyətin işıqlandırılmasında fotoaparat faydalı vasitə ola bilərmi? Reportaj yazmaq faydalı idimi?

f) Belə vəziyyətləri aşkara çıxaran başqa vasitələrin adını çəkmək olarmı?

g) Şəkil yazını tamamlaya bilərmi?

2. Aşağıdakı sualları verərək oyunu insan hüquqları ilə əlaqələndirin:

a) Rayonunuzda insan hüquqlarının qorunması haqqında nə öyrəndiniz?

b) İnsan hüquqlarına riayət olunması və müdafiəsi haqqında hansı müsbət misallar gətirə bilərsiniz?

c) İnsan hüquqlarının pozulması haqqında hansı mənfi misallar gətirə bilərsiniz?

ç) İnsan hüquqlarının yaxşılaşdırılması üçün konkret olaraq nə isə təklif edə bilərikmi? Kimə müraciət etmək olar (məsələn, məktəb rəhbərləri, valideynlər, mer, yerli şura, kütləvi informasiya vasitələri, müəllim)?

d) Uşaq Hüquqları Konvensiyası uşaqlara aid olan bütün məsələlər barəsində onlara öz fikrini azad ifadə etmək hüququ verir. Siz bu hüquqdan istifadə edirsinizmi? Əgər cavab müsbətdirsə, onda necə? Siz bundan daha səmərəli necə istifadə edə bilərsiniz? Bunun üçün sizə hansı bacarıqlar lazımdır?

**Fəaliyyət üçün ideyalar**

- Uşaqlardan yaxşılaşdırmaq istədikləri ən azı bir vəziyyəti seçməyi xahiş edin. Bu seçimin səbəbini və problem həllinin mümkün üsullarını müzakirə edin.

- Bu işin bütün məktəbə və rayona təqdim edilməsi də maraqlı və əhəmiyyətli tədbir olar. İctimai yerlərdə sərgi göstərilməsini təşkil edin (məsələn, poçt şöbəsi, bələdiyyə binası, məktəb, gənclər mərkəzi) və insanları buraya dəvət edin.

- Sağlamlığın müdafiəsi və təhlükəsizlik sahələrində xüsusilə yaxşı işləyən müəssisələrə təşəkkür məktubları yazın və yaxud bu standartlara uyğun gəlməyənlərə öz təəssüfünüzü bildirin.

- Yerli icra nümayəndələrini uşaqlarla görüşməyə və bu problemləri müzakirə etməyə dəvət edin. Sizin məqsədiniz – müsbət dəyişikliklər əldə etmək üçün uşaqların başqaları ilə əməkdaşlıq etməsidir.

**Aparıcıya məsləhətlər**

- Bu oyunu insan hüquqları sahəsində başqa mövzulara da asan şəkildə uyğunlaşdırmaq olar (məsələn, zorakılıq, gender məsələləri, əlil uşaqlar və ya azlıqda olan uşaqlar, məlumat, əyləncə və istirahət).

- Əgər uşaqlar məktəblər və digər müəssisələr haqqında reportaj hazırlayırlarsa, məsul şəxslərin razılığını alın. Onların uşaqlarla birgə işi gələcəkdə vəziyyətin dəyişməsi üçün mühümdür.

- Bu müxbir işinin məqsədi təkcə qanun pozuntusunu tapmaq deyil, həm də nəyin yaxşı olduğunu görməkdir. Səhiyyə, təhlükəsizlik və ətraf mühiti müdafiə edən və layiqli standartları təmin edənlərə təşəkkür etməyin də vacib olduğunu vurğulayın.

- Uşaqları fotoaparatla necə işləmək və yaxşı keyfiyyətli şəkillər çəkmək üçün təlimatlandırmaq mühümdür. Bütün uşaqlar fotoaparatdan necə istifadə etməyi bilməlidirlər və onların hamısının istifadə etmək imkanı olmalıdır.

**Variantlar**

- Yaxşı olar ki, uşaqlar müxtəlif hisslərlə əlaqələndirilən şəkillər çəksinlər (məsələn, qorxu hissi, xoşbəxtlik, narahatlıq, zəiflik və anlaşılmazlıq və s.)

- Əgər fotoaparat yoxdursa, uşaqlar gördüklərini sözlərlə, şəkillərlə təsvir edə bilərlər və ya onlar bunu maqnitofona yaza bilərlər.

**Mən nəyi sevirəm və nə edirəm**

*Bu həmişə eyni olmur!*

| | |
|---|---|
| **Mövzu** | Diskriminasiya, ailə, gender bərabərliyi |
| **Çətinlik dərəcəsi** | 2-ci dərəcə |
| **Yaş həddi** | 8-13 yaş |
| **Tələb olunan vaxt** | 45 dəqiqəlik məşğələ |
| **İştirakçı sayı** | 8 – 20 uşaq |
| **Oyunun növü** | Maraqların müəyyən edilməsi, müzakirə |
| **Xülasə** | Uşaqlar sevdikləri və sevmədikləri şeyləri adlandırırlar; onların cinsi üçün “münasib” və “namünasib” sayılanlardan nəyi etməyi sevdiklərini sadalayırlar. Sonra gender stereotiplərini müzakirə edirlər və insan hüquqları ilə əlaqələndirirlər. |
| **Vəzifələr** | - Özünün və başqalarının bilik və bacarıqlarını müəyyən etmək;<br>- Gender stereotiplərinin təsirini müəyyənləşdirmək. |
| **Hazırlıq** | - Əlavə olaraq sorğu vərəqinin surətini çıxarın |
| **Materiallar** | - Kağız və qələm<br>- Əlavə material: anketin çap nüsxələri |

**Təlimat**

1. Sual verərək, gender rolları mövzusunu müzakirə etməyə başlayın: "Qız" və ya "oğlan” davranış tərzi hesab edilən hərəkət və ya rəftarlara nümunə gətirin.
2. Uşaqlara kağız və qələm verin. Hər bir uşaqdan aşağıdakıları yazmağı xahiş edin:

   a) Vərəqin yuxarısında oğlan və ya qız olduğunuzu qeyd edin.
   b) Sizin “cinsinizə uyğun” hesab olunan və sevdiyiniz 4 şeyin adını yazın.
   c) “Cinsinizə uyğun” hesab edilməyən, sevmədiyiniz, lakin etdiyiniz 4 şeyin adını qeyd edin.
   d) “Əks cins üçün uyğun” hesab edilən, etmədiyiniz və etmək istəmədiyiniz 4 şeyin adını yazın.

e) “Əks cins üçün uyğun” hesab edilən, etmədiyiniz, lakin etmək istədiyiniz 4 şeyin adını yazın.

3. Uşaqlardan hər bir sualı cavablandirib, bir-biri ilə bölüşməyi və onları aşağıdakı cədvəldə yazmağı xahiş edin:

| | **Mən edirəm və sevirəm** | **Mən edirəm, lakin sevmirəm** | **Mən etmirəm və etmək istəmirəm** | **Mən etmirəm, lakin etmək istərdim** |
|---|---|---|---|---|
| **Qızlar** | | | | |
| **Oğlanlar** | | | | |

**Analiz və qiymətləndirmə**

1. Bu sualların köməyi ilə oyunu təhlil edin:

a) İnsanların nəyi sevdiyi və nəyi sevmədiyi sizi təəccübləndirdimi?
b) “Mən etmirəm, lakin etmək istərdim” sütununa baxın. Burada hansısa qanunauyğunluq görürsünüz?
c) "Oğlan" işləri ilə məşğul olan qızlarda nə baş verir? "Qız" işləri ilə məşğul olan oğlanlarda nə baş verir? Niyə?
d) Valideynləriniz bu dörd suala necə cavab verərdilər?
e) Ailə üzvləriniz kişi və oğlanlara, qadın və qızlara "uyğun" davranışlar fikri ilə razıdırmı?
f) Kişilərə/qadınlara uyğun davranışlar fikrinə biz necə gəlirik?

2. Aşağıdakı sualları verməklə mövzunun insan hüquqları ilə əlaqəsini göstərin:

a) Oğlan və qızlara nə edə biləcəkləri barədə məhdudiyyətlər onların şəxsiyyətinə necə təsir edir? Bu, ailəyə necə təsir edə bilər? Bəs cəmiyyətə?
b) Sizcə, gender rolları (və ya stereotiplər) dəyişir? Əgər dəyişirsə, necə dəyişir?
c) Heç gender rollarına meydan oxuduğunuz olubmu? Nəticəsi necə oldu?
d) Niyə gender rolları/stereotiplər fərdin hüquqlarını məhdudlaşdırır?
e) Biz sinfimizdə gender rollarına mane olmaq üçün nə edə bilərik?

**Davam üçün təkliflər**

- Gender rollarını/stereotipləri nəzərə alan digər oyunlar: "Biri vardı biri yoxdu..." və "Oğlanlar ağlamır".
- "Yaralayan sözlər" oyununda gender stereotiplərinə əsaslanan təhqiredici ifadələr, həmçinin digər təhqir növləri araşdırılır.

**Fəaliyyət üçün fikirlər**

- "Mən etmirəm, lakin etmək istərdim" kateqoriyasında bəzi halları uşaqlarla müzakirə edin. Onlara kömək edin sinifdə məqbul bir mühitdə bu işləri etsinlər.

**Aparıcılara tövsiyə**

- Çalışın ki, uşaqlar "əks cinsə uyğun" şeylərə davranış gözləntiləri, xarici görünüş məsələlərini də daxil etsinlər (məsələn, gözəl geyinmək həvəsi, boşboğazlıq, ağlağanlıq, kobudluq, dalaşqanlıq və s.).
- Variasiyalar: Bəzi uşaqlar "əlverişsiz" sayılan şeyləri etmək istədiklərini gizlədə bilər və ya bundan utanar. Bunun qarşısını almaq üçün aşağıdakıları edə bilərsiniz: 1) kağızları toplamaq, onları qarışdırmaq və uşaqlardan hər iki cinsin anonim cavablarını oxumağı xahiş etmək; 2) uşaqları yekcins qruplara bölmək və onlardan suallara birlikdə cavab verməyi xahiş etmək; 3) çap olunmuş sual blankından istifadə etmək.
- "Stereotip" sözünü müzakirəyə çıxarın, uşaqlardan nümunələr verməyi xahiş edin. Stereotiplərin insan hüquqlarını necə məhdudlaşdırdığını müzakirə edin.
- Cinsi stereotiplərə uyğun olmayan uşaqlarla nə baş verdiyini soruşanda, bu uşaqların necə adlandırıldığını və bu sözlərin mənasını (məsələn, "qızbibi", "mavi", "oğlansifət") müzakirə edin.

## Mənim hüquqlar kainatım

***İnsan hüquqlarının kosmonavtı ol!***

| | |
|---|---|
| **Mövzu** | İnsan hüquqları |
| **Çətinlik dərəcəsi** | 3-cü səviyyə |
| **Yaş həddi** | 8-13 yaş |
| **Müddəti** | 2×60 dəqiqəlik məşğələ |
| **İştirakçıların sayı** | 24-ə qədər |
| **Xülasə** | Uşaqlar "kosmik" fiqurlar düzəldir və onların üzərində sağlam, xoşbəxt və uğurlu böyümək üçün lazım olan əşyaların adlarını qeyd edirlər. Sonra onlar tələbatlarla hüquqları birləşdirən, müxtəlif uşaq hüquqlarını əhatə edən qalaktikalarda birləşəcəklər. |
| **Oyun tipi** | Bədii fəaliyyət |
| **Məqsədlər** | • Uşaq Hüquqları Konvensiyası ilə tanışlıq;<br>• İnsan tələbatları ilə insan hüquqları arasındakı əlaqəni müəyyənləşdirmək;<br>• Fərdi tələbatlar haqqında düşünmək və onları başqalarının tələbatları ilə müqayisə etmək; |
| **Hazırlıq** | • Surətlərini çıxarıb "kosmik" fiqurlar kəsin. Hər uşağa təxminən 6 fiqur nəzərdə tutun.<br>• Mavi rəngli kağızdan təxminən 30 böyük dairə kəsin. Bu fiqurlar "hüquqlar qalaktikası"nı təşkil edəcək.<br>Sonra 10 ədəd kometa şəkilli böyük fiqurlar kəsin, bunlar Uşaq Konvensiyasında əhatə olunan ümumi insan hüquqları haqqında danışılarkən istifadə olunacaq.<br>• Uşaq Hüquqları Konvensiyasının uşaq versiyasının sürətini çıxararaq, hər bir maddəsini ayrıca kağız zolağı kimi kəsin.<br>• Dairəvi "qalaktika" fiqurlarını otağın bütün divarlarına asın və ya yapışdırın.<br>• Əlavə olaraq hər bir uşaq cütlüyü üçün iş vərəqlərinin surətlərini çıxarın. |

| | |
|---|---|
| **Materiallar** | • Rəngli kağızlar;<br>• Mavi rəngli kağızlar;<br>• Boya;<br>• Qayçı, yapışqan lent, yapışqan və əl işləri üçün digər materiallar;<br>• Əlavə iş vərəqi. |

**Təlimat**

**Məşğələ 1:**

**1.** Uşaqları cütlərə bölün və onlardan: a) sağlam, b) xoşbəxt, c) əməkqabiliyyətli insan kimi böyümələri üçün lazım olan şərtlərin (əşya, şərait və s.) siyahısını tərtib etməyi xahiş edin. Hər bir kateqoriya üzrə ən azı dörd bənd yazmalarını xahiş edin.

   a. Əlavə: Uşaqlara iş vərəqləri paylayın. İş vərəqi nümunəsi aşağıda təqdim olunur.

**2.** Cütlüklərə başqa cütlük tapıb tərtib etdikləri siyahıları müqayisə etməyi tapşırın. Bu zaman təkrarlanan fikirləri silərək, yerinə yeni bəndlər düşünüb əlavə etməyi xahiş edin.

**3.** Hər bir uşağa müxtəlif formalı fiqurlar və rəngləmək üçün materiallar paylayın. Uşaqlara öz adını, tərtib etdikləri siyahıdan bir şərti seçib fiqurlara yazmağı, sonra onu rəngləməyi tapşırın. Hər bir şagird tərtib edilən ümumi siyahıdan müxtəlif şərtlər seçib fiqurda qeyd etməlidir.

**4.** Fiqurları mövzuya müvafiq olaraq yığın: sağlamlıq, xoşbəxtlik və inkişaf üçün lazım olan bütün şərtlər. Sonra uşaqları üç qrupa bölün və hər birinə təsnif edəcəkləri kateqoriyanı elan edin. Təsnifatın lazım olan əşya və əlamətləri “bürclərə” toplamaqdan (məsələn, istirahət, səhiyyə və ya təhsilə aid olan fiqur və şəkilləri) ibarət olacağını izah edin. Ola bilsin ki, kiçik yaşlı uşaqlara kateqoriyaları müəyyənləşdirmək üçün köməklik göstərmək lazım olacaq.

**5.** Bürclərin insan hüquqlarının müxtəlif kateqoriyalarını təmsil etdiklərini və növbəti məşğələdə onları hüquqlar kainatında qalaktikalara çevirəcəkləri haqqında izahat verin.

**Məşğələ 2.**

1. Məşğələ 1-də hüquq bürcləri yaratdıqlarını uşaqlara xatırladın**.** Uşaqları kiçik qruplara bölün və hər qrupa bir neçə mavi rəngdə olan dairəvi fiqurlar və hüquqlar sadalanan bürcləri paylayın. Uşaqlara hər bir bürcü müvafiq mavi dairəyə, ortada boş yer qoymaq şərti ilə yapışdırmağı tapşırın. Dairələri divara bərkidin və ya bütün uşaqların görəcəyi şəkildə yerləşdirin.
2. Uşaq hüquqlarını əks etdirən Uşaq Hüquqları Konvensiyası haqqında şərh verin və onun hüquqlar aləmini təşkil etdiyini izah edin. Uşaqların işi ümumi hüquqlar aləmini təşkil edən müxtəlif qalaktikaları müəyyənləşdirməkdən ibarət olacaqdır. Siz hansısa bir hüququ oxuduqda uşaqlardan onun hansı qalaktikaya aid olduğunu müəyyən etməyi xahiş edin. Sonra onlara paylanan kağız zolağında bu hüquqa aid maddəni tapıb müvafiq "qalaktika"nın mərkəzinə yapışdırmağı tapşırın. Hərdən qalaktika bir neçə hüququ özündə birləşdirə bilər.
3. Bəzi hüquqların (məsələn, Maddə 1. Uşaq kimə deyilir. Maddə 3. Uşaq hüquqlarının ən yaxşı şəkildə təmin edilməsi. Maddə 4. Hüquqların həyata keçirilməsi) bütün hüquqlar aləmində öz əksini tapdığına diqqət yetirin. Uşaqlardan bu maddələri "kometalarda" yazıb qalaktikalar arasına asmağı xahiş edin.
4. "Hüquqlar qalaktikalarından" divar boyu sərgi təşkil edin və ya onları tavandan asın.

**Təhlil və qiymətləndirmə**

**1.** Aşağıdakı sualları verərək oyunu təhlil edin:

a) Bu oyunda nə sizin xoşunuza gəldi?
b) Yekun nəticə haqqında siz nə düşünürsünüz?
c) Siz nəyi isə dəyişdirmək istəyirsinizmi?
d) Bu oyunda ən çətin olan nə idi?
e) Sizin zəruri hesab etdiyiniz şərtlər başqalarının şərtlərindən fərqli idimi?

**2.** Aşağıdakı sualları verməklə oyunu insan hüquqları ilə uyğunlaşdırın.

a) Ən böyük qalaktika hansıdır? Bunu əksəriyyət üçün ən əhəmiyyətli şərt kimi qəbul etımək olarmı?
b) Siz düşünürsünüzmü ki, bu hüquq aləmləri dünyada olan bütün uşaqlar üçün eynidir? Niyə "hə", niyə "yox"?
c) Sizin hüquqlarınız tələbatlarınızla necə uzlaşmalıdır? Sağlam, xoşbəxt və uğurlu insan kimi böyüməniz üçün lazım olan hər şeyə hüququnuz çatırmı?

d) Sizin əhatənizdə olan hər bir uşağın hüquqlarının tanınması və qəbul edilməsi üçün siz nə edə bilərsiniz (yəni dostlarınız arasında, oxuduğunuz sinifdə, məktəbdə, təşkilatda, klubda)?

**Davam üçün təkliflər**

«Dovşanın hüquqları» və "Yeni torpaqlara səyahət" oyunlarında da tələbatlarla hüquqlar uzlaşdırılır. Həmin dərslər bu dərslə yaxşı əlaqələnir.

**Fəaliyyət üçün ideyalar**

- Uşaqlara kosmonavt kostyumu geyindirib rayonunuzda hüquqları təmsil edən müxtəlif idarələrə aparın. Bunu uşaqlar tərəfindən yaradılan bütün qalaktikalara ayrı-ayrılıqda tətbiq etmək olar.
- Yaradılan sərgiyə baxmaq üçün qonşu sinfin uşaqlarını dəvət edin. Bunun nə demək olduğunu izah etməyi onlardan xahiş edin.

**Aparıcılara məsləhətlər**

- Uşaqlar yeni dünya yaratmağı xoşlayırlar. Qalaktika nümunələri göstərməklə onların təxəyyülünü oyadın. Hüquqlarla əlaqə yaratmaq üçün bundan istifadə edin.
- Qalaktika yaratmaq üçün "kosmik" fiqurlardan (günəş, ay, planetlər, peyklər, kosmik gəmilər, ulduz və asteroidlər) istifadə edin. Bu fiqurları qabaqcadan hazır edin, ya da fiqurları uşaqlara paylayıb, onların konturlarını kağızlarda işarələyərək kəsməyi tapşırın. Bu fiqurları uşaqlar özləri də fikirləşib yarada bilər.
- "Kometlər" üçün nümunələr: 1-3, 6-8, 12 nömrəli maddələr.
- Bu hüquqlar haqqında uşaqlar çətin ki, düşünsün (məsələn: Maddə 22. Qaçqınlar; Maddə 35. Uşaq alveri; Maddə 39. Hadisələrin qurbanı olan uşaqların reabilitasiyası). Azyaşlı uşaqlarla işləyərkən bu maddələri, həmçinin maddə 41-54-ü araşdırmamaq da olar. Böyük yaşlı uşaqlarla işləyərkən onlardan bu maddələrin bütün konvensiyaya aid olub-olmadığı haqqında soruşun: yəni onları "komet" hesab etmək olarmı? Yoxsa onları daha az məlum olan hüquqlar hesab edərək ayrıca "qalaktika"ya yerləşdirmək lazımdır?
- Uşaqlar birbaşa hüquqlarla əlaqəli olmayan şərtləri də əlavə edə bilərlər. Bəzi şeylərin onların xoşbəxtliyi üçün vacib olduğu hesab edildikdə (məsələn, oyuncaqlar, tətil zamanı səyahətlər, xüsusi yemək və s.), tələbatları arzulardan ayırd etmək üçün onlarla "sizin sağlam, xoşbəxt olmağınız üçün bu həqiqətən vacib şərtlərdirmi?" sualı ətrafında müzakirə aparın.

**Variantlar**

- Təkrar emal materiallarından kosmik peyk, planetlər hazırlamaq tapşırığı verməklə oyunun vaxtını uzadın. Bu üçölçülü əşyaları qalaktika sərgisi qismində tavana bərkidin.

**Adaptasiya**

- Böyük qrup üçün: bütün uşaqları oyuna cəlb etmək və uşaqların düzəltdiyi bütün fiqurları bürclərə birləşdirib yerləşdirmək üçün daha çox aparıcı lazımdır. Alternativ variant kimi siz daha az fiqurlardan istifadə edə bilərsiniz.
- Az yaşlı uşaqlar üçün: müxtəlif vərəqlərin birləşdirməsini asanlaşdırmaq məqsədi ilə Uşaq Hüquqları Konvensiyasının uşaqlar üçün sadələşdirilmiş versiyasının surətini çıxardaraq, ayrı-ayrı maddələrini kəsib divarlara bərkidin. Sonra uşaqlar öz fiqurlarını müvafiq “hüquqlar qalaktikası”na bərkidə bilərlər.
- Yuxarı yaşlı uşaqlar üçün: onlardan oxşar hüquqları qruplaşdıraraq “bürclər” yaratmağı xahiş edin. Sonra onlara Uşaq Hüquqları Konvensiyasının uşaqlar üçün sadələşdirilmiş versiyasının surətini paylayın, “bürclərin” hansı maddələrə uyğun olduğunu müəyyənləşdirməyi tapşırın. Bu proses başa çatdıqdan sonra uşaqlar maddələr yapışdırılmış “qalaktika”ları böyük mavi rəngli dairələrə yapışdıra bilərlər.

**PAYLAMA MATERİALI: İŞ VƏRƏQİ**

| **MƏNƏ LAZIM OLANLAR...** | | |
|---|---|---|
| SAĞLAM OLMAQ ÜÇÜN | XOŞBƏXT OLMAQ ÜÇÜN | ƏMƏKQABİLİYYƏTLİ İNSAN OLMAQ ÜÇÜN |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

## Müasir nağıl

***Siz oturaraq iz qoya bilməyəcəksiniz!***

| | |
|---|---|
| **Mövzu:** | Diskriminasiya, təhsil, asudə vaxt, zorakılıq. |
| **Çətinlik dərəcəsi:** | 2-ci səviyyə. |
| **Yaş həddi:** | 8-13 yaş. |
| **Davamiyyət:** | 60 dəqiqə. |
| **İştirakçıların sayı:** | 5-15 uşaq. |
| **Oyun tipi:** | Müxtəlif əhvalatların danışılması və müzakirəsi. |
| **Xülasə:** | Uşaqlar verilən bir sıra şəkillər əsasında növbə ilə əhvalatlar fikirləşib danışırlar. |
| **Məqsədlər:** | • Uşaq əməyi və müasir “nökərçilik” probleminin qoyulması.<br>• Aktiv dinləmə qabilyyəti aşılamaq;<br>• Yuxarı yaş qrupu uşaqları üçün: İnsan hüquqları üzrə Avropa Məhkəməsi ilə tanışlıq. |
| **Hazırlıq:** | • Taxtadan hamar bir çubuq hazırlayın.<br>• Hər şagird cütlüyü üçün rəsmlərin surətini çıxardın.<br>• Uşaq Hüquqları Konvensiyasının hər bir uşaq üçün uşaq versiyasını hazırlayın. |
| **Materiallar** | • Taxta çubuq.<br>• Paylama materialları kimi mövzuya yaxın bir sıra şəkillərin surətləri.<br>• Uşaq Hüquqları Konvensiyasının uşaq versiyasının surətləri. |

### Təlimat

1. Uşaqlardan hekayəni dinləmək üçün dairə şəklində düzülməyi xahiş edin. Sirli bir atmosfer yaratmağa çalışın. Oyunun qaydalarını izah edin. Taxta çubuğu onlara göstərin və onun “danışan çubuq” olduğunu izah edin: ancaq əlində çubuq olan uşaq danışa bilər. Sözünü bitirdikdən sonra uşaq çubuğu başqasına ötürməlidir.

2. Şəkilləri elə düzün ki, uşaqların hamısı onları görə bilsin. Sonra izah edin ki, uşaqlar bu şəkillər əsasında Siva adlı qız haqqında bir əhvalat fikirləşməlidirlər. Daha sonra şəkilləri paylayın, hər bir uşağa və ya cütlüyə bir şəkil verilməlidir. Hər bir şəklin

ümumi əhvalatın bir hissəsi olduğunu izah edin. Şəkildə çəkilmiş rəsm haqqında fikirləşmək və aralarında müzakirə etmək (cütlük olduğu halda) üçün vaxt ayırın.

3. Nümunə olaraq çubuğu birinci siz əlinizə alıb bir neçə söz deməlisiniz ki, uşaqlara necə danışmaq lazım olduğunu göstərəsiniz. Daha sonra çubuğu danışmaq istəyən uşağa ötürün. Danışan uşağa izah edin ki, danışarkən əlindəki şəkli qaldırıb hamıya göstərməlidir. Əgər bir neçə uşaq danışmaq istəyirsə, bu zaman danışan uşaq çubuğu kimə ötürəcəyini özü seçməlidir.

4. Danışılan əhvalat, hekayə bitdikdə uşaqlara "Bu şəkillərin arxasında duran real əhvalatı eşitmək istəyirsinizmi?" sualı ilə müraciət edin. Siva haqqında əhvalatı oxuyun və ya danışın.

**Təhlil və qiymətləndirmə**

**1.** Aşağıdakı sualları verməklə oyunu təhlil edin:

a) Sizin danışdığınız əhvalat nəyə əsaslanır? Şəkillər sizə eşitdiyiniz və ya yaşadığınız bir əhvalatı xatırlatdımı?

b) Şəkillər əsasında danışılan əhvalat real əhvalata yaxın idimi?

c) Sivanın əhvalatı haqqında nə düşünürsünüz? Nə hiss edirsiniz?

d) Sivanın əhvalatına aid suallarınız varmı?

**2.** Aşağıdakı suallar vasitəsilə uşaq əməyi və köləliyin müasir formaları haqqında müzakirə aparın:

a) Kölə olmaq nə deməkdir?

b) Niyə Sivanın əhvalatı köləliyə oxşayır?

c) Bu əhvalat bizim ölkədə baş verə bilərdimi? Belə hadisələr haqqında nə isə bilirsinizmi?

d) Müasir dünyada qullar, köləlik varmı?

**3.** Uşaqlara Uşaq Hüquqları haqqında Konvensiyanın, İnsan hüquqlarının ümumbəşəri deklarasiyası və ya İnsan Hüquqlarının Avropa Konvensiyası sənədlərinin uşaq versiyalarının surətlərini paylayın. Siva haqqında əhvalata insan hüquqları haqqında sənədlərin prizmasından baxın.

a) Uşaqları zorla işləməyə məcbur etdikdə, onlarla nə baş verir?

b) Bu, insan hüquqlarına necə təsir edir?

c) Uşaq Hüquqları Konvensiyasına əsasən Sivanın hansı hüquqları pozulmuşdur?

d) Uşaq Hüquqları Konvensiyası uşaqları necə müdafiə edə bilər?

e) Hansı digər insan hüquqları haqqında sənədlər uşaq hüquqlarının müdafiəsinə qarantiya verir?

**Davam üçün təkliflər**

- Qorxu yaradan mövzuya toxunan çalışmalardan istifadə edilməməlidir. Belə məşqdən sonra pozitiv emosiyalar yaradan, az vaxt aparan və həyata bağlılıq hissləri oyadan bir oyun keçirin. Məsələn: "Xəritədə hüquqların qeyd edilməsi" və ya "Müşahidəçidən köməkçiyə qədər" oyunları.
- İmkan olduqda böyük yaş qrupu uşaqları üçün Avropa Şurasının analoji hadisəyə həsr edilmiş komiksindən istifadə edin. **www.hurights.eu/notforsale/fabia/en/01.html**

**Fəaliyyət üçün ideyalar**

- Uşaqlara onların ölkəsində uşaq əməyinin müdafiəsi üçün hansı qanunların olduğunu araşdırmağı tapşırın. Qanuna əsasən uşaqlar nə qədər vaxt işləməli-dirlər? Bəzi işlərin görülməsindən uşaqlar müdafiə olunubmu?
- Uşaqlara ev işlərinə sərf etdikləri vaxt və hansı işləri gördükləri ilə bağlı araşdırma aparmağı tapşırın. Ev işlərində iştirak etmək uşaq əməyi sayılırmı? (Məsələn, uşaqlara qayğı, təmizlik işləri, valideynlərə kömək və s.) Qız və oğlanlar ailələrinə eyni dərəcədə köməklik göstərirmi?
- Uşaqlarla birlikdə uşaq əməyindən istifadəyə və insan alverinə qarşı mübarizə planı tərtib edin. Bu mövzu uşaqlara tanış olmasa da, onları maraqlandırar.

**Aparıcılara məsləhətlər**

- Şəkillər üzrə əhvalat danışmaq üçün uşaqlara kömək lazım ola bilər. Siz iştirakçı şəklində çıxış edərək hadisələrin məcrasına, düzgün istiqamətə istiqamətləndirə bilərsiniz. Uşaqlar şəkilləri ardıcıl düzməkdə də çətinlik çəkə bilərlər.
- İnsan alveri anlayışı haqqında məlumat verin.
- Siva haqqında əhvalata aid uşaqların suallarına cavab verməyə hazır olun. Uşaqların çoxu bu əhvalatdan təəccüblənə və ya məyus ola bilər. Siz uşaqlardan biri və ya başqası bu cür situasiyaya düşərsə, kimdən və necə köməklik almaq barədə uşaqlara izahat verməlisiniz.
- Siva haqqında əhvalat real həyatdan götürülmüş bir hadisəyə əsaslanır, bu hadisə İnsan Hüquqları üzrə Avropa Məhkəməsində araşdırılmışdır (Siliadin Fransaya qarşı, № 73316/01).

"Kompasito"dakı hekayədə bilərəkdən Sivanın əsl vətəni (onun əsli Toqodan idi) və ya göndərilən ölkənin adı qeyd olunmayıb (əslində bu, Fransa idi). Bütün satılan uşaqların

Afrika mənşəli və ya hansısa qeyri-Avropa ölkəsindən olduğu, belə hadisələrin baş verdiyi yeganə ölkənin Fransa olduğu kimi fikirlərin yaranmaması üçün belə edilmişdir.

Siz öz ölkənizdəki hadisəni əks etdirmək üçün əhvalatı dəyişdirə bilərsiniz. Amma insan alverinin ancaq Avropadan kənarda baş verməsi fikrinin yaranmaması üçün diqqətli olun. Çox təəssüf ki, bir çox Avropa ölkələrində belə hallara rast gəlmək olur.

- Uşaq əməyindən, uşaqların qorunması haqqında Uşaq Hüquqları Konvensiyasından başqa digər formalar haqqında da izahat verməyə hazır olun.
- Ailəyə köməklik üçün görülən işlər və qeyri-qanuni olan uşaq əməyi arasında müqayisələr aparmaqda uşaqlara köməklik edin. Bunu uşağın istirahət və əyləncə, təhsil alma və digər hüquqları ilə əlaqələndirin.
- Bütün dünyada əyləncə üçün qızlara oğlanlardan nisbətən daha az vaxt ayrılır və ödənişsiz işlərin yerinə yetirilməsi onlardan daha çox gözlənilir. Qızlar və oğlanlardan olan gözləntilər arasındakı fərqləri araşdırın və bunu gender bərabərliyi ilə əlaqələndirin.

**Adaptasiya**

Böyük yaşlı uşaqlara aşağıdakı sualları verməklə Siva haqqında əhvalatla İnsan hüquqları haqqında Avropa Məhkəməsi arasında əlaqələndirmə yaradın.

1. Siva və onun vəkili İnsan hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmişlər. Siz bu məhkəmə haqqında heç eşitmisinizmi, Siva haqqında "iş" kimi və ya nəyi dəyişmək cəhdi idi?
2. İnsan hüquqları üzrə Avropa Məhkəməsi bu iş haqqında nə qərar qəbul etdi? Nəticədə nə baş verdi?
3. Sizin ölkə insan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasını imzalamışdırmı?
4. Uşaq olaraq siz insan hüquqları üzrə Avropa Məhkəməsinə müraciət edə bilərsinizmi? İnsan hüquqları üzrə Avropa Məhkəməsi sizə nə kimi kömək edə bilər?

Böyük yaşlı uşaqlarla İnsan hüquqlarının ümumi deklarasiyası və Uşaq Hüquqları Konvensiyasını İnsan hüquqlarının qorunması haqqında Avropa Konvensiyası ilə müqayisə edin. Sadə dildə yazılmış konvensiya variantını əldə etmək üçün aşağıdakı ünvana müraciət edin: www.youthunformation.com/Templates/Internal.asp?NodeİD=9-847

- Kiçik yaşlı uşaqlarla işləyərkən: şəkilləri nömrələyin və ardıcıl düzün ki, uşaqlar hadisələrin ardıcıllığını görə bilsin.

**Sonrakı informasiya**

- İnsan hüquqları üzrə Avropa məhkəməsinin saytında**:** **www.echr.coe.int**
- **İnsan hüquqları üzrə Avropa məhkəməsinin videomaterialları: www.coe.int/t/e/multimedia/defaulten/asp**

- **İnsan alverinə qarşı Avropa Şurasının mübarizə kampaniyası: [www.coe.int/t/dg2/trafficking/campaign](www.coe.int/t/dg2/trafficking/campaign)**
- **"İnsan alverinə qarşı mübarizə kampaniyası" adlı Avropa Şurasının broşürü, Kommunikasiyalar üzrə Direktorat – ictimaiyyətlə əlaqə xidmətləri, insan hüquqları üzrə baş direktoratla birlikdə – Bərabərlik şöbəsi, 2006 ([www.coe.int/t/dg2/trafficking/campaign/Source/English%20brichure.pdf](www.coe.int/t/dg2/trafficking/campaign/Source/English%20brichure.pdf))**
- **İnsan alverinə qarşı əks-təsir üzrə Avropa Şurasının Konvensiyası: [www.coe.int/t/dg2/trafficking/campaign/](www.coe.int/t/dg2/trafficking/campaign/)**

### Sivanın əhvalatı

Yaxın keçmişdə Siva adlı bir qız yaşayırdı. O, çox kasıb bir ölkədə öz əmisi ilə yaşayırdı. Siva valideynlərini uşaqkən itirmişdi. Böyüdükdən sonra Siva anladı ki, dünya onun ölkəsindən daha böyükdür və orada gəzməli yerlər olduqca çoxdur. Lakin yaşadığı ölkənin bir çox sakinləri kimi, o da kasıb idi və səyahət üçün pulu yox idi.

Bir dəfə onun əmisinin ağlına bir fikir gəlir. O, varlı bir ölkədə tanışı olan zəngin X xanımın evində yaşamağı Sivaya təklif etdi. Siva bu təklifdən sevindi və köçüb getməyə hazır olduğunu bildirdi. Sivanın əmisi X xanımla danışdı ki, təyyarə biletinin pulunu ödəsin. Ancaq razılıq bir şərtlə idi ki, bunun qarşılığında Siva X xanımın evində qalıb onun ev işlərini görəcək.

Beləliklə, Siva təyyarəyə minib, bu varlı ölkəyə gedir. O, başına gələcəkləri sanki öncədən duyurdu. X xanım Sivaya məktəbdə oxumağa imkan yaradacağına, ölkədə sərbəst səyahət etmək üçün sənədlərini qaydaya salacağına söz vermişdi.

Lakin Siva X xanımın evinə daxil olduqdan sonra hər şey başqa cür oldu. X xanım o qədər də mehriban qadın deyildi. Siva onun uşaqlarına qullu edib, bütün ev işlərini görməli idi. Siva qadından məktəb haqqında soruşduqda, o: "bu məsələ gözləyə bilər", - demişdi. Bir müddətdən sonra X xanım Sivaya dedi ki, o, bir müddət Y xanımın evində qalacaq. Siva, nəhayət, məktəbə gedəcəyini, ölkədə səyahət edəcəyini düşündü. Təəssüf ki, Y xanım X xanımdan da sərt bir adam idi. Sivanın həyatı daha da ağırlaşdı. İndi o, işə səhər tezdən başlayır, gecə yarısınadək dincəlməyə vaxt tapmırdı. O, yuxusunu da tam ala bilmirdi, çünki uşaq otağında yerdən yataraq gecə tez-tez duran uşaqların qayğısına qalmalı idi.

Beləliklə, qız ev işləri görüb, yemək hazırlamalı, uşaqlara baxmalı idi. Ona, hətta evdən çıxıb şəhərə gəzmək üçün getməyə də icazə verilmirdi. O, yazıq və bədbəxt həyat yaşayırdı. Siva öz vətəni Afrikanı tərk etdiyi üçün çox peşman idi.




Bir səhər Siva kilsəyə getmək üçün icazə ala bilir. Lakin o, oraya getmək əvəzinə, ürəklənərək qonşunun qapısını döyür və öz əhvalatını danışaraq orada yaşayan cavan ailədən köməklik istəyir. Bu əhvalat qonşuları çox təəccübləndirmişdi, onlar inana

bilmirdilər ki, müasir dünyada kimdənsə nökər kimi istifadə edirlər. Sivanın əhvalatı bir nağıla bənzəyirdi, ancaq bu nağılda mehriban pəri yox idi, çətinlikdən çıxmaq üçün Siva özü bir yol axtarıb tapmalı idi.

Qonşu ailə Sivanı öz evində saxlayır və onun vəziyyəti haqqında polisə xəbər verir. Aparılan müstəntiq araşdırmasından sonra xanım X və xanım Y həbs olunurlar. Lakin bu qadınların belə cəzalandırılması Sivanı qane etmir. O, əmin olmaq istəyirdi ki, artıq heç bir uşaq onun başına gələn hadisə ilə rastlaşmayacaq. Vəkilin köməkliyi ilə Siva İnsan hüquqları üzrə Avropa Məhkəməsinə müraciət edir, X və Y xanımlar yaşayan ölkədə uşaqları bu tip nökərçilikdən qorumaq üçün qanunların dəyişdirilməsini xahiş edir. Məhkəmə Siva ilə razılaşır və o, ölkə elə qərar qəbul edir ki, bu cür məcburi uşaq əməyinin qarşısı alınsın. Nəhayət ki, Siva xoşbəxt idi. O xanım Y-in evindən azadlığa qaçmaqla yanaşı, bu ölkədə heç bir uşağın onun düşdüyü vəziyyətə düşməməsi, onun çəkdiyi əziyyətləri çəkməməsi üçün çalışmışdır və buna nail olmuşdur.

*Mənbə:* Avropa məhkəməsinin insan hüquqları “Siliadin Fransaya qarşı”
№ 733316/01 işinə əsasən uyğunlaşdırılmışdır.

## MÜŞAHİDƏÇİDƏN KÖMƏKÇİYƏ

### Axı mən nə edə bilərəm?

**Mövzu:** Sülh və təhlükəsizlik, zorakılıq.

**Çətinlik səviyyəsi:** 2-ci səviyyə

**Yaş həddi:** 7-13 yaş

**Vaxt:** 60 dəqiqə

**İştirakçı sayı:** 4-24 uşaq

**Şərh:** Uşaqlar həyatlarında baş vermiş hadisələri danışır. Elə situasiyalar ki, orada uşaqlar qurban, təhqir edən, müşahidəçi və ya köməkçi rolunda olublar.

**Oyun növü:** Hekayələr danışmaq və müzakirə

**Məqsədlər:**

- Hər bir insanın həyatda müxtəlif cür zorakılıqla rast gələ biləcəyini izah etmək.
- Bir-birinə hörmət və müdafiə etmək məsuliyyətini vurğulamaq.
- "Köməkçi" olmağın nə olduğu haqqında düşünmək.

**Hazırlıq:** diskussiya keçirmək təlimatının hər qrup ücün sürətini çıxardın.

**Resurslar:**

- Böyük ölcüdə kağızlar və markerlər və ya lövhə və təbaşir.
- Əlavə vəsait: diskussiya keçirmək təlimatı

**Təlimat**

1. Uşaqlara xatırladın ki, yalnız fiziki zolakılıq yox, həm də psixoloji zorakılıq insan hüquqlarının pozulmasıdır. Pis və kobud rəftara misal gətirməklərini xahiş edin.

2. Uşaqları 3-4 nəfərlik kiçik qruplara bölün. Oyunun qaydalarını izah edin və hər şeyin aydın olduğundan əmin olun.

a. Hər iştirakçı müşahidə etdiyi zorakılıq və kobud rəftar haqqında danışmalıdır:

1) Kiminləsə kobud rəftar edildiyini və ya kiminsə xətrinə haqsız yerə dəyildiyini gördünüzsə;

2) Özünüz kimisə incitmisinizsə və ya sizi kimsə haqsız yerə incitmişdirsə;

3) Kiməsə qarşı pis rəftar olunduğuna  və heç kimin həmin şəxsə kömək etmədiyinə şahid olmusunuzsa;

4) Kiminsə kobud rəftar olunan insana kömək etdiyini görmüsünüzsə.

Hər situasiyaya bir misal çərkməklərini xahiş edin. Heç kəs danışdığı hekayəyə görə cəzalandırılmamalıdır.

b. Oyunun bu hissəsinə 15 dəqiqəniz olacaq. Şagirdlər danışmağa başlamazdan öncə sakitcə oturub nə demək istədikləri haqqında düşünsünlər.

*Qeyd: Əgər uşaqlar oxuya bilirlərsə, onları çütlərə bölün və diskussiyaya nəzarət etmək məqsədi ilə hər çütlüyə 4 kvadrat kağızda yazılmış 4 situasiya paylayın.*

3. Uşaqları müşahidə etdiklərini müzakirə etmək üçün yenə bir qrupa yığın. Əvvəlcə uşaqlardan zorakılıq gördükləri situasiyaları misal cəkməyi xahiş edin. Bu situasiyalarda kimin müşahidəci, kimin iştirakçı olduğunu ayırmayın. Hamısını aşağıda verilmiş cədvəldə "zorakılıq" yazılan bölməyə daxil edin.

4. Sonra isə "köməkçi" kateqoriyasına uyğun olan situasiyaları misal cəkməklərini xahiş edin.

5. Nəhayət, "müşahidəçi" kateqoriyasına aid misal cəkməklərini xahiş edin.

Sual verin: "Bəzi situasiyalarda nə etmək olar ki, "müşahidəci" deyil "köməkci"olaq?" Onların cavablarını cədvələ yazın.

a. Variant: 3-cü addımdakı situasiyalardan istifadə edin və onlara necə kömək etmək lazım oldugunu soruşun. Cavabları qeyd edin.

**Təhlil və qiymətləndirmə**

1. Oyunun  5-ci addımındakı kömək siyahısını səsləndirin. İnsanların necə insan hüquqlarının müdafiəsində "köməkçi" olmaqlarını müzakirə edin.

a. Hansı təklifləri həyata keçirmək asan idi? Hansılar çətin idi?

b. Siyahıda sizin edə biləcəyiniz işlər var idimi?

c. İnsanları “köməkci” olmaqdan nə yayındırır?

d. Əgər “köməkci” “müşahidəciyə” nisbətən çoxluq təşkil etsəydi, insan hüquqlarının müdafiəsinə yaxşı təsir edərdimi?

2. Suallar verərək bizim bir-birimizə necə kömək edə biləcəyimizi müzakirə edin.

a. İnsan hüquqlarının müdafiəsində “köməkçi” olan insanın hansı bilik və bacarıqları olmalıdır?

b. İnsan hüquqlarını müdafiə edən insanlara necə dəstək ola bilərik?

c. Bizim qrup üzvlərimizin “köməkçi”olmaları üçün nə edə bilərik?

3. Nəticə olaraq elan edin ki, birinə qarşı kobud rəftar və ya uşaqlara qarşı zorakılıq insan hüquqlarının pozulmasıdır. Bu dünyanın hər yanında baş verə bilər. İnsan hüquqlarını öyrənmək həm də insan hüquqlarının müdafiəsinin necə təmin edilməsi deməkdir. Biz insan hüquqlarının pozulmasını dayandıra bilmərik, amma bir-birimizə kömək edə bilərik.

**Davam etmək üçün təkliflər**

“İncidən sözlər” oyunu uşaqların davranışını təhlil edir və bu mövzuları real həyatla uyğunlaşdırır.

**İdeyalar**

Əgər sizin qrupunuz əməkdaşlıq üçün davranış qaydaları tərtib edibsə, “köməkçinin” davranışını bu qaydalara necə uyğunlaşdırmalı olduğunu müzakirə edin.

**Müəllim üçün məsləhətlər**

- Uşaqlar üçün tapşırığın aydın olduğunu və hər bir iştirakçının fikri dinlənildiyini öyrənmək məqsədi ilə qruplara nəzarət edin.
- Uşaqların şahid olduqları situasiyaları müzakirə edin, həmin an keçirdikləri hissləri deyil.

- Bu oyunu daha öncə işlədiyiniz uşaqlarla keçirin. Oyundan qabaq təhlükəsiz və güvənli ortam yaratmaq cox vacibdir.

**Diskussiya keçirmək ücün əlavə tövsiyələr**

| | |
|---|---|
| Kimisə incitdiklərini nə vaxt gördünüz? | Siz nə vaxt incidənlərdən biri olmusunuz? |
| Kimisə incitdiklərini və heç kimin həmin şəxsə kömək etmədiyini nə vaxt görmüsünüz? | İncidilənə kömək edildiyini nə vaxt görmüsünüz? |

**Cədvəl**

| Hüquq pozuntusu (zorakılıq) | Nə etmək olar? |
|---|---|
| | |

**Oğlanlar ağlamaz!**

Qızlar isə daha yaxşı anlayır...

| | |
|---|---|
| **Mövzu** | Diskriminasiya, gender bərabərliyi ,insan hüquqları |
| **Çətinlik dərəcəsi** | II dərəcə |
| **Yaş həddi** | 8-13 yaş |
| **Tələb olunan vaxt** | 90 dəqiqə |
| **İştirakçı sayı** | 8-20 uşaq |
| **Fəaliyyətin növü** | Müzakirə, fikirlərin söylənilməsi və səhnəciklərin qurulması |
| **Xülasə** | Uşaqlar təxribat xarakterli ifadələri müzakirə edib,onun eskizini təsəvvür edirlər |
| **Vəzifələr** | Gender bərabərliyi və gender stereotiplərinin müzakirəsi<br>Tolerantlıq hissinin inkişafı<br>Stereotiplərin diskriminasiya yaratdığını göstərmək |
| **Hazırlıq** | Siyahıdan 3 fikir seçin və ya yenilərini fikirləşin<br>4 kart hazırlayın: mən razıyam; mən bilmirəm; mən hələ də düşünürəm; mən razı deyiləm<br>Kartları otağın künclərinə yerləşdirin<br>Əlavə fikirlər seçin, öz səhnəcikləriniz üçün onları ayrı-ayrı kağızlarda qeyd edin |
| **Materiallar** | Kağız. |

**Təlimat**

**I hissə: mövqe seçimi**

1.Oyunun birinci hissəsini uşaqlara izah edin:

a. Otaqda dörd künc var. Hər küncdə kart var: mən razıyam; mən bilmirəm; mən hələ də düşünürəm; mən razı deyiləm.

b. Siz üç fərqli fikri səsləndirəcəksiniz. Uşaqlar seçimlərinə uyğun küncdə yerlərini tutacaqlar.

2.Birinci fikri səsləndirin və uşaqların mövqe seçməsini gözləyin. Sonra fərqli küncləri seçən uşaqlardan niyə o yeri seçdiklərini soruşun. Digərlərini də dinlədikdən sonra əgər kimsə fikrini dəyişərsə, yerini dəyişə biləcəyini söyləyin. Bu prosesi hər üç fikir üçün təkrarlayın.

3.Uşaqları bir yerə toplayın və oyunun bu hissəsini müzakirə edin.

a. Bu oyunda sizi nə təəcübləndirdi?

b .Sizcə, niyə eyni fikir haqqında insanların fərqli düşüncələri var?

c. Kiminsə düşüncəsi sizin düşüncənizi dəyişdimi? Niyə?

d .Necə bilmək olar ki, kimin mövqeyi "düzgündür"?

**II hissə: mövqenin səhnəcik vasitəsi ilə təqdimatı**

1.Uşaqları maksimum 5 nəfərlik kiçik qruplara bölün və hər qrupa bir fikir paylayın. Hər qrupa 15 dəqiqə ərzində ona düşən fikri müzakirə edərək, fikrin ideyasını təsvir edən səhnəcik hazırlamağı tapşırın.

2.Qruplardan səhnəciklərini təqdim etmələrini xahiş edin. Hər təqdimatdan sonra tamaşıçılardan səhnəciyin hansı ideyanı təsvir etməsi haqqında fikirlərini soruşun. Sonra isə səhnəciyi təqdim edən qrupdan hansı ideyanı göstərmək istədikləni soruşun.

**Analiz və qiymətləndirmə**

1.Aşağıda verilən suallar vasitəsi ilə gender stereotiplərinin təsirini müzakirə edin.

a. Bu fikirlərin hansı oxşar cəhətləri var idi? Digər buna bənzər fikirlər bilirsinizmi?

b. Bu qrupda oğlanlar və qızlar üçün fərqli qaydalar mövcuddurmu? Sinifdə və ya məktəbdə? Ailədə? Bunun mənası varmı?

c. Qızlar və oğlanların necə olması haqqında digər fikirlər xatırlayırsınızmı? Digər ölkələrdə belə düşüncələr varmı? Avropada? Dünyada?

d.Qızlar və oğlanlar bu fikirlərlə razılaşmayanda və fərqli davranmaq istəyəndə nə baş verir? Sizdə belə hallar olubmu? Özünüzü necə hiss etdiniz? Nə etdiniz?

e.Qadınların və kişilərin necə olması haqqında təsəvvürlər böyüklərə və uşaqlara təsir edirmi?

2.Aşağıdakı sualları verərək, gender bərabərliyi və diskriminasiyanı uzlaşdırın.

a.Qadınlar və kişilər haqqında təsəvvürlər sizin seçiminizi necə məhdudlaşdırır? Misal çəkə bilərsinizmi?

b.Bu məhdudiyyətlər insan hüquqlarına necə təsir edir?

c.Oğlanlar və qızların gələcəkdə öz istəklərinə uyğun hərəkət etmələri üçün nə edə bilərik?

**Davam üçün təkliflər**

“Dünya necə də gözəldir” oyunu “görüntü və reallıq”, “Biri var idi,biri yox idi” oyunu isə gender stereotiplərini izah edir.

**Fəaliyyət üçün ideyalar**

Uşaqlarla “şəxsi davranış kodeksi” kimi bir şey tərtib edin: insanlar bir-birinə qarşı necə davranmalıdır? Qrup daxilində qızlara və oğlanlara qarşı eyni davranışı necə təmin etmək olar?

**Aparıcılara tövsiyə**

- Bu oyunda nəzərdən keçirilən stereotipləri gücləndirməkdən ehtiyat edin. Öz inandığınız gender stereotiplərini idarə etməyi bacarın. Qrupun aparıcısı oldugunuz üçün uşaqlara nəyi, necə verəcəyinizə diqqət edin.
- Qız və oğlanların hüquqlarının fərqlənmədiyini göstərən fikirlər seçin (amma fiziki cəhətdən qız və oğlanlar fərqlidirlər). Kifayət qədər təzadlı mülahizələr seçin ki, rəy müxtəlifliyinə nail olasınız.
- Qrupdan asılı olaraq səhnəciklər üçün siz eyni cins qruplar və ya həm qızlardan, həm də oğlanlardan ibarət qruplar yarada bilərsiniz.
- Valideynlərin yanaşması uşaqların yanaşmasına güclü təsir edir. Siz valideynlərdən bu oyun haqqında həm müsbət, həm də mənfi fikirlər eşidə bilərsiniz.

**Adaptasiya**

- Oyunu qısaltmaq məqsədilə qrup üçün vacib olan hissəni keçirin.
- Uşaqlardan xahiş edin ki, səhnəciyin yerinə kollaj və ya rəsm təqdim etsinlər.

**Fikir nümunələri**

- Gəlinciklər yalnız qızlar üçündür.
- Oğlanlar ağlamazlar.
- Oğlanlar ətək geyinmirlər.
- Qızlar müdir ola bilməzlər.
- Yalnız oğlanlar futbol oynayır.
- Qızlar zəif, oğlanlar isə güclüdürlər.
- Qızlar analarına, oğlanlar isə atalarına kömək edirlər.
- Qız olmaq oğlan olmaqdan yaxşıdır.
- Nəsə baş verəndə həmişə ilk oğlanları günahlandırırlar.
- Oğlanlar nalayiq sözlər deyə bilərlər, qızlar isə yox.
- Oğlanların bir-birini vurması normaldır, qızların isə bir-birini vurması yox.
- Oğlanlar qızlardan tənbəldirlər.
- Qızlar oğlanlardan daha yaxşı yalan danışa bilirlər.

## Portağal uğrunda savaş

***Hər iki tərəf qalib ola bilərmi?***

| | |
|---|---|
| **Fəslin mövzusu** | Sülh |
| **Çətinlik dərəcəsi** | II dərəcə |
| **Yaş həddi** | 8 – 13 yaş |
| **Tələb olunan vaxt** | 30 dəqiqə |
| **İştirakçı sayı** | 4 – 24 uşaq |
| **Oyunun növü** | Qrup yarışı və müzakirə |
| **Xülasə** | Uşaqlar portağalı əldə etmək üçün yarışırlar və münaqişələrin necə həll olunmasını müzakirə edirlər |
| **Vəzifələr** | • Münaqişə vəziyyətində ünsiyyət qurmaq zərurətinin müzakirəsi<br>• Münaqişənin həlli üçün strategiyalar üzərində düşünmək |
| **Hazırlıq** | Yoxdur |
| **Materiallar** | • 1 ədəd portağal |

**Təlimat**

1. İzah edin ki, sinif "portağal oyunu" oynayacaq. Uşaqları iki qrupa bölün. "A" qrupundan xahiş edin ki, dəhlizə çıxıb gözləsin. "B" qrupuna deyin ki, bu oyunda onların məqsədi portağal şirəsini düzəltmək üçün portağalı qazanmaqdır.
2. Dəhlizə çıxıb "A" qrupuna deyin ki, bu oyunda onların məqsədi portağal keksinə qatılacaq portağal qabığı rəndəsi əldə etmək üçün portağala sahib olmaqdır.
3. Hər iki qrupu bir yerə toplayın və iki sırada üz-üzə oturmağı xahiş edin.
4. Qruplara istədiklərinə nail olmaq üçün 3 dəqiqə vaxt verin. Vurğulayın ki, güc tətbiq etməməlidirlər. Sonra portağalı iki qrupun arasına qoyub deyin: "Başlayın".

*Adətən kimsə qəflətən portağalı götürür və onu qazanan bir qrup olur. Sonra isə qruplar bu vəziyyətdən çıxmaq üçün müxtəlif, bəzən gözlənilməyən çıxış yolları tapırlar. Bəzən onlar portağalı yarı bölməyə sözləşirlər. Bəzən isə ümumiyyətlə danışıqlar aparmırlar. Digər hallarda isə onlar vəziyyəti aydınlaşdırmağa başlayıb anlayırlar ki, onlara portağalın müxtəlif hissələri gərəkdir: kimsə*

*portağalın qabığını çıxarıb lazım olan şəkildə böləcək. Əsas odur ki, siz müdaxilə etməyin.*

5. Üç dəqiqə keçəndən sonra “Stop” və ya “Vaxt bitdi” deyin.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualların köməyi ilə oyunu təhlil edin:
   a) Üç dəqiqə bitdikdən sonra qrupunuz istədiyinə nail oldumu?
   b) Qrupunuzun məqsədi nə idi?
   c) Portağal münaqişəsinin nəticəsi nə oldu?
   d) Bu nəticəyə çatmaq üçün siz nə etdiniz?
   e) Niyə münaqişənin həlli üçün ünsiyyət qurmaq belə vacibdir?
   f) Münaqişə tərəfləri həmişə ünsiyyət qururmu? Niyə “hə” və ya niyə “yox”?
   g) Münaqişə zamanı insanlar eyni şeyimi istəyirlər?
   h) Siz bu cür situasiyalarla qarşılaşıbsınızmı? Nəticəsi necə olub?
2. Aşağıdakı sualları verməklə oyunu insan hüquqları ilə əlaqələndirin:
   a) Münaqişə zamanı insanın hansı hüquqları pozulur?

**Davamı üçün təkliflər**

- “Zorakılığın qarşısını necə almaq olar” oyunu da münaqişələrin həllinə həsr olunub.
- Bir neçə oyun danışıqların aparılması vərdişlərinin formalaşmasına həsr olunub: «Qəsri fəth et», «Yekəpər biskvit», «Görünməz adamlar gəlir».

**Fəaliyyət üçün ideyalar**

Qrupdaxili münaqişənin həlli barədə fikirləşin. Həmin ideyaları cədvəldə qeyd edin və otağın bir yerində asın.

**Aparıcılara məsləhətlər**

- Təhlildən yayınmamaq üçün 3 dəqiqə keçəndən sonra portağalı və ya onun qalıqlarını yığışdırın.

- Münaqişə zamanı Siz nəticələrə təsir göstərməyə cəhd etməməlisiniz, lakin istədiklərini əldə etmək üçün gücdən istifadənin yolverilməzliyini vurğulayın.

**Uyğunlaşdırma**

Böyük qruplar üçün uyğunlaşdırma: İki qrupun yerinə dörd qrup formalaşdırın və bu zaman iki “portağal uğrunda savaş” keçirdin. Bunun üçün iştirakçıları 2 “A” qrupu və 2 “B” qrupuna bölün, yuxarıda göstərilən eyni təlimatları verin. 1-ci “A” qrupu 1-ci “B” qrupun qarşısında, 2-ci “A” qrupu isə 2-ci “B” qrupun qarşısında otursun. Yaranmış hər cütlüyün arasında 1 portağal qoyun. Hər cütlük arasında keçirilən oyunu eyni vaxtda başlayıb eyni vaxtda da bitirin. Baş verən müxtəlif prosesləri və hər “savaşın” nəticələrini müzakirə etmək maraqlı olacaq.

**Qərarı kim verməlidir?**

***Uşaq yetərincə böyümüş olanda***

| | |
|---|---|
| **Mövzu:** | Ailə və alternativ qayğı, iştirak |
| **Çətinlik dərəcəsi:** | 2-ci dərəcə |
| **Yaş həddi:** | 7-10 yaş |
| **Tələb olunan vaxt:** | 45 dəqiqə |
| **İştirakçıların sayı:** | 4-24 uşaq |
| **Fəaliyyətin növü:** | Kiçik qruplarda müzakirə və qərarın qəbulu |
| **Xülasə:** | Uşaqlar konkret situasiyalarda “kim qərar qəbul etməlidir?” sualına cavab verirlər. Hər sualdan sonra cavab vermək üçün uşaqlar rəngli kartlardan istifadə edirlər. |
| **Vəzifələr:** | ▪ Ailələrdə qərarın qəbul edilməsi prosesi haqqında düşünmək;<br>▪ Uşaqların ailə həyatında iştirakını müzakirə etmək;<br>▪ Bacarıqların inkişafı konsepsiyası ilə tanış etmək. |
| **Hazırlıq:** | ▪ Səsli oxu üçün suallar hazırlamaq.<br>▪ Hər uşaq üçün rəngli kartlar komplekti hazırlamaq. |
| **Materiallar:** | Hər uşaq üçün bir ədəd yaşıl, sarı və narıncı kart |

**Təlimatlar:**

1.Qrupa bu gün geyindikləri geyim haqqında düşünmək, qrup yoldaşları ilə bu geyimi geyinmək qərarını kimin verdiyi haqqında müzakirə etməyi tapşırın. Bu qərarı valideynləri, yoxsa özləri qəbul etmişdirlər, ya da valideyn və uşağın birlikdə qərarı olmuşdur? Bu oyunun qərar qəbul etmək haqqında olduğunu uşaqlara izah edin.

2. Hər uşağa rəngli kart komplekti (yaşıl, sarı və narıncı) paylayın. Uşaqlara izah edin ki, sizin oxuduğunuz sualları dinlədikdən sonra bu situasiyanın qərarını kimin verməsi barədə qərara gəlməlidirlər. Əgər uşaq qərarı valideynin verdiyini düşünürsə,

onda yaşıl kartı, əgər özünü düşünürsə, sarı, valideynilə özünün birlikdə qərar verdiyini düşünürsə, narıncı kartı göstərir.

3. Sualları ardıcıl oxuyun. Hər sualdan sonra fasilə verib uşaqların hər birinin rəngli kartı göstərməyini gözləyin. Qrupdakı bəzi uşaqlar öz fikirlərini bildirməyə çalışacaqlar, bunun bu mərhələdə müzakirəyə çevrilməsinə imkan verməyin. Müzakirəni təhlil mərhələsinə saxlayın.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualları verərək oyunu təhlil edin:

a) Bu oyun xoşunuza gəldimi?

b) Nə üçün bəzi suallara cavab vermək çətin idi?

c) Hansı suallara cavab vermək daha çətin və ya daha asan idi? Nə üçün?

ç) Niyə bəzilərinizin cavabları müxtəlif idi?

d) Bu sualların doğru və ya yanlış cavabı ola bilərmi?

e) Uşaqların özlərinə aid olan məsələlərdə qərar qəbul etməkdə yaş həddinin təsiri varmı? Nə üçün hə, nə üçün yox?

2. "İnkişaf edən bacarıqlar" anlayışını daxil edin və bunun mənasını izah edin:

Uşaqlar böyüdükcə öz şəxsi işlərində qərar qəbul etmək üçün daha çox imkanlar əldə edirlər. Yuxarı sinif şagirdlərinə daha dərindən izah etmək üçün uşaq hüquqları haqqında Konvensiyanın 5-ci və 14-cü maddələrinə müraciət etmək olar.

Uşaqların qərar qəbul etmək prosesində rollarına aid suallar verin:

a) Ailənizdə qərar qəbul etməkdə iştirak edirsiniz? Bu hansı qərarlardır?
b) Özünüz sizə aid hansı qərarları verə bilirsiniz? Bu necə qərarlardır?
c) Elə məsələlər olur ki, qərar vermək üçün sizin valideylərinizin məsləhətinə ehtiyacınız olur? Bu hansı məsələlərdir?

ç) Siz valideynlərinizdən məsləhət almaq üçün nə edirsiniz?

d) Sizə və valideynlərinizə ailənizin həyatında iştirak etmək nə qədər vacibdir? Nə üçün hə, nə üçün yox?

e) Ailənizin həyatında daha necə iştirak edə bilərsiniz?

ə) Ailənizdə qərar qəbul etmək üsulları xoşuna gəlirmi? Hansı məsələlərə aid qərar qəbul etməkdə iştirak etmək istərdiniz? Qərar qəbul etmək prosesində daha böyük rol oynamaq üçün nə edə bilərsiniz?

3. Aşağıdakı sualları verməklə insan hüquqları ilə əlaqə yaradın:

a) Siz necə düşünürsünüz nə üçün bəzi insan hüquqları uşaqlara və onların ailələrinə aiddir?

b) Siz necə düşünürsünüz nə üçün uşaqlara aid qərarların qəbulunda uşağın iştirakı hər bir uşağın hüququdur?

c) Uşaqların həyatı haqqında onların özündən və valideynlərindən başqa daha kim qərar qəbul edə bilər? Nə üçün bu belə vacibdir?

**Davamı üçün təkliflər:**

- Ailə mövzusuna aid “Biz ailəyik” oyununu əvvəl keçirməyi məsləhət görürük.
- “Bizim qrupun Konstitusiyası” oyunu da uşaqları birlikdə qərarlar qəbul edib danışıqlar aparmağa cəlb edə bilər.

**Fəaliyyət üçün ideyalar:**

- Qrupdakı uşaqlara öz valideynləri ilə birlikdə ailənin həyatında hər bir ailə üzvünün fəal iştirakını təmin edən ailə strategiyasını hazırlamağı təklif edin.
- Uşaqlarının yaş həddinin və inkişafının dəyişməsi ilə valideynlərin uşaqlarına aid qərarların qəbulunda rollarına və ailə həyatında iştiraklarına münasibətlərini bildirmək üçün valideynləri qrupa dəvət edin.

**Aparıcılara məsləhətlər:**

- Bəlkə bəzi suallara cavab vermək uşaqlar üçün çətin olacaq, lakin onlar rəngli kartlardan birini və ya onlara yaxın olan cavablardan birini seçməlidirlər.
- Siz öncədən qrupdakı uşaqların ailə vəziyyəti haqqında məlumatlı olmalısınız. Bəziləri bir valideyn və ya himayədarla yaşaya bilər. Belə hallarda siz suallara himayədarı da daxil etməlisiniz.
- Bəzi uşaqlar verdikləri cavabların açıqlamasını həmin andaca verməyə can atırlar, lakin siz onlara müzakirə etməyə icazə verməməlisiniz və başa salmalısınız ki, daha sonra oyunu müzakirə etmək üçün vaxt olacaq.
- Siz sualları səsli oxumamışdan əvvəl uşaqlara hər rəngli kartın hansı mənanı ifadə etdiyini şəkil çəkməklə göstərmələrini təklif edə bilərsiniz. Bunu həm də

lövhə və ya cədvəldə hamının qarşısında iştirakçılara kömək üçün yaza bilərsiniz.

**Kiçik yaşlı şagirdlərə adaptasiya:**

- Oyunu daha geniş aparmaq üçün uşaqları hər sual toplusundan sonra aldıqları qərarları müzakirə etməyə dəvət edin.

**Yuxarı sinif şagirdlərinə adaptasiya:**

- Bu sualların uşaq hüquqları haqqında Konvensiyadan hansı hüquqa aid olduğunu müəyyən etməyi tapşırın.
- Hansı insan hüquqları uşaq və valideynlərin ailə həyatında iştirakını təmin edir? Nə üçün bunlar vacibdir?

**Səsli oxumaq üçün suallar**

**1. Ailəniz mağazaya alış-verişə gedərkən sizin evdə tək qala bilməyiniz haqqında kim qərar verməlidir:**

- 5 yaşında?
- 10 yaşında?
- 15 yaşında?

**2.Valideynlərinizin ayrılmasından sonra sizin hər iki valideyninizlə əlaqə saxlaya bilməyiniz haqqında kim qərar verməlidir:**

- 4 yaşında?
- 9 yaşında?
- 17 yaşında?

**3.Sizin əsgər gedə bilməyiniz haqqında kim qərar verməlidir:**

- 6 yaşında?
- 11 yaşında?
- 16 yaşında?

**4.Əgər yağış yağırsa, sizin gödəkcə geyinməyinizə kim qərar verməlidir:**

- 3 yaşında?
- 9 yaşında?
- 14 yaşında?

**5.Sizin vegetarian olub-olmamağınıza kim qərar verməlidir:**

- 4 yaşında?
- 8 yaşında?
- 13 yaşında?

**6.Siz siqaret çəkə bilərsinizmi qərarını kim verməlidir:**

- 6 yaşında?
- 9 yaşında?
- 15 yaşında?

**7.Sizin gecəyarısına qədər yatmayacağınıza kim qərar verməlidir:**

- 5 yaşında?
- 9 yaşında?
- 14 yaşında?

**8.Sizin İnternetdən nəzarətsiz istifadənizə kim qərar verməlidir:**

- 6 yaşında?
- 10 yaşında?
- 16 yaşında?

**9.Hansı dini etiqadı seçməyinizə kim qərar veməlidir:**

- 5 yaşında?
- 9 yaşında?
- 13 yaşında?

**10.Sizin daha məktəbdə təhsil almamağınıza kim qərar verməlidir:**

- 6 yaşında?
- 10 yaşında?
- 15 yaşında?

**11.Yerli xorda iştirak edə bilməyiniz haqqında qərarı kim verməlidir:**

- 5 yaşında?
- 9 yaşında?
- 17 yaşında?

**12.Sizin özəl mobil telefonunuzun olmasına kim qərar verməlidir:**

- 4 yaşında?
- 8 yaşında?
- 14 yaşında?

**13.Sizi başqa ailəyə vermək haqqında kim qərar verməlidir:**

- 4 yaşında?
- 10 yaşında?
- 16 yaşında?

## Qrupumuzun konstitusiyası

***Mənim hüququma görə kim cavabdehdir?***

| | |
|---|---|
| **Mövzu:** | Vətəndaşlıq, demokratiya, iştirak |
| **Çətinlik dərəcəsi:** | III dərəcə |
| **Yaş həddi:** | 10-13 yaş |
| **İştirakçı sayı:** | 10-30 uşaq |
| **Tələb olunan vaxt:** | 1-ci mərhələ: 60-90 dəqiqə, 2-ci mərhələ: 30-45 dəqiqə |
| **Oyunun növü:** | Müzakirə, konsensusa nail olmaq (razılığa gəlmək), qaydaların işlənib hazırlanması. |
| **Xülasə:** | Uşaqlar hüquq və vəzifələrini qeyd edərək öz qruplarının “konstitusiyası”nı hazırlayırlar. |
| **Vəzifələr:** | • Hüquq və vəzifələr arasındakı əlaqəni anlamaq;<br>• Hüquq və vəzifələri gündəlik həyatla əlaqələndirmək;<br>• Qaydaların hazırlanmasında iştirak etməyin vacibliyini və hüququn müdafiəsini qeyd etmək;<br>• Qrup üçün qaydalar və vəzifələr toplusu hazırlamaq. |
| **Hazırlıq:** | Yoxdur. |
| **Materiallar:** | • İştirakçılar üçün qələm və kağız;<br>• Flipchart və marker;<br>• Əlavə material: “Uşaq hüquqları konvensiyası”nın uşaq variantının mətni. |

### Təlimatlar

#### 1-ci mərhələ

- Uşaqların hüquq və vəzifələr haqqında təsəvvürlərini, həyatda hansı hüquq və vəzifələrlə qarşılaşdıqlarını aydınlaşdırın. Şagirdlərə bu cümlələri tamamlamağı tapşırın: məsələn, «Mənim ........ haqqım yoxdur, çünki .........» (Çox qəzəbli olduğum vaxt insanları döyməməliyəm, çünki insanlara qarşı ədalətsiz davranmağa haqqım yoxdur). Bu cür cümlələrdən siyahı hazırlayın və sonra şagirdlərə oradakı mənfi fikirləri müsbət fikirlərə çevirməyi tapşırın (Məsələn, mənim döyülməmək haqqım var; Mənim mənə qarşı ədalətli davranılmağa haqqım var).

- Uşaqlar hüquqlara aid belə ifadələrin necə yazılacağını anladıqdan sonra onları dörd və ya beş nəfərlik kiçik qruplara bölün. Hər qrupa kağız və markerlər verin və bunları izah edin:
    - Hər kiçik qrup sinif üçün 3 və ya 4 qayda tərtib etməlidir.
    - Onlar "Hər kəsin ......... hüququ var" ifadəsindən istifadə etməlidirlər (Məsələn, hər kəsin iştirak etmək hüququ var).
    - Hüquqlar yalnız qrupdakı hər bir üzvün razılığından sonra yazıla bilər.
    - Məqsəd çoxlu qaydalar tərtib etmək deyil, hamının qəbul etdiyi qaydalar tərtib etməkdir.
- Hamını bir yerə yığın və hər qrupdan öz qaydalarını təqdim etməyi xahiş edin. Onları aşağıdakı kimi lövhədə yazın:
    - Əvvəlcə qruplardan müəyyən etdikləri hüquqları soruşun. Qrupdakılar yazdıqları hüquqların başqa sözlərlə ifadə olunmasına razıdırsa, onda oxşar hüquqları birləşdirin və onları lövhədə «Hüquqlar» sütununda qeyd edin.
    - Şagirdlərdən qeyd etdikləri hüquqdan hamının istifadə etməsi üçün hansı vəzifəni yerinə yetirməli olduqlarını soruşun. Aşağıdakı ifadələrdən istifadə edərək onları «Vəzifələr» sütununda ("Hüquqlar" sütununun yanında) yazın: «Mənim ... vəzifəm var» və ya «Mən ... etməliyəm».
- Sonra onlardan hər bir hüququn hansı vəzifəyə aid olduğunu soruşun. Bunu birinci şəxsin adından təsdiqləyərək hüquq haqqında bəyanat kimi qeyd edin (Məsələn, mən heç kimin iştirakına etiraz etməməliyəm).

| **KONSTİTUSİYA** | |
|---|---|
| ***Hüquqlar*** | ***Vəzifələr*** |
| Hər kəsin ona qarşı ədalətli davranılmaq hüququ var.<br>Hər kəsin öz fikirlərini ifadə etmək hüququ var. | Hər kəsə qarşı ədalətli davranmaq vəzifəm var.<br>Mənim hər kəsə öz fikrini ifadə etmək hüququ vermək vəzifəm var. |

- Qrupların qeyd etdiyi bütün hüquq və vəzifələri buraya daxil etdikdən sonra şagirdlərə konstitusiya layihəsini nəzərdən keçirməyi tapşırın.
    - Uşaqların diqqətinə çatdırın ki, çoxlu pis qaydadansa, bir neçə yaxşı qaydanın olmağı daha vacibdir: Bu hüquq və vəzifələrdən hansınısa birləşdirmək mümkündürmü və orada nə istisna edilə bilər?
    - Başqa hüquq və vəzifə əlavə etmək lazımdırmı?

- Hüquq və vəzifələrin siyahısını tərtib etdikdən sonra həmin qaydaları öz qruplarının konstitusiyası kimi istifadə edə bilib-bilməyəcəklərini onlardan soruşun.
  - Onlar özləri hazırladıqları bu qaydalara riayət etməyə hazırdırlarmı?
  - Hamının "konstitusiya"ya tabe olmağını təmin edən kimdir?
  - Hüquqlardan birini pozduqda nə baş verir?
  - Əgər qaydalara əməl edilmirsə, tədbir görmək lazımdırmı? Nə üçün?
- Konstitusiyanın son variantını ağlamaya köçürün və hər kəsin görə biləcəyi yerdən asın. Bunun həm uşaqlar, həm də böyüklər üçün birgə iş və oyun qaydaları olduğunu şagirdlərə izah edin.
- Müzakirənin sonunda hər kəsin hüquqlarının qorunması və birgə yaşaması üçün qayda və vəzifələrin vacib olduğunu vurğulayın. Qaydalar bizim hüquqlarımızı qoruyur (məsələn, iştirak etmək, fikirlərinizi ifadə etmək, təlim, oyun və s.), sağlamlığımızı təmin edir və başqalarının hüquqlarına hörmətlə yanaşmağı qarşımıza vəzifə kimi qoyur.

**Təhlil və qiymətləndirmə**

1. Uşaqlardan oyunla bağlı təəssüratlarını bölüşməyi xahiş edin.
   - Qrupda qaydalar siyahısını yaratmaq asan oldumu? Bəs vəzifələr siyahısını yaratmaq asan idimi?
   - Qrupda işləmək asan oldumu? Qrupla işləməyin müsbət və mənfi tərəfləri hansılardır?
   - Bütün qrupun razılaşmadığı bir hüquq təklif olundumu? Nə üçün?
   - Sizin razılaşmadığınız fikir olduqda nə etdiniz? Qrupun digər hissəsinin razılığını almağa çalışan insan oldumu? Daha əvvəl imtina edilmiş fikirlər sonradan qəbul olundumu?
   - Bu oyun zamanı özünüz haqqında nə öyrəndiniz? Qayda və vəzifələr haqqında nə öyrəndiniz?
   - Demokratiya haqqında nə isə öyrəndinizmi?
2. Aşağıdakı sualları verərək qayda və vəzifələrin məqsədini müzakirə edin və cavabları qeyd edin.
   - Siz hansı qaydalara riayət etməlisiniz (məsələn, evdə, məktəbdə, digər yerlərdə)? Bu qaydaları kim yaradır?
   - Sizin vəzifələriniz nədir? Bu vəzifələri sizə kim təyin edir?
   - Böyüklərin də qayda və vəzifələri varmı? Onlar necə müəyyən olunub?
   - Nə üçün hamımızın qayda və vəzifələriniz var? Onlar bizə lazımdırmı?

- Kimsə qaydalara riayət etmək istəmədikdə nə baş verə bilər? Qaydalara riayət etməyən şəxs məsuliyyət daşıyırmı? Nə üçün?

3. Bu suallarla hüquq və vəzifələrə riayət etməyin yollarını müzakirə edin.

- Siz hüquq və vəzifələrinizi qəbul etdikdən sonra başqalarının da ona riayət etməsi üçün nə edə bilərsiniz?
- Buna nəzarəti kim etməlidir?
- İnsan qaydalara riayət etmədiyi üçün məsuliyyət daşımalıdırmı? Bu məsuliyyətin nədən ibarət olacağına kim qərar verməlidir?

**2-ci mərhələ**

1. Konstitusiyanı hazırladıqdan bir neçə gün və ya bir neçə həftə sonra uşaqlara onu yenidən nəzərdən keçirməyi tapşırın. Onların diqqətinə çatdırın ki, qanunlar tez-tez gözdən keçirilməli, ləğv edilməli və ya daha ətraflı ifadə olunmalıdır.

- Onlar əvvəl hazırlanan hüquq və vəzifələrlə yenidən oxuduqdan sonra da razıdırlarmı?
- Digərləri ilə müqayisədə hər hansı bir vəzifəni yerinə yetirmək daha çətindirmi? Nə üçün?
- Onların konstitusiyasında nəyisə dəyişdirmək, ləğv etmək və ya əlavə etmək lazımdırmı?

2. Aşağıdakı sualları verərək qayda və vəzifələrə riayət məsələsini müzakirə edin:

- Tez-tez pozulan hüquqlar hansılardır? Nə üçün?
- Bu hüquqlara riayət edilməsi üçün kim məsuliyyət daşıyır?
- Qrup qaydalarını pozan şəxslə bağlı hansı tədbirin görüləcəyinə kim qərar verməlidir?
- Qaydalar pozulduqda məsuliyyətin nədən ibarət olacağını qrupla birlikdə düşünmək lazımdırmı?

**Təhlil və qiymətləndirmə**

- Qrupun hazırladığı qaydaların mənasını müzakirə edin. Bu prosesi demokratik cəmiyyətdə qanunların qəbul edilməsi prosesi ilə əlaqələndirin.
- Qrupun konstitusiyasının olması faydalıdırmı?
- Qrupun öz qaydalarını müəyyən etməsi vacibdirmi?

**Davamı üçün təkliflər**

- Hər kəsə qrup "konstitusiyası"nın bir nüsxəsini götürməyi təklif edin.
- Qrupda münaqişə və ya problemlər varsa, onları həll etmək üçün qrup konstitusiyasına müraciət edin. Real həyat problemləri konstitusiyanın yenidən nəzərdən keçirilməsinin zəruriliyini göstərir.
- Uşaqlara qanun pozuntuları üçün məsuliyyət tədbirlərini birgə hazırlamaq imkanı vermək üçün 2-ci mərhələnin 2-ci bəndini daha dərindən işləyə bilərsiniz.
- Uşaqlara " Uşaq hüquqları konvensiyası"nın sadələşdirilmiş mətnini paylayın. Onlara bütün dünya uşaqlarının hüquqları haqqında sənədlə öz konstitusiyalarını müqayisə etməyi tapşırın. Konvensiyada şagirdlərin öz konstitusiyalarına əlavə etmək istədikləri hüquq və vəzifələr varmı?
- Uşaqların hüquqlarını müəyyən edən xüsusi konvensiyaya nə üçün ehtiyac olduğunu böyük yaşlı uşaqlarla müzakirə edin. Uşaq hüquqları böyüklərin hüquqlarından fərqlənirmi? Vəzifələr və "Uşaq hüquqları konvensiyası"nda verilən qabiliyyətlərin inkişaf prinsipləri arasındakı qarşılıqlı əlaqəni anlamaqda uşaqlara kömək edin.
- Bu dərsdən əvvəl və sonra uşaqları demokratik qərarvermə prosesinə cəlb edən "Hər səsin bir əhəmiyyəti var" oyunu keçirilə bilər.

**Fəaliyyət üçün ideyalar**

- Uşaqlardan soruşun ki, onların məktəblərində (komandalarında, klublarında) uşaq hüquqlarını qoruyan və müdafiə edən siyasət, qanunlar və ya prosedurlar varmı və onların içərisində vəzifələr qeyd olunubmu? Əgər varsa, onlardan bu qaydaları qiymətləndirməyi xahiş edin:
- Onları kim hazırlayıb?
- Siz bu qaydalarla razısınızmı?
- Onları dəyişmək olarmı? Əgər olarsa, necə?
- İnsanlar bu qaydalara riayət etmədikdə nə baş verir?

**Aparıcılara məsləhətlər:**

- Bəzi uşaqlar "konstitusiya" sözünün mənasını anlamaya bilərlər. Bu halda həmin sözü işlətməmək (1-ci mərhələ, 4-cü addım), onu sadəcə "qrupumuzun qayda və vəzifələri" sənədi kimi adlandırmaq olar. Həmçinin oyundan əvvəl "konstitusiya" anlayışını izah etmək və uşaqlara aşağıdakı suallarla müraciət etmək olar:
- Bizim ölkəmizdə konstitusiya varmı?

- Bizim konstitusiyada nələr yazılıb?
- Onu kim yazıb? Nə vaxt yazılıb?
- Ona riayət etməyə kim nəzarət edir?
- Konstitusiyaya riayət etmədikdə nə baş verir?
- Uşaqların çoxu qaydalara mənfi münasibət göstərirlər, onları ancaq azadlıqlarını məhdudlaşdıran qaydalar kimi görürlər. Ona görə də onlara birgə yaşayış qaydalarının bizə nə üçün vacib olduğunu izah etmək və onları müzakirə edib nümunə gətirmək uzun vaxt apara bilər.
- Kiçik yaşlı uşaqlara başqalarına qarşı şəxsi öhdəlikləri (məsələn, növbəyə riayət etmək, fərqliliklərə hörmətlə yanaşmaq, zorakılıqdan imtina etmək) böyüklər tərəfindən qoyulan qadağa və tapşırıqlardan (məsələn, dişləri təmizləmək, yatağını yığmaq, dərsdə əlini qaldıraraq sual vermək, ev tapşırıqlarını yerinə yetirmək) ayırd etməyi öyrətmək üçün kömək lazım ola bilər.
- Hər bir insanın (istər böyük, istərsə də uşaqların) hüquq, vəzifə və ya məsuliyyətləri arasındakı əlaqəni vurğulayın. Qaydalara riayət etməyin vacibliyini qeyd edin.

**Adaptasiya**

1. Oyunun kiçik yaşlı uşaqlar üçün çətin olmaması üçün daha konkret suallar verin:
    - Müzakirənin əsas mövzusu hüquq və vəzifələr olmalıdır.
    - Çətin qaydalar qoymayın, riayətə nəzarəti və məsuliyyəti nəzərə almayın.
2. Böyük yaşlı uşaqlarla daha dərin müzakirələr aparıla bilər və aşağıdakı sualların köməyi ilə hüquq, qayda və vəzifələr arasında daha mücərrəd əlaqələr yaradıla bilər:
    - Hüquq və qaydalar arasında hansı əlaqə var?
    - Qayda və vəzifələr arasındakı fərq nədir?

## Şəkillərlə oyunlar

### Bir şəkil min sözü əvəz edir!

| | |
|---|---|
| **Mövzular:** | Diskriminasiya, insan hüquqları, media və internet. |
| **Mürəkkəblik səviyyəsi:** | 2. |
| **Yaş həddi:** | 8-13 yaş. |
| **Müddəti:** | 30 dəqiqə. |
| **İştirakçıların sayı:** | 2-20 uşaq. |
| **Oyunun növü:** | Şəkillərlə oyun. |
| **İcmal:** | Uşaqlar stereotipləri, müxtəlif fikirləri tədqiq etmək, şəkillərin informasiyanı necə ötürdüyünü və çaşdırıcı olduğunu öyrənmək üçün vizual görüntülərlə işləyirlər. |
| **Məqsədlər:** | • Gündəlik həyatda insan hüquqları anlayışlarını dərinləşdirmək;<br>• "Vizual savadlılığ"ı, dinləmə və ünsiyyət vərdişlərini inkişaf etdirmək;<br>• İnsan ləyaqətinə hörmət və empatiya hissini formalaşdırmaq. |

Bu oyunda insan hüquqları mövzusunda foto və ya şəkillərlə işləmək üçün üç üsul təklif olunur. Qrupunuz üçün ən uyğun olanı seçin.

### a. Şəklin bir hissəsi

| | |
|---|---|
| **İcmal:** | Uşaqlar əvvəlcə foto və ya şəklin yalnız bir hissəsinə baxıb nəticə çıxarırlar, sonra isə şəkli bütövlükdə görürlər. |
| **Hazırlıq:** | • Yoxsulluq və ya adekvat yaşayış səviyyəsini əks etdirən şəkillər (fotolar) tapın. Şəkilləri kartonun üstünə yapışdırın və həmin kartonu iki hissəyə bölün. Ancaq şəkilləri iki hissəyə elə bölmək lazımdır ki, bölünmüş hissələr şəklin bütöv halda əks etdirdiyi situasiyadan fərqli bir situasiyanı ifadə etsin.<br>• Hər bir uşaq üçün şəkillərdən (fotolardan) ibarət zərflər hazırlayın. |

**Materiallar:**

- Fotolar və ya şəkillər
- Karton və yapışdırıcı
- Zərflər
- Avropa Şurasının veb saytından götürülmüş komikslər kitabı.

**Təlimat**

1. Uşaqları cütlərə ayırın. Hər cütə içərisində bir neçə foto və ya şəkil olan iki zərf verin.

2. Oyunun qaydalarını izah edin:

- Cütlərdən biri zərfi açır və yoldaşına şəklin (fotonun) bir hissəsini verir.
- Yoldaşınızın şəkildə təsvir olunanlar barədə öz fikirlərini deməsinə imkan verin. Yoldaşınızdan soruşun ki, bu şəkildə təsvir olunanlar (məsələn, şəkildə kim təsvir olunur və nə baş verir?) insan hüquqlarına aiddirmi?
- Sonra yoldaşınıza şəklin ikinci hissəsini verin və ondan şəkli bütöv halda gördükdən sonra nə düşündüyünü soruşun.
- Şəkildəki (fotodakı) tam görüntü insan hüquqlarını əks etdrirmi?
- Rolları dəyişin.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualları verərək oyunu təhlil edin:

- Sizi bu oyunda nə təəccübləndirdi?
- Şəklin ikinci hissəsini gördükdə təəssüratınız necə dəyişdi?
- Bu şəkildə (fotoda) hansı insan hüquqlarından söhbət gedir?

2. Aşağıdakı sualları verməklə fəaliyyəti təəssüratla əlaqələndirin:

- Ağlınıza başqa situasiyalar gəlirmi ki, orada da vəziyyətin yalnız bir hissəsini gördüyünüz üçün asanlıqla yanıla bilərsiniz?
- İnsanlar tez-tezmi yalnız gördüklərini qəbul edir və hadisənin tam olmaya biləcəyini unudurlar?

**Aparıcılara məsləhətlər**

✓ Bu oyundan uşaqlarda ünsiyyət zamanı yaranan gərginliyi aradan götürmək üçün istifadə edə bilərsiniz.

✓ Variantlar:

- Oyunu mürəkkəbləşdirmək üçün cütlərə şəkilləri (fotoları) bir-birləri ilə dəyişdirməklə oyuna davam etməyi tapşırın. Oyunun ikinci turu asan keçdimi? Əlavə çətinliklər oldumu? Nə üçün?
- İki cütə eyni şəkilləri (fotoları) verin. Daha sonra onlara dörd nəfərdən ibarət qrupda birləşməyi və öz cavablarını müqayisə etməyi tapşırın.
- Qəzetdən kəsilmiş şəkilləri uşaqlara verin. Onlardan şəkillərlə bağlı fikirlərini soruşun və daha sonra qəzetdəki həmin şəklə aid məqaləni oxuyub qiymətləndirməyi xahiş edin.

**b. Şəkillərin alt-yazısı**

| | |
|---|---|
| **İcmal:** | Uşaqlar şəkillər qrupunu adlandırır və daha sonra öz təəssüratlarını müqayisə edirlər. |
| **Hazırlıq:** | • 8-10 ədəd maraqlı şəkil seçin və onları nömrələyin.<br>• İş vərəqi hazırlayın, vərəqdə şəkillərin sayı qədər zolaq çəkin. |
| **Materiallar:** | • Nömrələnmiş şəkillər.<br>• Hər bir cüt üçün iş vərəqi, kağız, qələm, yapışqan və ya yapışqanlı lent və qayçı. |

**Təlimatlar**

1. Şəkilləri stolun üzərinə düzün. Uşaqları cütlərə bölün və onlara hər bir şəkli adlandırmağı və şəklin altında yazmağı tapşırın. Adların asan oxunması üçün uşaqlardan aydın və səliqəli yazmalarını xahiş edin.

2. Bütün işlər başa çatdıqdan sonra şəkilləri bir-bir iştirakçılara göstərin. Kim istəyirsə, öz seçdiyi adı oxuya bilər.

3. Hər bir şəkli kağız üzərinə və ya lövhəyə yapışdırın. Sonra uşaqlara "plakat" şəklində alınması üçün hər bir şəklin altına öz adını yapışdırmağı tapşırın.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualları verərək oyunu təhlil edin:

- Şəkillərə ad seçmək çətin idi?
- Uğurlu ad üçün nə lazımdır?
- Bir şəkil min sözü əvəz edə bilirsə, onda ona ad qoymaq nəyə lazımdır?

2. Aşağıdakı suallarla oyunu müxtəliflik mövzusu ilə əlaqələndirin:

- Uşaqlar şəkillərə baxıb öz fikirlərini deyirlər. Deyilən fikirlər arasında böyük fərqlər var idimi? Nə üçün?

- Sizcə, şəkillərə verilən adların arasında uyğun gəlməyəni varmı?
- Eyni bir şey haqqında müxtəlif fikirlərin səslənməsi nə üçün yaxşıdır?

**Aparıcılara məsləhətlər**

- Məzmunca maraqlı, fərqli və çoxmənalı şəkillərdən istifadə edin.
- Plakatı daha cəlbedici etmək üçün rəngli kağız və qələmlərdən istifadə edin.

### c. Personajların replikaları

| | |
|---|---|
| **İcmal:** | Uşaqlar şəkilləri təhlil edir, personajlar üçün replikalar fikirləşir və sonra isə öz təəssüratlarını müqayisə edirlər. |
| **Hazırlıq:** | • Şəkillərin surətini çıxarın: iki və daha artıq cütlüyə eyni şəkil verilir (“Kompasito” kitabında insan hüquqları mövzularında verilən şəkillərdən nümunə kimi istifadə edə bilərsiniz).<br>• “Kim? Nə? Harada? Nə zaman? Necə?” suallarından istifadə etməklə iş vərəqi hazırlayın. |
| **Materiallar:** | • Hər cütlük üçün iş vərəqi, kağız, qələm və yapışqan. |

**Təlimatlar**

1. Uşaqları cütlərə ayırın. Hər bir cütə foto, iş vərəqi, qələm və yapışqan verin.
2. Uşaqlara aşağıdakıları izah edin:

- Şəklə baxın və iş vərəqindəki “Kim? Nə? Harada? Nə vaxt? Necə?” suallarına cavab verin:
- Daha sonra şəkilləri iş vərəqinə yapışdırın.
- Buluda bənzər bir şəkil çəkin və içərisində personajların sözlərini yazın.

3. Cütlüklərə tapşırın ki, müqayisə üçün eyni şəkilləri divarda yanaşı yapışdırsınlar və şəkillərə baxıb onların altında yazılmış replikaları oxusunlar.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualları soruşaraq oyunu təhlil edin:

- Şəkillərə aid suallara cavab vermək və personajların replikalarını yazmaq çətin idimi?
- Sizin və digər cütlüklərin şəkillərinin təhlili zamanı hansı oxşar və fərqli cəhətlər üzə çıxdı?
- Şəkillərdə və personajların sözlərində hansı stereotiplər öz əksini tapdı?

**Aparıcılara məsləhət**

İnsan şəkillərindən əlavə heyvan şəkillərindən də istifadə edin. Bu, stereotiplər müzakirə olunarkən xüsusi təsir bağışlayacaq. Qeyd edin ki, heyvan şəkillərindən stereotipləri çatdırmaq üçün karikaturalarda tez-tez istifadə olunur. Sonra qrup üzvlərinə şəkillərdə və personajların sözlərindəki stereotiplərə aid nümunələrin tapılmasını tapşıra bilərsiniz.

# SƏSSİZ NATİQ

Dodaq hərəkətlərindən anla!

**Mövzu:** Diskriminasiya, sağlamlıq, iştirak.

**Çətinlik səviyyəsi:** 2-ci səviyyə

**Yaş həddi:** 8-13 yaş

**Vaxt:** 45 dəqiqə

**İştirakcı sayı:** 6-21 uşaq

**Oyun növü:** rollu oyun, tapmaca oyunu

**Şərh:** Şagirdlər Usaq Hüqüqları Konvensiyasını səssiz oxuyur; qrup üzvləri isə dodaq hərəkətlərindən hansı maddənin oxunduğunu tapmalıdır.

**Məqsədlər:**

- Eşitməyən insanların hansı çətinliklərlə qarşılaşdığını anlamaq
- Dodaq hərəkətlərindən oxumaq bacarığı və buna kömək edən şərtləri anlamaq
- Uşaq Hüquqları Konvensiyasının maddələrini nəzərdən keçirmək
- Pozitiv diskriminasıyanın vacibliyini anlamaq

**Hazırlıq:**

- Hər uşaq üçün Uşaq Hüquqları Konvensiyasından secilmiş maddələri hazırlayın. Hər kart üzərində maddənin adı, nömrəsi və uşaq üçün nəzərdə tutulmuş mətn olmalıdır.
- Diktor üçün kartondan elə bir çərçivə düzəldin ki, tevizor ekranına bənzəsin.
- Hər iştirakçıya Uşaq Huquqları Konvensiyasının uşaq versiyasının surətini hazırlayın.

**Resurslar:**

- Uşaq Hüquqları Konvensiyasının maddələri ilə kartlar
- Uşaq üçün nəzərdə tutulmuş Uşaq Huquqları Konvensiyasının surətləri
- Natiq üçün çərçivə
- Kartlar üçün səbət və ya torba

**Təlimat**

1. Uşaqlardan xahiş edin ki, bir nəfər öz istəyi ilə hakim olsun. Qalan usaqlari 3-4 nəfərlik qruplara bölün. Hamıya Usaq Hüqüqları Konvensiyasını paylayın. Onlarla birgə sənədlə tanış olun.

2. Oyunun qaydarını başa salın:

a. Hər komandadan 1 nəfər “səssiz natiq” olacaq. Hakim natiqə yaxınlaşıb, səbəti uzadacaq və natiq kart secəcək. Sonra isə natiq çərçivənin arxasına keçərək, maddəni səssiz, nömrəsindən və adından başlayaraq, amma dodaqlarını tərpədərək, oxumağa başlayacaq. Qrupun üzvləri dodaq hərəkətlərindən “səssiz natiqin” hansı maddəni oxuduğunu tapmalıdır.

b. Hakim hər raundun sonunda hər komandanın xallarını qeyd edir. Komandalar bu xalları qazana bilər:

-əgər komanda maddənin adını və məzmununu taparsa, 3 xal qazanır

-əgər yalnız adını taparsa,1 xal qazanır

-əgər komanda hec birini tapmazsa, xal qazanmır.

3. Oyuna başlayın. Hər komandadan bir nümayəndə “səssiz natiq” olduqdan sonra, birinci raundun  xallarını elan edin. Birinci raundda ən cox xal qazanan komanda ikinçi raundu başlayır. Hər uşaq natiq olana qədər oyunu davam etdirin.

**Təhlil və qiymətləndirmə**

1. Bu tip suallar verərək, oyunu təhlil edin:

a. Dodaqdan oxuyarkən, özünüzü necə hiss edirdiniz? Çətin oldumu? Gülməli idi yoxsa sıxıcı?

b. Hansı amillər dodaqdan oxumağı asanlaşdırır? Bəs  nə çətinləşdirir?

c. Siz natiq olarda qrup üzvlərinizə maddəni tapmağa kömək üçün nə edirdiniz?

d. Birini başa düşmək digərindən asan idimi?

e. Bəzi sözləri və səsləri tapmaq digərlərindən asan idimi?

2. Oyunu eşitmə qüsurlu insanlarla əlaqələndirin:

a. Bəzi insanlar hər zaman dodaqlardan oxumaq məcburiyyətindədir. Bunlar kimlərdir?

b. Eşitmə qüsurlu insan tanıyırsınızmı?

c. Səslərin tələffüzü zamanı dodaqların vəziyyəti məlumatı anlamaq üçün vacib olan informasiyanın yalnız üçdə birini verir.  Necə düşünürsünüz, hər zaman dodaqdan oxumaq, necə bir hissdir? Gülməli ya sıxıcıdır?

d. Eşitmə qüsurlu insanlar ücün hansı gündəlik situasiyalar daha çətindir?

3. Eşitmə qüsurunu Uşaq Hüquqları Konvensiyası ilə əlaqələndirin:

a. Eşitmə qüsurlu insanların bizim cəmiyyətdə xoşbəxt və rahat yaşamaqları üçün nələri var?

b. Eşitmə qüsurlu uşaqların xüsusi ehtiyacları varmı? Bunlar necə ödənir?

c. Eşitmə qüsurlu insanlara bizim cəmiyyət necə kömək edir?

d. Eşitmə qüsurlu insana siz necə kömək edə bilərsiniz?

e. Eşitmə qüsurlu insanların onların ehtiyaclarının ödənməsi üçün hüquqları varmı? Niyə?

f. Uşaq Hüquqları Konvensiyasının 28-ci maddəsinin eşitmə qüsurlu insanların ehtiyaclarının ödənməsini təmin etdiyini uşaqlara izah edin. Əlillik o uşaqlara necə mane olur? Onlara necə kömək etmək olar?

**Davam etmək üçün təkliflər**

- “Bağlı gözlərlə” oyunu görmə qüsurlu insanlarla əlaqəlidir. Həmin məşğələni də keçirə bilərsiniz.

**İdeyalar**

- Uşaqlar öz məktəblərində eşitmə qüsurlu uşaqların müxtəlif situasiyalarda necə problerlərlə qarşılaşdığını araşdırmaq məqsədi ilə “səssiz baxış” keçirə bilərlər. Sonra isə vəziyyəti necə yaxşılaşdıracaqları barədə düşünə bilərlər.
- Uşaqlara eşitmə qüsurlu insanların öz dilləri olduğunu və bu dilin dil kimi təsdiq olunduğu barədə məlumat verin.
- Şagirdlər eşitmə qüsurlu uşaqlar üçün vəsait hazırlamasında iştirak edə bilərlər, səs siqnallarını görüntü ilə əvəz edərək (məsələn, qaçış yarışlarında, səs siqnalı yerinə bayraqlardan istifadə edərək).Yerli eşitmə qüsurlu insanların cəmiyyətinə uşaqlarla işləmək üçün ideyalar almaq üçün müraciət edin.

**Müəllim üçün məsləhətlər**

- Bu oyunda uşaqların oxu bacarıqlarını, yaşlarını və insan hüquqları barədə bilik səviyyələrini nəzərə almaq lazımdır. Əgər uşaqlar yaxşı oxuya bilmirlərsə və ya insan hüquqları ilə tanış deyillərsə, oyunu sadələşdirmək lazımdır. Uşaqlardan maddənin yalnız adı və nömrəsini oxumağı xahiş edin.
- Mümkün olduğu qədər xalların hesabına az zaman ayırın, cünki bu, oyunun məqsədindən yayındıra bilər. Hesabı hər raundun sonunda səsləndirin və ən cox xal yığan komandaya növbəti raundu birinci başlamağa icazə verin. Oyunun ümumi xallarının hesablanmasından yayının, uşaqlar bunu sizdən istəsələr belə.
- Oyundan öncə məşq etmək üçün uşaqlardan xahiş edin ki, səssiz bir-birinin adını desinlər, digər uşaqlar isə tapmağa çalışsınlar.
- Mimika və jestlərə ehtiyac olub-olmadığını müəyyənləşdirin. Kiçik uşaqlara bu lazım ola bilər.

## SİZİN MÖVQEYİNİZ NECƏDİR?

**Öz iştirakınla səs ver!**

| | |
|---|---|
| **Mövzular:** | Ümumi insan hüquqları, iştirak hüququ. |
| **Mürəkkəblik səviyyəsi:** | Səviyyə 1. |
| **Yaş həddi:** | 8-13 yaş. |
| **Müddəti:** | 30-40 dəqiqə. |
| **İştirakçıların sayı:** | 6-12 uşaq. |
| **Oyunun növü:** | Aktiv müzakirə. |
| **İcmal:** | Uşaqlar otaqda mövqe tutur, sonra isə öz fikirlərini izah və müdafiə edirlər. |
| **Tapşırıqlar:** | • İştiraketmə hüququnu dərinləşdirmək;<br>• Dinləmə bacarıqlarını inkişaf etdirmək;<br>• Müzakirə etmək və arqument gətirmək vərdişini inkişaf etdirmək. |
| **Hazırlıq:** | • Olduğunuz məkanı iki hissəyə bölün, bir tərəfdən “Razıdır” və digər tərəfdən “Razı deyil” yazısını asın.<br>• Müzakirə üçün kağız vərəqlərə lövhədə mülahizələri yazın, hər vərəqdə bir mülahizə yazılmalıdır. Onları həmin məkanın ortasında cərgə ilə düzün. |
| **Materiallar:** | • Kağız vərəqlər, qələmlər və lövhə;<br>• İp və ya təbaşir;<br>• Kağız və markerlər. |

**TƏLİMATLAR**

1. Uşaqlara elan edin ki, bəzi vacib suallarla bağlı onların fikirləri sizə maraqlıdır. Onlara izah edin ki, siz mülahizələri oxuyacaqsınız və hər kəs bu fikirlərlə razı olub-olmadığını özü üçün müəyyənləşdirməli, sonra isə otağın müvafiq tərəfində (“Razıdır” və “Razı deyil” yazısına uyğun tərəfdə) dayanmalıdır. Məqsəd digər uşaqları öz fikir və mövqeyini dəyişdirdiyinə əmin etməkdir.

a) Heç kəs öz mövqeyini seçməmiş danışmamalıdır.

b) Fikri daha qətiyyətlə qəbul edirsinizsə və ya onunla razılaşmırsınızsa, bu halda mərkəzdən daha uzaqda dayana bilərsiniz.

c) Orta xəttdə heç kəs dayanmamalıdır, lakin sualları anlaya bilmirsinizsə, orta xəttin yanında dura bilərsiniz.

2. Əvvəlcə uşaqlara mülahizələri göstərin və onu hündürdən oxuyun. Sonra isə onlara bu fikirlər barədə nə düşündüklərinə qərar verməyi və ona uyğun mövqe tutmağı tapşırın.

3. Uşaqlar öz mövqelərini tutana qədər gözləyin. Sonra onlardan nə üçün müxtəlif yerlərdə dayandıqlarını soruşun və öz fikirlərini bildirmək və müzakirə etmək üçün şərait yaradın.

4. Uzun diskussiyadan sonra qeyd edin ki, arzulayanlar öz mövqelərini dəyişə bilərlər. Əgər mövqeyini dəyişmək istəyənlər çoxdursa, onlardan hansı arqumentin fikirlərini dəyişməyə məcbur etdiyini soruşun. Bu metoddan bütün təsdiq cümlələri üçün istifadə edin.

**TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ**

1. Aşağıdakı suallarla oyunu təhlil edin:
   a) Bu oyun xoşunuza gəldimi?
   b) Bəzi hallarda öz mövqeni qorumaq çətin idimi? Hansı hallarda?
   c) Siz öz mövqeyinizi dəyişdinizmi? Buna sizi nə məcbur etdi?
   d) Başqalarına nisbətən daha çətin mülahizələr var idimi?
   e) Sizin indiyə kimi əmin olmadığınız mülahizələri varmı?
   f) Bəzi problemləri daha dəqiq müzakirə etmək istərdinizmi?
   g) Bu oyundan yeni nəsə öyrəndinizmi? Nə öyrəndiniz?
2. Suallar verərək oyunu hüquqlarla əlaqələndirin:
   a) Bu suallar arasında hansısa bir əlaqə görürsünüzmü?
   b) Ailənizdə hansısa bir qərarın qəbulunda siz də iştirak edə bilirsinizmi? Bəs sinifdə, məktəbdə, cəmiyyətdə və ya digər həyati situasiyalarda necə?
   c) İştirak etmək hüququnun hər bir uşaq üçün çox vacib hüquq olduğunu qeyd edin və uşaqlara “Uşaq hüquqları haqqında konvensiya”nın 12-ci maddəsini oxuyun. Özünüz iştirak edə biləcəyiniz hər hansı yeni fəaliyyət növünü qeyd edə bilərsinizmi?
   d) Sizcə, iştirak etmək hüququ uşaqlar üçün niyə vacibdir?

**ARDINI DAVAM ETDİRMƏK ÜÇÜN TƏKLİFLƏR**

- Müzakirənin sonunda uşaqları üç və ya dörd nəfərdən ibarət qruplara bölün və hər qrupa oyunda istifadə edilən mülahizələrin surətini verin. Qruplara tapşırın ki, mülahizələri özlərinin fikirlərinə uyğun şəkildə dəyişdirsinlər. Həmin yeni mülahizələri müqayisə edin.
- “Bizim qrupun konstitusiyası” və “Hər bir səsin əhəmiyyəti” oyunu demokratik proseslərdə fəal iştirakın vacibliyini vurğulayan oyunlardır.

**FƏALİYYƏT ÜÇÜN İDEYALAR**

- Çalışın ki, uşaqlar proseslərdə iştirak etməyin yeni üsullarını tapsınlar: məsələn, məktəbdə yaxud qruplarda öz maraqlarını müdafiə etmək, onları narahat edən problemlərə görə yerli siyasətçilərə məktub yazmaq və s.
- Uşaqlara öz həyat situasiyaları haqqında fikirlərindən ibarət məqalələr yazmağı tapşırın (məsələn, ailə, təşkilat, sinif, məktəb, rayon). Onları qrupun divar qəzetində dərc etdirin və ya lövhədə elan kimi yapışdırın.

**APARICILARA MƏSLƏHƏTLƏR**

- Bütün uşaqlara, hətta digərlərindən az danışan uşaqlara da öz fikrini ifadə etmək imkanı verilməlidir. Siz, hətta ən sakit uşaqdan belə öz fikrini ifadə etməyi xahiş edə bilərsiniz.
- Oyunun çox uzun çəkməməsi üçün müzakirə müddəti qısa olmalıdır.

- Uşaqların oyuna marağı itməsin deyə onların bir az gəzişməyinə və açılışma hərəkətləri etməyinə şərait yaratmaq lazımdır.

**ADAPTASİYA**

- Fikirlərinizi qruplaşdırın (Məsələn, “Qətiyyətlə razıdır”, “Nədənsə razıdır”, “Nədənsə razı deyil”, “Qətiyyətlə razı deyil”).

**VARİANTLAR**

- Sizin situasiyanıza uyğun gələn və uşaqlara tanış olan mülahizəni yazın.
- Uşaqların digər hüquqlarına aid mülahizələri yazın (Məsələn, birləşmə, bərabərlik, informasiya almaq, ətraf mühit, ailə və alternativ qayğı hüququ).

**MÜLAHİZƏ NÜMUNƏLƏRİ**

- Bütün uşaqlar, hətta ən kiçikləri belə, razılaşmaqdıqları məsələlərlə bağlı öz fikirlərini bildirmək hüququna malikdirlər.
- Uşaqların ailə məsələlərinin həllində iştirak etmək hüquqları yoxdur. Valideynlər uşaqlar üçün nəyin vacib olduğunu daha yaxşı bilirlər.
- Məktəblə bağlı məsələlərə görə fikirlərini bildirmək uşaqlar üçün təhlükəli ola bilər.
- Ancaq ifadəli danışan uşaqlar və ya böyük yaşlı uşaqlar məsələlərin həlli prosesində iştirak edə bilərlər.
- Bərabərhüquqlu hər bir uşaq məktəb parlamentində, şagird şurasında iştirak edə bilər.
- Qanunlarla bağlı problemi olan uşaqlar hər hansı bir qərarın qəbulunda iştirak etmək hüququnu itirirlər.
- Uşaqların hamısının iştirak etmək hüququ yoxdur. Kasıb uşaqlar digər uşaqlar kimi eyni dərəcədə iştirak etmək hüququna malik deyillər.
- Məktəb həyatında iştirak etmək - sinifdə daha çox öz sözünü deməkdir.
- Əgər uşaqlardan birinin valideyni boşanır, yaxud ayrılırsa, məhkəmə prosesində uşaqların fikir bildirmək hüquqları var.

## Stolüstü oyunlar

### Siz öz hüquqlarınızı necə bilirsiniz?

| | |
|---|---|
| **Mövzular:** | İnsan hüquqları |
| **Çətinlik dərəcəsi:** | Səviyyə 2 |
| **Yaş həddi:** | 8-13 yaş |
| **İştirakçıların sayı:** | Oyun lövhəsi arxasında 2-6 uşaq |
| **Davam müddəti:** | 45 dəqiqə |
| **Oyunun növü:** | Stolüstü oyunlar |

Bu oyuna insan hüquqlarını təsvir edən iki müxtəlif qaydalı stolüstü oyunlar daxildir. Siz bu oyunları sizə veriləcək eyni lövhə üzərində keçirə bilərsiniz. Uşaqlar bu oyunu özləri oynaya bilərlər, lakin təhlil və dəstək üçün aparıcının köməyi lazımdır.

## I oyun. Siz öz hüquqlarınızı bilirsinizmi?

**İcmal:**

Bu oyunda "İlanlar və nərdivanlar" oyunundakı kimi uşaqlar götürdükləri kartlara əsasən irəli-geri hərəkət edirlər. Amma bu oyunda əgər onlar pozulan hüququ adlandıra bilsələr, "geriyə" kartlarını neytrallaşdırmaq mümkündür.

**Tapşırıqlar:**

• Uşaq hüquqları haqqında Konvensiya ilə tanış olmaq;
• Gündəlik həyatı insan hüquqları ilə əlaqələndirməkdə uşaqlara kömək etmək;
• İnsan hüququ problemlərini dərk etmək.

**Hazırlıq:**

• Mövzularla tanışlığa əmin olmaq üçün cavabları öncədən yoxlayın.
• Aşağıda verilmiş nümunəyə əsasən oyun lövhəsinin surətini çıxarın.
• Bir vərəqdə "neytrallaşdıran huquq"ların siyahısını və təlimatın surətini çıxarın.
• Hər oynayan qrup üçün bir komplekt olmaqla, üzərində hüquqlar yazılmış kartlar (bundan sonra mətndə "hüquq kartları" adlandırılacaq) və cərimə kartlarının surətini çıxarın.
• Uşaq hüquqları haqqında Konvensiyanın uşaq

| | |
|---|---|
| **Materiallar:** | versiyasının surətini çıxarın.<br>• Oyun üçün lövhə, fiqurlar və oyun zərləri;<br>• Oyun kartları;<br>• Təlimat vərəqləri və "neytrallaşdıran hüquq"ların siyahısı. |

**Təlimat**

**1.** Hər birində 2-dən 6-ya qədər olmaqla uşaqları qruplara bölün və hər qrupa oyun lövhəsi, oyun zərləri, hüquq və cərimə kartları, təlimat vərəqi və "neytrallaşdıran hüquq"ların siyahısını paylayın. Həmçinin hər bir oyunçuya Uşaq hüquqları haqqında Konvensiyanın uşaq versiyasını paylayın. Bu oyunda uşaqlar lövhədə olan "ilanlara" və nərdivanlara" fikir verməməli, yalnız rəngli damalardan istifadə etməlidirlər. Oyun kartlarında nə etmək lazım olduğu yazılmışdır.

**2.** Oyunu izah edin:

a. Zərləri atın. Ən böyük rəqəm düşən uşaq oyunu başlayır.

b. İlk oyunçu zəri atır və düşən rəqəmə əsasən irəli hərəkət edir.

c. Oyunçu rəngli damaya düşərsə, kartı götürür, ucadan oxuyur və təlimata əməl edir. Təlimat belədir: irəli, geri və ya gedişi buraxmaq.

d. Əgər oyunçu Uşaq hüquqları haqqında Konvensiyada əks olunmuş pozulmuş hüquq maddəsini adlandıra bilərsə, geriyə hərəkət haqqında kartı "neytrallaşdırmaq" olar. Bu halda oyunçu bonus alır və bir addım irəli hərəkət edir.

e. Oyunu davam edin: oyuna birinci oyunçudan solda əyləşən oyunçu daxil olur.

f. Oyunu birinci bitirən oyunçu qalib hesab edilir; oyunu bütün oyunçular sona çatanadək davam etdirmək lazımdır.

**Təhlil və qiymətləndirmə**

**1.** Suallar verərək oyunu müzakirə edin:

a. Bu oyun haqqında siz nə düşünürsünüz?

b. İnsan hüquqları haqqında yeni bir şey öyrəndinizmi? Bəs ətraf mühit haqqında necə?

c. Qəribə və tanış olmayan situasiyalar oldumu?

d. İnsan hüquqlarının eyni zamanda həm qəbul edildiyi, həm də pozulduğu situasiyalara misal gətirə bilərsinizmi?

**Aparıcılara məsləhətlər**

• Oyunda iştirak edən uşaqlar və ya aparıcı ehtiyac olarsa, Uşaq hüquqları haqqında Konvensiyadan və "neytrallaşdıran hüquqlar" siyahısından istifadə edə bilər**.**

- Kiçik uşaqlar üçün adaptasiya: bir addım geri hərəkəti “neytrallaşdırmaq” üçün Uşaq hüquqları haqqında Konvensiyanın maddəsini nəzərə almayın.
- Əgər eyni zamanda bir neçə qrup oynayırsa, ikinci aparıcını dəvət etmək tövsiyə edilir, çünki gətirilən faktlar haqqında uşaqların çoxlu sualları yaranacaq.
- “Neytrallaşdıran hüquq”ları müəyyən etməkdə bir-birinə kömək məqsədi ilə uşaqlar bu oyunu komandalarla oynaya bilərlər.

## PAYLAMA MATERİALI: HÜQUQ KARTLARI

| |
|---|
| **Hüquq kartı 1**<br>Sizin dostunuzun valideynləri bu yay ayrılıblar, lakin sizin dostunuz hələ də növbə ilə onlarla birlikdə yaşayır:  bir həftə anası ilə, o biri həftə isə atası ilə. O, bu qərarı özü verib. İki dama irəli hərəkət edin.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 12. Uşağın fikirlərinə hörmət:** Əgər onlara toxunan problemlər varsa, böyüklər qərar qəbul etdiyi zaman uşaqlar öz fikirlərini bildirmək hüququna malikdirlər. |
| **Hüquq kartı  2**.<br>Sizə aydın oldu ki, əgər sizin ciddi problemləriniz varsa, hər zaman kömək üçün müraciət edə bilərsiniz. Əgər siz təcili kömək nömrəsini yığıb situasiyanı izah etsəniz, sizi atılmış uşaqlara kömək edən təşkilatla əlaqələndirəcəklər. İki dama irəli hərəkət edin.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 19. Zorakılıq, sui-istifadə və etinasızlığın bütün formalarından müdafiə:** Hökumətlər bütün uşaqlara lazımi qayğı göstərilməsinə, onları zorakılıqdan müdafiəyə, valideynlər və ya digərləri tərəfindən xoşagəlməz rəftardan və etinasızlıqdan qorumağa zəmanət verməlidirlər.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 36. İstismarın digər formalarından müdafiə:** Uşaqlar onların inkişafına, firavan yaşamasına zərər verə biləcək bütün hərəkətlərdən müdafiə olunmalıdırlar. |
| **Hüquq kartı 3.**<br>Sinifdə çətinliyi olan uşaqlara müəllimlər əlavə olaraq köməklik göstərirlər. İki dama irəli hərəkət edin.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 23. Əlilliyi olan uşaqlar:** Hər hansı bir əlilliyi olan uşağın öz imkanları daxilində müstəqil yaşamaq, mükəmməl həyat, xüsusi kömək, dəstək və təhsil hüququ var. |

**Hüquq kartı 4.**

Məktəbinizin direktoru bəzi uşaqların valideynlərinin burada yaşamaq hüququnun olmaması səbəbindən onların məktəbə gəlmədiyini öyrəndi. Direktor həmin valideynlərlə əlaqə saxladı və uşaqlarını məktəbə göndərmək üçün onları razı saldi. İki dama irəli hərəkət edin.

**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 28. Təhsil hüququ:** Uşaqların təhsil almaq, məktəbə getmək hüququ var. İbtidai təhsil ödənişsiz olmalıdır.

---

**Hüquq kartı 5.**

Sizin öz hüquqlarınızı bilmək hüququnuz var! Dörd dama irəli hərəkət edin.

**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 29. Təhsilin məqsədləri**: Təhsil uşağın şəxsiyyətini, bacarığını və istedadını tam şəkildə inkişaf etdirməlidir. Təhsil uşaqları həyata hazırlayır. O, uşaqları öz valideynlərinə, mədəniyyətinə və həmçinin başqa millətlərin mədəniyyətinə hörmət etməyə həvəsləndirməlidir.

---

**Hüquq kartı 6.**

Bizim məktəbimizdə müəllimlərin uşaqlar özlərini pis apardıqda belə, onlara fiziki cəza vermək, yaxud təhqir etmək ixtiyarı yoxdur. İki dama irəli hərəkət edin.

**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 28. Təhsil hüququ:** Məktəblərdə nizam-intizam uşaqların şəxsiyyətinə hörmət edən metodların köməyilə dəstəklənməli, intizamın qaydaya salınmasında zor tətbiq edilməməlidir.

---

**Hüquq kartı 7.**

Məktəbimizdə çoxlu pilləkənlərlə yanaşı, əlil arabasından istifadə edənlərin rahat hərəkəti üçün liftlər və panduslar var. Üç dama irəli hərəkət edin.

**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 23. Əlilliyi olan uşaqlar:** Sağlamlıq imkanları məhdud uşaqların öz imkanlarına uyğun tam sərbəst yaşamaları üçün xüsusi kömək, dəstək və təhsil almaq hüququ olmalıdır.

---

**Hüquq kartı 8.**

Dostunuzun atası ağır qəzaya düşdü və uzun müddət işləyə bilmədi. O sağalana qədər dövlət onun ailəsinə yemək pulu və yaşayış haqqı ödəyirdi. İki dama irəli hərəkət edin.

**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 26. Sosial təminat rifahı:** Cəmiyyət uşağın yaxşı şəraitdə yaşaması və inkişafı üçün (təhsil, mədəniyyət, sağlamlıq və sosial təminat) onun sosial rifahını təmin etməlidir. Dövlət az təminatlı ailələrin uşaqlarına əlavə yardım ayırmalıdır.

| |
|---|
| **Hüquq kartı 9.**<br>Sizin hüquqlarınız hətta müharibə dövründə belə qorunmalıdır və buna zəmanət verilməsi üçün xüsusi razılaşmalar mövcuddur. İki dama irəli hərəkət edin.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 38. Silahlı konfliktlərlə üzləşən uşaqların müdafiəsi:** Dövlət 15 yaşına çatmayan uşaqların hərbi xidmətə çağırılmasına, yaxud hərbi hərəkatlarda iştirakına icazə verməməlidir. Bundan başqa, uşaqlar hərbi hərəkat zonasında xüsusi müdafiə edilməlidirlər. |
| **Hüquq kartı 10.**<br>Sizin yaşadığınız ərazidə uşaqlar üçün kitabxanalar, jurnallar, filmlər, oyunlar və televiziya şouları var və bunlar vasitəsilə uşaqlar dünyada baş verən hadisələr haqda məlumat alırlar. İki dama irəli hərəkət edin.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 13. İnformasiya və ifadə azadlığı:** Əgər informasiya uşaqlar üçün zərərli deyilsə, uşaqların hər bir formada informasiyanı axtarmaq, almaq və ötürmək hüquqları var (incəsənət, yazıçılıq, teleradio verilişləri, elektron forma). |
| **Hüquq kartı 11.**<br>Səni əməliyyat etməlidirlər. Lakin bəxtin gətirdi: sənin xüsusi qulluq, qayğı və hətta valideynlərdən və ya yaxınlarından biri ilə birgə qalmaq hüququn var. İki dama irəli hərəkət edin.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 24. Sağlamlıq və sağlamlıq sistemi xidmətləri**: Xəstələndikdə uşaqların yüksək keyfiyyətli xidmətlər (dərman preparatları, xəstəxana və həkimlər) almaq hüququ var. Onların həm də sağlam olmaları naminə təmiz içməli su, ərzaq məhsulları və təmiz ətraf mühit hüququ var. Buna nail olmaq üçün varlı ölkələr yoxsul ölkələrə kömək etməlidirlər. |

## PAYLAMA MATERİALI: CƏRİMƏ KARTLARI

| |
|---|
| **Cərimə kartı 1.**<br>Dostlarınızdan biri öz çəkməsini itirir, lakin yenisini almağa onun imkanı yoxdur. Məktəbdə isə deyirlər ki, uşaqlar ayaqyalın məktəbə buraxılmırlar. İki dama irəli hərəkət edin.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |

| |
|---|
| **Cərimə kartı 2.**<br>Sinif yoldaşlarınızdan birinin valideynləri qaraçıdır. Buna görə də onun ailəsi heç yerdə özünə yaşayış yeri tapa bilmir. Dörd dama geri hərəkət edin.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |
| **Cərimə kartı 3.**<br>Siz bilirsiniz ki, bəzi ölkələrdə uşaqları döyüşmək üçün müharibəyə getməyə məcbur edirlər. Onlar ac-susuz və qorxu içindədirlər. Geriyə, 1-ci damaya qayıdın.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |
| **Cərimə kartı 4.**<br>Məktəbinizdə model qız var. O, çox pul qazanır, şəkilləri jurnallarda dərc edilir. Lakin o, tez-tez dərs buraxır. Onun ev tapşırıqlarını yerinə yetirməyə və dostları ilə oynamağa vaxtı yoxdur. O, çox yorğun görünür. İki dama geri hərəkət edin.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |
| **Cərimə kartı 5.**<br>Məktəbimizdə bizə ancaq dövlət dilində danışmağa icazə verirlər. Əgər başqa millətdən olan uşaqlar oyun meydançasında öz doğma dillərində danışarlarsa, onları cəzalandırırlar. Bir gedişi buraxın.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |
| **Cərimə kartı 6.**<br>Yaşadığınız yerdə bəzi dinlərə mənsub olan uşaqları həvəslə məktəbə götürürlər. Heç biri dinə mənsub olmayanlar isə yaxşı qarşılanmırlar. Bir gedişi buraxın.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |
| **Cərimə kartı 7.**<br>Keçən il sizin dostunuzun valideynləri ayrıldılar. Anası ona atası, hətta babası və nənəsi ilə görüşməyə icazə vermir. O isə atası üçün çox darıxır. Üç dama geriyə hərəkət edin.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |
| **Cərimə kartı 8.**<br>Sinfimizdə bir qız var. Onun dərsdən sonra nə oxumağa, nə də oynamağa vaxtı olmur, çünki o, kiçik qardaşı və bacısına qulluq etməlidir. Üç dama geriyə hərəkət edin.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |
| **Cərimə kartı 9.**<br>Sinfimizdə oxuyan oğlan nahardan sonra masanı yığışdırmaqdan imtina edir və deyir: “Yığışdırmaq qızların işidir”. İki dama geri hərəkət edin.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |

| |
|---|
| **Cərimə kartı 10.**<br>Sizin məktəbdə oğlanların futbol komandası və digər idman dərnəkləri olduğu halda qızlar üçün heç nə yoxdur. İki dama geri hərəkət edin.<br>**Bu cəriməni hansı hüquq neytrallaşdıra bilər?** |

## PAYLAMA MATERİALI: NEYTRALLAŞDIRAN HÜQUQLARIN SİYAHISI

| |
|---|
| **Cərimə kartı 1.**<br>Sizin dostlarınızdan biri çəkməsini itirir, lakin yenisini almağa onun imkanı yoxdur. Məktəbdə isə deyirlər ki, uşaqlar ayaqyalın dərsə buraxılmır. İki dama geri hərəkət edin.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 27. Həyat səviyyəsi:** Uşaqlar öz fiziki və əqli tələblərinə uyğun şəraitdə yaşamalıdırlar. Bunu təmin edə bilməyən ailələrə dövlət kömək etməlidir. |
| **Cərimə kartı 2.**<br>Sinif yoldaşlarınızdan birinin valideynləri qaraçıdır. Onlar heç cür özlərinə yaşayış yeri tapa bilmir, çünki insanlar onların “fərqli” olduğunu deyirlər. Dörd dama geri hərəkət edin.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 2. Diskriminasiyanın qadağan edilməsi:** Uşaq hüquqları haqqında Konvensiya irqindən, dərisinin rəngindən, dinindən, cinsindən, nə fikirləşib, nə danışmasından, hansı dildə danışmasından asılı olmayaraq hər bir kəsə tətbiq edilir. Dövlət uşaqları diskriminasiyanın istənilən formasından müdafiə etməlidir. |
| **Cərimə kartı 3.**<br>Siz bilirsiniz ki, bəzi ölkələrdə döyüşmək üçün uşaqları müharibəyə getməyə məcbur edirlər. Onlar ac-susuz və qorxu içindədirlər. Bir dama geri qayıdın.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 38. Silahlı münaqişələrlə üzləşən uşaqların müdafiəsi:** Dövlət 15 yaşına çatmayan uşaqların hərbi xidmətə çağırılmasına, yaxud hərbi hərəkatlarda iştirakına icazə verməməlidir. Bundan başqa, uşaqlar hərbi hərəkat zonasında xüsusi müdafiə edilməlidirlər. |

| |
|---|
| **Cərimə kartı 4.**<br>Məktəbinizdə model qız var. O, yaxşı pul qazanır, şəkillərini jurnallarda dərc edirlər. Lakin o, tez-tez dərs buraxır, onun ev tapşırıqlarını yerinə yetirməyə, dostları ilə oynamağa vaxtı olmur. O, çox yorğun görünür. İki dama geri hərəkət edin.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 32.**<br>**Uşaq əməyi:** Dövlət uşaqları təhlükəli, onların sağlamlığına, yaxud təhsilinə zərər gətirən işlərdən qorumalıdır**.** |
| **Cərimə kartı 5.**<br>Məktəbimizdə bizə ancaq dövlət dilində danışmağa icazə verirlər. Əgər başqa millətdən olan uşaqlar oyun meydançasında öz doğma dillərində danışarlarsa, onları cəzalandırırlar. Bir gedişi buraxın.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya, Maddə 29.**<br>**Təhsilin məqsədləri:** Təhsil uşağın şəxsiyyətini, bacarığını və istedadını tam şəkildə inkişaf etdirməlidir. Təhsil uşaqları həyata hazırlayır. O, uşaqları öz valideynlərinə, mədəniyyətinə və həmçinin başqa millətlərin mədəniyyətinə hörmət etməyə həvəsləndirməlidir.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 30. Azlığa və yerli əhaliyə mənsub uşaqlar:** Ölkə əhalisinin böyük hissəsinin adət-ənənələrindən, dilindən asılı olmayaraq, azlığa və yerli əhaliyə mənsub uşaqların öz doğma dillərini və adətlərini öyrənmək və tətbiq etmək hüquqları var.<br>Təhsil uşaqların şəxsiyyətini, bacarıq və istedadını bütünlüklə inkişaf etdirməlidir. O, uşaqları həyata hazırlayır, onları öz valideynlərinə, mədəniyyətinə və digər millətlərin mədəniyyətinə hörmət etməyə həvəsləndirir. |

| |
|---|
| **Cərimə kartı 6.**<br>Yaşadığınız yerdə bəzi dinlərə mənsub olan uşaqları həvəslə məktəbə götürürlər. Heç bir dinə mənsub olmayanlar isə xoş qarşılanmırlar. Bir gedişi buraxın.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 14. Fikir, din və vicdan azadlığı:** Digər insanların hüquqlarını pozmamaq şərtilə uşaqların fikir və din azadlığı hüququ var. Valideynlər öz uşaqlarını bu istiqamətə yönəltməlidirlər.<br>**Və ya**<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 2. Diskriminasiyanın qadağan edilməsi:** Konvensiyada qeyd olunan hüquqlar irqindən, dərisinin rəngindən, dinindən, cinsindən, qabiliyyətindən, uşağın hansı dildə və nə düşünüb, danışmasından asılı olmayaraq hər kəsə tətbiq edilir. Dövlət uşaqları diskriminasiyanın istənilən formasından müdafiə etməlidir. |
| **Cərimə kartı 7.**<br>Keçən il sizin dostunuzun valideynləri ayrıldılar. Anası ona atası, hətta babası və nənəsi ilə görüşməyə icazə vermir. O isə atası üçün çox darıxır. Üç dama geriyə hərəkət edin.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 9. Valideynlərdən ayrılma:** Uşaqlar valideynlərindən yalnız öz rifahı naminə ayrıla bilər (məsələn, valideynlərin biri onlarla pis rəftar edərsə). Əgər valideynlər boşanarsa, uşağa zərər gəlmədiyi halda, onun hər ikisi ilə görüşmək hüququ var. |
| **Cərimə kartı 8.**<br>Sinfimizdə bir qız var. Məktəbdən gəldikdən sonra onun nə dərs oxumağa, nə də oynamağa vaxtı olur, ona görə ki, o, kiçik qardaşına və bacısına qulluq etməlidir. Üç dama geri hərəkət edin.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 31. Asudə vaxt, əyləncə və mədəni tədbirlər:** Bütün uşaqlar istirahət, əyləncə və mədəni tədbirlərdə iştirak etmək hüququna malikdirlər.<br>**Və ya**<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 32. Uşaq əməyi:** Dövlət uşaqları onların sağlamlığına, yaxud təhsilinə zərər gətirəcək təhlükəli işlərdən, uşaq əməyinin istismarından qorumalıdır. |

| |
|---|
| **Cərimə kartı 9.**<br>Sinfimizdə oxuyan oğlan nahardan sonra masanı yığışdırmaqdan imtina edir və deyir: “Yığışdırmaq qızların işidir”. İki dama geri hərəkət edin.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 2. Diskriminasiyanın qadağan edilməsi:** Konvensiyada hüquqlar irqindən, dərisinin rəngindən, dinindən, cinsindən asılı olmayaraq, hər bir kəsə tətbiq edilir. Dövlət uşaqları diskriminasiyanın istənilən formasından qorumalıdır. |
| **Cərimə kartı 10.**<br>Sizin məktəbdə oğlanların futbol komandası və digər idman dərnəkləri olduğu halda, qızlar üçün heç nə yoxdur. İki dama geri hərəkət edin.<br>**NEYTRALLAŞDIRAN HÜQUQ: Uşaq hüquqları haqqında Konvensiya. Maddə 2. Diskriminasiyanın qadağan edilməsi**: Konvensiyada hüquqlar irqindən, dərisinin rəngindən, dinindən, cinsindən, nə düşünüb, nə danışmasından asılı olmayaraq, hər bir kəsə tətbiq edilmişdir. Dövlət uşaqları diskriminasiyanın istənilən formalarından qorumalıdır. |

## II oyun. MOKŞA-PATAMU

| | |
|---|---|
| **İcmal:** | Oyunçuya həyatda qalxmaq və yaxud enmək imkanı yaradan, dini biliklər verən qədim hind oyunudur. Bu oyun insan hüquqlarına riayət edilməsi mövzusuna uyğunlaşdırılmışdır. |
| **Tapşırıqlar:** | İnsan hüquqlarının pozitiv təsirini qeyd etmək. |
| **Hazırlıq:** | Oyun kartlarını kəsin, surətini çıxarın və lövhəni böyüdün. |
| **Materiallar:** | • Oyun üçün lövhə;<br>• Oyun kartları;<br>• Zərlər və oyun fiqurları. |

**Təlimat**

**1.** Uşaqları altı nəfərdən ibarət qruplara bölün və hər qrupa lövhə, oyun fiqurları və zər paylayın.

**2.** Oyunu izah edin:

a. Zərləri atın. Hansı uşağa böyük rəqəm düşərsə, oyunu o başlayır.

b. İlk oyunçu zəri atır və düşən rəqəmə əsasən irəli hərəkət edir.

c. Sonra baş verənlər oyunçunun düşdüyü damadan asılıdır:

1. Nərdivanın sonuncu pilləsini simvolizə edən damaya düşərsə, oyunçu yuxarı – nərdivan boyunca irəli hərəkət edir.

2. Əgər oyunçu ilanın quyruğu olan damaya düşərsə, o, aşağıya doğru – ilanın başı olan damaya keçir.

3. Əgər oyunçu rəngli damaya düşürsə, oyunçudan soldakı iştirakçı kartı götürür və ucadan oxuyur. Rəngli damaya düşən oyunçu kartda yazılan fikir haqqında nə düşündüyünü söyləməlidir – insan hüquqları nöqteyi-nəzərindən fikrin düz yaxud səhv olmasını göstərməklə.

4. Əgər oyunçu səhv cavab verirsə, o, həmin damada qalır. Düz cavab verən oyunçu isə iki dama irəli hərəkət şansını qazanır. Əgər o, bu hüququ müdafiə, yaxud müəyyən edən Uşaq hüquqları haqqında Konvensiyanın maddəsini adlandıra bilərsə, onda o, daha bir dama irəli hərəkət edə bilər. Uşaq hüquqları haqqında Konvensiyanın maddəsinin dəqiq nömrəsini adlandırmağa ehtiyac yoxdur.

5. Ardınca digər oyunçular növbə ilə oyuna girir.

d. Oyun o vaxt sona çatır ki, oyunçu sonuncu damaya yetişir, yaxud sonuncu damanı aşır.

**Təhlil və qiymətləndirmə**

**1.** Aşağıdakı sualları verərək, oyunu müzakirə edin və onu insan hüquqları ilə əlaqələndirin:

a) Bu oyun sizin xoşunuza gəldimi?

b) İnsan hüquqlarını bilmək nərdivan boyu irəliləməkdə sizə necə kömək etdi?

v) Hüquqları bilmək real həyatda sizə necə kömək edir? Bəs digərlərinə necə kömək edir?

q) İnsanlar öz hüquqlarını bilmədikdə cəmiyyətdə nə baş verir? Əksəriyyət öz hüquqlarını biləndə nə baş verir?

**Davam üçün təkliflər**

Uşaq hüquqları haqqında Konvensiyanın uşaq versiyasının surətini uşaqlara paylayın və onların həyatda nə ilə qarşılaşdıqlarını əks etdirən kartlar düzəltməyi, özlərinin xüsusi ideyalarını təklif etməyi xahiş edin. Hazırlanmış kartlardan istifadə edərək, oyunu davam edin.

**Fəaliyyət üçün ideyalar**

Uşaqların həyat təcrübəsi ilə kartları əlaqələndirin. Kartlarda sadalanan pozuntular zamanı onların nə edə biləcəklərini müzakirə edin. Uşaqlar öz hüquqlarına əməl edilməsini tələb edən zaman onların arxasında kim durur?

**Aparıcılara məsləhətlər**

- Müzakirə zamanı uşaqlardan onların yaşadıqları, yaxud müşahidə etdikləri ədalətsiz situasiyalar, zədələr, zorakılıq haqqında söhbətləri, bir sözlə, real hadisələri xatırlamalarını xahiş edin.
- Bu oyunu öz ailəsi və dostları ilə oynaya bilmələri üçün uşaqlara oyun lövhəsinin surətini paylayın.

## PAYLAMA MATERİALI: KARTLAR

Kartların surətini çıxarın, kəsin və ya qrupunuz üçün uyğun kartlar hazırlayın.

| | | |
|---|---|---|
| **Mülahizə:** Ailə quran hər bir kəs artıq uşaq deyil.<br>**Cavab:** Düz deyil/bu, hüquq pozuntusudur**.**<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 1. Uşağın yaş həddinin müəyyən edilməsi:**<br>18 yaşına çatmayan hər bir şəxs uşaq hesab edilir və bu konvensiyada zəmanət verilən bütün hüquqlara malikdir. | **Mülahizə:** Bütün uşaqlar özlərinin, yaxud valideynlərinin hər hansı bir ölkənin vətəndaşı olub-olmamasından asılı olmayaraq bərabər hüquqa malikdirlər.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 2. Diskriminasiyanın qadağan edilməsi**:<br>Konvensiyada hüquqlar...harada yaşamasından asılı olmayaraq hər bir kəsə tətbiq edilir. Dövlət uşaqları diskriminasiyanın istənilən formasından müdafiə etməlidir. | **Mülahizə**: Əgər oğlanlar futbol meydançasından istifadə etmirlərsə, qızlar orada oynaya bilərlər.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 2. Diskriminasiyanın qadağan edilməsi:**<br>Konvensiyadakı hüquqlar irqindən, dərisinin rəngindən, dinindən, cinsindən asılı olmayaraq hər bir kəsə tətbiq edilir. Dövlət uşaqları diskriminasiyanın istənilən formasından müdafiə etməlidir**.** |
| **Mülahizə:** Əgər siz cinayət törətmisinizsə, sizi sizdən yaşca böyük cinayətkarlarla bir yerdə həbs edə bilərlər.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur. | **Mülahizə:** Bizim kitabxanaçımız mənə istənilən kitabı götürməyə icazə verir.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 17. Uşaqların informasiya almaq** | **Mülahizə:** Yaxınlıqdakı zavod atmosferə insanlarda öskürək əmələ gətirən üfunətli kimyəvi maddələr buraxır.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur. |

| | | |
|---|---|---|
| **Uşaq hüquqları haqqında Konvensiya. Maddə 37. İşgəncə, qəddar münasibət və azadlıqdan məhrum olma:** Qanunu pozan uşaqlarla qəddar rəftar etmək olmaz. Onları yaşca böyük cinayətkarlarla bir yerdə saxlamaq olmaz. Onlara öz ailələri ilə əlaqə yaratmağa imkan vermək lazımdır. | **və əlaqə vasitələrinə çıxış imkanları:** Uşaqların kütləvi informasiya vasitələri də daxil olmaqla, müxtəlif mənbələrdən informasiya almaq hüquqları var. Televiziya, radio və qəzetlər uşaqların başa düşə biləcəyi şəkildə informasiyanı verməlidirlər. Onlar uşaqlara zərər verə biləcək materialları yaymamalıdırlar. | **Uşaq hüquqları haqqında Konvensiya. Maddə 24. Sağlamlıq və səhiyyə xidmətləri:** Xəstələndikdə uşaqların yüksək keyfiyyətli xidmətlər (dərman preparatları, xəstəxana və həkimlər) almaq hüququ var. Onların həm də sağlam olmaları naminə təmiz içməli su, ərzaq məhsulları və təmiz ətraf mühit hüququ var. Buna nail olmaq üçün varlı ölkələr yoxsul ölkələrə kömək etməlidirlər. |
| **Mülahizə:** Sizin əvəzinizə ən yaxşı qərarı yalnız sizin atanız verə bilər.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 18. Valideynlərin vəzifələri:** Valideynlər öz uşaqlarının tərbiyəsinə görə cavabdehliyi bölüşdürməli və uşaq üçün nəyin ən yaxşı olması haqda həmişə fikirləşməlidirlər. Hökumət, xüsusilə əgər valideynlər işləyərsə, uşaqlara dəstək xidmətini təmin edərək, valideynlərə kömək etməlidir. | **Mülahizə:** Baxmayaraq ki, mən əlil arabasında hərəkət edirəm, digər uşaqlarla birlikdə öz ərazimizdəki məktəbə gedə bilərəm. Məktəb mənim üçün pandus hazırlamalıdır.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 23. Əlilliyi olan uşaqlar:** Sağlamlıq imkanları məhdud uşaqların öz imkanlarına uyğun tam sərbəst yaşamaları üçün xüsusi kömək, dəstək və təhsil almaq hüququ olmalıdır. | **Mülahizə:** Bizim məktəb kompüterlərimiz internetdə bəzi saytları bağlayır.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 17. Uşaqların müvafiq informasiya və əlaqə vasitələrinə çıxış hüququ:** Uşaqların kütləvi informasiya vasitələri daxil olmaqla müxtəlif etibarlı mənbələrdən informasiya almaq hüquqları var. Televiziya, radio və qəzetlər uşaqların anlaya biləcəyi informasiyaları təqdim etməli, onlara zərər gətirəcək materialları yaymamalıdırlar. |
| **Mülahizə:** Bəzi regionlarda uşaqlar, xüsusilə də oğlanlar hərbi xidmətdə olmalıdır.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 38. Silahlı münaqişələrlə üzləşən uşaqların müdafiəsi** | **Mülahizə:** Uşaq doğulan zaman valideynlər ona ad verməli və onun doğum tarixini rəsmiləşdirməlidirlər.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 7. Doğum tarixinin, ad və soyadın, vətəndaşlığın qeydə alınması** | **Mülahizə:** Valideynlərim 17 yaşlı qardaşıma istədiyi verilişlərə baxmağa icazə versələr də, mənim 10 yaşım olduğu üçün bəzi verilişlərə baxmağa məhdudiyyət qoyurlar.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 5.** |

| | | |
|---|---|---|
| Dövlət 15 yaşına çatmayan uşaqların hərbi xidmətə çağırılmasına, yaxud hərbi hərəkatlarda iştirakına icazə verməməlidir. Bundan başqa uşaqlar hərbi hərəkat zonasında xüsusi müdafiə edilməlidirlər. | **və öz valideynlərini tanımaq, onlara qayğı hüququ:** Bütün uşaqların şəxsiyyəti təsdiq edən sənəddə qeyd edilən ad, vətəndaşlıq, öz valideynlərini tanımaq və valideyn qayğısı ilə əhatə olunmaq hüququ var. | **Valideynlər tərəfindən rəhbərlik və uşağın inkişafı:** Ailə uşağın öz hüquqlarını necə həyata keçirməsinə rəhbərlik məsələsində böyük cavabdehlik daşıyır. Dövlət bu hüquqlara hörmət etməlidir. |
| **Mülahizə:** Mənim 13 yaşım olmasına baxmayaraq, valideynlərim ünvanıma gələn məktubları məndən əvvəl oxuyurlar.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 16. Şəxsi həyat, şərəf və ləyaqət.** Uşaqların şəxsi həyat hüququ var. Qanun uşaqları onların həyat tərzinə, adına, ailəsinə, onlara gələn məktublara sui-qəsdlərdən müdafiə etməlidir. | **Mülahizə:** 8-ci sinif həftəlik jurnal buraxır və onu qonşular arasında yayır.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 13. İfadə azadlığı:** Sizin istədiyiniz, xoşunuza gələn, heç kəsin bunu sizə qadağan edə bilməyəcəyi bir mövzu haqqında fikirləşmək və danışmaq hüququnuz var. Məkanından asılı olmayaraq siz öz ideyalarınızı və fikirlərinizi bölüşə bilərsiniz. | **Mülahizə:** Mənim anam indi başqa ölkədə işləyir, lakin hər ay ya o özü gəlir, ya da biz atamla ona baş çəkirik.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 10. Ailənin birləşməsi:** Müxtəlif ölkələrdə yaşayan ailələrə, bu ölkələr arasında gediş gəlişə icazə vermək, uşaqlar üçün isə əlaqəni dəstəkləmək lazımdır. |
| **Mülahizə:** Məktəbdə mənə və mənim dostlarıma doğma dilimizdə danışmağı qadağan edirlər.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 30. Milli azlığa və yerli əhaliyə mənsub uşaqlar:**<br>Ölkənin əksər əhalisinin istifadə edib-etməməsindən asılı olmayaraq uşaqların öz ailələrinin dilini və adətlərini öyrənmək, tətbiq etmək hüququ var. | **Mülahizə:** Mənim ad, ailə və ölkə hüququm var.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 8. Fərdiliyin saxlanılması:**<br>Dövlət uşaqların vətəndaşlıq, ad və ailə əlaqələri hüquqlarına riayət etməlidir. Həmçinin dövlət uşağın fərdiliyini bərpa və müdafiə etməlidir. | **Mülahizə:** Mənim məktəbə getmək hüququm var.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 28. Təhsil hüququ:**<br>Uşaqların təhsil hüququ, yəni məktəbə getmək hüququ vardır. Məktəblərdə nizam-intizam uşaqların şəxsiyyətinə hörmət edən metodların köməyilə dəstəklənməli, intizamın qaydaya salınmasında zor tətbiq edilməməlidir. |
| **Mülahizə:** Mənim ailəm ölkəmizdə gedən müharibədən | **Mülahizə:** Hətta valideynlərim ayrıldıqda belə, mənim onların | **Mülahizə:** Mən çoxlu dərs buraxıram, ona görə ki, anam |

| | | |
|---|---|---|
| qaçaraq bura gəldi. Lakin burada qaçqın uşaqlara məktəbə getməyə icazə verilmir.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 22. Qaçqın uşaqlar:**<br>Qaçqın uşaqlara xüsusi qayğı göstərilməlidir. Qaçqın kimi ölkəyə gələn uşaqlar burada doğulan uşaqlarla eyni hüquqa malik olmalıdır. | hər ikisi ilə görüşmək hüququm var.<br>**Cavab:** Düzdür/Bu, hüquqdur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 9. Valideynlərdən ayrılma:**<br>Uşaqlar valideynlərindən yalnız öz rifahı naminə ayrıla bilər. (məsələn, valideynlərin biri onlarla pis rəftar edərsə). Əgər valideynlər boşanarsa, uşağa zərər gəlmədiyi halda, onun hər ikisi ilə görüşmək hüququ var. | işləyir və mənim körpə bacım (qardaşım) xəstələnəndə onlara mən baxıram.<br>**Cavab:** Səhvdir/Bu, hüquq pozuntusudur.<br>**Uşaq hüquqları haqqında Konvensiya. Maddə 32. Uşaq əməyi:**<br>Dövlət uşaqları təhlükəli, onların sağlamlığına yaxud təhsilinə zərər gətirən işlərdən qorumalıdır. |



# Su damlaları

***Hər tərəf  sudur, amma  içmək üçün bir damcı da yoxdur***

| | |
|---|---|
| **Fəslin mövzusu** | Ətraf mühit, ümumi insan hüquqları |
| **Çətinlik dərəcəsi** | II dərəcə |
| **Yaş həddi** | 7 – 13 yaş |
| **Tələb olunan vaxt** | 60 dəqiqə |
| **İştitakçı sayı** | 5 – 20 uşaq |
| **Oyunun növü** | Praktik təlim, prioritetlərin müəyyənləşdirilməsi, müzakirə |
| **Xülasə** | Uşaqlar suyu necə qənaətlə istifadə etmək olar problemini həll edirlər. Onlar ətraf aləmin ən mühum resurslardan birinin qorunmasında şəxsi fəaliyyətlərinin əhəmiyyətini müzakirə edirlər |
| **Vəzifələr** | • Gündəlik həyatda təbii ehtiyatlardan səmərəli istifadə  anlayışını inkişaf etdirmək<br>• Su ehtiyatlarının və, ümumiyyətlə, ətraf mühitin qorunması yollarını müzakirə etmək<br>• Uşaqlara öz hüquqlarını dərk etməkdə kömək etmək<br>• Təbii ehtiyatların səmərəli istifadəsini və suya qənaət ilə əlaqədar fərdi fəaliyyəti rəğbətləndirmək |
| **Hazırlıq** | • Sinifdəki uşaqların sayı qədər stəkan və ya fincan hazırlamaq<br>• İki litrlik su qabını su ilə doldurmaq. Qabda bütün stəkanları doldurmaq üçün kifayət qədər su olmalıdır. Sinifdə çox uşaq olduqda daha çox qab  hazırlamaq<br>• Suya qənaət etmək üçün fincan və ya ayrı bir qab hazırlamaq<br>• "Paylama materialı" bölməsində verilən "Su damlası"nın surətini hər bir uşaq üçün çıxarmaq |
| **Materiallar** | • İki litrlik su qabları<br>• Hər bir uşaq üçün stəkanlar və ya fincanlar<br>• Hər bir uşaq üçün çay qaşığı |

- Qənaət olunmuş suyun saxlanması üçün fincan və ya ayrı bir qab
- Flipçart vərəqləri və lövhə
- Kağız və qələmlər

**Təlimat**

1. Suyun vacibliyinin mümkün qədər çox səbəblərini göstərməyi uşaqlardan xahiş edin (məsələn, bitkilər, heyvanlar, insanlar, sənaye, kənd təsərrüfatı və istirahət üçün). Sudan qənaətlə istifadə etmək anlayışı ilə tanış etmək üçün belə suallar verin:
   - Yer üzündə suyu harda tapmaq olar? (okean, qütb buzlaqları, şirin su mənbələri)
   - Yer üzündə insanların istifadəsi üçün yararlı su nə qədərdir? (97% okeanlar, 2% qütb buzlaqları, istifadə üçün cəmi 1% şirin su yararlıdır)
   - Su olmasa Yer üzü nəyə bənzəyər? Bəs su az miqdarda olsa?
   - Yerin hər tərəfində içməli su bərabər paylanıbmı?
   - Hal-hazırda şirin su mənbələrini hansı təbiət hadisələri quruda bilər?

2. "Uşaqlar gündəlik olaraq sudan necə istifadə edirlər?" mövzusunda beyin həmləsi keçirin (məsələn, xörək hazırlamaq, çimmək, paltar yumaq və s.). Bütün bunları flipçart vərəqində və ya lövhədə qeyd edin.
3. Bildirin ki, bu oyunda onlar sudan daha qənaətlə istifadə yollarını müəyyən etməlidirlər. Uşaqlara bir qab göstərin və deyin ki, gün ərzində bütün qrupun işlədəcəyi suyun həmin qab həcmində olacağını təsəvvür etsinlər. Çox diqqətli olmalıdırlar ki, su boş yerə istifadə olunmasın.
4. Hər uşağa bir stəkan verib onu su ilə doldurun. Bildirin ki, hər birinin gün ərzində alacağı suyun miqdarı bu qədərdir. Uşaqlar gündəlik istifadə etdikləri suyun miqdarını tapmalıdırlar. (Avropada gün ərzində bir insan orta hesabla təxminən 135 litr su istifadə edir). Uşaqlara Təlimatın 2-ci addımında tərtib olunmuş "Sudan necə istifadə edilir?" siyahısını xatırladın.
5. Uşaqlar qərara gəlməlidilər ki, suya qənaət etmək üçün gündəlik rejimlərində necə dəyişiklik etməlidirlər. Onlara düşünmək üçün vaxt verin. Deyin ki, bir çay qaşığı suyu bir litr suya bərabər hesab etsinlər. Hər bir uşağa yaxınlaşın, onun nə qərara gəldiyini soruşun və qənaət etdikləri bir neçə çay qaşığı suyu qaba tökün. Uşaqlardan fikirlərini "Su damlası" paylama vərəqində yazmağı xahiş edin.

6. Hamı fikrini səsləndirəndən sonra bildirin ki, qənaət olunmuş su bütün qrupa məxsusdur. İzah edin ki, hər uşaq gündəlik suya qənaət edənə qədər qab dolu qalacaq. Əks halda qrupun suyu qurtaracaq.
7. Qrup qərara gəlməlidir ki, qənaət olunmuş su ətraf aləmin ehtiyacları üçün necə istifadə ediləcək. Uşaqlardan xahiş edin ki, onlar bu qərara birgə gəlsinlər. Həmin sudan təkrar istifadə edə bilərlərmi?

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualları verməklə oyunu təhlil edin:
   - Hər gün suyun bizə nə üçün lazım olduğunu xatırlamaq asanmı oldu?
   - Sudan necə istifadə etmənizdə sizin üçün yeni nə isə oldumu? Bəs ailənizin sudan istifadə etməsində? Bəs ictimai yerlərdə (məsələn, məktəbdə, xəstəxanada, ictimai binalarda və parklarda)?
   - Niyə sizin gündəlik tələbatınıza lazım olan suyun bir hissəsini vermək qərarına gəldiniz?
   - Gündəlik həyatda suya necə qənaət edə bilərsiniz? Suya qənaət etməyin hansı yolu Sizin üçün daha çətin olardı?
   - “Ümumi suyu” necə işlətmək qərarına gəlmək Sizə çətin oldu? Qrupun qərarı ilə razısınızmı? Bu sudan daha necə istifadə edə bilərsiniz?
2. Uşaqları sudan qənaətlə istifadə problemini ümumiləşdirməyə gətirin:
   - Nə üçün suya qənaət etmək vacibdir?
   - İnsanlar ehtiyacları olan miqdarda suyu tapmayanda nə baş verir?
   - Bizim rayonun istifadə etdiyi su haradan götürülür? Bizə necə gəlib çatır?
   - Bizim rayon suyun istifadəsində israfçılığa yol verirmi?
3. Aşağıdakı sualları verməklə insan hüquqları ilə əlaqə yaradın.

- Su həyat və yaşamaq üçün çox vacibdir. Həyat və yaşamaq üçün ətraf aləmdə daha hansı zəruri təbii ehtiyatlar var?
- Təmiz su, təmiz hava kimi təbii resurslardan istifadə üçün bütün insanların imkanı varmı? Əgər resurs varsa, lakin keyfiyyəti o qədər də yaxşı deyilsə, onda nə baş verir?
- Bu resursların keyfiyyətini təmin etmək üçün kim cavabdehdir?
- Hər bir insanın keyfiyyətli təbii resurslardan istifadəsi üçün uşaqlar nə edə bilər?

Təhlilin sonunda uşaqlardan “Su damlası” vərəqində yazdıqlarına nəzər yetirməyi, suya qənaət ilə əlaqədar yeni ideyalar və öz mühitində istifadə yollarını əlavə etməyi xahiş edin. “Su

damlası" vərəqlərini otağın bir küncündə yerləşdirin ki, uşaqlar gələcək fəaliyyətlərində ondan material kimi istifadə edə bilsinlər.

**Davam üçün təkliflər**

- "Dünya necə də gözəldir" oyunu insanın həyatı üçün əlverişli və təhlükəsiz ətraf mühitin nə olduğunu daha dərindən dərk etməkdə uşaqlara kömək edir.
- Bu metoddan başqa resursların (məsələn, təmiz hava, təhlükəsiz və sağlam qidalar, elektrik, qaz, neft) təhlili üçün də istifadə edin. Uşaqlar özləri bu resurslardan necə qənaətlə istifadə edə bilər? (məsələn, təkrar emal məhsullarından istifadə, zibilin ayrılıqda toplanması, ictimai nəqliyyatdan istifadə və s.)
- Təmiz su qıtlığı olan ölkələrdə vəziyyəti araşdırın (məsələn, Şimalı Afrika, Yaxın Şərq).
- Su problemi haqqında daha çox məlumat toplayın (məsələn, sənədli və bədii kinofilmlar, mif və xalq nağılları, qəzet məqalələri). Hər insanın davranışı və suya qənaət arasında əlaqəni, həmçinin daha abstrakt resurslardan istifadə hüququ - stabil inkişaf - həyat arasında əlaqəni vurğulayın.

**Fəaliyyət üçün ideyalar**

- Suya qənaət etmək üçün sinfin tədbirlər planını tərtib edin. Məsələn, yarımlitrlik qablar və 10 litrlik vedrələrin vasitəsi ilə uşaqlar gün ərzində nə qədər su istifadə etdiklərini təxmini ölçə bilərlər. Onlar bir həftə ərzində bunun qeydiyyatını apara bilər. Suya qənaət etməyin çətin olub-olmadığını və bu barədə onların fikirlərini öyrənmək üçün bir həftədən sonra müzakirəyə qayıdın.
- Sudan qənaətli istifadə həftəsi keçirmək üçün valideynlərlə (qəyyumlarla) əlaqə yaradın.
- Uşaqlarla "Çirklənmə patrulu" oyunu keçirin. Məktəbin yanında çay və ya su hövzəsi varsa, ona diqqətlə baxsınlar. Suda və ya sahildə zibil olduğunu yoxlasınlar. İnsanlar bu suyu necə istifadə edirlər?
- Uşaqlarla ətrafı gəzin, zibilin necə yığılması, emal olunması üsullarını təhlil edin. Ətraf mühitin təmiz olmasının vacibliyini izah edin.
- Təbii resurslardan fərqli formada istifadə yönümündə uşaqlarla söhbət aparın (sağlam qida, su, qaz, işıq və s.). Göstərin ki, hər bir şəxsin fəaliyyəti qlobal vəziyyətə təsir edir. Kiçik bir dəyişiklik resurslardan stabil istifadəyə yardım edir.

**Aparıcıya tövsiyə**

- Uşaqların dərk etməsinə kömək edin ki, “ətraf aləmin” qorunması üsulu insan hüquqlarının, həmçinin hər bir insanın yaşamaq hüququnun qorunmasından asılıdır.

**Adaptasiya**

Aşağıdakı sualları verərək, yuxarı yaş qrupu uşaqları ilə təbii resurslardan istifadə, davamlı inkişaf və yaşamaq huququ kimi daha mücərrəd mövzularda müzakirə aparmaq olar:

- Hər bir insanın Yer üzündəki bütün resurslara və suya olan hüquqlarını qorumaq üçün nə etmək olar?
- Yer üzündə ehtiyatı məhdud olan digər resurslar varmı?
- Necə etmək olar ki, gələcək nəsil həyat üçün vacib olan bütün resurslardan istifadə edə bilsin?

**Əlavə məlumat**

“Su damlası ilə səyahət” adlı dərs vəsaitində suyun müxtəlif aspektləri üzrə əsas faktlar, maraqlı məlumatlar və praktik oyunlar var. Burada suyun mənşəyi, insanların işlətdiyi suyun miqdarı, kənd təsərrüfatı, sənaye və məişət ehtiyaclarında suyun istifadə yolları, suyun çirklənmə problemi və s. barədə məlumat yerləşdirilmişdir.

## Təqib səhnələri

***Hər bir təqibçi insan – gizli qorxaqdır!***

| | |
|---|---|
| **Mövzu** | Diskriminasiya, zorakılıq |
| **Çətinlik dərəcəsi** | 2-ci səviyyə |
| **Yaş həddi** | 7-13 yaş |
| **Davamiyyət** | 60 dəqiqə |
| **İştirakçıların sayı** | 5-20 uşaq |
| **Oyun tipi** | Hərəkətli müzakirə |
| **Xülasə** | Uşaqlar təqib (gözümçıxdıya salmaq, incitmək) səhnələrini müzakirə edirlər, bu və ya digər situasiyalarda necə reaksiya verəcəklərini təsəvvür edirlər. |
| **Məqsədlər** | • Müxtəlif təqib səhnələrinin anlaşılmasını dərinləşdirmək;<br>• Təqib zamanı uşaqları dəstəkləyə bilən təşkilat, insanlar və strategiyaları müəyyənləşdirmək;<br>• Təqibə qarşı yaranan reaksiyaları təhlil etmək; |
| **Hazırlıq** | • Sinif otağının dörd küncünü 1-4 rəqəmləri ilə nömrələyin. Uşaqlar bir küncdən o biri küncə sərbəst hərəkət edə bilməlidirlər. |
| **Materiallar** | • Uşaqların dairədə otura biləcəyi sinif;<br>• Rəngli kağızlar;<br>• Markerlər;<br>• Qayçılar. |

### Təlimat

1. Aşağıdakı sualları verməklə təqib mövzusuna giriş edin:
- Təqib nə deməkdir?
- Təqibin hansı növləri vardır?
- Niyə insanlar başqalarını təqib edir, incidir?
- Təqibə məruz qalan insanlara bu necə təsir edir? Təqib edənlərə bu necə təsir göstərir? Ətrafa necə təsir göstərir?

2. Hər bir uşağa tapşırın ki, öz əlini rəngli kağıza qoyaraq konturunu çəksin, alınan rəsmi qayçı ilə kəssin. Onlar hər bir barmağı təqib zamanı dəstək üçün müraciət edə

biləcəyi bir insan kimi düşünməlidirlər (məsələn, dost, valideynlərdən biri, müəllim, məktəb rəhbrliyi, polis, məsləhətçi, qardaş və ya bacı). Uşaqlardan seçimlərini izah etməyi xahiş edin.

3. İndi təqib situasiyalarında insanların müxtəlif reaksiyalarını araşdıracaqları haqqında uşaqlara məlumat verin. Necə işləyəcəyinizi nümayiş etdirin:

a) Aparıcı təqib səhnəsini oxumalıdır. Hər bir situasiya üçün mümkün olan üç cavab verilir. Hər bir cavab otağın bir bucağına müvafiqdir. Otağın dördüncü küncü – başqa cavabı olan uşaqlar üçün nəzərdə tutulur.

b) Otağın hər bir küncü nömrələnmişdir. Siz təqib situasiyasını və ona müvafiq cavabları dinlədikdən sonra bu situasiyada nə edəcəyinizə uyğun olaraq müvafiq bucağa yaxınlaşıb orada durmalısınız.

4. Uşaqlara təqib situasiyalarını bərkdən oxuyun, öz reaksiyalarını düşünməyə və otağın müvafiq küncünə getməyə vaxt ayırın. Uşaqlar öz mövqelərini tutduqdan sonra onların bir neçəsindən niyə belə reaksiyanı seçdiklərini, bu seçimin üstün və çatışmayan cəhətlərini soruşun. Otağın dördüncü küncünü seçən uşaqların öz seçimini izah etməsi üçün şərait yaradın.

**Təhlil və qiymətləndirmə**

1. 5-6 təqib səhnələrini araşdırdıqdan sonra aşağıdakı sualları verməklə oyunu təhlil edin:

- Bu oyun haqqında nə düşünürsünüz?
- Bəzi səhnələrə reaksiya vermək çətin idimi? Hansılarına və nə üçün?
- Siz özünüzü hansısa bir təqib səhnəsində təsəvvür edə bildinizmi?
- Təqib olunan insanlara yardım və dəstək lazımdırmı? Nə üçün?
- Təqibə məruz qalan insanlar yardım və dəstəyi haradan ala bilərlər?
- Niyə bir insan digərini təqib edir? Bu, ədalətlidirmi?
- Siz təqib edilən zaman yardım və dəstək almaq üçün müraciət etdiyiniz adam heç bir reaksiya verməzsə, nə edərdiniz?
- Uşaq və böyüklər üçün hansısa təqib növü qəbul edilə bilərmi? Niyə "hə", niyə "yox"?
- Uşaqlar təqibə məruz qaldıqda onlara yardım və dəstək göstərilməsinə kim cavabdehdir?
- Yetkin insanlar təqibə məruz qala bilərmi? Bir neçə nümunə gətirin.
- Yetkin insana təqib zamanı yardım etməyə kim cavabdehdir?

- Təqiblə məşğul olan adamlara onların davranışını dəyişdirmək məqsədi ilə necə kömək etmək olar?
- Təqib edən insanların qarşısı alınmayanda nə baş verir? Təqib edən adamla nə baş verir? Cəmiyyətlə nə baş verir?

2. Aşağıdakı sualları verməklə oyunu insan hüquqları ilə uyğunlaşdırın:

- Kiminsə digərini təqib etməyə hüququ varmı? Niyə "hə", niyə "yox"?
- İnsan təqib olunan zaman onun hansı hüquqları pozulur?
- Təqibin kökünü kəsmək hər bir insanın hüququnun qorunmasına necə təsir edər?

3. Təhlili bitirərək uşaqlardan geriyə nəzər salıb, "dəstəkləyən əllər"ə müraciət etməyi xahiş edin və təqib zamanı daha hansı insan və ya təşkilatdan dəstək almaq üçün müraciət edə biləcəkləri haqqında düşünməyi xahiş edin. "Dəstəkləyici əllər"i otağın bir yerində saxlayın ki, gələcəkdə uşaqlar bundan istifadə edə bilsinlər.

**Davam üçün təkliflər**

Siz işi davam etdirə və "Zorakılığın qarşısını necə almaq olar?" oyununu keçirə bilərsiniz. "Yaralayan sözlər" oyunu da sözlə təqib mövzusuna toxunur. Onu bu oyundan əvvəl və ya sonra keçirmək olar.

**Fəaliyyət üçün ideyalar**

Qrupunuz "Təqibə yox" adlı hansı kampaniyanı işləyib hazırlaya bilər? Bu istiqamətdə müzakirə aparın və başqalarını bu təşəbbüsə qoşulmağa dəvət edin. Məsələn, sərgi təşkil etmək, uşaqlara dəstək verən təşkilatlardan mütəxəssis dəvət etmək və ya kömək almaq üçün məktəbdə müraciət edə biləcəyi insanın adını çəkmək olar.

Təqib zamanı uşaqların buna qarşı yaranan reaksiyaları haqqında səhnələşdirilmiş bir tamaşa qoyun və tamaşanı başqa uşaq qruplarına göstərin. Təqibdən əziyyət çəkən uşaqların yardım almaq üçün zəng edə biləcəkləri yerli "qaynar xətt"in və ya "inam telefonu"nun olub olmadığını öyrənin. Oyun zamanı bu informasiyanı yayın və imkan olarsa, qrup ilə söhbət aparmaq üçün belə xidmətlərdən bir mütəxəssis dəvət edin.

**Aparıcılara məsləhətlər**

İstəyənlərin növbə ilə çıxışını təşkil etmək üçün "sehrli danışan çubuq" və ya "mikrofon"dan istifadə edin. Qrup daxilində təqibin hansısa bir formasının olması istisna olunmur. Təqib bütün uşaqlara müxtəlif səviyyədə təsir edir, o müxtəlif formaları ala bilər, qrupda situasiyanı hiss edin və fikrinizi hansısa konkret hadisəyə cəmləşdirməməyə çalışın.

**Adaptasiyalar**

Aşağıda təklif olunan situasiyaları istifadə etmək yerinə, qrup uşaqlarına daha çox uyğun gələn təqib səhnələrinizdən istifadə edə bilərsiniz.

Uşaqları kiçik qruplara bölün, hər qrupa bir təqib səhnəsi verin və onu səhnələşdirib, situasiyaya reaksiya verməyi tapşırın. Hər bir rollu oyunu müzakirə və təhlil edin. Digər qruplardan belə situasiyalarda necə reaksiya verəcəkləri haqqında maraqlanın.

**Paylama materialı: Təqib səhnələri**

- Sizin dostlarınız sizi yaramaz sözlərlə təhqir etməyə başlayır, sizi hədələyən yazılar göndərir və sizə məxsus olan müxtəlif şeyləri onlara verməyə məcbur edirlər. Bu cür hallar baş verəndə siz özünüzü pis hiss edirsiniz. Bu zaman siz necə hərəkət etməlisiniz?

1. Heç bir şey. Ola bilsin ki, siz nəyi isə lazımi qaydada etməmisiniz ki, dostlarınız özlərini belə aparmağa başlayıb.
2. Cavab olaraq onların dedikləri sözlərlə siz də onları təhqir edir və hədələyirsiniz.
3. Valideynlər və müəllimlə söhbət edir, nə baş verdiyi haqqında onlara danışırsınız.
4. Başqa hərəkət (otağın açıq küncü).

- Sizin sinfinizdəki bir qrup uşaq sms-lər paylaşaraq, sizin haqqınızda xoşagəlməyən söz-söhbətlər yayırlar. Buna görə uşaqların bir çoxu sizinlə nə oynamaq, nə də danışmaq istəyir. Hətta sizin dostlarınız da bu söz-söhbətə inanır. Belə olduqda siz necə hərəkət etməlisiniz?

1. Heç bir şey. Bu söz-söhbətin doğru olduğunu hesab edərək, sizə heç kim inanmayacaq.
2. Siz də o biri uşaqlar haqqında xoşa söz-söhbətlər yaymağa başlayacaqsınız.
3. Bu söz-söhbətin yalan olduğunu hamıya danışacaqsınız.
4. Başqa hərəkət (otağın açıq küncü).

- Sizin böyük bacınız və ya qardaşınız heç kəs görmədikdə sizi həmişə itələyir və döyərək deyir ki, bu haqda kiməsə danışsan, səni daha da şiddətli döyəcəm. Bu zaman siz necə hərəkət etməlisiniz?.

1. Valideyn və ya müəllimlərə baş verənlər haqqında danışacaqsınız.
2. Onunla mübarizə aparmaq üçün məktəb yoldaşlarınızdan köməklik göstərmələrini xahiş edəcəksiniz.

3. Ona bunun çox ağrılı olduğunu deyərək, daha belə hərəkət etməməyini xahiş edəcəksiniz.

4. Başqa hərəkət (otağın açıq küncü).

- Müəlliminiz sizi sinifdə hər dəfə səhv cavab verdiyiniz zaman “kütbeyin” adlandırmağa davam edir, sizin təlim almağa qabiliyyətinizin olmadığını, ona görə də çalışıb sizə nəyi isə öyrətməyə dəymədiyini deyir. Sizi başqa uşaqlar da belə çağırmağa başlayıb. Siz bu zaman necə hərəkət etməlisiniz?

1. O saat direktorun yanına gedərək baş verənlər haqqında danışmaq.
2. Məktəbə getmək xoşunuza gəlmədiyi üçün dərsləri buraxmağa başlamaq.
3. Öz valideynlərinizdən “başqa sinfə və ya məktəbə keçmək olarmı?” deyə soruşmaq.
4. Başqa hərəkət (otağın açıq küncü).

- Yay düşərgəsində dostlarınızdan birinin azyaşlı uşaqları cırnadaraq, onlara güldüyünü görürsünüz. Sizin dostunuz, hətta onlardan əşyaları da almağa başlamışdır. Bu zaman siz necə hərəkət etməlisiniz?

1. Dostunuza demədən düşərgə müdiriyyətinə baş verənlər haqqında danışmaq.
2. Bu işdə dostunuza köməklik edir, əşyaları uşaqlardan siz də alırsınız ki, dostunuz sizin əşyalarınızı da almağa başlamasın.
3. Dostunuza düz hərəkət etmədiyini bildirmək və ona “azyaşlı uşaqları rahat buraxmalısan” fikrini demək.
4. Başqa hərəkət (otağın açıq küncü).

- Başqa məktəbin yuxarı sinif uşaqları sizin məktəbin ibtidai sinif şagirdlərinə sataşmağı xoşlayır. Onlar uşağın tək olmasını gözləyirlər, bu zaman onu əhatəyə alaraq pullarını, yeməyini və ya oyuncaqlarını alırlar. Onlar həm də uşaqları daşa basır, daha da pis hərəkət edəcəkləri ilə hədələyirlər. Bu zaman siz necə hərəkət etməlisiniz?

1. Çox ehtiyatlı olmaq və məktəbə dəstə ilə gedib-gəlmək.
2. Məktəbinizdə olan böyüklərə bu haqda danışmaq və böyüklərdən köməklik istəmək.
3. Özünümüdafiə üçün bıçaq və ya daş gəzdirmək.
4. Başqa hərəkət (otağın açıq küncü).

- Sizin sinfə təzə gələn oğlan qaçqındır. Sizin dostlarınız ona həmişə fərqli münasibət göstərir, onun danışıq tərzini ələ salır və gəldiyi yerə qayıtmasını tələb edirlər. Siz bu zaman necə hərəkət edərsiniz?

1. Dostlarınızla birləşmək, axı o sizin dostunuz deyil; onun haqqında narahat olmağa dəyməz.
2. Dostlarınızın mühasibəti haqqında müəlliminizə danışmaq.
3. Asudə vaxtınızda dil dərsləri təklif etmək və bununla ona adaptasiyada köməklik göstərmək.
4. Başqa hərəkət (otağın açıq küncü).

- Siz dostlarınızdan birini pis yazıb-oxuduğu üçün ələ salırsınız və onun artıq tək oturduğunu görürsünüz. Bir dəfə siz onun gözünün dolduğunu görürsünüz. Bu zaman siz nə etməlisiniz?

1. Heç bir şey. Bu onun sadəcə uğursuz günü idi və sizə bunun heç bir dəxli yoxdur.
2. Dostunuzu cırnatmağı dayandırmaq və onun niyə ağladığını soruşmaq.
3. Hamının qarşısında daha onu təhqir etməyəcəyinizi və onun həqiqətən bir neçə əlavə dərs götürməyə ehtiyacı olduğunu deyirsiniz.
4. Başqa hərəkət (otağın açıq küncü).

- Sizi çox sevən ögey böyük qardaşınız var. O tez-tez sizi qucaqlayıb öpmək istəyir. Bu, sizin xoşunuza gəlsə də, siz bu zaman özünüzü bir qədər narahat hiss edirsiniz. Belə olduqda siz necə hərəkət etməlisiniz?

1. Valideynlərdən birinə və ya başqa bacı və qardaşınıza danışmaq.
2. O hər dəfə belə etdikdə, onunla dalaşmaq, onu döymək.
3. Ondan uzaqlaşmağa çalışmaq və münasibətlərdə distansiya saxlamağa çalışmaq.
4. Başqa hərəkət (otağın açıq küncü).

# Yeni torpaqlara səyahət

***Siz nəyi gəmidən  atardınız?***

| | |
|---|---|
| **Fəslin mövzusu** | Ümumi insan hüquqları |
| **Çətinlik dərəcəsi** | I dərəcə |
| **Yaş həddi** | 8 – 13 yaş |
| **Tələb olunan vaxt** | 45 dəqiqə |
| **İştirakçı sayı** | 8 – 20 uşaq |
| **Oyunun növü** | Prioritetlərin müəyyənləşdirilməsi, müzakirə |
| **Xülasə** | Uşaqlar  təsəvvür edirlər ki, onlar yeni qitəyə üzürlər, ancaq ora çatmaq üçün xüsusi ehtiyac olmayan əşyaları seçib gəmidən atmalıdırlar |
| **Vəzifələr** | • Sag qalmaq və inkişaf etmək üçün vacib olanı qiymətləndirmək<br>• İstəkləri ehtiyaclardan ayırmaq<br>• İnsan ehtiyaclarını onun hüquqlari ilə uzlaşdırmaq |
| **Hazırlıq** | • Hər qrup üçün “istək” və “ehtiyac” kart dəstləri hazırlayın və nüsxəsini çıxardın; həmin dəstləri zərfə qoyun |
| **Materiallar** | • Zərflər<br>• İstək və ehtiyac kartlarının nüsxəsi<br>• Yapışqan və ya yapışqanlı lent, təmiz vərəqlər |

**Təlimat**

1. Uşaqlardan xahiş edin ki, yeni qitəyə üzməyə hazırlaşdıqlarını təsəvvür etsinlər. Hal-hazırda bu qitədə bir adam da yaşamır, buna görə də uşaqlar həmin qitədə yeni ölkənin ilk qurucuları olacaqlar.
2. Uşaqları bir neçə kiçiq qrupa bölün və hər qrupa istək və ehtiyac kart dəstləri olan zərfləri paylayın. İzah edin ki, həmin kartlarda yazılanlar onların yeni ölkədə yaşamaq üçün götürəcəkləri əşyaların adlarıdır. Hər qrupdan xahiş edin ki, zərfləri açsınlar, bütün kartları masa ütünə düzüb onları dəyərləndirsinlər.

   **Variant:** Belə bir imkan yaradın ki, uşaqlar götürüləcək bəzi əşyaları özləri əlavə etsinlər. Zərflərə bir neçə boş kart qoyun. Uşaqlara onların fikrincə lazım olacaq və ya istədikləri bəzi əşyaların adlarını həmin kartlarda yazmağı təklif edin.
3. Bildirin ki, hal-hazırda gəmi səyahətə çıxır. Öz "hekayənizi" belə başlayın:

   > *Səyahət çox gözəl başladı. Günəş saçır, dəniz sakitdir. Lakin qəfildən güclü fırtına qopur və gəmini yellədir. Az qalıb ki gəmi batsın! Sağ qalmaq üçün gəmidən kənara 3 əşya atmalısınız.*

   Hər qrupdan xahiş edin ki, nəyi atacaqlarını qərara alsınlar. İzah edin ki, sonra onlar atılan əşyaları qaytara bilməyəcəklər. Qruplardan "gəmidən kənara atılanların" kartlarını yığın və bir yerdə toplayın.
4. Hekayənizi davam edin:

   > *Nəhayət fırtına bitir. Hər kəs dərindən nəfəs alır. Lakin hava haqqında xəbər verilir ki, gəminin düz üstünə çox güclü qasırğa gəlir. Əgər qasırğadan sag-salamat çıxmaq istəyirsinizsə, gəmidən kənara yenə 3 əşya atmalısınız! Unutmayın: sizin yeni ölkədə sag qalmağınız üçün lazım olanları atmamalısınız.*

   Əvvəldə etdiyiniz kimi, qrupların seçdiyi kartları yığın və bir yerdə toplayın.
5. Hekayənizi yenə davam edin:

   > *Biz ölümün bir addımlığında idik. Lakin demək olar ki, biz artıq yeni qitəyə çatmışıq. Hər kəs həyəcan içindədir. Ancaq üfüqdə torpağı gördüyümüz anda, böyük balina bizim gəmimiz ilə toqquşur və gəminin yan hissəsində boyük yarıq açır. Siz gəmini bir az da yüngülləşdirməlisiniz! Daha 3 əşya atın.*

Qrupların seçdiyi kartları yığın və bir yerdə toplayın.

6. Nəhayət ki, onların sağ-salamat yeni qitəyə çatdıqlarını və yeni ölkə qurmağa hazır olduqlarını elan edin. Hər kəsin Yeni qitəyə hansı əşyaların gətirdiklərini yadda saxlamaq üçün hər qrupdan xahiş edin ki, onlarda qalan kartları təmiz vərəqlərə yapışdırsınlar. Sağ qalmaq üçün onlarda lazım olan hər şey varmı? Bəs normal inkişaf üçün?
7. Bütün qruplardan xahiş edin ki, vərəqlərini otağın ön divarında assın. Qitəyə gətirdikləri əşyalara şərhlər verin. Hər şərhdən sonra bütün qrupdan soruşun: “Onların inkişafı və sağ qalmaları üçün lazım olan hər şey varmı?”

**Təhlil və qiymətləndirmə**

1. Bu sualları verərək oyunu təhlil edin:
   a) Bu oyunda sizin xoşunuza gələn nə idi?
   b) Qitədə yaşamaq üçün lazımlı əşyaları seçəndə qərarınızı necə verirdiniz? Sizin üçün əsas olan nə idi?
   c) Çətinliklə verdiyiniz qərarlar var idi? Hansılar idi?
   d) Əşyaların saxlanması və atılması seçimi ilə bağlı qrup daxilində mübahisə etdiyiniz hallar oldumu? Həmin mübaisələri necə həll etdiniz?
   e) Bütün insanların tələbatları eynidir? Kimlərin digər tələbatları da ola bilər?
   f) Son qəbul etdiyiniz qərar haqqında nə düşünürsünüz? Siz yeni bir qitədə sağ qala bilərdinizmi? Siz burda normal yaşayıb inkişaf edə bilərdinizmi?
   g) Sizin qrupunuz atılacaq əşyalar barəsində qərara necə gəldi?
   h) Son qərar sizi təəccübləndirdimi?
   i) Əgər bu oyunu ikinci dəfə oynamalı olsaydınız, başqa hansı əşyaları atardınız?
2. Qeyd edin ki, insan hüquqları onun tələbatlarına – hər bir insana onun yaşamağı, normal inkişafı və layiqli həyatı üçün zəruri olan şeylərə əsaslanır. Suallar verin:
   a) Sağ qalmaq üçün sizdə hər şey varmı?
   b) Sizin normal həyat və inkişafınız üçün hər şey varmı?
   c) Hansı əşyaların olmağını siz istəyərdiniz, lakin düşünürsünüz ki, onlar ilk tələbat əşyaları deyil?
3. Vurğulayın ki, hər insana bütün hüqüqların olması gərəklidir! Bəzi hüquqlar yaşayıb sağ qalmaq üçün zəruridir: qida, içməli su, ev. Digərləri yaxşı yaşamaq və

inkişaf etmək üçün vacibdir. Ancaq sağ qalmaqla insan kifayətlənə bilməz. Suallar verin:

a) Hansı kartlarda elə əşyaların adları qeyd olunmuşdur ki, onların olmağını biz istəyərdik, lakin sağ qalmaq üçün onlardan imtina etmək olar?
b) Hansı kartlarda bizim sağ qalmağımız üçün zəruri əşyaların adları qeyd olunmuşdur?
c) Bəs hansı kartlarda normal yaşayıb inkişaf etmək üçün lazım olan əşyaların adları yazılmışdır?
d) _____________________ əşyası sizdə olmasa, yeni ölkədə nə baş verər? (Bir neçə kartdan nümunələr götürün)

**Davamı üçün təkliflər.**

- İnsanın tələbatlarını onun hüquqlarının əsası kimi izah edən "Dovşanın hüquqları" oyunu bu oyunun əla davamıdır.
- Müzakirələrdə uşaqlarla birlikdə demokratik qanunların yaranmasını əks etdirən "Bizim qrupun konstitusiyası" oyununu da tövsiyə edirik.

**Aparıcılara məsləhətlər:**

- Vacibdir ki, uşaqlar bəzi insan hüquqların digərlərindən az əhəmiyyətli olduğu və onlardan imtina etməyin mümkünlüyü qənaətinə gəlməsinlər. Təhlil zamanı hüquqların bir-birindən asılı olduğunu vurğulayın.
- Atılan əşyaları geri qaytarmaq mümkün olmadığını, qalan əşyaların isə ancaq müvəqqəti sağ qalmaq üçün deyil, həm də yeni ölkəni qurmaq üçün onlara lazım olacağını vurğulayın.
- Bəzi əşyalar qəsdən birmənalı deyil. Onlar nəyin ilk tələbat əşyası olduğunu müzakirəyə çıxartmaq üçün siyahıya daxil edilmişdir (məsələn, mobil telefon bəziləri üçün dəbdəbəli əşyadır, digərləri üçün isə rabitə vasitəsidir).
- Öz istək və tələbatları arasında seçim edəndə azyaşlı uşaqlar çətinlik çəkə bilər. Qitədə sağ qalmaq üçün lazımlı əşyaları seçməkdə uşaqlara kömək edin.

**Variantlar**

- Təhlil zamanı hər böhran mərhələsində “dənizə atılan əşyalar” arasında müqayisə aparın. Seçimlər arasında gördükləri fərqlər barədə danışmağı uşaqlardan xahiş edin.

**Paylama materialı: İstək və tələbat kartları**

- Öz fikrini bildirmək imkanı
- İstədiyiniz kimi xərcləyə biləcəyiniz pullar
- Təmiz su
- Şəxsi yataq otağı
- İnternetə çıxış və kompüter
- Ədalətli münasibət və ayrı-seçkiliyin olmaması
- Təmiz ətraf mühit
- Mobil telefon
- Koka-kola və hamburger
- Dincəlmək və oynamaq imkanı
- Televiziya və qəzetlər
- Öz dininə ibadət etmək imkanı
- Rahat ev
- Dəbli geyim
- Dəniz kənarında tətil
- Qida məhsulları
- Qəddar rəftardan müdafiə
- Təhsil
- Həkimlər
- Velosiped
- Şirniyyat
- Bəzək əşyaları
- MP3 pleyer və CD-pleyer
- İsti geyim

- Valideynlər
- Oyun və oyuncaqlar
- Dərman və peyvəndlər
- Demokratik seçkilər
- Saat
- Öz mədəniyyətini öyrənmək və öz dilində danışmaq imkanı

**“Bir nəfər üçün heç kim, bir nəfər hamı üçün”**

| | |
|---|---|
| **Mövzu:** | Ümumi insan hüquqları, diskriminasiya. |
| **Yaş səviyyəsi:** | 7-10 yaş. |
| **Mürəkkəblik səviyyəsi:** | 1-ci səviyyə. |
| **Dərsin müddəti:** | 35 dəqiqə. |
| **İştirakçıların sayı**: | 5-35 uşaq. |
| **Oyunun növü:** | Hadisələrin nəqli, düşünmə. |
| **Məqsəd:** | • “Hamı müxtəlifdir – hamı bərabərdir” konsepsiyasını müzakirə etmək;<br>• Müxtəliflik və tolerantlığın əhəmiyyəti haqqında düşünmək;<br>• Zorakılığın və konfliktlərin idarə olunmasını müzakirə etmək;<br>• Universallıq/ümumilik prinsipini dərk etmək. |
| **Hazırlıq:** | • Əvvəlcədən kukla tamaşasını məşq etmək və təqdimata hazırlamaq;<br>• Müxtəlif heyvanların xüsusiyyətlərini özündə əks etdirən Zabderfilio kuklasını hazırlamaq (yaxud paylayıcı materiallardan istifadə etmək). |
| **Materiallar:** | • Kukla teatrı və ya buna oxşar səhnə şəraitinin yaradılması;<br>• Paylama materialı kimi müxtəlif hevvan kuklaları, ovçu-kukla, kukla-aparıcı, kukla – Zabderfilio. |

**Təlimatlar**

1. Uşaqları kukla teatrının qarşısına yığın. Kukla tamaşasının təqdim olunduğu müddətdə öz yerlərində sakit oturmalarını onlardan xahiş edin. Uşaqlar yalnız personajlar onlara müraciət etdiyi zaman danışa bilərlər; personajlara toxunmaq olmaz.

2. Kukla tamaşasını göstərin. Təlimin məqsədinə nail olmaq və onların diqqətini cəlb etmək üçün daim uşaqlara suallar verin.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı suallardan istifadə etməklə dərsin müzakirəsini aparın.
   a) Siz bu hadisə haqqında nə düşünürsünüz?
   b) Bu hadisədə nə baş verdi?
   c) Hansı heyvan sizin daha çox xoşunuza gəldi? Hansı isə az? Nə üçün?
   d) Zabderfilioya münasibətdə digər heyvanlar haqlı idimi?
   e) Onlar nə üçün belə edirdilər?
   f) Sizcə, nə üçün sonda digər heyvanlar Zabderfilio ilə dostlaşdılar? O, qüvvətli olduğuna görəmi? Hamıdan gözəl olduğu üçünmü? Cəsarətli və xeyirxah olduğuna görəmi? Yoxsa bir neçə müxtəlif qabiliyyətə malik olduğuna görəmi?

2. İnsan hüquqlarını oyunda baş verən hadisələrlə müqayisə edərək aşağıdakı sualları verin.

a) Siz heyvanların Zabderfilio ilə əvvəlki münasibətinə oxşar münasibətlə rastlaşmısınızmı?

b) Real həyatda nə üçün bu cür hadisələr baş verir?

c) Biz hamımız oxşarıq, yoxsa fərqliyik? Hansı cəhətlərə görə oxşarıq? Bizi fərqli edən nədir?

d) Biz nə etməliyik ki, Zabderfilio ilə heç kimin dostluq etmək istəməməsi kimi hadisə uşaqlar arasında təkrarlanmasın?

**Mənbə:** Portuqaliyalı qrupun kukla tamaşasına uyğunlaşdırılmışdır. “Animacao Inovacao Social”, (MAIS): www.mais.online.pt.91

**Davam etmək üçün təkliflər**

Uşaqlar özləri bu kukla tamaşasında iştirak edə və digər uşaq qrupları üçün də təqdim edə bilərlər. Onlar özləri müxtəlif kuklalar hazırlayıb, başqa bir hadisə uydura bilərlər. “Kompasito”da olan digər hadisələri də kuklalarla səhnələşdirmək olar (Məsələn, “Müasir nağıl”, “Biri vardı, biri yoxdu…”).

**Fəaliyyət üçün ideyalar**

Uşaqlara “Zabderflio onların qrupunda olsaydı, nə baş verərdi?” sualı barədə düşünməyi tapşırın. Onlara bir-birinə münasibətdə, hər bir fərdə hörmətlə yanaşaraq daxili əxlaq kodeksini yaratmaqda kömək edin. Hazırlanmış kodeksi elə yerdə yerləşdirin ki, lazım olanda ona müraciət etmək mümkün olsun.

**Aparıcılara məsləhətlər**

• Əsil kukla teatrının əvəzinə arakəsmə kimi adi örtükdən istifadə edin.

• Özünüzdə olan istənilən heyvan oyuncaqlarından istifadə edə bilərsiniz. Əgər sizdə zəruri heyvan oyuncaqları yoxdursa, kardondan hazırlanmış şəkillərdən və yaxud köhnə corablardan istifadə etmək olar.

• Təxəyyülünüzə uyğun olaraq öz Zabderfilionuzu yaradın. Onda dovşanın qulaqları, gərgədanın buynuzu, siçanın burnu və bığları, şirin quyruğu, kenqurunun kisəsi və s. ola bilər. Hər halda o, qeyri-adi görünməli, gözə çarpan, böyük buruna, yüksək səsə və səsiz hərəkət qabiliyyətinə malik olmalıdır. Siz bu hadisəni elə dəyişə bilərsiniz ki, o, sizdə olan istənilən oyuncağa uyğun gəlsin.

• Əgər qrupunuzda uşaq sayı çoxdursa, uşaqlar və kuklalar arasındakı sual-cavablarda sizə ikinci aparıcı kömək də bilər.

**Ssenari**

**Giriş:** (bunu hadisənin personajı olmayan “Aparıcı-kukla” həyata keçirir).

**Aparıcı-kukla:** Salam, xanımlar və cənablar, oğlanlar və qızlar! Mən çox şadam ki, hamı bugünkü tamaşaya baxmağa hazırdır. Mən sizə bugünkü tamaşanın sirləri haqqında qısaca məlumat verə bilərəm. Bu hadisələr heyvanlar aləmində baş vermişdir. Bizdə olduğu kimi, onların aləmində də hər şey var: gözəllik və çirkinlik, normallıq və qeyri-adilik.

Hər halda bizi sürprizlər gözləyir. Bu hadisə də məhz bu sürprizlərdən biri – Zabderfilio adlı qeyri-adi heyvan haqqındadır. Diqqətlə baxın və qulaq asın. Zəhmət olmasa, yerinizdə əyləşin. Yoxsa heyvanlar qaçar və biz bu hadisənin necə nəticələnəcəyini bilmərik. Bir azdan görüşərik!

**Nağılın dəyişdirilmiş nümunəsi**

**Qısa xülasə:** Zabderfilio növbə ilə müxtəlif heyvanları qarşılayır. Onların hər biri Zabderfilionu qəribə hesab edirlər. Zabderfilio dost axtarsa da, heyvanlardan heç biri onunla dostluq etmək istəmir. Ona görə ki, o, sadəcə qəribədir!

**Həmin görüşlərdən bir nümunə:**

**Zürafə:** (Səhnəyə çıxır və uşaqlarla söhbət edir)

*- Hamıya salamlar, siz bilirsiniz mən kiməm?*

**Tamaşaçılar:**

*- Sən zürafəsən.*

**Zürafə**:

*- Hardan bilirsiniz? Mənim üzərimdə ad lövhəsi var?*

**Tamaşaçılar**:

*- Sənin uzun boğazın var və rəngin uyğundur.*

**Zürafə:**

*- Bəli, siz haqlısınız. Yer uzərində olan bütün heyvanların ən uzun boylusu mənəm. Mən uzağı görürəm və heç bir əziyyət çəkmədən hündür ağaclardakı yarpaqlarla qidalana bilirəm.*

(Zabderfilio səhnəyə çıxır)

***Zabderfilio:*** (çox enerjili və dostcasına)

*- Salam!*

***Zürafə**:*

*-Oooooooo.... Sən hiss olunmadan yaxınlaşaraq məni qorxutdun. Bəs sən kimsən?*

***Zabderfilio**:*

*- Mən Zabderfilioyam.*

***Zürafə**:*

*- Zabberbadderdiluuuu kim???*

***Zabderfilio**:*

*- Mənim adım Zabderfiliodur. Mən özümə dost axtarıram. Sən mənim dostum olmaq istəyirsən?*

***Zürafə:***

**-** *E, hm... Mən bilmirəm. Sən çox qəribə görünürsən! Sən nə siçan, nə şir, nə kenqurusan, amma onların hamısına oxşayırsan. Mənim bütün dostlarımın içərisində sənin kimisi yoxdur. Məni bağışla, mən dostlarımla görüşməliyəm! Xa-xa-xa, sən doğrudan da çox qəribə və eybəcərsən.*

***Zabderflio:*** (İnciyərək)

*- Yox, yox, dayan...* (Zürafə artıq getmişdir. İndi Zabderflio tamaşaçılarla danışır)

***Zabderflio:***

**-** *Mən cox məyus oldum. Niyə zürafə mənim dostum olmaq istəmədi? Yaxşı, meşənin dərinliyinə gedim, bəlkə mənimlə dostluq etmək istəyən biri tapıldı.*

Zabderflionun rast gəldiyi heyvanlardan heç biri onunla dost olmaq istəmədi. Bir neçə belə görüşdən sonra səhnədə ovçu görünür. O, heyvanları ovlayır. Hər dəfə səhnəyə çıxan heyvanları gördükdə ovçu onları tutmaq istəyir. Lakin heyvanlar çığıraraq kömək istəyə-istəyə qaçırlar. Sonra heyvanların dalınca meşəyə yollanan ovçu səhnədən yoxa çıxır və yenidən Zabderfilio peyda olur. O, tamaşaçılardan bu səsin hardan gəldiyini soruşur.

Tamaşaçılar ona vəziyyəti izah etdikdən sonra Zabderfilio ovçunu hiss etmək üçün siçan burnundan (Aha, öz burnumla mən ovçunun yaxında olduğunu hiss edirəm), səssiz yerimək üçün pişik pəncəsindən (Məncə, pişik pəncələri ilə ovçuya səssiz yaxınlaşa bilərəm), ovçunu qorxutmaq məqsədi ilə şir nərəsindən (İndi mən öz qorxunc səsimlə ovçunu qorxudacam ki, o qaçsın) istifadə edir və bərkdən nərə çəkir.

Bu qəhrəmanlıqdan sonra digər heyvanlar ona yaxınlaşıb, öz hərəkətlərinə görə ondan üzr istəyirlər və xahiş edirlər ki, Zabderfilio onlarla dost olsun. Zabderfilio buna böyük sevinclə razılıq verir.

Bütün heyvanlar tamaşaçılarla vidalaşırlar və səhnədə yenidən aparıcı kukla peyda olur.

***Nəticə:***

***Aparıcı-kukla:***

***-** Beləliklə, xanımlar və cənablar, oğlanlar və qızlar! Bu, Zabderfilionun hekayəti idi. Bu hekayə sizin xoşunuza gəldimi? Əlbəttə ki, Zabderfilio gülməli görünür. Amma o, müxtəlif xüsusiyyətlərindən istifadə edərək dostlarına kömək edə bildi. Əgər siz nə vaxtsa qeyri-adi görünüşü olan biri ilə rastlaşsanız, Zabderfilionu xatırlayarsınız. Ola bilər ki, həmin insanda sizin təsəvvürünüzə gəlməyən qabiliyyətlər var və o, sizə gözəl dost ola bilər.*

***Paylama materialı: Zabderfilio***



**Zorakılığın qarşısını necə almaq olar**

***İndi mən nə edəcəyimi bilirəm!***

| | |
|---|---|
| **Fəslin mövzusu** | Zorakılıq |
| **Çətinlik dərəcəsi** | I dərəcə |
| **Yaş həddi** | 7 – 13 yaş |
| **Tələb olunan vaxt** | 60 dəqiqə |
| **İştirakçı sayı** | 4 – 20 uşaq |
| **Oyunun növü** | "Dondurulmuş səhnə"nin yaradılması, müzakirə |
| **Xülasə** | Uşaqlar "donmuş səhnələrin" köməyi ilə münaqişə və ya zorakılıq hallarını təsvir edirlər, sonra isə zorakılıq tətbiq etmədən həmin situasiyaların həllini nümayiş etdirirlər |
| **Vəzifələr** | • Zorakılığın səbəbləri haqqında məlumatlılığı genişləndirmək<br>• Münaqişələrin qeyri-zorakı həllərini aşkar etmək<br>• Müzakirəni zorakılığın səbəblərindən başlamaq |
| **Hazırlıq** | Yoxdur |
| **Materiallar** | Yoxdur |

**Təlimat**

1. Qrupla zorakılıq mövzusunu müzakirə edin. Bu nədir? Onların fikrincə, zorakılığın hansı formaları var? Fiziki zorakılıqdan başqa psixoloji şiddət, zorakı rəftar təhlükələrini daxil etməklə uşaqlara zorakılıq anlayışını genişləndirməyə kömək edin.
2. Uşaqları 4-6 nəfərdən ibarət qruplara bölün. İzah edin ki, hər qrup müşahidə etdiyi və ya yaşadığı zorakılıq hallarının (məsələn, məktəbdə, ailədə, dostlarla) müzakirəsinə on beş dəqiqə sərf etməlidir. Qrup zorakılıq hallarından birini seçməlidir, sonra isə bu vəziyyəti digərlərinə göstərmək üçün "dondurulmuş səhnə" yaratmalıdır. "Dondurulmuş səhnə" qrupun bütün üzvlərindən ibarət olmalıdır, səssiz və hərəkətsiz nümayiş etdirilməlidir. Onların duruşları və üz ifadələri səhnədəki rollarını əks etdirməlidir (məsələn, qurban, zorakılıq edən şəxs və ya şahid).
3. Hər qrupdan öz "dondurulmuş səhnə"sini təqdim etməyi xahiş edin. Digərləri səhnələrdə nəyin təsvir olunduğu haqqında öz fikirlərini söyləməlidir. Səhnəni təqdim edən qrup heç bir şeyi şərh etməli deyil.
4. Bütün qruplar səhnələrini təqdim edəndən sonra xahiş edin ki, şagirdlər nümayiş etdikləri zorakılıq situasiyasının və ya münaqişənin qeyri-zorakı həllini öz kiçik qruplarında müzakirə

etsinlər. Sonra qruplar situasiyanın necə həll olunmasını göstərmək üçün başqa bir "dondurulmuş səhnə"ni yaratmalıdır.

5. Xahiş edin ki, hər qrup "münaqişənin həlli səhnəsi"ni yaratsın və qrupun qalan hissəsinə təqdim etsin. Bu dəfə hər təqdimatdan sonra digərlərin gördükləri haqqında fikirlərini söyləmək üçün qısa bir müzakirə keçirdin. Bundan sonra səhnəni təqdim edən qrup situasiyanın mahiyyətini və onun həllini izah etməlidir. Digərləri mümkün həllər haqqında fikirlərini söyləyə bilərlər. Adətən zorakılıq probleminin bir neçə həlli yollarının olduğunu vurğulayaraq, uşaqlardan xahiş edin ki, bu həlləri öz həyat təcrübələri baxımından qiymətləndirsinlər.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualların köməyi ilə oyunu təhlil edin:
   a) Zorakılıq situasiyasını əks etdirən "dondurulmuş səhnə"də özünüzü tanıya bilərsiniz? Siz nə vaxtsa belə bir situasiyaya düşmüşünüz?
   b) Bu situasiyanın / münaqişənin qeyri-zorakı həllini tapmaq çətin idi? Niyə?
   c) Həllini necə tapdınız?
   d) Situasiyanın "dondurulmuş səhnə"sində iştirakçı olaraq özünüzü necə hiss edirdiniz?
   e) Bu situasiyanın həllini əks etdirən səhnədə özünüzü daha yaxşı hiss edirdinizmi? Niyə "hə" və ya niyə "yox"?
   f) İnsanların zorakılığa əl atmasının səbəbləri hansılardır?
   g) Çətin situasiyalarda hansı yollarla zorakılığı azalda və ya onların qarşısını ala bilərsiniz?
   h) Zorakı davranış əlamətləri hansılardır?
2. Aşağıdakı sualları verməklə oyunu insan hüquqları ilə əlaqələndirin:
   a) İnsanın zorakılıqdan müdafiə haqqı varmı? Hansı insan hüquqları qeyri-zorakılığa aiddir?
   b) Niyə qeyri-zorakılığa aid insan hüquqları bu qədər vacibdir?
   c) Bu hüquqları necə qorumaq olar?

**Davamı üçün təkliflər**

- Bu oyun qrup daxilində zorakılığı müzakirə etməyə imkan verir. "Bizim qrupun Konstitusiyası" oyunu  uşaqları qrup daxilində davranış standartlarının müəyyənləşdirməsi və onlara riayət olunmasına nəzarətə dəvət edir.
- Zorakılığın qarşısının alınmasının və ya anti-agressiyanın öyrədilməsi.
- Sizin rayonunuzda zorakılığa qarşı hər hansı kampaniya və ya tədbirlərin keçirilməsinin yoxlanıılması.

- Öz məktəblərinizdə yaşıdlarınız üçün zorakılıqdan imtina təlimlərinin təşkili.
- “Müşahidəçidən köməkçiyə doğru” oyunu da təhqiramiz davranışlı rollara müraciət edir. “Yaralayan sözlər” oyunu psixoloji zorakılıq haqqındadır.

**Fəaliyyət üçün ideyalar**

- Zorakılıq və zorakılıqdan imtinaya aid plakatlar hazırlayın və ictimai yerlərdə yerləşdirin. Burada zorakılığa məruz qalan insanların müraciət edə biləcək telefon nömrəsi və ya ünvanı göstərin.
- Zorakılıq olmadan münaqişələrin həll etmə yollarını nümayiş edən küçə tamaşaları təşkil edin.

**Aparıcılara məsləhətlər**

Zorakılığa məruz qalmış uşaqlara qarşı diqqətli olun.

- Uşaqlar “tipik” situasiyanı da seçə bilərlər; istəkləri olmasa, özləri haqqında danışmağa məcbur etməyin.
- Tapşırığın şərtlərinin izahı zamanı kiçik köməkçi qrupundan “dondurulmuş səhnə”ni nümayiş etmələrini xahiş edin.
- Uşaqlar zorakılıq situasiyalarının (xüsusən böyüklərin iştirakı ilə) real həllərinin axtarışında çətinlik çəkə biilərlər. Uşaqların müdafiəsi problemləri ilə məşğul olan yerli orqanların köməyini daxil etməklə dəstək və müdafiə ilə əlaqədar bir neçə məsləhət hazırlayın.

**Uyğunlaşdırma**

- Uşaqlar fotokameradan istifadə edib səhnələri çəkə bilərlər. Sonra zorakılığın qarşısını alan yolları əks etdirən şüarları və ya fikirləri şəkillərlə yanaşı otaqda asın.

# Dovşanın hüquqları

***Bizim xoşbəxt, təhlükəsiz və sağlam həyat hüququmuz var!***

| | |
|---|---|
| **Fəslin mövzusu** | Ümumi insan hüquqları |
| **Çətinlik dərəcəsi** | I dərəcə |
| **Yaş həddi** | 8 – 10 yaş |
| **Tələb olunan vaxt** | 30 dəqiqə |
| **İştitakçı sayı** | 5 – 20 uşaq |
| **Oyunun növü** | Təxəyyül, beyin həmləsi, müzakirə |
| **Xülasə** | Uşaqlar ev dovşanına zəruri olan qayğını təsəvvür edirlər və öz təsəvvürlərini uşaqların ehiyaclarına, onların yaşamaq və inkişaf etmək hüquqları sahəsinə köçürürlər |
| **Vəzifələr** | • Uşaq Hüquqları Konvensiyası ilə tanış etmək<br>• İnsan hüquqları ilə şüuraltı səviyyəsində tanış olduqlarını uşaqlara göstərmək<br>• İnsanın tələbatları ilə hüquqları arasında əlaqənin olduğunu izah etmək |
| **Hazırlıq** | • Uşaq Hüquqları Konvensiyasının surətini çıxarın və ya cədvəlini tərtib edin |
| **Materiallar** | • Flipçart vərəqləri və markerlər<br>• Uşaq Hüquqları Konvensiyasının surəti və ya cədvəli |

**Təlimat**

1. Uşaqlardan xahiş edin ki, evdə dovşan saxladıqlarını təsəvvür etsinlər və onu adlandırsınlar. Uşaqlar dovşanın xoşbəxt, sağlam və özünü təhlükəsiz hiss etməsi üçün ona lazım olan hər bir şey barədə düşünməlidir. Uşaqlardan soruşun: "Dovşana nə lazımdır?" Onlar qəfəs, saman, qida, su, qaçmaq, diqqət, sevgi, ola bilər ki, darıxmamaq

üçün başqa bir dovşanın lazım olduğunu söyləyə bilərlər. Aşağıda göstərilən qaydada cədvəlin sol sütununun birinci sətrində “Dovşan” (və ya ona qoyduğunuz adı) yazın və uşaqların cavablarını aşağı sətirlərdə qeyd edin.

2. Sual verin: “Dovşana lazım şeylərin hamısının olması üçün kim məsuliyyət daşıyır?” Uşaqların cavablarını qeyd edin (uşaqların cavablarında “özümüz” və ya “dovşanın sahibi” ifadələrinin səslənməsi ehtimalı var).
3. Dovşana yaşamaq və inkişaf etmək üçün qida, su və qəfəsin olmasının zəruriliyini təsdiqləyin. Sonra belə suallar verin:
   a) Əgər yaşamaq üçün bunlar dovşana lazımdırsa, dovşanın onlara sahib olmaq hüququ olmalıdırmı?
   b) Dovşanın bu məsələlərlə əlaqədar hüquqlarının qorunmasına kim məsuliyyət daşıyır?
4. Cədvəlin sağ sütununun yuxarı sətrində “Uşaqlar” yazaraq, beyin həmləsi keçirin. “Xoşbəxt, təhlükəsiz, sağlam həyat və inkişaf üçün uşaqlara nə lazımdır?” Uşaqların dediklərini cədvəlin sağ sütununun aşağı sətirlərinə qeyd edin. “ev”, “qida”, “su”, “ailə”, “dostlar”, “oyuncaqlar”, “təhsil”, “sevgi” və “diqqət” kimi cavabların səslənməsinə nail olmaq üçün uşaqların bütün fikirlərini qeyd edin.
5. Soruşun: “Uşaqların xoşbəxt, sağlam olması və özlərini təhlükəsiz hiss etmələri, onlara lazım olan bütün şeylərinin olması üçün məsuliyyəti kim daşıyır?” “Yaşlılar”, “valideynlər”, “ailə” və “himayə edən digərləri” kimi cavabların söylənməyini dəstəkləyin.
6. Uşaqların dünyagörüşünü artırmaq məqsədi ilə cədvələ digər tələbatları da əlavə edin. Bunun üçün növbəti sualları verin:
   a) Özlərini müdafiə olunmuş hiss etmələri, yaşamaları, fəaliyyət və inkişafı üçün uşaqlara nə lazımdır?
   b) Əgər yuxarıda sadalananlar uşaqlara lazımdırsa, onda uşaqların onlara hüquqları olmalıdırmı?
   c) Uşaqların bütün bu hüquqlarının olmasını təmin etmək üçün məsuliyyəti kim daşıyır?
7. Uşaqlardan nə vaxtsa Uşaq Hüquqları Konvensiyası haqqında eşidib-eşitmədiklərini soruşun. Onlara Konvensiyanın uşaqlar üçün tərtib olunmuş variantını paylayın və ya plakatda yazılmış mətndən istifadə edin. İzah edin ki, bu sənəddə dünyanın hər bir uşağına məxsus hüquqlar öz əksini tapıb.

**Təhlil və qiymətləndirmə**

1. Cədvəldə qeyd edilmiş hüquqların Konvensiyada verilmiş hüquqlarla müqayisə etməyi uşaqlara təklif edin. Cədvəldə yazdıqları siyahının uşaq hüquqlarına aid olduğunu uşaqların diqqətinə çatdırın. Belə suallar verin:

a) Sizin yazdığınız hansı tələbatlar eyni zamanda Uşaq Hüquqları Konvensiyasında da var? Onları cədvəldə ulduzla qeyd edin.
b) Necə düşünürsünüz, necə oldu ki, siz bu qədər hüquq yaza bildiniz?

2. Vurğulayın ki, müəllim kömək etməmişdən əvvəl inkişaf və fəaliyyət üçün uşaqlara lazım olanları qrup artıq bilirdi. Uşaqlar öz həyatını digərlərdən yaxşı bilirlər! İzah edin ki, Uşaq Hüquqları Konvensiyası uşaqların hüquqlarını dəstəkləmək, müdafiə və təmin etmək, eyni zamanda onların həyatda fəal iştirakını təmin etmək üçün yaradılmışdır.

**Davam üçün təkliflər**

- Bu oyun – uşaqların hüquqlarla tanışlığı üçün əla vasitədir. O, tələbatlar və hüquqlar arasında əlaqələr yaradır. Bu oyun hüquqları öyrənən digər oyunlar silsiləsinin (“Mənim kainatım”, “Mobil haqlıdır”) bir mərhələsidir.

**Aparıcıya tövsiyələr**

- Bu oyun oxu vərdişləri tələb etmədiyindən onu balaca uşaqlarla da keçirmək olar. Lakin “hüquqlar” anlayışı ilə ən sadə formada tanış etmək lazımdır. Uşaq Hüquqları Konvensiyasını bir müddətdən sonra da təqdim etmək olar.
- Dovşanı digər ev heyvanı ilə əvəz edə bilərsiniz.
- Variantlar: Sizin qrupunuzun səviyyəsinə uyğundursa, oyunu Konvensiyanın ucadan oxunması ilə bitirmək olar (hər uşaq bir maddəni oxuyur).
- Böyük uşaqlara uyğunlaşdırma: Uşaqlarla tərtib olunmuş siyahını Konvensiyada verilmiş hüquqlarla müqayisə etdikdən sonra cədvəldə qeyd oolumamış hüquqları müzakirə edin. Bunun üçün aşağıdakı sualları verin:
  a) Konvensiyada elə tələbat və hüquqlar varmı ki, sizin siyahıda qeyd olunmayıb?
  b) Necə fikirləşirsiniz, nə üçün onlar Konvensiyada var?
  c) Necə fikirləşirsiniz, siz nə üçün bu tələbatlar və hüquqlar haqqında düşünməli idiniz?

CƏDVƏL

| DOVŞAN | UŞAQLAR |
|---|---|
| | |
| | |

**Hər bir səs əhəmiyyət kəsb edir**

Amma hər şey eyni səviyyədədirmi?

| | |
|---|---|
| **Mövzu:** | Vətəndaşlıq, demokratiya |
| **Yaş səviyyəsi:** | 10-13 yaş |
| **Mürəkkəblik səviyyəsi:** | 3-ci səviyyə |
| **Dərsin müddəti:** | 2×60 dəqiqə |
| **İştirakçıların sayı**: | 10-30 |
| **Oyunun növü**: | müzakirə, planlaşdırma, imitasiya |
| **Xülasə:** | Uşaqlar qərar qəbul etməyin demokratik yollarını hazırlayır və plana uyğun səsvermə oyunu həyata keçirirlər. |
| **Tapşırıqlar:** | • Demokratik və ədalətli seçkilərin mənalarını dərk etmək.<br>• Ədalətli seçkilərin təşkilini təcrübədən keçirmək.<br>• Demokratik səsvermənin mexanizmini öyrənmək.<br>• Vətəndaşların iştirakının əhəmiyyətini başa düşmək. |
| **Hazırlıq**: | • Hər qrup üçün situasiya vərəqinin surətini çıxarmaq.<br>• Rolları əks etdirən kartlarn surətini kəsib hazırlamaq. |
| **Resurslar:** | • Hər qrup üçün situasiyanı əks etdirən iş vərəqi.<br>• Səsvermə üçün vərəq və qələm. |

**Təlimat**

**Məşğələ 1.**

1. Uşaqlara başa salın ki**,** Ümumdünya insan hüquqları Bəyannaməsi hər bir insana zəmanət verir ki, “o, öz ölkəsinin idarə olunmasında iştirak etmək üçün ya vəzifəyə seçilə bilər, ya da onun maraqlarını müdafiə edən nümayəndə seçə bilər” və “hökümət mütəmadi olaraq ədalətli və gizli səsvermə ilə seçilməlidir” (maddə 21. uyğunlaşdırılmış variant).

Bunların mənasını izah etməyi uşaqlardan xahiş edin:

a. “Ədalətli“ seçkilər nədir?

b. Niyə səsvermə gizli olmalıdır?

c. Kim səsvermə hüququna malikdir?

d. “Sizin səlahiyyətli nümayəndəniz” nə deməkdir?

e. Onun hansı vəzifələri vardır?

f. Milli səviyyədə sizin rayonun sakinlərini kim təmsil edir? Bəs yerli səviyyədə?

**2.** Baxmayarq ki uşaqlar 18 yaşına çatanadək səsvermə hüququna malik deyillər, onlar həyatlarında bəzi məsələləri həll etmək üçün müxtəlif formalarda seçkilərdə iştirak edə bilərlər. Uşaqlardan xahiş edin ki, onlar özlərinin seçki imkanlarını müzakirə etsinlər:

a. Siz özünüzün iştirak etdiyiniz hər hansı bir məsələnin müzakirəsi və ya səs vermə situasiyalarına dair misallar gətirə bilərsinizmi?

b. Bu, ədalətli qərar idimi? Yaxud ədalətli seçki idimi?

c. O, gizli keçirilmişdi?

d. Kim səs vermək, kim qərar qəbul etmək imkanı əldə etmişdi?

e. Hansı mövzu əsasında səsvermənin keçirilməsini kim müəyyənləşdirmişdi?

**3.** Uşaqlara başa salın ki, bu oyunda onlar qərar qəbul etmək üçün demokratik üsullar işləyib hazırlamalıdırlar. Bunun üçün uşaqları 5-6 nəfərdən ibarət cüt sayda qruplara ayırın. Hər qrupa situasiya vərəqi paylayın və ən azı iki qrupun eyni bir situasiya üzərində işləmələrini təmin edin. Siz “D” situasiyası üzərində işləmək üçün iki qrup ayırmalısınız, bu situasiya sonra təqdim ediləcəkdir. Səhifənin aşağısındakı sualları qeyd edin, oradakı tanış olmayan anlayışları izah edin.

**a.** Alternativ tapşırıq: 5-ci addımda baxılan danışıq prosesinin və eyni bir situasiyanın müxtəlif yollarla həllinin mümkünlüyünü vurğulamaq üçün bütün qruplara “E” situasiyasını paylaya bilərsiniz.

**4.** Kiçik qruplarda planlaşdırma aparmaq üçün uşaqlara 10-15 dəq. vaxt verin. Sonra hər qrupdan onların situasiyasını və problemin həlli üçün hazırladıqları üsulları izah etməyi xahiş edin. “D” situasiyasını sonda müzakirə edin. Hər bir təqdimatdan sonra konstruktiv təhlil aparmağı digər uşaqlardan xahiş edin:

a. Səsvermə demokratik şəraitdə həyata keçirilrdi?

b. Hər kəsin öz seçim etmək imkanı vardımı?

c. Bu, ədalətli idimi?

d. Səsvermə gizli keçirildi?

e. Kimə və nəyə səs verdiklərini bütün seçicilər bilirdi?

**5.** Bütün situasiyalar təqdim olunduqdan sonra uşaqlardan “D” situasiyasına diqqət yetirmələrini xahiş edin. Bu situasiyanı həll etmək üçün onların seçkilər oyununu keçirəcəklərini başa salın. Lakin bunun üçün müzakirə zamanı onlar vahid plana gəlməlidirlər. Onlardan xahiş edin ki, “E” situasiyası üçün hazırlanmış müxtəlif planları müqayisə etsinlər:

a. Planlar nə ilə oxşardır? Seçki oyunu zamanı bu vahid plandan istifadə edəcəyikmi?

b. Planlar nə ilə fərqlənir? Hansı ideya daha yaxşıdır? Hansı ideyanı biz tətbiq edəcəyik?

**6.** Uşaqlar vahid plan haqqında razılığa gəldikdən sonra onların qərarlarını iri plakatlarda yazın və aşağıdakı sualları verməklə müzakirə edin:

a. “D” situasiyası üçün sizin yeni planınızda hansı çatışmamazlıqlar var?

b. Siz necə düşünürsünüz, bu, demokratik olacaqmı?

**Məşğələ 2.**

**1.** Uşaqlara 1-ci məşğələ və ”D” situasiyasındakı faktları xatırladın. Birinci məşğələ zamanı işlənmiş planı yenidən nəzərdən keçirin və “D” situasiyası üçün seçkilər oyununda bunu necə tətbiq edəcəyinizi izah edin.

**2.** Üşaqlara rollar əks olunmuş kartoçkaları paylayın və oyunun qaydalarını izah edin:

a. Seçkilər üçün məsul şəxs 3 nəfər nümayəndədən öz fikirlərini təqdim etməyi xahiş edir.

b. Seçkilər üçün məsul şəxs dinləyicilərdən suallar verməyi, öz fikirlərini bildirməyi xahiş edir.

c. Seçkilər üçün məsul şəxs bundan sonra hamının səsverməyə hazır olub-olmadığını soruşur, plana əsasən qrupun qalib gəlməsi üçün nə etmək lazım gəldiyini izah edir (məsələn, sadə səs çoxluğu, proporsional səs çoxluğu).

d. Səsvermə üzrə rəsmi şəxs qrupun planına əsasən hamının səs verməsini xahiş edir. Səsvermə və seçkilər üzrə məsul olan şəxslər birgə səsləri toplayıb sayacaqlar.

e. Səsvermə üzrə rəsmi şəxs səsvermənin nəticələrini elan edir. Seçkilər baş tutduğu halda, seşkilər üzrə məsul şəxs qrupun qərarını elan edir. Seçkilər baş tutmadığı halda məsul şəxs seçkilərin təkrar keçirilməsini elan edir.

f. Seçkilərin təkrar mərhələsində səsvermə üzrə rəsmi şəxs yeni seçki bülletenlərini hazırlayır və “e” addımından davam edir.

**Təhlil və qiymətləndirmə**

**1.** Aşağıdakı sualları verməklə oyunu təhlil edin:

a. Sizin fikrinizcə, oyunda ədalətli və demokratik səsvermə oldumu?

b. Real həyatda baş verən hadisələri bu oyunda görə bildinizmi?

c. Adətən bu cür qərarlar necə qəbul olunur? Uşaqlarda öz fikirlərini söyləmək və seçimlərini etmək imkanı varmı?

d. Elə qərarlar varmı ki, onları yalnız böyüklər qəbul edə bilərlər?

e. Sizin qrupda verdiyiniz qərarlar demokratik yolla qəbul olunur? Niyə “yox” və niyə “hə”?

f. Siz qrupda qərarların demokratik yolla qəbul olunması üçün nə edə bilərsiniz?

**2.** Bu sualları verməklə oyunu insan hüquqları ilə əlaqələndirin.

a. “İdarəetmə” dedikdə biz nəyi nəzərdə tuturuq?

b. Sizin yaşadığınız rayonda hansı vəzifələrə səsvermə yolu ilə seçilirlər? Bəs ölkədə necə?

c. Seçkili vəzifələrdən başqa insanlar daha hansı yollarla idarəçilikdə iştirak edə bilərlər?

d. Siz öz ölkənizdə hansı yaşdan səsvermədə iştirak edə bilərsiniz?

e. Səsvermə hüququ əldə edənə qədər siz idarəetmədə necə iştirak edə bilərsiniz?

f. Niyə idarəetmədə iştirak bu qədər vacibdir ki, o, insanın əsas hüquqlarından sayılır?

g. Sizin seçkilər oyununun gedişində bəzi uşaqlar səsvermədə iştirak etməsələr nə baş verər? İnsanlar idarəetmədə iştirak hüquqlarından istifdə etməsələr, nə baş verər?

h. İnsan hüquqlarından istifadə etmək nə üçün vacibdir?

**Davamı üçün təkliflər**

“Bizim qrupun konstitutsiyası” oyunu qrupların işi barədə demokratik debatlar keçirməyə və səsvermədə təcrübə toplamağa imkan verir.

**Fəaliyyət üçün ideyalar**

Qərarların demokratik qəbul edilməsini modelləşdirmək məqsədi ilə bütün imkanlardan istifadə edin: həm əhəmiyyətsiz (məs., hansı qəlyanaltını yemək, otaqda və ya həyətdə oynamaq və s.), həm də əhəmiyyətli məsələlərdə. Uşaqlar demokratik qaydaları təcrübədə daha yaxşı öyrənirlər. Uşaqlardan hər dəfə soruşmaq faydalı olar ki, onların hər birində öz fikirlərini söyləmək imkanı olub ya yox.

**Aparıcılara məsləhətlər**

- Bu mürəkkəb oyunu həyata keçirmək üçün ən sadə üsul uşaqların birgə plan əsasında "C" situasiyasını işləməsidir. Hamı situasiyanı başa düşəcək, eləcə də plan yaratmaqla kompromis qərarlar qəbul edəcəklər ki, bu da demokratik prosesin əsasını təşkil edir.
- Əgər siz bir neçə müxtəlif situasiyalardan istifadə etmək istəyirsinizsə, onda insan seçimi ilə bağlı bir situasiya (A və C situasiyaları) və strateji qərarlar qəbul etmək haqqında digər situasiyanı (D və E situasiyalarını) seçə bilərsiniz. Strateji qərarlar qəbul etməklə bağlı situasiyalar seçkilər oyununu daha da maraqlı edir, çünki burada namizədlər özlərini yox, seçicilərin nöqteyi-nəzərlərini təqdim edirlər.
- Bu oyunda uşaqların bilmədikləri bəzi anlayışlar ola bilər (məsələn, namizədliyin irəli sürülməsi, namizədlər, kampaniya zamanı çıxışlar, debatlar, təkrar seçkilər, səs nisbətləri, seçki bülletenləri). Uşaqlar qruplarda işləyərkən növbə ilə onlara yaxınlaşın, əmin olun ki, onlara hər şey aydındır. Kiçik yaşlı uşaqlara proporsional bölgünü sadəcə "yarıdan çoxu" və ya "böyük əksəriyyəti" deməklə aydınlaşdırmaq olar.
- Təlimatda verilir ki, oyunda yalnız "D" situasiyasından istifadə etmək məsləhət görülür, amma siz istənilən situasiyaya rolları uyğunlaşdıra bilərsiniz.
- Sizin qrupun uşaqlarının qəbul etdiyi qərarlara əsasən digər situasiyalar hazırlayın.
- Böyük qruplar üçün: Debatda iştirak etmək üçün fərqli fikirləri olan nümayəndələr əlavə edin.

**Adaptasiya**

Kimin səs vermə imkanının olmasını müəyyən etmək üçün siz əlavə rollar hazırlayıb (məsələn, aşağıdakı siyahıdakılar kimi), iştirakçılar arasında bölüşdürə bilərsiniz. Oyunun əvvəlində bunları ucadan oxuyun və uşaqlardan xahiş edin ki, bu uşaqların səsvermə hüququ olub-olmadığını müzakirə etsinlər. Bu qərarın özü də səsvermə yolu ilə həll edilə bilər.

**Əlavə rollar**

1. Sizin 6 yaşınız var. Siz 1-ci sinifdə oxuyursunuz. Siz hələ oxumağı bacarmırsınız və qrupu yaxşı tanımırsınız. Sizin səsvermə hüququnuz ola bilərmi?
2. Sizin 13 yaşınız var, amma siz yaxşı oxumadığınıza görə 5-ci sinifdə oxuyursunuz. Sizin səsvermə hüququnuz ola bilərmi?

3. Siz bu rayona təzə köçmüsünüz və heç kimi tanımırsınız. Sizin səsvermə hüququnuz ola bilərmi?

4. Siz çox yaramaz uşaqsınız, siz küçədə kiçik yaşlı uşaqlara əmrlər verirsiniz, incidirsiniz və dostlarınızı da məcbur edirsiniz ki, sizinlə birlikdə onları təhqir etsinlər. Bu halda siz səsvermə hüququna malik ola bilərsinizmi?

## Paylama materialı: I məşğələ üçün situasiya vərəqi

**A situasiyası**

Ümumdünya uşaq gününə həsr olunmuş şəhər tədbirində sizin məktəbinizi təmsil etmək üçün məktəbinizə dəvətnamə göndərilmişdir. Kimi göndərməyi uşaqlar seçməlidir. Seçicilər 500 nəfərdir. Siz nümayəndəni demokratik yolla necə seçərsiniz?

**B situasiyası**

Sizin idman klubuna prezident seçmək lazımdır. Klubun 60 üzvü vardır. Siz kluba prezidenti demokratik üsulla necə seçərsiniz?

**C situasiyası**

Sizin məktəbin uşaqları rəsm müsabiqəsində I, II və III yerlərin qaliblərini müəyyən etməlidir. Müsabiqəyə 50 rəsm əsəri təqdim olunmuşdur. Məktəbdə 300 şagird oxuyur. Qalibləri müəyyən etməyin demokratik imkanlarını təyin edin.

**D situasiyası**

Sizin məktəbinizdə şagirdlər mobil telefonların məktəbə gətirilməsinə icazə verilməsi barədə mübahisə edirlər. Bəziləri bunun lehinə səs verirlər. Digərləri belə hesab edirlər ki, bu onları dərsdən yayındırır və bundan əlavə bu, telefonu olmayan uşaqlara münasibətdə düzgün deyildir, haqsızlıqdır**.**

Məktəb direktoru deyir ki, uşaqlara bu məsələdə müstəqil qərar qəbul etmək üçün imkan yaratmaq lazımdır. Məktəbdə 350 şagird vardır. Siz bunu demokratikcəsinə necə həll edə biləcəksiniz?

**E situasiyası**

Sizin qrupa 500 avro məbləğində hədiyyə verilmişdir. Qrupun rəhbəri deyir ki, qrup özü bu pulu necə xərcləmək barədə qərar qəbul etməlidir. Uşaqların bəziləri yaxşı qonaqlıq keçirmək istəyirlər. Bəziləri gəzintiyə getmək istəyirlər. Digərləri yeni oyunlar və bədii mallar əldə etmək istəyirlər. Biri bu pulları dar günə saxlamaq istəyir. O biri sintezator almaq istəyir. Sizin qrupda 30 uşaq var. Siz bu pulları xərcləməyin demokratik yollarını necə görürsünüz?

**Nəyi nəzərə almaq lazımdır?**

- Nə haqda səs verməyi necə müəyyən edəcəksiniz? Siz namizədlər (nominasiya) verəcəksinizmi? Əgər verəcəksinizsə, niyə?
- Neçə namizədiniz olacaq? Say məhdud olmalıdırmı?
- Kimə və ya nəyə səs verdiklərini insanlar necə biləcəklər? Namizədlərdən seçkiqabağı nitq söyləməyi və ya debat keçirməyi xahiş edəcəksinizmi?
- İnsanlar necə səs verəcəklər? Səsvermə gizli olacaq?
- Kimin qalib gəldiyini siz necə təyin edəcəksiniz?
- İki namizəd arasında cüzi səs fərqi olarsa, nə edəcəksiniz? Təkrar səsvermə olacaqmı? Namizəd müəyyən səs çoxluğu (məsələn 50%-dən çox) yığmalıdırmı?

**E situasiyasında seçkilər oyununun rolları**

- Siz seçkilərə cavabdeh şəxssiniz. Siz debatlar təşkil edirsiniz, qalib gəlmək üçün nə etmək lazım olduğunu başa salırsınız, səslərin hesablanmasında kömək edirsiniz.
- Siz səsvermədə rəsmi şəxssiniz. Siz seçki bülletenlərini hazırlayırsınız, səsverməni təşkil edirsiniz, nəticələri hesablayırsınız, nəticələri elan edirsiniz. Əgər təkrar səsvermənin keçirilməsi lazım olarsa, yenə də seçki bülletenlərini hazırlayırsınız, səsverməni təşkil edirsiniz.
- Siz bir nöqteyi-nəzərin nümayəndəsisiniz. Siz hesab edirsiniz ki, pulları qonaqlığa sərf etməlisiniz. Bir neçə səbəb göstərin.
- Siz bir nöqteyi-nəzərin nümayəndəsisiniz. Siz hesab edirsiniz ki, pulları yeni oyun və təhcizata sərf etməlisiniz. Bir neçə səbəb göstərin.
- Siz bir nöqteyi-nəzərin nümayəndəsisiniz. Siz hesab edirsiniz ki, pulları bütün uşaqların iştirak edəcəyi gözəl gəzintiyə sərf etməlisiniz. Bir neçə səbəb göstərin.

**Qəsri fəth et**

***Fikirləşməsəniz, uduzacaqsınız!***

| | |
|---|---|
| **Fəslin mövzusu** | Dünya və insan təhlükəsizliyi |
| **Çətinlik dərəcəsi** | II səviyyə |
| **Yaş həddi** | 8-13 yaş |
| **Tələb olunan vaxt** | 120 dəqiqə |
| **İştirakçı sayı** | 16-30 uşaq, bunlardan 2-3 aparıcı |
| **Fəaliyyətin növü** | Fəal macəralı oyun, təcrübə əsasında öyrənmə |
| **Xülasə** | Uşaqlar müxtəlif qrupları təmsil edirlər: bu oyunda qalib gəlmək üçün onlar işlərini təşkil etməlidirlər. Bununla yanaşı onlar həm də oyunda yaranan münaqişənin müxtəlif aspektləri haqqında fikirləşir, münaqişənin arxasında duran səbəb və mexanizmləri müzakirə edirlər. |
| **Vəzifələr** | • Münaqişənin müxtəlif tərəflərinə biganə qalmamaq hissinin inkişaf etdirilməsi<br>• Bir-biri ilə əməkdaşlıq etmək<br>• Münaqişənin emosional tərəfini dərk etmək<br>• Strateji düşünmə və planlaşdırma qabiliyyətini inkişaf etdirmək |
| **Hazırlıq** | • Oyun açıq havada keçirilirsə, ərazi ilə ətraflı tanış olun və oyun keçiriləcək sahəni təyin edin. Təhlükə yarada bilən sahələri müəyyənləşdirin və bu haqda qrup liderlərinə və uşaqlara məlumat verin.<br>• Düşündüyünüz fəaliyyət planını hazırlayın və hər birini müxtəlif rəngdə olan kağızlarda qeyd edin. Hər bir rəngli |

| | |
|---|---|
| | kağızı 10 hissəyə bölün və hər planı ayrıca zərflərə yerləşdirin. |
| **Materiallar** | • Uşaqların oynaması və gizlənməsi üçün böyük sahə.<br>• Müxtəlif rəngli kağızlarda yazılan və hər biri 10 hissəyə bölünən altı düşünülmüş "fəaliyyət planı".<br>• 3 müxtəlif qrup üçün üç fərqləndirici işarə (məsələn rəng, üzdə boya və ya əlvan lentlər).<br>• Oyundan sonra içmək üçün müxtəlif meyvə şirələri |

**Təlimat**

1. Mərkəzində qəsr yerləşən və Al qırmızı partiya tərəfindən idarə olunan gözəl bir şəhərin olduğunu izah edin. Lakin bununla yanaşı bir-biri ilə mübarizə aparan və qəsrə hücum edib, hakimiyyəti ələ almaq istəyən 2 partiya da var - cənubda yerləşən Göy və şimalda yerləşən Narıncı partiyalar.
2. Uşaqları 3 qrupa bölün: 50% - Al qırmızı partiya, 25% - Göy partiya və 25%- Narıncı partiya. Oyun meydançasının sərhədləri haqqında uşaqlara məlumat verin. Göy və Narıncı partiyaların hərəsinə üç "fəaliyyət planı" təqdim edin.
3. Oyunun gedişatını və mahiyyətini dəqiqliyi ilə uşaqlara başa salın ki, onlar anlasınlar:
   a. Heç kəs oyun meydançasından kənara çıxmamalıdır;
   b. Hər bir qrup oyun meydançası daxilində bir düşərgə yaratmalıdır; qrup üzvlərinə öz düşərgəsindən digər düşərgəyə keçməyə qadağa qoyulur. Al qırmızı partiya tərəfindən müdafiə edilən şəhər ərazinin mərkəzində yerləşdirilməlidir. Göy partiyanın düşərgəsi mərkəzdən bir tərəfdə, Narıncı partiyanın düşərgəsi digər tərəfdə yerləşdirilir.
   c. Sarayı qarət etmək üçün hərəkətə keçən iki partiya çalışıb öz "fəaliyyət planları"nı bir-biri ilə dəyişməlidirlər. Hər bir partiyanın müxtəlif rəngli kağızlarda yazılmış və 10 hissəyə bölünmüş üç "fəaliyyət planı" vardır. Planı dəyişərkən, nəzərə almaq lazımdır ki, eyni vaxtda bir qrup üzvü ancaq bir rəngli kağız kəsiyini digər düşərgəyə keçirə bilər. Göy rəngli partiya üzvlərinə Narıncı partiya üvlərinin kağızlarını aparmaq qadağan edilir və əksinə. Kağız

kəsiklərini dəyişməyə yalnız Göy və ya Narıncı partiya əlaqələndiriciləri digər düşərgəyə çatdıqdan sonra icazə verilir.

d. Qəsri müdafiə etmək üçün Al qırmızı partiya üzvləri Göy və Narıncı partiyaların "fəaliyyət planları"nın dəyişməsi məqsədi ilə düşərgələrə çatdırılan kağız kəsiklərinin ötürülməsinə mane olmalıdırlar. Bu əməliyyat "düşməni" tutub, planın hissəsinin, yəni kağız kəsiklərinin ondan alınması ilə həyata keçir. "Tutmaq" çiyin və ya ələ toxunmaq prosesi ilə baş verir.

e. Göy və ya Narıncı partiyanın oyunçusunun tutulan zaman iki çıxış yolu olur: 1) plan hissəsini Al qırmızı partiya üzvlərinə verərək azad olmaq və yenə oyuna qoşulmaq; 2) plan hissəsini verməkdən imtina edərək, Al qırmızıların yerləşdiyi şəhərdə oyunun axırınadək "əsir" olmaq. "Əsir" ona düşən plan hissəsini Al qırmızılara verdikdə, azad oluna bilər. Göy və Narıncı partiyalar bir-birinə köməklik edə bilər.

f. Plan hissələri elə keçirilməlidir ki, hamı bunu görə bilsin.

g. İki və ya üç aparıcı oyunda iştirak etməyərək, ancaq oyunda qaydalara riayət edilməsinə nəzarət edəcəklər.

h. Göy və ya Narıncı partiya planın 10 hissəsini tam topladıqdan sonra, Al qırmızılardan kağız kəsiklərini alır və qalib hesab olunur. Əgər Al qırmızılar Göy və ya Narıncı qruplardan birinin planının 10 hissəsini ala bilsə, o qrup uduzaraq oyundan çıxacaq. Oyunda qalan partiya, planın tam 10 həssəsini oyundan çıxmış partiyanın qərargahına çatdıra bilsə, bu zaman oyundan çıxan partiya ilə birlikdə qalib ola bilər.

i. Bir partiya qalib gəldikdə oyun bitir. Aparıcılar tərəfindən oyuna ayrılan vaxt bitdikdə də oyun bitmiş sayılır.

**Təhlil və qiymətləndirmə**

**1.** Aşağıdakı sualları verərək oyunu təhlil edin:

a. Özünüzü necə hiss edirsiniz?

b. Sizin "fəaliyyət planı" qonşu düşərgəyə çatdımı?

c. Siz planı tam toplaya bildinizmi? Sizin hansı strategiyanız var idi? Siz qərarları necə qəbul edirdiniz?

d. Oyunda hamı iştirak edirdimi? Sizin tapşırıqlarınız müxtəlif idimi?

e. Digər iki partiya haqqında nə düşünürsünüz?

f. Göy və Narıncı partiyalar birləşdilər ya bir-biri ilə mübarizə apardılar? Onların münasibəti oyunun nəticəsinə nə kimi təsir etdi?

g. Göy və ya Narıncı partiyalar Al qırmızı partiyaya qarşı mübarizə aparırdılar ya əksinə? Nəyə görə? Münaqişənin səbəbi nə idi?
h. Yaranan situasiya real idimi?
i. Real həyatda belə situasiya ilə rastlaşmısınızmı? Real həyatda belə münaqişələrin yaranmasına səbəb nə olur?
j. Siz necə düşünürsünüz, yaranmış situasiyanı dəyişdirmək olardımı? Belə münaqişələrin qarşısını necə almaq olar?
k. Siz öz həyatınızda hər hansı bir münaqişə ilə rastlaşmısınızmı? Münaqişəni həll etmək üçün siz nə edirsiniz? Belə situasiyaları dəyişmək üçün nə etmək olardı?
l. Münaqişələr necə yaranır? Münaqişələrdən qaçmaq, onları həll etmək, idarə etmək və ya sülhü qorumaq üçün biz nə edə bilərik (müzakirə olunan problemlərlə bağlı) ?

**2.** Oyunu insan hüquqları ilə əlaqələndirərək aşağıdakı sualları verin:

a. İnsanlar arasında baş verən münaqişə nəticəsində insanın hansı hüquqları pozula bilər? Silahlı münaqişə zamanı insanların hansı hüquqları pozula bilər?
b. Münaqişədə müxtəlif tərəflərin hüquqlarının pozulması onlara necə təsir edə bilər? Bu onların gələcəyində necə əks oluna bilər?
c. Münaqişə uşaqlara necə təsir göstərir? Onların gələcəyinə bu nə kimi təsir göstərə bilər?
d. Belə münaqişələrin və insan hüquqlarının pozulmasının qarşısını almaq üçün nə etmək olar?
e. Necə düşünürsünüz: bütün münaqişələri həll etmək mümkündürmü? "Xeyr" cavabı olduqda, onda münaqişələri necə idarə etmək olardı?

**Davam etmək üçün təkliflər**

- Müasir zamanda dünyada və ya regionda, cəmiyyət və ya qrupunuzda baş verən bəzi münaqişələrə daha dərindən diqqət yetirin. Münaqişənin əsasını anlamağa çalışın və situasiyanı təhlil edin.

**Fəaliyyət üçün təkliflər**

- Əgər siz dünyada baş verən silahlı münaqişə haqqında müzakirə aparmısınızsa, sülh tərəfdarı kimi bir toplantı keçirin və belə bir toplantıya qoşulun və ya sülh tərəfdarı olan təşkilatlara baş çəkin.

- Uşaqlarla müzakirə edin: onlar öz aralarındakı münaqişəni necə həll edirlər? Onlara kömək edin ki, münaqişəni həll etmək üçün əsas qaydalar məcmusu hazırlasınlar. Bu qaydalar insan hüquqları standartlarını (fiziki zorakılıqsız, təhqirsiz, hər kəsin şəxsi rəy və özünüifadə hüququ, iştirak hüququ və s.) əks etdirməlidir.

**Aparıcılara məsləhətlər**

- Aparılan oyunda heç kim dava-dalaş salmamalıdır. Nisbətən zəif fiziki inkişafı olan uşaqlar öz düzgün strategiyası, qərar qəbul etmə sürəti və əməkdaşlığı nəticəsində gücünə və aqressiyasına arxalanan uşaqlardan daha çox uğur qazana bilər.
- Yaşlı aparıcı və ya köməkçiləri hazırlaşdırın. Onlar oyun qaydalarını, oyun meydançasının sərhədlərini və təhlükəli yerlərini bilməlidirlər.
- Fəaliyyət planının hissələrinin itməməsi üçün strategiyanın əhəmiyyətini Göy və Narıncı partiyalara izah edin, əks halda planı tam yığmaq mümkün olmadığını nəzərlərinə çatdırın.
- Oyun zamanı "qonşu" partiyanın nümayəndəsini tutmaq üçün sadəcə ona toxunmaq lazım olduğunu izah edin. Müxtəlif əqli və fiziki imkanları olan uşaqların adaptasiyası üçün aşağıdakı məsləhətlərə diqqət yetirin.
- Oyunun davamı qrupdan asılıdır. Oyunun nəzərdə tutulan vaxtdan az və ya daha çox vaxt aparacağına hazır olun.
- Növbəti müzakirədə uşaqların gündəlik həyatında rastlaşdığı münaqişə ilə silahlı münaqişə arasındakı fərqə diqqət yetirin. Mövzuların ikisi də çox vacibdir, lakin müxtəlif yanaşmalar tələb edir.

**Adaptasiyalar**

- Əgər bir qrup və ya bir uşaq digərlərindən daha zəifdirsə, strategiyanın müxtəlif variantlarının olduğunu onlara xatırladın (məsələn, planın neçə hissəsinin digər düşərgəyə çatdığını təsdiqləyin, sizin partiya üzvlərinizin xilası üçün bir neçə plan hissəsinin itirilməsi ilə risk edin, bütün plan hissələrini oyunun əvvəlində göndərməyin, bəzi hissələri oyunun ritmini tutandan sonra ötürün).
- Digər partiyanın nümayəndəsini sadəcə "tutmaq" yerinə, Al qırmızı partiya üzvü Göy və ya Narıncı partiya nümayəndəsinə "toxunduqdan" sonra ona bir sınaq təklif edin (məsələn, onlar görüşdüyü zaman onlara "daş, qayçı və kağız" oyununu oynamağı təklif edin; əgər Al

qırmızı partiya nümayəndəsi udsa, Göy və ya Narıncı partiya nümayəndəsi ona plan kəsiyi olan kağız hissəsini verir; əgər Göy və ya Narıncı partiya qalib gəlsə, onda onlar azad qalırlar). Bu variasiya oyunda müxtəlif yaşda və ya fiziki halda olan uşaqların iştirak etdiyi zaman məqsədəuyğundur. Bu zaman oyunda iştirak edən bütün uşaqlar bərabər şansa malik olur.

# Xəritədə hüquqlar

***İnsan hüquqları haradan başlayır? - Evimizin yaxınlığından!***

| | |
|---|---|
| **Mövzu** | İnsan hüquqları |
| **Çətinlik dərəcəsi** | II – III dərəcə |
| **Yaş həddi** | 8 – 13 yaş |
| **Tələb olunan vaxt** | 60 dəqiqə - bir neçə gün |
| **İştirakçı sayı** | 2– 20 uşaq |
| **Oyunun növü** | Rəsm, təhlil, müzakirə |
| **Xülasə** | Uşaqlar birlikdə yaşadıqları rayonun xəritəsini çəkir və müxtəlif müəssisələrlə əlaqəli olan hüquqları müəyyənləşdirirlər |
| **Vəzifələr** | • İnsan hüquqları ilə bağlı bilikləri dərinləşdirmək<br>• İnsan hüquqlarını uşaqların yaşayış yeri ilə əlaqələndirmək<br>• Rayon ərazisində insan hüquqlarının nə dərəcədə qorunduğunu qiymətləndirmək |
| **Hazırlıq** | Kiçik yaşlı uşaqlar üçün: xəritə və sxemlər hazırlayın |
| **Materiallar** | • Rəsm ləvazimatı, böyük kağızlar<br>• Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin uşaqlar üçün variantının sürəti |

**Təlimat**

1. Uşaqları kiçik qruplara bölün, onlara böyük vərəqlər və rəsm ləvazimatları verin. Şagirdlərdən yaşadıqları rayonun (şəhərin) xəritəsini çəkməyi xahiş edin. Onlar evlərini, əsas ictimai binaları (məsələn, parklar, poçtlar, məktəblər, dini ibadət yerləri və s.), ictimai xidmət göstərən yerləri (məsələn, xəstəxanalar, yanğınsöndürmə stansiyaları, polis məntəqələri) və digər mühüm yerləri (məsələn, marketlər, qəbiristanlıqlar, kinoteatrlar və s.) təsvir etməlidirlər.
2. Xəritələr hazır olduqda şagirdlərdən xahiş edin ki, insan hüquqları nöqteyi-nəzərindən onları təhlil etsinlər. Xəritədəki müxtəlif yerlər insan hüquqları ilə necə əlaqəlidir? Məsələn, ibadət yerləri - fikir, vicdan və din azadlığı ilə; məktəb - təhsil hüququ ilə; poçtlar – şəxsi həyat və özünü ifadə etmək hüququ ilə; kitabxana və ya İnternet kafe - informasiya hüququ ilə. Bu hüquqları müəyyən etdikdən sonra Ümumdünya İnsan Hüquqlarının Bəyannaməsinin müvafiq maddələrinə baxmalı və xəritədə yerin yanında maddənin nömrəsini yazmalıdırlar.

3. Xəritələri siniflə paylaşıb, yaşadıqları rayonda istifadə edə biləcəkləri hüquqları sadalamağı şagirdlərdən xahiş edin.

**Təhlil və qiymətləndirmə**

1. Aşağıdakı sualları verməklə oyunu təhlil edin:

   a) Rayonunuzun xəritəsini çəkmək çətin oldumu?
   b) Rayon haqda yeni bir şey öyrəndinizmi?
   c) Rayonunuzda insan hüquqlarının dəstəkləndiyini aşkarladıqda təəccübləndinizmi?
   d) Sizin xəritəniz digər uşaqların xəritəsindən nə ilə fərqlənir?

2. Aşağıdakı sualları verməklə oyunu insan hüquqları ilə əlaqələndirin:

   a) Xəritənin hər hansı bir hissəsində insan hüquqları daha sıx nəzərə çarpırmı? Bunu necə izah edərsiniz?
   b) Xəritənin elə bir hissəsi var ki, orada insan hüquqları olmasın? Bunu necə izah edərsiniz?
   c) Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin xəritələrdə öz əksini tapmayan maddəsi varmi?
   d) Bu rayonlarda insan hüquqlarının pozulduğu yerlər varmı?
   e) İnsan hüquqları pozulduqda rayonda nə baş verir?
   f) Rayon ərazisində insan hüquqlarını qorumaq və ya hüquq pozuntusunun qarşısını almaq üçün insanların fəaliyyət göstərdiyi yerlər varmı?

**Davamı üçün təkliflər**

- Hüquqların həqiqətən qorunduğunu müşahidə etmək üçün xəritələrinizi götürüb rayonunuzu gəzin.
- “Kompasito müxbiri” adlı oyunda da uşaqlar öz xəritələrinə insan hüquqları prizmasından nəzər salmalıdırlar.

**Fəaliyyət üçün ideyalar**

Rayonun sosial işçisini, köhnə sakini və ya yerli fəallardan birini siniflə söhbətə dəvət edin. “Rayonu necə görürsünüz? Rayon necə dəyişir? Rayonun daha yaxşı olması üçün

nə etmək olar?” sualları ətrafında müzakirələr aparın. Şagirdlərə nə edə biləcəkləri barədə düşünməyi təklif edin.

**Aparıcılara məsləhətlər**

- Uşaqların insan hüquqları ilə artıq tanış olduqları ehtimal edilir, nəzəri konsepsiyaları yaxşı anladıqları kontekstlə əlaqələndirə biləcəklər. Lakin uşaqların tanıdıqları yerləri hüquqlarla əlaqələndirmək üçün bəzi köməyə ehtiyacları ola bilər: məsələn, sağlamlıq hüququ qorunan mağaza.
- Bu oyun pozitiv ismarıc göndərir: biz hər gün öz rayonumuzda hüquqlarımızdan istifadə edirik. Pozitiv təsir üçün pozuntuları başqa bir gündə müzakirə etməyiniz məsləhət görülür.
- Kiçik yaşlı uşaqlar xəritələri oxumaqda çətinlik çəkə bilər, bunu nəzərə alıb onlarla əlavə məşğul olmaq lazımdır. İşə görüş otağının, oyun meydançasının və ya binanın xəritəsindən başlaya bilərsiniz.

**Variantlar**

- Şagirdlərə xəritə oxumaq və rayonun planı ilə tanış olmaq çətinlik yaratmasın deyə oyunu hissələrə bölün və müxtəlif günlərdə keçirin.
- Hər qrupa rayonun xəritəsini çəkərkən nəzərə alınması vacib olan İnsan Hüquqları Bəyannaməsindən müxtəlif mövzular verin.
- Uşaq Hüquqları Bəyannaməsindən istifadə edin.
- Zorakılıqdan azad olmaq və ya adekvat həyat tərzi kimi konkret bir mövzunun üzərində diqqətinizi cəmləyin və onun sizin rayonda necə əks olunduğuna nəzər salın.

**Kiçik yaşlı şagirdlərə adaptasiya**

- Şagirdlərə yaxşı tanış olan yerlərlə işləyin; məsələn, məktəbə və ya evə yaxın ərazi. Uşaqların yaşı nə qədər az olsa, rayon da o qədər kiçik olmalıdır.
- Karton, qutular və rəsm ləvazimatlarından istifadə edib üçölçülü xəritə yaradın.
- Vaxta qənaət etmək və xəritə nişanına xüsusi əhəmiyyət vermək məqsədilə şagirdlərə hazır xəritə və ya rayonun havadan çəkilmiş fotoşəklini paylayın.
- Oyunda Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müvafiq maddələri istifadə olunan II addımı keçirməyin.

**Yuxarı sinif şagirdlərinə adaptasiya**

- Miqyaslı xəritələr çəkin.
- Şagirdləri qruplara bölün və onlara xəritənin ümumi təhlili üçün bir rayonun müxtəlif hissələrinin xəritələrini paylayın.
- Təhlil prosesində qeyd olunan hüquqların vətəndaş, siyasi, iqtisadi, sosial və ya mədəni hüquqlardan hansına aid olduğunu soruşun. Hər hansı bir hüquq üstünlük təşkil edirmi? Rayonun müəyyən hissəsində üstünlük təşkil edən hüquq varmı (məs., vətəndaş hüququ və siyasi hüquqla əlaqəli məhkəmə, polis, icra hakimiyyəti binaları)?

# Yaralayan sözlər

***Ağacla, daşla sümükləri sındırırlar, lakin sözlə də yaralamaq olur!***

| | |
|---|---|
| **Mövzu** | Ayrı-seçkilik, gender bərabərliyi, zorakılıq |
| **Çətinlik dərəcəsi** | 2-ci dərəcə |
| **Yaş həddi** | 10-13 yaş |
| **Tələb olunan vaxt** | 60 dəqiqəlik məşğələ |
| **İştirakçı sayı** | 5 – 20 uşaq |
| **Oyunun növü** | Siyahıların hazırlanması, prioritetləri müəyyənləşdirmək, müzakirə etmək |
| **Xülasə** | Uşaqlar təhqiramiz ifadələrə nümunələr gətirirlər, onların motivini və təsirini təhlil edirlər |
| **Vəzifələr** | - Təhqiramiz ifadələrin səbəbləri və təsirləri barədə düşünmək;<br>- İnsanların sözlərə fərqli reaksiya verə biləcəyini anlamaq;<br>- İfadə azadlığının sərhədlərini anlamaq;<br>- Təhqiramiz ifadələrə qarşı mübarizə aparmaq. |
| **Hazırlıq** | Uşaq Hüquqları Konvensiyasının 13-cü maddəsini böyük kağızda və ya löhvədə yazın. |
| **Materiallar** | - Yapışqanlı kağız və ya nazik kağız zolaqları və yapışdırıcı lentlər;<br>- Böyük kağız və marker və ya lövhə və təbaşir;<br>- Uşaq Hüquqları Konvensiyasının 13-cü maddəsinin surəti. |

**Təlimat**

1. Uşaq Hüquqları Konvensiyasının 13-cü maddəsini lövhədə yazın və ya oxuyun. Qeyd edin ki, Konvensiyanın bu maddəsi uşaqlara ifadə azadlığı hüququ verir, lakin başqalarının hüquqlarını pozan və nüfuzunu salan ifadələri məhdudlaşdırır. Belə suallar verərək ifadə azadlığını müzakirə edin:
   a) Biz həmişə istədiyimizi söyləyə bilərikmi?
   b) Düşüncə və qənaətlərimizin ifadəsinə məhdudiyyət qoymalıyıqmı?
   c) Hansı sözlər başqalarının hüquqlarını poza bilər?
   d) Hansı sözlər digər insanların nüfuzuna xələl gətirə bilər?

2. İzah edin ki, bu oyun yuxarıdakı sualların bir qismini əhatə edəcəkdir.

3. Kağız zolaqlarını uşaqlara  verin və onların üzərində təhqiredici ifadələr və ya sözlər yazmalarını xahiş edin. Hər söz və ya ifadəni ayrı kağızda yazmağı tapşırın.
4. Aşağıda göstərilən cədvəldən hazırlayıb divardan asın. Sütunları "qıcıqlandırıcı/ zarafatcıl sözlər"dən "Həddən çox xətrə dəyən/təhqiramiz sözlər"ə  qədər işarələyin.
   Sözlər yazılmış zolaqları müvafiq sütunlara yapışdırmağı uşaqlardan xahiş edın. Oyunun bu hissəsi sükutla həyata keçirilir.

| qıcıqlandırıcı/ zarafatcıl/ xətrə dəyməyən sözlər | Yüngül xətrə dəyən/ təhgiramiz sözlər | Orta xətrə dəyən/ təhgiramiz sözlər | Çox xətrə dəyən/ təhgiramiz sözlər | Həddən çox xətrə dəyən/ təhgiramiz sözlər |
|---|---|---|---|---|
| | | | | |

5. Sonra hər kəsin sükutla cədvələ baxmasını xahiş edin. Adətən eyni sözlər bir neçə dəfə görünəcək və demək olar ki,  cədvəlin müxtəlif sütunlarına düşəcək.

**Analiz və qiymətləndirmə**

1. Uşaqlar öz yerlərində oturandan sonra suallar verərək nə gördüklərini təhlil edin:

a) Bəzi sözlər bir neçə sütuna düşürdümü?
b) Nə üçün bəzi insanlar bir qisim sözlərin təhqir olduğunu, bəziləri isə təhqir olmadığını  hesab edir?
c) Bu sözün necə tələffüz edilməsi vacibdirmi? Bunu kim  istifadə edir?
d) İnsanlar bu sözləri niyə istifadə edirlər?
e) Şifahi təhqir bir zorakılıq formasıdırmı? Niyə?

2. Təhqiredici sözlərin növlərini və ya kateqoriyalarını müəyyən etməyi uşaqlardan xahiş edin. Uşaqlar onları qeyd etməyə başlayanda (məsələn, fiziki görünüş və qabiliyyətlər, zehni xüsusiyyətlər, cinsiyyət, ailə və etnik mənşə) kateqoriyaları löhvədə  yazın. Belə sualların köməyi ilə təhlili yönləndirin:

a) Bəzi sözlər yalnız qızlara ünvanlanırmı? Yalnız oğlanlara ünvanlanırmı?

b) Necə düşünürsüz, niyə təhqiramiz ifadələr bu kateqoriyalara bölünür?
c) Necə düşünürsüz, ən təhqiedici sözlər hansı kateqoriyalardadir?
d) Bu kateqoriyadan olan təhqiredici sözlər haqqında hansı nəticəyə gəlmək olar?

3. İlk cədvələ yapışdırılmış kağız zolaqları çıxarıb sizin lövhədə yazdığınız kateqoriyaların altında yerləşdirməyi uşaqlardan xahiş edin. "Digər" kateqoriyasını da əlavə edə bilərsiniz. Şagirdlər öz yerlərinə qayıtdıqda, bu sualları verin:

a) Hansı kateqoriyalarda ən çox kağız zolaqları var? Bunu necə izah edə bilərsiniz?
b) Sizcə, təhqir hesab olunan sözlər müəyyən kateqoriyalara düşəcəkmi?
c) Ucadan cavab verməyin, amma özünüz düşünün: sizin istifadə etdiyiniz sözlər hansı kateqoriyaya düşür?
d) Sinfi kiçik qruplara ayırın və hər qrupa ən ağır təhqir sayilan sözlər yazılmış bir neçə vərəq verin. Qrupun bir üzvündən ilk sözü və ya ifadəni oxumağı xahiş edin. Qrupdakılar bunun təhqiramiz bir fikir olduğunu və aşağıdakıları müzakirə etməlidir:
   1) insanlara belə şeyləri söyləməyə icazə verilməlidirmi?
   2) bu baş verəndə nə etmək lazımdır?

Hər bir söz və ya ifadə üçün prosesi təkrarlayın.

4. Uşaqlar gəldikləri nəticələr barədə böyük qrupda məlumat verməlidir. Təhqiramiz ifadələri insan hüquqları və vəzifələri ilə əlaqələndirin, belə suallar verin:

a) İnsanların xətrinə dəyən sözlər işlətməyin qarşısını böyüklər almalıdırmı? Əgər belədirsə, niyə?
b) Uşaqlar özləri təhqiredici sözlərdən istifadə etməkdən çəkinməlidirlərmi? Əgər belədirsə, niyə?
c) İnsanların xətrədəyən sözlər istifadə etməməsi üçün siz öz ətrafınızda nələr edə bilərsiniz?
d) Bunu etmək nə dərəcədə vacibdir?
e) Niyə təhqiredici sözlər insan hüquqlarını pozur?

**Davam üçün təkliflər**

- Uşaqları təhqiredici sözlər danışmaqdan imtina etmək üçün nə edə biləcəyini müzakirə etməyə davam edin. Təhqir vəziyyətlərini simulyasiya edin və uşaqların onlara qarşı reaksiyaları sınamasına icazə verin.

- "Müşahidəçidən köməkçiyə" oyunu uşaqlara kömək edəcək ki, kobud danışıqlar zamanı vəziyyətə necə müdaxilə etmək barədə hər biri düşünsün.

**Fəaliyyət üçün fikirlər**

- Uşaqların sinifdə hansı dili istifadə etdiyini müzakirə etmək üçün bu oyunu tətbiq edin. Qrupun ümumi qənaətinə əsasən istifadəsi məqbul olmayan bir ifadə varmı?
- Əgər sinfiniz artıq sinif qaydalarını hazırlayıbsa, təhqiredici sözlərdən istifadə etməmək üçün bir maddə əlavə etmək barədə düşünün.

**Aparıcılara tövsiyə**

- Bu oyun aparıcıdan incə bir yanaşma tələb edir. Şagirdlər "pis sözlər"i uşaqlıqdan bilsələr də nadir hallarda bunu böyüklərlə müzakirə edirlər. Çox güman ki, 2-4 cü addımlar qarışıqlığa və əsəbi gülüşə səbəb olacaq. Uşaqları inandırın ki, bu konteksdə siz bu sözlərdən "istifadə etmirsiniz", sadəcə onları müzakirə edirsiniz.
- Sözləri yüksək səslə deməyə də bilərsiniz, onları yazılı şəkildə əlinizdə saxlaya bilərsiniz. Lakin 3-cü paraqrafdakı təhlil istisna olmaqla - burada uşaqlar sözün məqbul olub-olmadığını təyin edəcəklər.
- Bu oyunun əsas öyrədici nöqtəsi budur ki, eyni sözlərə çox fərqli hisslər şamil etmək olar. Yəni bir uşağın zarafat hesab etdiyi söz digəri tərəfindən təhqir kimi qəbul edilə bilər. Sinfinizdə hər hansı bir uşağın hisslərinə mənfi təsir edəcək sözləri müzakirə etməyin. İnsanı müəyyən sözlərə xüsusilə həssas edən amilləri daha ətraflı nəzərdən keçirmək olar.
- Bu oyunu yaş fərqi böyük olan qruplarda aparmaq tövsiyə edilmir. Nəzərə alın ki, bəzi uşaqlar müəyyən sözlərin, xüsusən də cinsəlliklə bağlı olanların mənasını bilmirlər. Kiçikyaşlı uşaqlar bəzi sözlərin cinsi davranışa aid olduğunu anlamırlar. Bu oyunu öz sinfinizin xüsusiyyətlərinə uyğunlaşdırın.
- Təhlil bu oyunun çox vacib hissəsidir. Uşaqlara katerqoriyaları müəyyənləşdirmək və öz nəticələrini vermək üçün kifayət qədər vaxt ayırın, əks halda insan hüquqları ilə dayanıqlı əlaqə olmayacaq.

**Kiçik uşaqlar üçün uyğunlaşma**

- Bu oyun kiçik yaşlı uşaqlar üçün (məsələn, 8-10 yaş, hətta daha kiçik olanlar üçün) dəyişdirilə bilər (təlimatın 2-ci bəndi buraxılaraq və təhlilin yalnız ilk

sualından istifadə edilərək). Dərsin nəticə hissəsində təhqiredici sözlərdən istifadəni necə dayandırmağı qrupla müzakirə edin.

**Uyğunlaşmalar**

- Böyük yaşlı uşaqlar üçün: oyunu bir neçə gün oynaya bilərsiniz: 1 və 2-ci maddələri I gün, 3 və 4-cü maddələri II gün keçin: bu, imkan verəcək ki, uşaqlar yeni materialları öyrənsin və ətrafdakıları daha şüurlu şəkildə müşahidə etməyə başlasın.

  Kiçik yaşlı uşaqlar üçün təhlilin 1-ci maddəsi kifayət olacaqdır. Təhqiredici sözlərə cavab vermək bacarığı formalaşdırmaq üçün dərsi rollu oyunlarla tamamlayın.

## AİLƏ VƏ ALTERNATİV QAYĞI

***«Ailə cəmiyyətin təbii və əsas özəyidir və o, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir».***

***İnsan hüquqları deklarasiyası, maddə 16.3.***

Uşaq hüquqları haqqında Konvensiyada ailə uşaqların sağlam inkişafı üçün şərait yaradan və onları ən yaxşı formada müdafiə edən sistem kimi qeyd olunur. Uşağın şəxsiyyətinə, fərdiliyinə hörmət göstərilməklə tərbiyə, qayğı və təhlükəsizlik hüququ var. Konvensiyanın 3-cü maddəsində təsdiq edilir ki, valideynlər ilk növbədə uşaqların maraqlarının təmin edilməsinə diqqət yetirməlidirlər.

Hər bir uşağın öz valideynlərini tanımaq və onlardan qayğı görmək hüququ var (maddə 7). Uşaq hüquqları haqqında Konvensiya uşağın rifahında dövlətin və valideynlərin məsuliyyət daşıdığını göstərir. Belə ki, uşağın inkişafına və tərbiyəsinə görə birinci dərəcəli cavabdehlik daşıyan valideynlərə (maddə 5) bu vəzifələrin yerinə yetirilməsində (maddə 18) dəstək üçün müxtəlif tədbirlər həyata keçirmək dövlətin üzərinə düşür. Valideynlər uşağın inkişafı üçün lazım olan həyat şəraitini öz bacarıqları və maliyyə imkanları daxilində təmin etməyə görə əsas məsuliyyət daşıyırlar, lakin əgər valideynlər uşağı təmin etməyə qadir deyillərsə, dövlət onlara kömək etməyə borcludur (maddə 27).

Valideynlər və müvafiq hallarda qanuni qəyyumlar uşağın **inkişaf etməkdə olan qabiliyyəti** ilə uzlaşan metodlarla onun hüquqlarının həyata keçirilməsində uşağa rəhbərlik etməlidir; uşaq böyüdükcə isə şəxsi məsələlərdə söz hüququ artmalıdır (maddə 14). Uşaq hüquqları haqqında Konvensiyaya görə valideynlər uşağı öz şəxsi əmlakı kimi deyil, şəxsiyyət və hüquqları olan subyekt kimi görməlidirlər.

**Ailə nədir?**

Nikahda olan iki valideyn və onların bioloji uşaqlarından ibarət ənənəvi ailədən başqa, avropalılar müxtəlif strukturlu ailələrdə yaşayırlar, belə ki:

- müxtəlif nəsillərdən ibarət geniş ailə;
- bir valideyndən ibarət ailə (digər valideyn boşanma, ölüm və s. səbəblərdən yoxdur);
- övladlığa götürən və ya patronaj ailə;
- ögey valideynin (ögey ata/ögey ana), hərdən doğma və ögey bacı-qardaşların olduğu yeni ailə;
- iki nəfərin bir yerdə yaşadığı vətəndaş nikahı;
- valideynlərin həmcins olduğu ailə;
- nənə, baba və uşaqlardan ibarət ailə;

Uşaqların ailədə dəyişikliklərlə üzləşməyi, bir valideynlə və ya ögey ata (ögey ana) ilə yaşaması ehtimalı artır. Lakin bütün Avropa ölkələrində uşaqların minimum 2/3-si uşaqlıq dövrünün əksər hissəsini öz bioloji valideynlərinin hər ikisi ilə keçirirlər.

Uşağın hansı strukturlu ailədə yaşamasından asılı olmayaraq, hər iki valideyn, hətta bir yerdə yaşamasalar belə, uşaqlara qayğı və dəstəyə görə birgə cavabdehlik daşıyırlar. Uşaq hüquqları haqqında Konvensiyanın 18-ci maddəsində valideynlərin uşaqların tərbiyə və qayğısına görə bərabər cavabdehliyi öz əksini tapır. Bir neçə Avropa dövlətləri ailənin və valideynlərin ehtiyaclarına dəstək siyasətini yaxşılaşdırmaq məqsədilə işləyən cütlüklərin öz uşaqlarına qayğı göstərə bilmələri üçün atalara məzuniyyət təklif edir. Cinsindən, vəziyyətindən yaxud ailə büdcəsindən asılı olmayaraq uşaqlar üçün bərabər imkanların təmin edilməsi valideyn öhdəliklərinə dəstək üçün vacibdir.

**Avropa ailələri qarşısında çağırışlar**

Avropada ailələr qarşısında bir çox problemlər durur:

- ***İşləyən valideynlər*:** Əksər hallarda hər iki valideyn işləyir. Uzunmüddətli iş vaxtı, iş və ailə vəzifələri arasındakı konflikt bir çox problemlər yaradır. Avropa Birliyində 10%-dən az olmayan, yeni üzv ölkələrdə isə 15% valideyn həddindən artıq yorğunluq səbəbindən ailə vəzifələrinin yerinə yetirilməsində çətinlikləri olduğunu bildirirlər. Tədqiqatların nəticələrinə görə ən çox problem isə 3 yaşdan kiçik uşaqların valideynlərində yaranır.
- ***Bir valideyndən ibarət ailə*:** bütünlükdə Avropa ölkələrində uşaqların 80%-i hər iki valideynlə yaşayırlar. Lakin məlumatlar əhəmiyyətli dərəcədə fərqlənir: Yunanıstanda və İtaliyada 90%-dən çox, Böyük Briyaniyada isə 70%-dən az. Bu rəqəmlər əhəmiyyətli coğrafi bölgünü əks etdirir, belə ki, Macarıstan, Yunanıstan, Portuqaliya və İspaniyada uşaqların 9%-i bir valideynlə yaşayır. Bu göstərici Finlandiya, Norveç, İsveç və Danimarkada 15%-ə qədər artır. Avstriya, Çex Respublikası, Fransa, Almaniya, Macarıstan, Niderland, Polşa və İsveçrədə isə uşaqların 10-15%-i bir valideynlə yaşayır.

Bu problemlərlə Avropa Şurası müxtəlif metodlarla mübarizə aparır. 2006-cı ildə Nazirlər Komitəsi iştirakçı ölkələr üçün pozitiv yöndə tərbiyəni dəstəkləyən tövsiyələr verdi. Orada valideyn vəzifələrinin pozitiv şəkildə həyata keçirilməsi “uşağın maraqlarının təmin edilməsinə əsaslanan, onun inkişafına nəzarət hüdudlarının müəyyən edilməsinə, qayğının, inamın, zorakılıqdan uzaq olmanın təzahürünə yönələn davranış” kimi müəyyən edilir. Tövsiyələrdə aşağıdakıların vacibliyinə diqqət yetirilir:

- valideyn vəzifələrinin pozitiv şəkildə həyata keçirilməsi;

- sosial təcrid riskinə məruz qalan valideynlər üçün xidmətlər;

- valideynlərə dəstək üçün ictimai xidmətlər;

- iş və ailə həyatı balansı;

- uşağa qulluq xidmətləri.

2006-cı ildə Şura valideynlərin rolunu konkretləşdirərək uşaqlarla düzgün rəftar və zorakılıqdan uzaq tərbiyəni irəli sürməklə müasir Avropada valideyn vəzifələrinin pozitiv şəkildə həyata keçirilməsi haqqında məlumat verdi. Hesabatda aşağıdakılar uşaqlar üçün çox mühüm elementlər kimi qeyd edilmişdir:

- **elementar qayğı**: uşağın fiziki ehtiyaclarının ödənilməsi (məsələn, qida, istilik, yaşayış yeri, gigiyena, lazımi geyim və tibbi xidmət);

- **təhlükəsizliyin təmin edilməsi**: uşağın evdə və bayırda təhlükələrdən müdafiəsi;

- **emosional qayğı:** dəyərli olduğunu hiss etməsi və emosional dəstək alması üçün uşağa vasitəçi olmaq;

- **stimulyasiya**: uşaqla məşğul olmaq və onun təlim imkanlarına dəstək vasitəsilə uşağın öyrənməsini, intellektual inkişafını stimullaşdırmaq.

- **idarəetmə və məhdudiyyət**: uşağa özünü necə aparmağı göstərmək və sərhədlərin müəyyən edilməsi;

- **stabillik**: uşaq üçün vacib olan insanların emosiyalarının və cavab reaksiyalarının ifadə edilməsindəki ardıcıllıq.

Hesabatda göstərilir ki, uşaqlar valideynlərindən bir sıra səbəblərdən ayrıla bilər: boşanma, ailə üzvlərinin köçməsi yaxud müharibə səbəbilə yaşayış yerini dəyişməsi, valideynlərdən birinin yaxud da hər ikisinin ölümü, insan alveri və ya uşaqlardan imtina. Səbəbindən asılı olmayaraq ayrılıq uşaqların təhsilini, inkişafını və firavanlığını təhlükəyə məruz qoymaqla onlara güclü təsir göstərir. Buna görə də uşaqlar öz ailələri ilə qalmaq hüququna malikdirlər, lakin məhkəmə orqanının ayrılmanın uşaq maraqlarının təmin edilməsi üçün vacib hesab etdiyi ciddi hallar istisnadır (maddə 9).

**Sual:** *Uşaq hüquqları haqqında Konvensiyanın fundamental prinsipi uşaq maraqlarının üstünlüyüdür. Bəs nəyin daha yaxşı olduğuna kim qərar verir? Məsələn, iş qabiliyyəti olmayan valideynlə uşağın yaşayıb-yaşamamasına kim qərar verməlidir? Ailənin digər üzvləri? Uşaq özü? Dövlət? Başqa kimsə?*

Təəssüf ki, bütün valideynlər öz funksiyalarını yerinə yetirmək arzusunda və bacarığında deyil və həmçinin hər bir uşaq da öz doğma ailəsində tərbiyə almağın üstünlüklərini öz üzərində hiss edə bilmir. Uşaq hüquqları haqqında Konvensiyanın 20-ci maddəsində göstərilir ki,

*"Öz ailə mühitindən müvəqqəti və ya daimi məhrum olan, yaxud özünün mənafeyi naminə belə mühitdə qala bilməyən uşaq dövlət tərəfindən xüsusi müdafiə edilmək və yardım almaq hüquqlarına malikdir... dövlət öz milli qanunlarına uyğun olaraq belə uşaqlara qayğını təmin etməlidir".*

Bu üsullara yalnız istisna hallarda müraciət edirlər. Avropanın bir çox ölkələrində uşağı müdafiə sistemi və uşağa qayğı müəssisələri risk zonasında olan uşaqlara yüksək keyfiyyətli şəraiti təmin edirlər. Lakin bəzi ölkələrdə uşaqları ehtiyac olmadan və uzun müddətə müəssisələrə yerləşdirirlər. Ailədən kənar yaxud valideyn qayğısından məhrum uşaqlar diskriminasiyaya, zorakılığa və istismara, həmçinin emosional və sosial travmaya daha çox məruz qalırlar.

Uşaqlara alternativ qayğının təmin edilməsi böyük diqqət tələb etməklə formal, qeyri-formal tərbiyə, qohumların qəyyumluğu və övladlığagötürməni əhatə edir. Uşaqlara günərzi qayğı, valideyn öhdəliklərinin öyrədilməsi və evdə dəstək kimi sosial xidmətlər hər iki valideyn, böyük ailələr, həmçinin qəyyumların uşaqlara qayğı imkanlarının yaxşılaşdırılması üçün mühümdür.

Avropanın bir çox şəhərlərində kimsəsiz uşaqlar var. Onları harada görmək olar? Onlar küçələrdə yaşayır və işləyir, şəxsiyyətləri və sayları haqqında dəqiq məlumat yoxdur və bu da onların səhiyyə və təhsilə çıxışını, həmçinin həyat təhlükəsizliyini təmin edilməsində hakimiyyətin fəaliyyətini çətinləşdirir. Çoxları isə belə uşaqları görməzdən gəlməyi üstün tuturlar. Bu problem qlobaldır: yoxsulluq, ailənin dağılması, fiziki və mənəvi zorakılıq, uşaqlardan imtina, qayğının olmaması və sosial qeyri-stabillik kimi faktorlar bu problemi kəskinləşdirir. Sahibsiz uşaqlar müdafiəsizdirlər. Fahişəlik, uşaq alveri, cinayətlər, narkotiklər, qrup şəklində zorakılıq və hətta polis tərəfindən zorakılıq bir çoxları üçün real təhlükədir, bəziləri üçün isə artıq reallıqdır.

**Ailə məsələləri ilə bağlı uşaqlarla iş**

Uşaqlarla ailə məsələlərinin müzakirəsi zamanı pedaqoqlar müxtəlif ailə modelləri haqqında istənilən stereotip fikirlərdən və davranışdan çəkinməlidirlər. Uşaqlar istənilən ailə strukturunu başa düşməli və qəbul etməlidirlər, həmçinin empatiyanı və bir-biri ilə münasibətdə həmrəyliyi inkişaf etdirməlidirlər. Mühüm məqsəd uşaqların ailədə iştirak etmək və zorakılıq olmadan yaşamaq kimi hüquqlarını öyrənmələridir.

Ailə vəziyyətinin müzakirəsi bəzi uşaqlarda, xüsusən yeniyetmələrdə ziddiyyətli hislər yarada bilər. Uşaqla fəaliyyətin gedişinə evdə zorakılıq faktının üstünün açılması kimi hallar istisna olmaqla, valideynlərlə və qəyyumlarla konsultasiya kömək ola bilər. Belə hallarda vacibdir ki, uşaqlar başa düşsün ki, onlar zorakılığa görə (cinsi zorakılıq da

daxil olmaqla) məsuliyyət daşımırlar və dostlarına, əhatəsində olan böyüklərə öz problemləri haqqında danışmalıdır.

**Müvafiq hüquq müdafiə alətləri**

**Avropa Şurası**

**İnsan hüquqları üzrə Avropa Konvensiyasının** 8-ci maddəsinə əsasən hər bir kəsin "şəxsi və ailə həyatı", "onun evi və yazışması" dövlətin müdaxiləsindən qorunur. Bu hüquqda ailənin - həddi-buluğa çatana qədər uşağı tərbiyə edən cəmiyyətin özəyinin müdafiəsinə xüsusi diqqət yetirilir.

Avropa sosial xartiyasının yeni redaktəsinin 16-cı maddəsində uşaqların ailə üzvü kimi hüquqları müdafiə edilir:

*"Cəmiyyətin əsas özəyi olan ailənin hərtərəfli inkişaf üçün müvafiq sosial, hüquqi və iqtisadi müdafiə hüququ var".*

Nikahdankənar doğulan və ya övladlığa götürülən uşaqların hüquqlarını müdafiə edən digər Avropa Şurasının konvensiyaları mövcuddur. Uşaqların hüquq və maraqlarının həyata keçirilməsinə Uşaq hüquqlarının həyata keçirilməsi haqqında Avropa Konvensiyasında təminat verir.

**Birləşmiş Millətlər Təşkilati**

**İnsan hüquqlarının ümumi Bəyannaməsində** elan olunur ki, *"Ailə cəmiyyətin təbii və əsas özəyidir və o, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir*" (maddə 16). Bəyannamədə deyilir: "*Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla müdaxilə, evinin toxunulmazlığına, gizli məktublaşmalarına, şərəf və nüfuzuna özbaşınalıqla qəsd edilə bilməz. Hər bir insan bu cür müdaxilələrdən və ya belə qəsdlərdən qanunla müdafiə olunmaq hüququna malikdir"* (maddə 12). Bəyannaməyə əsasən həm də hər bir kəs *"məhdudiyyət qoyulmadan nikah bağlamaq və ailə qurmaq hüququna malikdir"* (maddə 16). Bu bəyannamədə "ailə" termini izah olunmur. Bildiyimiz kimi, XXI əsrdə iki valideynin və onların bioloji uşaqlarının ailə modeli ilə yanaşı, bir çox müxtəlif ailə modelləri də vardır.

**Uşaq hüquqları haqqında Konvensiyada** ailənin vacibliyinə daha çox diqqət verilir. Konvensiyanın preambulasında bildirilir ki, ailə təkcə cəmiyyətin əsas özəyi deyil, həm də "ailə üzvlərinin, xüsusən uşaqların firavanlığı və böyüməsi üçün təbii mühitdir". Orada həm də "uşağın şəxsiyyətinin tam və harmonik inkişafı" üçün ailə mühiti tövsiyə edilir.

Konvensiya bir sıra səbəblərdən öz ailəsindən ayrılmış uşaqlar barəsində ətraflı məlumatları nəzərdən keçirir, ailənin birliyini dəstəkləyir və bəzi hallarda uşağa qayğı göstərmək istəməyən, yaxud da bacarmayan ailədən ayrılmağın uşağın xeyrinə olmasını

etiraf edir (maddə 9, 10, 20, 21 və 22 ). Lakin uşağın valideynləri xüsusilə vacibdir. Dövlət "valideynlərin, müvafiq hallarda genişlənmiş ailənin, yaxud icma üzvlərinin hüquq və vəzifələrinə, məsuliyyətinə hörmət etməlidir" (maddə 5). Uşağın fərdiliyinin müəyyən edilməsində ailənin mühümlüyü, "öz valideynlərini tanımaq və onlardan qayğı görmək hüququ" maddə 7-də göstərilir. Valideynlərin birinci dərəcəli vəzifəsi "uşağın tərbiyəsi və inkişafına görə hər iki valideynin birgə cavabdehlik daşıması" prinsipinə uyğun olaraq uşaqların tərbiyəsinə, inkişafına maliyyə dəstəyi göstərməkdir (maddə 18, 27). Lakin əgər valideynlər uşağı təmin etməyə qadir deyillərsə, dövlət onlara kömək etməlidir (maddə 18.2).

İnsan hüquqlarının ümumi bəyannaməsində olduğu kimi, Uşaq hüquqları haqqında Konvensiyada da göstərilir ki: "*Hər hansı bir uşaq onun şəxsi həyatı, ailə həyatı, mənzilinin toxunulmazlığı və ya yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşınalıqla və ya qeyri-qanuni surətdə müdaxilə obyekti, yaxud onun şərəf və ləyaqətinə qeyri-qanuni qəsd edilmə obyekti ola bilməz."* (maddə 16). Hətta uşağın "valideynlərinə, onların dilinə və dəyərlərinə hörməti" təbliğ edən təhsil hüququ var (maddə 29).

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**
**Tərcümə: TİPİİ-nin əməkdaşları Gülbəniz Nəcəfova, Salatın Şamilova.**

## Demokratiya

“Uşaq və gənclərə demokratiya mədəniyyəti və insan hüquqlarını aşılamaq vacib məsələdir, çünki sosial qaydalar və davranış mədəniyyəti erkən yaşlarda formalaşır və onların gələcək ictimai fəaliyyətinin müəyyənləşdirilməsində mühüm rol oynaya bilər.”

*Avropa Şurasının demokratiyanın gələcəyinə həsr edilmiş Forumunun nəticə müddəaları, iyun, 2007-ci il.*

### Demokratiya nədir?

Demokratiya Avropanın tarixində heç bir zaman XXI əsrin əvvəllərində olduğu qədər geniş yayılmamışdı. Demək olar ki, bütün Avropa cəmiyyətləri, yəni suveren vətəndaşlıq və qərarların qəbulunda şəffaflıq prinsipləri üzərində qurulan Avropa cəmiyyətləri demokratik sayılır. Reallıqda bu prinsiplərə tam nail olmaq çətindir, lakin ümumilikdə onlar müasir Avropada demokratiyanın inkişafında tənzimləyici rol oynayırlar.

“Demokratiya” sözü yunan dilində “demos” – “xalq” və “kratos” – “hakimiyyət” mənasını bildirən sözlərin birləşməsindən əmələ gəlmişdir. Müvafiq olaraq, demokratiya çox vaxt “xalq hakimiyyəti”, yəni insanlar tərəfindən müəyyən edilən və onların tabe olmalı olduğu qaydalar mövcud olan sistem kimi qəbul edilir. Müasir dünyada insanların və ölkələrin əksəriyyəti demokratiyanı yeganə qanuni idarəçilik sistemi hesab edir. Demokratiya iki prinsipə əsaslanır:

- ***şəxsi avtonomiya prinsipi***: heç kəs başqaları tərəfindən qoyulan qaydaların tətbiq obyekti olmamalıdır;
- ***bərabərlik prinsipi***: insanların həyatına təsir edən qərarların qəbul edilməsində hamı bərabər şəkildə iştirak edir.

İdarəçiliyin başqa formaları bu iki prinsipi pozur, çünki bu zaman hakimiyyət bir adamın və ya sosial sinfin əlində olur və onlar əhalinin adından qərarlar qəbul edirlər. Məsələn, oliqarxiya zamanı hakimiyyət azlıqda olan insan qrupunun əlində cəmləşir ki, bunlar da var-dövlət, ailə və hərbi qüvvə ilə müəyyənləşir. Plutokratiya zamanı hakimiyyət varlılar, diktatura zamanı isə bir hökmran insan tərəfindən idarə edilir. Bu idarəetmə formalarında nə şəxsi avtonomiya, nə də bərabərlik gözlənilir.

Demokratiyanın bir çox formaları ola bilər. Məsələn, *birbaşa demokratiya* zamanı insanlar qərarların qəbulunda iştirak edir. Demokratiyanın yayılmış formalarından biri *liberal və ya nümayəndəli demokratiyadır* ki, burada qanunlar və siyasi istiqaməti müəyyən edən, dövlət məmurlarını təyin edən nümayəndələri vətəndaşlar seçir. *“Nümayəndəli demokratiya”* nəzəriyyəsinə görə hakimiyyət nümayəndələrin səs çoxluğuna əsasən sərbəst və ədalətli seçkilər vasitəsilə seçilir. *Liberal demokratiya* qanunun aliliyi, hakimiyyətin bölünməsi, insan hüquqlarının qorunması və azlıqların

müdafiəsi ilə xarakterizə olunur. Qanun aliliyi – hakimiyyət və məhkəmə orqanlarının qəbul edilən qanunlar çərçivəsində fəaliyyət prinsipini nəzərdə tutur. Bu, hakimiyyətin bölünməsi prinsipi ilə sıx bağlıdır. Bu zaman hakimiyyətin qanunverici (parlament), icraedici (hökumət) və məhkəmə qolları bir-birindən asılı olmayaraq fəaliyyət göstərir. Demokratik hakimiyyət zamanı insan hüquqları ümumi dəyərlər sistemini təşkil edir. Müvafiq olaraq hakimiyyətdə kifayət qədər təmsil edilməyən uşaqlar, qadınlar, miqrantlar, dini və etnik azlıqlar diskriminasiyadan qorunur, onların fərdiliyi və cəmiyyətin həyatında iştirakı rəğbətləndirilir.

"Demokratiya" termini müəyyən cəmiyyət tipi, həmçinin müəyyən idarəetmə forması deməkdir. Demokratik cəmiyyət insanların əksəriyyəti üçün ən ədalətli idarəetməni və bərabərliyi təmin edir, bu zaman cəmiyyət proseslərdə passiv yox, aktiv rol oynayır. Bu, hər bir insanın və ya insan qrupunun, cəmiyyətdə olan birliklərin hüquqlarının dəstəklənməsi ilə xarakterizə olunur. Demokratik cəmiyyət mövcud olan sosial problemləri daim insanların xeyri üçün həll etməyə çalışdığından, belə qərarlar əksər insan tərəfindən hörmətlə qarşılanır.

**Demokratiya təcrübədə**

Demokratiyalar bir-birindən fərqlənir və biri digəri üçün nümunə hesab edilə bilməz. Demokratik idarəetmə müxtəlif formalar ala bilər: prezidentli (Fransa, Macarıstan və Rusiya) və ya parlamentli idarəetmə (Böyük Britaniya, Slovakiya və ya İspaniya). Digərlərində, məsələn, Almaniyada federal idarəetmə mövcuddur. Bəzi səsvermə sistemləri proporsional, digərləri majoritar tiplidir. Səsvermənin ümumi prinsiplərini bütün vətəndaşların bərabərliyi və hər bir insanın şəxsi avtonomiya hüququnun olması təşkil edir. Lakin şəxsi avtonomiya heç də hər bir şəxsin istədiyini etməsi demək deyildir. Bu, o deməkdir ki, dövlət hər bir vətəndaşa bərabər səsvermə hüququ verir. Hər bir insan müstəqil şəkildə seçimini həyata keçirmək, bu seçimin nəzərə alınması hüququna malikdir. Nəticədə çox şey vətəndaşların iştirakı və təşəbbüsündən asılıdır.

Bərabərliyə hörmət və vətəndaşların qərar qəbuletmə prosesinə cəlb edilməsi səviyyəsinə görə demokratiya fərqli ola bilir. Məsələn, az təminatlı insanların səsi daha əhəmiyyətsiz ola bilər. İctimai arenada az təmsil olunan qadınlar, hətta onlara aid olan qərarların qəbulu zamanı daha az imkanlara sahib ola bilər. Uşaqlar, xarici fəhlələr hətta səs hüququna malik deyildir. Eyni zamanda bir çox insanlar hesab edir ki, qaydaları onların seçdikləri, lakin seçicilərinin maraqlarını təmsil etməyən məmurlar tərəfindən məcburən qəbul edilir. Bəs əsas demokratik prinsiplər haradadır? Biz özümüzü nə dərəcədə qanunlar və hakimiyyət qərarlarının "mülkiyyətçisi" hesab edə bilərik?

Demokratiya heç bir zaman tam və dolğun olmur. Hətta Karl Potter demişdir: “Demokratiya – mövcud olmayan bir şey mənasını bildirir”. Bu bir qədər şişirdilmiş fikir kimi səslənsə də, demokratiya – ideal modeldir. Öz cəmiyyətlərinin bu ideal səviyyəyə nailolma dərəcəsini insanlar məhz özləri seçir.

**Demokratiya yalnız vətəndaşlar fəal olduqda işləyir**

“Demokratiya seçki kodeksindən daha üstün bir məfhumdur. Bu, davranış, münasibət və ruhun kodeksidir”.

*Avropa Şurasının 2006-cı ildə keçirilmiş “Demokratiya” Yay Universitetində Terri Devisin giriş çıxışından.*

Demokratik cəmiyyət demokratik üsulla seçilmiş hakimiyyət və milli institutlar sistemindən daha böyük bir anlamdır. Demokratik cəmiyyətin əsas göstəriciləri güclü və müstəqil yerli hakimiyyət orqanları, fəal vətəndaş cəmiyyəti, iş yerlərində və məktəblərdə olan demokratik ruhdur. Demokratiya – hər gün və hər yerdə dəstəklənən praktik prosesdir.

İnsanlar daim öz tələblərini bildirdikdə, hökumətin addımlarını nəzarətdə saxladıqda, demokratiya vətəndaşların maraqlarına xidmət edir və daha effektiv işləyir. Müasir cəmiyyətdə qeyri-hökumət təşkilatları və kütləvi informasiya mənbələri vətəndaşların əsas nəzarət vasitəsidir. Qeyri-hökumət təşkilatları müdafiə məqsədli çıxışlar edə, təlimatlandıra, cəmiyyətin diqqətini vacib məsələlər ətrafında cəmləşdirə və hökumət orqanlarının hərəkətlərini izləyə bilər. Qeyri-hökumət təşkilatları vasitəsi ilə vətəndaşlar əsas hərəkətverici qüvvə şəklində çıxış edə və demokratik istiqamətdə daha çox dəyişikliklər apara bilərlər.

Demokratik cəmiyyətlərdə kütləvi informasiya vasitələri böyük bir funksiyanı yerinə yetirir. Onlar yenilikləri, müxtəlif sosial qrupların mövqelərini işıqlandırır, vətəndaşların mənafeyinə xidmət edir. Lakin bu funksiya yalnız o zaman mümkündür ki, KİV hakimiyyət və korporativ maraqlardan azad olsun, öz rolunun ciddiliyini anlasın.

**Demokratiyaya nə olub?**

XXI əsrin əvvəllərində demokratiyanın vəziyyəti ümumi narahatlıq yaradır. Avropanın demokratik cəmiyyətlərində siyasi narazılıq və skeptisizm (*e.ə. IV əsrin axırında yunan fəlsəfəsində formalaşmış cərəyan. Skeptiklər istənilən elmi və ya sosial məlumata şübhə ilə yanaşır və hər zaman onları tənqid etməyə hazırdırlar.*) geniş yayılmışdır. İnsanlar bəzən düşünürlər ki, siyasi elita insan iradəsinə etinasız yanaşır. Demokatiyanın inkişafında sosial bərabərsizlik və korrupsiya kimi ziddiyyətli tendensiyalar narazılığın yaranmasına, nəticədə isə kütləvi informasiya vasitələri

tərəfindən dəstəklənən populizmə gətirib çıxarır. Vətəndaşlar bəzən özlərini köməksiz hiss edir və onların cəmiyyətdəki aktiv rolu dəstəklənmir.

Demokratiya ilə bağlı yaranan əsas həyəcan Avropada son on beş ildə vətəndaşların seçkilərdə iştirak səviyyəsinin aşağı düşməsi ilə bağlıdır. Bu enmə vətəndaşların seçkilərdə iştiraka olan maraqlarının azalmasını göstərir və demokratik prosesi pozur.

Gənc nəslin seçkilərdə iştirakı çox aşağı düşür, gənclər və yaşlı seçicilər arasında iştirak səviyyəsi fərqi  böyüyür. Ancaq bu fərq gənclərin gələcəkdə seçkilərdə fəal iştirak etməyəcəyini göstərməsə də, artıq bu gün onların maraqlarının seçkilərdə az təmsil olunduğu göz qabağındadır. Belə ki, bütün dünyada cavanların siyasi partiyalar, həmkarlar ittifaqları və formal gənclər təşkilatları kimi demokratik institutlardan, ənənəvi siyasi strukturlardan yayınması müşahidə olunur.

Bunun ciddi problem olmasına baxmayaraq tədqiqatlar göstərir ki, gənclər iştirakçılığın digər müxtəlif formaları olan kampaniyalar, xüsusi vətəndaş təşəbbüsləri və məsləhət orqanlarının işində fəallıq edirlər.

Texnologiyaların inkişafı nəticəsində vətəndaşların internetdə qlobal vətəndaş cəmiyyəti yaratması fəallığın yeni, çevik formasıdır. Gənc nəsil qısa bir vaxtda hansısa məsələ ətrafında toplaşıb müzakirə aparır, məsələn, İraqda müharibə, Ukraynada “Narıncı inqilab” və s.

Siyasi rəy incəsənət və idman vasitəsi ilə də təzahür edə bilər, məsələn, ətraf mühitin, qadın hüquqlarının qorunması, istehlakçı boykotu (etirazı) ilə narahatlığın ifadəsi. Demokratiyanın səmərəli işləməsi üçün bu iştirak formaları da seçicilərin seçkilərə gəlməsi qədər vacibdir. Seçkilər nəticə etibarilə insanların maraqlarının çox ümumi göstəricisi kimi çıxış edir. Bəzən hökuməti məsuliyyətə cəlb etmək üçün  növbəti seçkilərə kimi 4-5 il gözləməli olursan. Demokratiyanın əsas prinsipi isə gündəlik iştirakdır və bu da yerli səviyyədə başlanır. Daim insanların, əsasən də gənc nəslin iştirakını dəstəkləmək lazımdır.

**Sual:** *Son illərdə cəmiyyətə və dövlət tərəfindən qəbul edilən qərarlara uğurlu  təsir edən hansısa qeyri-hökumət təşkilatı və ya vətəndaş təşəbbüsü bilirsinizmi?*

Avropa demokratiyasının digər zəif cəhəti sosial təcridə məruz qalan azlıqların mövcudluğudur. Tomas Hammarberq, Avropa Şurasının insan hüquqları komissarı bunun milyonların ciddi problemi olduğunu bəyan etmişdir: “.......... evlərini məcburən tərk edənlər; hüquqi məsləhət almaq üçün pulu olmayanlar; yardım lazım olanda dil maneələri ilə rastlaşanlar; öz mədəni qrupu tərəfindən təqib olunanlar və ya iki həyat tərzi arasında qalanlar; qeyri-leqal vəziyyətdə yaşayan və aşkar olmaqdan qorxanlar; məhdudiyyətinə

görə təcrid olunanlar; hər şeyini itirən və yenidən başlamaq üçün çox zəif olan yaşlı insanlar; ksenofob və homofobların *(özündən fərqli olanlardan qorxan və nifrət edən adamlara verilən adlar)* hədəfinə çevrilmiş azlıqlara mənsub olanlar."

Hökumətin çoxluq tərəfindən seçildiyi və "qalib hər şeyə sahib olur" prinsipli seçki sistemi olan cəmiyyətlərdə azlıqların təmsil edilməsi xüsusilə çətin məsələdir. Demokratik idarəetmənin əsas prinsipi bərabərliyin zəruriliyi, azlıqların sosial inklüziyası (daxiledilməsi) haqqında məlumatlandırmadır.

XXI əsrdə müəyyən iqtisadi və sosial dəyişikliklər demokratiya konsepsiyasına və təcrübəsinə təsirini göstərmişdir. Avropa inteqrasiyası və qlobal qarşılıqlı asılılıq, texnoloji dəyişikliklər, kütləvi informasiya vasitələrinin artmaqda olan təsiri demokratiyanın inkişafında pozitiv faktor olmaqla yanaşı, ənənəvi demokratik strukturlara zədə yetirə bilər.

Cəmiyyətdəki tarazlığı demoqrafik dəyişikliklərin tezliyi və mədəniyyətlərarası miqrasiyası da poza bilər. Bu kimi hallarda da demokratiyanı inkişaf etdirib möhkəmlədirmək üçün təqdim olunan imkanlardan istifadə etmək vacibdir.

**Sual:** *Sizin fikrinizcə, məsul şəxslərin əhali ilə yerli və milli məsələlər üzrə yeni məsləhətləşmə metodlarını internet texnologiyaları təmin edə bilərmi?*

**Demokratiyanı uşaqlara niyə və necə öyrətmək lazımdır?**

Demokratiyanın inkişafı üçün uşaqlara onu həyat tərzi kimi mənimsəməyi aşılamaq lazımdır. Demokratik qabiliyyətlər öz-özünə inkişaf etmir. Uşaqları demokratiyaya hazırlamaq gələcəkdə demokratiyanı formalaşdıran və qoruyan vətəndaş olmağı öyrətmək deməkdir. Buna əsasən demokratiya erkən yaşlarından hər bir təhsilin əsasını təşkil etməlidir. Avstraliyalı təhsil məsləhətçisi Layen Sinqltona görə müəllimlər əmin olmalıdırlar ki, demokratiya mövcuddur və cəmiyyətdə demokratik prinsiplər əsasında yaşamaq mümkündür. Onlar heç bir dövlətin və cəmiyyətin ideal, heç bir ideologiyanın qeyd-şərtsiz düzgün olmadığını uşaqların anlamasına kömək etməlidirlər. İnkişaf etmiş demokratiyada vətəndaşlar öz liderlərinin fəaliyyətini nəzarət altında saxlayırlar.

*Demokratiya təlimi – insanları inklüziv cəmiyyətə öyrətmək deməkdir. Bu cəmiyyət bütün üzvlərini onların tutduğu yer və ya statusundan asılı olmayaraq qəbul edir, üzvlər arasındakı müxtəlifliyi tanıyır və onlara özlərini cəmiyyətin bir üzvü kimi hiss etməyə imkan verir.*

Demokratiya təlimi hər şeylə maraqlanmağı, diskussiya aparmağı, tənqidi düşüncəni, konstruktiv tənqid bacarıqlarını dəstəkləyir. Uşaqlar öz hərəkətlərinə görə məsuliyyət daşımağı öyrənməlidirlər. Bu nəticəyə isə yalnız fəaliyyət vasitəsi ilə nail

olmaq mümkündür. Uşaqlara demokratiyanın açar konsepsiyalarını təcrübədə öyrətmənin yeganə yolu demokratik əhatədə yaşayaraq fəaliyyət göstərmələrinə şərait yaratmaqdır. Demokratik strukturlara malik olan və demokratik prinsiplərə hörmət edən məktəb, institut, uşaq klubları və təşkilatları, hətta ailələr uşaqlara demokratiyanın nə olduğunu mənimsəməyə kömək edən ən yaxşı modellərdir. Demokratik prinsiplər məktəb strukturlarında, təlim proqramlarında öz əksini tapmalı və məktəbdaxili münasibətlərdə standart təcrübə olmalıdır. Qərarlar qəbul edən uşaq orqanlarının yaradılması, həmyaşıdlarının vasitəçiliyi, uşaqlara öz tədbirlərinin təşkilində inam göstərmək, onlara problemləri tədqiq etmək imkanı vermək, fikirləri müzakirə edib nəticə çıxartmaq, debat keçirərək münaqişələrin həlli üçün strategiya təklif etmək və real məqsədlərə çatmaq vasitəsi ilə müəllimlər uşaqlara hörmət nümayiş etdirməlidirlər. Belə təcrübələr uşaqlara xüsusi imkanlar verir, onları başa salır ki, bu proseslərdə iştirak etməyə dəyər.

Dünyada uşaqlar üçün yaradılan demokratik strukturların bir çox uğurlu nümunələri vardır. Avropa Şurasının "Demokratik vətəndaşlıq təlimi" proqramı üçün təlimatlar yaradılmış, məktəbdə demokratiyanın və *demokratik idarəetmənin* təşkilinə aid yaxşı nümunələr toplanmışdır. Burada "*idarəetmə*" təhsilverən institut və təşkilatların açıqlığını nümayiş etdirir ki, iştirakçılar (müəllimlər, uşaqlar, valideynlər, rəhbərlər) nə dərəcədə açıq müzakirələr, problemlər üzrə danışıqlar aparır və prosesin sonunda qərarlar qəbul edir. *"Demokratiklik*" isə idarəetmənin insan hüquqları dəyərlərinə əsaslanması və bu prosesdə hamının (uşaqların, böyüklərin, valideynlərin və müəssisənin əməkdaşları) iştirakı deməkdir.

Demokratiya və insan hüquqları bir-biri ilə qarşılıqlı təsirdədir: insan hüquqları istənilən demokratik sistemin əsasını təşkil edir, dövlətlər isə onların qorunmasına zəmanət verir. İnsan hüquqları dövlətdən asılı deyildir: onlar bir qayda olaraq hamıya məxsusdur. Lakin insan hüquqlarını yalnız demokratik strukturlar müdafiə edə bilər. Demokratiya və insan hüquqları daim inkişafdadır.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşları Məhəbbət Paşayeva və Salatın Şamilova.**

## Diskriminasiya

*Diskriminasiya – insan hüquqlarının fundamental prinsipinə ziddir.*

Kimisə diskriminasiya etmək onu öz siyasi, vətəndaş, iqtisadi, sosial və ya mədəni hüquq və azadlıqlarından, o cümlədən digər hüquqlarından tam həcmdə istifadə etmək imkanından məhrum etməkdir. Diskriminasiya – insan hüquqlarının baza prinsipinə ziddir: bütün insanlar bərabərdirlər və eyni hüquqlara malik olmalıdırlar. Bu prinsip insan hüquqlarından bəhs edən bütün əsas sənədlərdə öz əksini tapmışdır (məsələn, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Uşaq hüquqları haqqında Konvensiya, Avropa İnsan Hüquqları Konvensiyası sənədlərində). Milli Konstitusiyaların çoxuna diskriminasiya əleyhinə maddələr daxildir.

Hüquq müdafiəsi qanunvericiliyində "diskriminasiya" haqqında vahid bir tərif verilməsə də, bu terminin bütün sənədlərdə müəyyən ümumi elementləri vardır (məsələn, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Uşaq hüquqları haqqında Konvensiya, İrqi diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya və ya Qadın diskriminasiyasının bütün formalarının ləğvi haqqında Konvensiya):

**1.** Diskriminasiyaya müxtəlif faktorlar səbəb ola bilər. Məsələn, Uşaq hüquqları haqqında Konvensiyanın 2-ci maddəsində diskriminasiya səbəbləri kimi: irq, dəri rəngi, cinsi mənsubiyyət, dil, din, siyasi və ya digər fikirlər, milli, etnik və ya sosial mənşə, maliyyə imkanları, sağlamlıq vəziyyəti və ya uşağın, onun valideynlərinin və ya qəyyumlarının hər hansı durumu ola bilər. Sosial sinif, məşğuliyyət növü, cinsi oriyentasiya, üstünlük verilən dil də diskriminasiya üçün müxtəlif səbəblərdir.

**2.** Diskriminasiya kimi qəbul edilən hərəkətlər vardır: qəbul etməmək, məhdudlaşdırmaq və ya insanı (bir qrup insanları) təcrid etmək. Bu hərəkətlər daha ağır formadan – insan hüquqlarının kobud pozulması hallarından (genosid, quldarlıq, etnik təmizləmə, dini zəmində təqibetmə) daha yüngül formayadək (işə qəbul, vəzifə üzrə yüksəlmə, mənzil verilməsi, sözlə təhqir) dəyişir. Qeyd edək ki, yüngül formalı diskriminasiya daha çox rastlanandır. Uşaqlar arasında tez-tez rastlaşılan diskriminasiya nümunələri – təcridetmə (uşaqla oynamaqdan imtina), fərqli olduqları üçün təqib və təhqiretmədir (məsələn, "zəif", "gombul", "axmaq" və s.).

**3.** İnsanlara öz hüquq və əsas azadlıqlarından istifadə etməyə imkan verilməməsindən yaranan nəticələr vardır. Diskriminasiya cəmiyyətə də təsir edir, bu zaman stereotip inanclar və irqçi münasibətlər güclənir.

Diskriminasiya adətən savadsızlıq, önmühakimə və neqativ stereotiplərə əsaslanır. Bir çox insanlar onlara naməlum və ya qəribə görünən insan və hadisələrdən

qorxduqları üçün xarici görkəmi, mədəniyyəti və ya davranışı fərqli olan insana şübhə ilə yanaşır və ya zorakılıq göstərir.

İrqçiliyin tarixi kökləri bir insan qrupunun digər insan qrupu üzərində üstünlüyü haqqında düşüncələrdədir ki, bu, vaxtilə "aşağı" təbəqələrin üzərində hakimiyyəti doğrultmaq üçün istifadə olunurdu. Hal-hazırda demək olar ki, dünyanın hər yerində bu tərzdə düşüncələrdən imtina edilir, lakin irqçilik zəminində diskriminasiya hələ də mövcuddur. Diskriminasiyanın digər formaları kimi seksizmi, yaşa görə diskriminasiyanı, homofobiyanı, antisemitizmi, dini dözümsüzlüyü, ksenofobiyanı (başqa ölkə və xaricilərə qarşı qorxu və ya nifrət hissinin olmasını) göstərmək olar.

**Seqreqasiya** – qanunla və ya adətlə təsdiqlənmiş etnik qrupların parçalanmasıdır və diskriminasiyanın son həddinə çatan formalarındandır. Məsələn, Avropada seqreqasiyanın rəsmi formaları mövcud idi, yəhudiləri vaxtilə gettolarda təcrid edirdilər.

Bu gün Avropa ölkələrinin bəzilərində bir çox qaraçılar düşmən münasibət və ya iqtisadi seqreqasiya səbəbi ilə ayrıca icma kimi yaşamağa məcburdurlar.

*Açıq diskriminasiya* bir şəxsə və ya qrupa qarşı düşünülmüş formada yönəldilən diskriminasiyadır. Açıq diskriminasiya nümunəsi kimi müəyyən etnik qrupa mənsub olan uşaqların məktəbə götürülməməsi, mənzil kooperativinin immiqrantlara mənzil kirayə verməməsi göstərilə bilər. *Dolayı diskriminasiya* ilk baxışda neytral görünən siyasi kursun və ya tədbirin müəyyən azlıqlara aid olan insanları daim əlverişsiz vəziyyətə salması ilə əlaqəlidir. Məsələn, yanğınsöndürmə xidmətinə ancaq müəyyən olunmuş minimal boyu olan insanların qəbul edilməsi, qadın və immiqrantların avtomatik olaraq istisnası, uzun ətək və baş örtüyü olan insanların mağazaya işə götürülməməsi və s.

Diskriminasiyaya, xüsusən də dolayı və ya gizli diskriminasiyaya qarşı mübarizə aparmaq üçün bəzi ölkələr **müsbət diskriminasiya** və ya **affirmativ təsirdən** istifadə edir. Bu zaman tarixi və ümumi diskriminasiyaya məruz qalmış insan qruplarına süni olaraq üstünlük verilir. Məsələn, universitetə qəbul zamanı, rəsmi vəzifələrə təyinatda müəyyən qrupdan olan insanlar (etnik azlıqlar, kənd əhalisi) üçün kvota ayrılması. Məqsəd dolayı diskriminasiyanı kompensasiya etmək, sosial təmsilolunmanı balanslaşdırmaqdır. Digər hallarda müsbət diskriminasiya, məsələn, fiziki qüsurları və digər problemləri olan insanlar arasında eyni hüquq və imkanların yaradılması üçündür. Başqa müsbət diskriminasiya forması əvvəlki ədalətsizliyin aradan qaldırılması üçün edilənlərdir. Bütün bu tədbirlər və təcrübələr "qeyri-bərabərlik" vasitəsilə bərabərliyin bərqərar olması üçündür.

Hər dəfə biz insanları qruplara böldükdə, müxtəlif insan və qruplara müəyyən hüquq və öhdəliklər verdikdə biz özümüzə sual verməliyik: "Biz nəyə görə bunu edirik?

Bu həqiqətən lazımdırmı? Bu hamı üçün əlverişlidirmi?” Belə olmasa, müsbət diskriminasiya özü diskriminasiyanın bir formasına çevrilə bilər.

**İrqi əlamətə görə diskriminasiya**

**Rasizm** bir irqin digər irq üzərində üstünlüyünü şüurlu və ya şüursuz qəbul edən inamdır. Bu tərifə görə müxtəlif bioloji “irqlər” mövcuddur. Lakin son dövrlərdəki tədqiqatlar, xüsusən insan genomunu öyrənən tədqiqatlar, bunu inkar edir. Baxmayaraq ki, “irq” yalnız sosial konsepsiyadır, dünyada irqçilik çox inkişaf etmişdir. “Ali irqin” varlığına az insanın inandığı müasir dövrdə insanlar əsasən **mədəni irqçilik** və ya **etnosentrizm** ruhunda davranmağa davam edirlər. Yəni əsasən öz mədəniyyətlərini “ali mədəniyyət” hesab edir, digər xalqların mədəniyyət, ənənə, adət və tarixini özününkü ilə müqayisəedilməz sayırlar.

İrqçiliyin hər bir növü hakimiyyətlə bağlıdır. Bu hakimiyyət özünü ”ali” sayaraq hakimiyyəti az olan insan qruplarını diskriminasiya edir. Buna əsasən irqçiliyi xurafatın təcrübədə təzahürü hesab etmək olar.

**Sual:** *Sizin işlədiyiniz uşaqlara yaşadıqları cəmiyyətdəki irq və etnik qrupların müxtəlifliyini öyrənmək işində necə kömək edə bilərsiniz?*

Həm əvvəlki, həm də indiki irqçiliyin nəticələri ayrı-ayrı insanlar üçün olduğu qədər də ümumilikdə cəmiyyət üçün dağıdıcı təsirə malikdir. Rasizm kütləvi qırğınlara, genosidə gətirib çıxarmışdır. İrqçilik çoxluğu var-dövlət və hakimiyyət sahibi olan azlığın oyuncağına çevirmişdir.

**Etnik və mədəni əlamətə görə diskriminasiya**

Etnik və mədəniyyət amilinə görə diskriminasiya növü digər mədəniyyətlərlə müqayisədə özlərini ali hesab edir, bəzi mədəniyyətləri, xüsusən azsaylı xalqların mədəniyyətlərini “ibtidai” və lazımsız hesab edir. Məsələn, tarixən Avropada yəhudilər və qaraçılar bu diskriminasiya formasından daha çox əziyyət çəkmişdir. Antisemitizmin kökləri – yəhudilərə qarşı düşmənçilik mövqeyi, onların dini və etnik azlıq kimi qəbul edilməməsi orta əsrlərə gedib çıxır. O zaman yəhudilər Avropada yaşayan yeganə qeyri-xristian azlığı təşkil edirdi. Adətən bir çox peşə və sənətlə məşğul olma hüququ olmayan, xristianlardan aralıda – “getto”larda yaşamağa məhkum olunan, yüksək vergi verməyə məcbur edilən, mülkiyyət hüququ alınan, hətta yaşadığı ölkədən xaric edilən və ya ölüm cəzasına məhkum olunan yəhudilər əsrlər boyu ədalətsiz münasibət və xristian cəmiyyətinin xurafatına qarşı mübarizə aparıblar.

XX əsrin ortalarında yaranan faşizm irqi üstünlük ideologiyası ilə Avropada antisemitizmin kəskinləşməsinə səbəb olmuş və son nəticə kimi İkinci Dünya Müharibəsi zamanı altı milyondan artıq yəhudinin sistematik olaraq məhv edilməsinə, Holokosta gətirib çıxartmışdır. XXI əsrdə antisemitizmə hələ də son qoyulmamışdır. Yəhudi qəbirstanlıqları talan olunur, neonasist şəbəkələr açıq olaraq antisemitizmi təbliğ edirlər.

**Sual:** *İkinci Dünya Müharibəsi zamanı sizin ölkənizdə yaşayan yəhudilərin aqibəti necə olmuşdur?*

Qaraçılar Avropada əsrlər boyu yaşayırlar. Öz vətənləri olmayan qaraçılar öz dil və mədəniyyətlərini qoruyub saxlaya bilmişlər. Onlar dəmirçi, sənətkar, musiqiçi, tacir kimi işləyərək köçəri həyat tərzi sürmüşlər. Bütün mövcud olduqları dövr ərzində diskriminasiyaya, zorakı assimilyasiyaya və açıq quldarlığa məruz qalmışlar. XX əsrdə minlərlə qaraçı alman faşistlərinin genosidindən əziyyət çəkmiş, Şərqi Avropadakı kommunist rejimlərində zorakı sosiallaşmaya, elmə əsaslanan kapitalist cəmiyyətində isə iqtisadi təcridə məruz qalmışlar. Bu gün bir çox qaraçı uşaqları düşmən sosial əhatədə yaşayır. Bu mühitdə onlar bir çox əsas hüquqlardan, məsələn, təhsil, səhiyyə və mənzil hüququndan məhrumdur.

**Sual:** *“Sizin icmada qaraçılar varmı? Bu uşaqlar məktəbə gedirmi? Başqa uşaqlar qaraçı uşaqlarına necə münasibət göstərir?”*

**Ksenofobiya ilə bağlı diskriminasiya**

Güclənən qlobalizasiya və cəmiyyətin müxtəlifliyi bəzi insanlarda ksenofobiya – xaricilərə və xarici ölkələrə qarşı qorxu və onların qəbul edilməməsi reaksiyasını doğurur. “Əcnəbi” konsepsiyası cəmiyyətin özü tərəfindən yaradılmış obraz və ideyalara əsaslanır ki, bu obrazlar da bütün “əcnəbi” ideya və münasibətlərin dağıdıcı, mənəviyyatsız və s. olduğunu təbliğ edir.

**Sual:** *Öz ölkənizdən ksenofobiyaya aid nümunə gətirə bilərsinizmi? Ksenofobiya uşaqlara necə təsir edir? Onun təsirlərindən azad olmaq üçün siz nə edə bilərsiniz?*

İnsanların çoxu ksenofobiyanı qəbul etməsə də, buna insan hüquqlarına, mədəniyyətə zidd olan bir məsələ kimi baxsa da, ksenofobiya nadir hal deyil. Ksenofobiya ilə bağlı diskriminasiya hərəkətləri, məsələn, təhqir və zorakı hərəkətlər, sözsüz ki, insan hüquqlarının pozulması sayılır.

**Cinsi əlamətə görə diskriminasiya**

Avropada çətin sezilən və az-çox gizli olan cinsi mənsubiyyətə görə diskriminasiya demək olar ki, hər yerdə yayılmışdır. Bir çox ictimai institutlar, məsələn, kütləvi

informasiya vasitələri, ailə, məktəb və s. kişi və qadın barədə stereotip fikirləri qoruyub saxlayır və yayır. Qərb cəmiyyətində kişilərlə bağlı ənənəvi xüsusiyyətlər hakimiyyətlə bağlıdır: güclü, mərd, nüfuzlu, yaxşı pul qazanan, cəmiyyətin işində fəal olan, cəmiyyət tərəfindən qəbul edilən və s. Qadınların əsas xüsusiyyətləri isə gücsüzlüklə bağlıdır: asılı, nəvazişkar, passiv, ailənin qayğısına qalan. Qadınlara adətən rəhbər vəzifələr verilmir, onların işləri az qiymətləndirilir, az məvacib verilir. Gözlənilən stereotiplərə uyğun gəlmə-yən oğlan və qızlar tənqidə, məsxərəyə, hətta zorakılığa məruz qala bilər. Belə münaqişələr uşaqların cinsi identifikasiyasına mane ola bilər.

**Konfessional əlamətə görə diskriminasiya**

Avropada din azadlığı rəsmi olaraq qəbul edilib, lakin buna baxmayaraq dini diskriminasiya geniş yayılıb və bu, çox vaxt irqçilik və ksenofobiya ilə bağlıdır. Əgər keçmişdə Avropada protestantlar, katoliklər və pravoslavlar arasında, eləcə də "rəsmi" kilsələr və müxtəlif sektalar arasında münaqişələr baş verirdisə, indi, demək olar ki, xristianlar arasındakı bu fərqlər əhəmiyyətini xeyli itirmişdir. Hal-hazırda Avropada yəhudi, induist, buddist, baxaist, rastafarian, müsəlman və s. dini icmalar azlıqlar şəklində inkişaf edir. Bu artan dini müxtəlifliyə, eləcə də milyonlarla ateistlərə və qeyri-xristianlara bəzən məhəl qoyulmur.

**Sual:** *Sizin icmada hansı minoritar (azlıq təşkil edən) dinlər vardır? Bu dinlərin davamçıları öz ibadətlərini harada həyata keçirir?*

Artan islamofobiya xüsusi narahatlıq doğurur. İslamofobiya – Avropada xristian-lıqdan sonra ən geniş yayılmış, Balkan yarımadası, Qafqazın bəzi ölkə və regionlarında üstünlük təşkil edən islam dininə qarşı diskriminasiya, qorxu və nifrətin olmasıdır. Son illər ABŞ, İspaniya və İngiltərənin bəzi yerlərində olan hadisələrdən sonra islama qarşı yaranan bu hislərin bir çox Avropa cəmiyyətlərində kök salmış mənfi inanc və münasibəti üzə çıxardı. Bu münasibətin təzahürü kimi islamın rəsmi din olduğunun kifayət qədər qəbul edilməməsi, məscidlərin tikintisinə icazənin verilməməsi, müsəlman dini təşkilat və icmaların dəstəklənməməsi, hicab örtən qız və qadınlara qarşı qadağanın qoyulmasını göstərmək olar.

İslama qarşı ən böyük önmühakimələrdən biri islamın insan hüquqlarına zidd olmasıdır. Bunu təsdiq edənlərin bir çoxu əsasən müsəlman ölkələrində demokratiyanın olmamasını və insan hüquqlarının pozulmasını göstərirlər. Bu zaman onlar belə bir faktı nəzərə almırlar ki, din qeyri-demokratik dövlətin yaradılmasına səbəb olan bir çox faktorlardan sadəcə biridir.

Bir çox önmühakimələr islam haqqında biliklərin olmaması nəticəsində yaranır, belə ki, əksər insanlar islamı terrorizm, ekstremizm, bəzi ölkələrin siyasəti kimi qəbul edir, onlarda islam ancaq belə assosiasiya yaradır. Əslində isə İslam bir çox dinlər kimi dözümlülük, həmrəylik və yaxınlarına sevgini təbliğ edir.

**Sağlamlıq imkanları məhdud olan insanlara qarşı diskriminasiya**

"Sağlamlıq imkanları məhdud olan" anlayışı müxtəlif halların təsvirini nəzərdə tuta bilər: məhdud imkanlar fiziki, intellektual, sensor və ya psixososial, müvəqqəti və daimi, travma nəticəsində yaranan, yaxud irsi ola bilər. Sağlamlıq imkanları məhdud olan insanlar digər insanlarla eyni hüquqlara malikdir. Lakin bəzən onlar öz hüquqlarını tələb etdikdə müəyyən səbəblərə görə sosial, hüquqi və praktiki maneələrlə üzləşirlər. Buna səbəb məhdud imkanların yanlış qəbul edilməsi və onlara qarşı mənfi fikrin olmasıdır.

Bir çox insanlarda belə bir səhv fikir formalaşmışdır ki, sağlamlıq imkanları məhdud insanlar cəmiyyətin məhsuldar üzvü ola bilməz. Əsas mənfi düşüncə tərzi isə odur ki, bu insanlar "xəstədirlər" və ya səhhətləri pozulmuşdur, onlar zəif, köməksizdir və müalicəyə, sağalmağa, qayğıya ehtiyacları var.

Bundan fərqli olaraq pozitiv yanaşma məhdud imkanları insan müxtəlifliyinin təbii təzahürü kimi qəbul edir, buna şüurlu reaksiya verir, həmin insanların cəmiyyətin həyatında tam iştirakına imkan yaradan tədbirlər görür (məsələn, əlil arabası, onlara işin yerinə yetirilməsi üçün daha çox vaxtın ayrılması). Bu müsbət yanaşma onu nəzərdə tutur ki, cəmiyyət məhdud imkanları olan insanların adaptasiyasına cavabdehdir.

***Əlilliyin sosial modeli.*** Cəmiyyətin həyatında iştirak etmək və öz hüquqlarından istifadə etmək üçün sağlamlıq imkanları məhdud olan insanların qarşısında sosial və fiziki əhatənin yaratdığı maneələr aradan qaldırılmalıdır. Bura fiziki baryerlərin dəyişdirilməsi daxildir, məsələn, əlil arabalarının giriş imkanı olan binalar.

Əlilliyin sosial modeli ilə ayaqlaşmaq üçün sağlamlıq imkanları məhdud olan uşaqlar "xüsusi ehtiyacı olan uşaqlar" kimi qəbul edilir. Sosial institutlar bu tələbatları mütləq nəzərə almalı və onlara uyğunlaşmalıdırlar. Bu gün sağlamlıq imkanları məhdud olan bir çox uşaq adi məktəblərdə oxuyur.

"Xüsusi təlim ehtiyacı olan uşaqlar" termini məktəbdə ümumi inkişafdan geri qalan uşaqları da nəzərdə tutur. Məktəblər öz cədvəlini, təlim prosesini və onun təşkilini bu cür uşaqların öz potensialını aça bilmələri üçün uyğunlaşdırmalı, yaxud belə şagirdlərə əlavə dəstək verməlidir. Bu addımlar inklüziv təhsilə doğru hərəkatın bir parçasıdır.

**Sual**: *Sizin ölkədə sağlamlıq imkanları məhdud olan uşaqlar necə təhsil alır? Xüsusi təlim ehtiyacı olan uşaqlar üçün hansı tədbirlər görülür?*

2006-cı ilin dekabrında sağlamlıq imkanları məhdud olan insanların hüquqları haqqında BMT-nin Baş Assambleyası ilk beynəlxalq saziş – "Əlil Hüquqlarına aid Konvensiya" (İHK) qəbul etmişdir. Avropa Birliyi bu sazişi 2007-ci ilin mart ayında imzalamış və bunu "Yeni minilliyin İnsan Hüquqları haqqında ilk ümumi Deklarasiyası" elan etmişdir.

Konvensiya məhdud imkanları insan müxtəlifliyinin elementi kimi qəbul edir və əlilliyi olan insanların cəmiyyətə verdiyi töhfəni qeyd edir. O, iştiraka məhdudiyyət qoyulmasını qadağan edir, əlilliyi olan insanların cəmiyyətə fəal qoşulmasını dəstəkləyir. Bu konvensiyanın uzunmüddətli məqsədi – sağlamlıq imkanları məhdud olan insanlara qarşı cəmiyyətdəki münasibəti müsbətə doğru dəyişdirməklə bütövlükdə cəmiyyəti dəyişdirməkdir.

**Diskriminasiyanın qarşısını almaq məqsədi ilə təlim**

Müəllimlər hər bir uşaqda tolerantlığı, qeyri-diskriminasiya yanaşmalarını inkişaf etdirməyi, müxtəlifliyi rədd etmək əvəzinə qəbul edən və ondan səmərəli istifadə edən öyrədici mühitin yaradılmasını zəruri hesab edirlər. Uşaqlarla işləyən insanlar, o cümlədən uşaqlar özlərinin və başqalarının diskriminasiya xarakterli davranışlarına şüurlu yanaşmalıdırlar. Rollu oyunları və empatiyanı rəğbətləndirən məşğələlər uşaqlarda məlumatlılığın inkişafına köməklik edir, həmçinin diskriminasiyaya uğramış uşaqlarda möhkəmlik və özünəinam hissi inkişaf etdirir.

**Diskriminasiyaya qarşı Avropa mübarizə proqramları**

Avropa Şurası diskriminasiyaya qarşı mübarizə aparmaq üçün müxtəlif struktur və proqramlar təşkil etmişdir. 1993-cü ildə təşkil olunmuş İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyası Avropa Şurasına daxil olan ölkələrdə baş verən diskriminasiya və dözümsüzlüyə aid hadisələrin elmi araşdırma əsasında tədqiqatlarını nəşr etdirir. Həm də vətəndaş cəmiyyəti nümayəndələri ilə dəyirmi masalar təşkil edir və hökumətlərə ünvanlanan ümumi siyasət tövsiyələrini qəbul edir.

2007-ci ildə Avropa İttifaqının müstəqil orqanı olan Əsas Hüquqlara dair Agentlik yaradıldı. Bu agentlik iştirakçı ölkələr üçün əsas hüquqlara dair ekspert məsləhətləşmələri aparır. Bundan əlavə, agentliyin işi insan hüquqları məsələləri barədə cəmiyyəti daha çox məlumatlandırmaq və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq etməyə istiqamətlənmişdir.

Bir sıra Avropa ölkələri ayrı-seçkiliklə mübarizə və bərabərliyin təmin olunması üçün milli bərabərlik orqanları yaratmışlar.

**Sual:** *Ölkənizdə diskriminasiya ilə mübarizə aparmaq üçün hər hansı bir dövlət qurumu varmı?*

Avropa Şurası, həmçinin müxtəlif proqramların köməyi ilə maarifləndirmə işinin artırılması üzərində işləyir. "Hamı müxtəlifdir – hamı bərabərdir" devizi altında 2006-2007-ci illərdə keçirilmiş Avropa gənclər kampaniyası üç müxtəlif dəyərlərə həsr olunmuşdu: *müxtəliflik* (fərqli mədəniyyətlərin və ənənələrin zənginliyini qeyd etmək); *insan hüquqları*; *iştirak* (hər kəsə Avropanın quruculuq işində iştirak etmək, hər kəsə özü kimi olmaq, başqa cür olmaq və bərabər olmaq hüququ verilir).

Avropa Şurasının yaratdığı digər kampaniya qaraçılara qarşı ayrı-seçkilik məsələlərinə həsr olunmuş "Dosta" kampaniyasıdır. “Dosta” qaraçı dilində "kifayətdir" deməkdir. Bu maarifləndirici kampaniya qaraçıların digər millətlərlə yaxınlaşması istiqamətində iş aparır.

Buna baxmayaraq, ayrı-seçkiliyə qarşı mübarizə hələ də davam edir və Avropa Şurası bu istiqamətdə fəaliyyətini daha da genişləndirəcəkdir.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşları Xanım Qədimova, Aygün Əliyeva, Salatın Şamilova**

## Ətraf mühit

***"Dayanıqlı inkişaf – gələcək nəsillərin öz tələbatlarını ödəmək qabiliyyətini təhlükə altına atmadan bu günün tələbatlarını ödəyən inkişafdır"***

***Bruntland komissiyası, 1987-ci il.***

İnsanlar ətraf mühitin ayrılmaz hissəsidir, mühit isə insan hüquqları da daxil olmaqla hər sahədə insanların həyatına təsir edir. Ətraf mühit problemləri haqqında BMT-nin konfransında ətraf mühit və insan hüquqlarının qarşılıqlı əlaqəsi rəsmi olaraq qəbul edilimiş və təsdiqlənmişdir ki, "insanı əhatə edən təbii və süni mühit insanın rifahı üçün və əsas hüquqlarından, hətta yaşamaq hüququndan faydalanması üçün olduqca mühümdür".

Ətraf mühitlə bağlı olan hüquqlar ***kollektiv*** yaxud ***üçüncü nəsil hüquqlar*** kateqoriyasına daxildir. Bu hüquqlar bir insana deyil, bütöv cəmiyyətlərə, insan qruplarına təsir edən hüquqlardır və bura sülh, dayanıqlı inkişaf, ünsiyyət, bəşəriyyət mirasından istifadə hüququ daxildir. İnsan sağlamlığı üçün əlverişli mühit hüququ kimi kollektiv hüquqlar təsdiq edir ki, insan hüququ təkcə siyasi və sosial sistem daxilində insanlar üçün deyil, milli dövlətlər çərçivəsindən kənara çıxan və qarşılıqlı əlaqədə olan sistemlərdəki bütün bəşər övladları üçün keçərlidir. Məsələn, qlobal istiləşmə hansı ölkədə yaşamasından asılı olmayaraq bütün canlı varlıqlara təsir edir. Hər bir insan digər insanın dəyərli olduğunu qəbul etməklə yanaşı, bütün canlıların – bitkilərin, heyvanların, yaşadığımız ekosistemin – dəyərinə hörmətlə yanaşmalıdır.

Ətraf mühitin insan hüquqlarına həm mənfi, həm də müsbət təsiri var. O, qida, sənaye və inkişaf üçün xammal bazası olmaqla insan həyatının təmin edilməsində mühüm rol oynayır. Lakin yüksək radiasiya yaxud içməli suyun çirklənməsi kimi ətraf mühitin zərərli təsirləri insanın yaşamaq hüququna təhlükə yarada bilər. Çirklənmiş torpaq, hava, qida və su resurslarının təsirinə məruz qalanda insan hüquqları pozulur və nəticədə insanları xəstəlik, genetik pozuntular, yaşam vasitələrinin itkisi, hətta ölüm hədələyir. Əksər insan hüquqlarında mühüm ekoloji amillər vardır: sağlamlıq hüququ, təhlükəsiz iş şərati hüququ, insanın sağlamlığı üçün əlverişli yaşayış yeri və qida hüququ, uyğun yaşayış standartları və əmək hüququ.

### Avropada ekoloji problemlər

Avropanın qarşısında gələcək nəsillərə təsir göstərə biləcək ekoloji problemlər var:

- Ağır sənaye və mədən yanacağı ilə **havanın çirklənməsi** insan sağlamlığına və bütün canlı varlıqlara birbaşa təsir edir.
- Qlobal istiləşmə və istixana effekti nəticəsində baş verən **iqlim dəyişiklikləri** qasırğalara, quraqlıq və əkin torpaqlarının itkisinə gətirib çıxarmaqla gələcək nəsillərə təsir göstərə bilər.
- **Suyun kəmiyyət və keyfiyyət məsələsi** ciddi problemdir.

- **Müasir kütləvi istehlak, sənaye və məişət tullantıları** ətraf mühitə olduqca mənfi təsir göstərir; məsələn, şəxsi avtomobillərdən, polietilen paketlərdən, qablaşdırmadan çox istifadə edilməsi.
- **Genetik Modifikasiya olunmuş Orqanizmlər (GMO)** modifikasiya olunmuş genlərin köçürülməsi yolu ilə genetik materialı dəyişdirilmiş orqanizmlərdir. Onların insan sağlamlığına, ətraf mühitə və əkin torpaqlarının ekoloji təmiz istifadəsinə zərəri uzunmüddətlidir.

**Uşaqlar və ətraf mühit**

2004-cü ildə Avropa nazirləri Avropa uşaqlarının sağlamlığına daha çox təsir göstərən ekoloji risk faktorlarına ünvanlanmış "Ətraf mühit və uşaqların sağlamlığı" adlı Avropa fəaliyyət planını qəbul etdilər. Bu fəaliyyət planının diqqət mərkəzində Avropa regionu üçün əsas olan dörd prioritet vəzifə durur:

- Su təhlükəsizliyinin və sanitar şərtlərin təmin edilməsi;
- Travmalardan müdafiənin və zəruri fiziki aktivliyin təmin edilməsi;
- Qapalı və açıq məkanlarda təmiz havanın təmin edilməsi;
- Ətraf mühitdə olan kimyəvi maddələrin aradan qaldırılmasına çalışmaq.

Uşaqların ətraf mühit problemlərini, ekologiyanın insan hüquqları ilə əlaqəli olmasını anlamaları üçün onlar arasında maarifləndirici işlər aparmaq bu məqsədlərə nail olmaq yolunda mühüm addımdır.

**Sual**: *Sizin icmada hansı əsas ekoloji problemlər var? Bu problemlərin həllində uşaqlar necə iştirak edə bilərlər?*

Uşaqlar ətraf mühitin müdafiə edilməsində və yaxşılaşdırılmasında fəal rol oynaya bilərlər. Fərdi səviyyədə onlar həyat tərzlərinin ətraf mühitə necə təsir etdiyini qiymətləndirərək dəyişikliklər edə bilərlər (məsələn, suya, elektrik enerjisinə, qida məhsullarına qənaət edərək). Yerli səviyyədə onlar öz evlərinin, məktəb və gənclər təşkilatının ekoloji cəhətdən daha əlverişli yerə çevrilməsi üçün planların hazırlanmasında iştirak edə bilərlər (məsələn, təhlükəsiz məhsullardan istifadə edilməsi, tullantıların məhv edilməsi, müxtəlif materialların təkrar emalı). Uşaqlar yerli, regional və milli cəmiyyətlərin siyasət və təcrübəsini qiymətləndirə, onların yaxşılaşması üzrə təkliflər verə bilərlər. Onlar kampaniyalarda və ümumi bayramlarda, məsələn, Yer Günü və Ümumdünya Ətraf Mühit Günündə iştirak edə bilərlər.

Ümumdünya Ətraf Mühit Günü BMT-nin Baş Assambleyası tərəfindən 5 iyun 1972-ci ildə təsdiq edilmişdir. Onu müxtəlif cür bayram etmək olar: məsələn, küçə yürüşləri, velosipedlə təntənəli gəzinti, "yaşıl" konsertlər, məktəblərdə esse və ən yaxşı plakat yarışı, ağacların əkilməsi, təkrar emal, sanitar təmizlik üzrə kampaniyalar. Hər il Ümumdünya Ətraf Mühit

Gününün xüsusi mövzuları olur, məsələn, “Əriyən buzlar – qaynar mövzudur?”, “Quraqlıq rayonları səhralığa çevirməyin!”, “Yaşıl şəhərlər: planet üçün plan!”. 22 aprel Yer Günü ətraf mühitin qorunması və insan hüquqlarının müdafiəsi üzrə digər təşkilatlarla birgə (məsələn, “Sierra” və “Amnesty İnternational” klubu) “Yer Günü“ şəbəkəsi tərəfindən koordinasiya edilir.

**Dayanıqlı inkişaf**

Hal-hazırda biz BMT-nin Baş Assambleyasının 2005-2014-cü illər üçün elan etdiyi *Dayanıqlı inkişaf naminə təhsil* onilliyində yaşayırıq**.** “Dayanıqlı inkişaf” nə deməkdir? 1980-ci illərdə işləyən Bruntland komissiyası onu “Gələcək nəslin öz ehtiyaclarını ödəmək qabiliyyətini təhlükə altına atmadan, bu günün tələbatlarını ödəyən inkişaf” kimi müəyyən edirdi. 1992-ci ildə Rio de Janeyroda “Yer kürəsi sammitində” qəbul edilmiş “XXI əsrin gündəliyi” adlı sənəd dayanıqlı inkişaf üzrə digər bir beynəlxalq sənəddir. Sənəd sonradan 172 dövlət tərəfindən qəbul edilmişdir. 2002-ci ildə sabit inkişaf üzrə Ümumdünya sammitində müzakirə edilmiş bu hərtərəfli fəaliyyət planının həyata keçirilməsi dövlətlərin, QHT və beynəlxalq təşkilatların birgə işi vasitəsilə beynəlxalq, milli və yerli səviyyədə baş verir. Dayanıqlılıq sadəcə ətraf mühitin qorunması deyil, dünyaya və insanlara hörmət hökm sürən həyat tərzinin öyrədilməsidir. Ona görə də *Dayanıqlı inkişaf naminə təhsil* gələcək nəsilləri inkişaf imkanlarından məhrum etmədən indiki zamanda inkişafımıza kömək edəcək dəyərlər, davranış və biliklərin öyrədilməsi deməkdir.

Uşaqlar öz əhatələrini öyrənərək və öyrəndiklərini qlobal səviyyədə genişləndirərək insan fəaliyyətinin ətraf mühitə uzunmüddətli təsirini anlamağa başlayırlar. Məsələn, əgər bələdiyyə şəhərdə yaşıllıq zonasının yerində yol tikməyi qərara alırsa, uşaqlar oyun meydançasından və təbiəti müşahidə imkanlarından məhrum ola bilər. Bizdən sonra gələcək nəsillərə qayğı vasitəsilə biz planetimizi yaxşı vəziyyətdə saxlaya bilərik.

Ətraf mühitin qorunması üzrə Avropa bürosu təxminən 150 QHT-ni birləşdirən şəbəkədir. O, Avropada dayanıqlı inkişaf ilə bağlı problemlər üzrə məlumatlandırma işlərini genişləndirir, əhali və dövlətləri daim təkmilləşməyə sövq edir.

**İnsan hüquqlarını müdafiə alətləri**

**Avropa Şurası**

İnsan hüquqları üzrə Avropa Konvensiyasında ətraf mühit məsələlərinin qeyd olunmaması təəccüb doğurmamalıdır. Çünki o, 1950-ci ildə – ətraf mühitin pisləşməsinin uzunmüddətli nəticələri haqqında çox az adamın təsəvvürü olan bir zamanda qəbul edilmişdir. Konvensiyada “ölkənin ekoloji rifahına deyil, “ölkənin iqtisadi rifahına” bir çox istinadlar var. Həmçinin “sağlamlığın müdafiəsi”nin vacibliyi vurğulanır. Baxmayaraq ki, İnsan Hüquqları üzrə

Avropa Məhkəməsi tərəfindən insan hüquqlarının ekoloji aspektlərinin qəbul edilməsi üçün cəhdlər edilir, lakin konvensiyada insanın, əhalinin sağlamlığının qorunmasında əlverişli ətraf mühitin vacibliyi qeyd edilmir.

**Birləşmiş Millətlər Təşkilatı**

Avropa Konvensiyası kimi insan hüquqları haqqında ilkin sənədlər – ***İnsan hüquqları Bəyannaməsi*** və iki ***Pakt*** ətraf mühitin vacibliyinin dərk edilmədiyi bir zamanda qəbul edilmişdir və bu səbəbdən ona istinad etmir. Lakin 1989-cu ildə Uşaq hüquqları haqqında Konvensiyanın 24-cü maddəsi uşağın sağlamlıq hüququ kontekstində ətraf mühitə ayrıca istinad edir və ölkələrə çağırışlar səsləndirir:

"*xəstəliklərə və doyunca yeməməyə qarşı mübarizə aparılsın, o cümlədən ilkin tibbi-sanitar yardım çərçivəsində, digər vasitələrlə yanaşı, asanlıqla əldə olunan texnologiyanın tətbiq edilməsi yolu ilə kifayət qədər qidalı ərzaq və təmiz içməli su verilməsi təmin edilsin, ətraf mühitin çirklənməsi təhlükəsini və riskini nəzərə alaraq bununla mübarizə aparılsın*"

Daha sonra 24-cü maddənin e bəndində sanitar maarifləndirmə çərçivəsində uşaqlar və böyüklər üçün ekoloji təhsilə çağırış edilir. Bu həm də 29-cu maddənin e bəndinə – hər bir uşağın hüququ olan keyfiyyətli təhsilin vəzifələrinə daxildir.

"*Ətraf mühitə hörmətin tərbiyə edilməsi*"

İnsan sağlamlığı üçün əlverişli olan mühitdə yaşamaq hüququnun tədricən tanınması onu göstərir ki, yeni hüquqların sənədlərdə tanınması, tərif verilməsi və nəhayət kodlaşdırılması vasitəsilə **insan hüquqları çərçivəsi** genişlənir. Hal-hazırda ekoloji hüquqlar üzrə konvensiyanın üzərində hazırlıq komitəsi işləyir. Bu, hökumətlər, hökumətlərarası və qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələrə və konsensusa əsaslanan, uzun müzakirə tələb edən prosesdir.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşı Kəbirə Hüseynova**

## GENDER BƏRABƏRLİYİ

*Pedaqoqlar şəxsi gender stereotiplərini tanımalı və öz tədris metodikalarının, qız və oğlanlarla ünsiyyət və əməkdaşlıqlarının gender bərabərliyi ideyalarını hansı dərəcədə əks etdirməsi haqqında düşünməlidirlər.*

**Gender bərabərliyi nədir?**

İnsan hüquqları ilə əlaqəli olan gender bərabərliyi cəmiyyətin bütün sahələrində, eləcə də şəxsi həyatda kişi və qadına bərabər imkanların və iştirak hüququnun verilməsidir. Bu o demək deyil ki, hər iki cins eynidir, bu, daha çox "hər ikisi eyni hüquqa və ləyaqətə malikdir" deməkdir. Bütün insan hüquqları kimi, gender bərabərliyinə görə də mübarizə aparmaq, onu müdafiə etmək və rəğbətləndirmək lazımdır.

Yüz əlli ildən artıqdır ki, emansipasiya uğrunda qadın hərəkatı əksər qadınlara qarşı geniş yayılmış diskriminasiyanın kökünün kəsilməsi, cəmiyyətin həyatında kişi və qadınların daha bərabərhüquqlu iştirakını diqqət mərkəzində saxlayır. Nəticədə bu gün Avropada yaşayan qadın və kişilərin həyatı əvvəlki əsrə nisbətən əhəmiyyətli dərəcədə fərqlənir. Qadınların ən çox uğur qazandığı sahələr:

- bərabər təhsil imkanı;
- əmək bazarında qadınların geniş təmsil olunması;
- qadınların iqtisadi vəziyyəti;
- məişət işlərinin bölüşdürülməsi və uşaqlara qulluq;
- ailənin strukturu;
- gənclərin mədəniyyəti;
- yeni informasiya və kommunikasiya texnologiyaları.

Cəmiyyətdə münasibətlərə və gender bərabərliyi sahəsində əhəmiyyətli inkişafa baxmayaraq, Avropada hələ də bu sahədə bəzi maneələr mövcuddur.

**Gender nədir?**

Cins və gender eyni məfhum deyil. Cins – bioloji amildir. Bütün insanlar 2 bioloji fərd olaraq dünyaya gəlirlər: qız və oğlan. Gender isə sosial vəziyyətdir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bunu belə izah edir:

*"Cins" – kişi və ya qadınları müəyyən edən bioloji və fizioloji xarakteristikaya aiddir.*

*"Gender" – müəyyən cəmiyyətdə kişi və qadına xas olduğu hesab edilən sosial rollar, davranış, fəaliyyət növləri, xüsusiyyətlər deməkdir.*

*Başqa sözlə:*

*"Kişi" və "Qadın" – cins, "maskulin" və "femin" isə gender kateqoriyasıdır.*

Cinsi xüsusiyyətlərə aid nümunələr:

- qızlarda menstruasiya tsiklı başlayır, oğlanlarda isə yox;
- oğlanlarda yumurtalıqlar xaricdədir, qızlarda isə qarın boşluğunda;
- qadınlar körpəni ana südü ilə qidalandıra bilər, kişilər isə yox;
- cinsi yetişkənlik dövründən sonra qızlara nisbətən oğlanların əksəriyyətində bədənin əzələ qüvvəsi artır.

Gender xüsusiyyətlərinə aid nümunələr:

- Avropada qadınlar eyni işə görə kişilərə nisbətən az məvacib alırlar;
- Bir çox ölkələrdə qızlar daha çox rəqslə məşğul olmağa, oğlanlar isə daha çox futbol oynamağa meyilli olurlar;
- Bütün dünyada qadınlar və qızlar, kişi və oğlanlara nisbətən daha çox ev işləri ilə məşğul olurlar;
- oğlanlar qızlara nisbətən daha çox fiziki cəzalara məruz qalırlar.

Eyniliyin və fərdiliyin mühüm hissəsi olan gender rolları sosiallaşma vasitəsi ilə formalaşır. Bu gün, nəinki ailə, məktəb və iş yerləri, həmçinin yeni informasiya texnologiyaları, musiqi və filmlər də daxil olmaqla kütləvi informasiya vasitələri sosiallaşmaya təsir göstərir. Ənənəvi ilə yanaşı, yeni sosiallaşma qüvvələri də gender stereotiplərinin saxlanmasına və ötürülməsinə xidmət edir.

**Gender bərabərliyi Avropada kifayət qədər yayılmamışdır**

Ənənəvi gender stereotipləri Avropa mədəniyyətində dərin iz salmışdır və gündəlik təcrübədə özünü biruzə verir. İsveçin keçmiş gənclər və demokratiya naziri Britta Leyon öz təqdimatında bu bərabərsizliyin Avropa gəncləri arasında necə təzahür etdiyini göstərmişdir:

- oğlanlar qızlara nisbətən təxminən 20% çox məvacib alırlar;
- əgər gənclər birlikdə yaşayırlarsa, qızlar oğlanlara nisbətən iki dəfə çox ev işləri ilə məşğul olurlar;
- bəzi ölkələrdə gənc ataların çoxu uşağa qulluğa görə məzuniyyət götürürlər.

Kişilər mühüm məsələlərin həllində qadınlarla müqayisədə daha çox iştirak edirlər. Bəzi müsbət tədbirlərə baxmayaraq, qadınların siyasi fəaliyyəti hələ də əhəmiyyətsiz olaraq qalır: Avropada parlament üzvlərinin ancaq 21%-ni qadınlar təşkil edir, bu, Türkiyədə 4,4%, İsveçdə isə 45% təşkil edir. Nə qədər ki, kişilər siyasətdə, maliyyə sahəsində və kütləvi informasiya vasitələrində əsas mövqe tuturlar, siyasi proqram və ictimai diskursları onlar təyin edirlər. Ümumilikdə kişi cinsi hələ də normativ və standart sayılır.

**Gender stereotipləri**

Cəmiyyətimizdə bir çox institutlar ənənəvi gender stereotiplərini möhkəmləndirirlər. Kütləvi informasiya vasitələrində qadınlar özünü qurban verən, qayğı göstərən, başqaları haqqında fikirləşən bir varlıq kimi göstərildiyi halda, kişilər güclü, ağıllı, təşəbbüskar və bütün sahələrdə uğur qazanan kimi təsvir olunurlar. Kütləvi informasiya vasitələri kişilərin gücünü və müvəffəqiyyətini vurğuladığı halda, qadını, hətta uğurlu qadını ilk növbədə xarici görünüşünə görə qiymətləndirirlər. Beləliklə, televiziya, radio, məktəb dərslikləri, qəzet və jurnallar, filmlər daxil olmaqla kütləvi informasiya vasitələri kişi və qadın haqqında stereotipləri qoruyub saxlayır və yayırlar.

Kütləvi informasiya vasitələri ilə birlikdə ailə, məktəb, əyləncə mərkəzləri də gender stereotiplərinin möhkəmləndirilməsi üçün məsuliyyət daşıyır. Aparılan araşdırmalar göstərir ki, məktəbdə müəllimlər oğlanlara aktivliyinə, aqressivliyinə, özünə əminliyə görə müsbət qiymət verdikləri halda, qızları daha çox zərifliyinə, passivliyinə, sözə qulaq asmalarına, rəhmli olmalarına görə dəyərləndirirlər. Gender stereotipləri məktəb illə-rində formalaşır deyə, bir çox qızları müstəqilliyinə, rəqabət marağına, ictimai həyatda fəallığına görə rəğbətləndirmirlər. Stereotip gözləntilərə uyğun gəlməyən qızlar tənqidə, qınağa və hətta zorakılığa məruz qala bilər.

Ənənəvi gender stereotipləri qızlarla bərabər oğlanlara da toxunur. Ailələrin özünəməxsus xüsusiyyətləri, kişi işsizliyi və qadının cəmiyyətdə genişlənən rolu oğlanlardan gözlənilən mübarizə aparmaq, qalib gəlmək kimi xüsusiyyətlərlə uyğun gəlmir. Bu təzadlar oğlanın cinsi identifikasiyasının inkişafına mane olur. Kişi haqqında stereotiplərə uyğun olmayan gənc aqressiyaya, təcridə və diskriminasiyaya məruz qala bilər.

**Sual:** *Cəmiyyətimiz ənənəvi gender stereotiplərinə nə dərəcədə uyğundur? Bu stereotiplər övladlarımızın və bizim həyatımıza necə təsir göstərir?*

**Gender zorakılığı**

Gender zorakılığı – kişi və qadınlar arasında fərqi istismar edən, differensial gender qeyri-bərabərliyinin nəticəsi olan, fiziki, yaxud psixoloji sağlamlığa mənfi təsir göstərən fiziki, cinsi, psixoloji, iqtisadi, yaxud sosiomədəni zorakılıq formalarının təsviri üçün istifadə oluna biləcək termindir. Gender zorakılığı qadınlara və kişilərə təsir göstərə bilər, lakin o, qadınlara və qızlara daha çox təsir göstərdiyindən gender zorakılığı daha çox "qadına qarşı zorakılıq" kimi təhrif edilir.

Gender zorakılığı hər bir ölkədə mövcuddur və mədəni, sinfi, təhsil, etnik, yaxud yaranma sərhədi yoxdur. Statistika göstərir ki, Avropada qadın və qızların 12-15%-i

məişət zorakılığı ilə qarşılaşırlar. Qadınlara qarşı aqressiya və cinsi zorakılıq təhsil müəssisələri və iş yerləri daxil olmaqla, müxtəlif həyati situasiyalarda baş verir. Məsələn, ənənəvi “kişi ləyaqətinə” malik olmayan oğlanlar və kişilər öz ünvanlarına istehza və zorakılıqla qarşılaşırlar.

Gender zorakılığı qadın və kişilərin bərabərliyinə ciddi maneələr yaradır və bu, insan hüquqlarının pozulmasıdır. Gender zorakılığı aktı çox vaxt qurbanın yaxın qohumları tərəfindən həyata keçirilir. Dövlət müəssisələri gender zorakılığının bütün formalarının qarşısının alınması üzrə işlər görməli və oxşar situasiyalara görə məsuliyyət daşımalıdır. Bu məqsədlərə çatmaq üçün insan hüquqları üzrə mühüm sənədlərdən biri, hazırda 185 ölkənin imzaladığı, qadınlara qarşı diskriminasiyanın bütün formalarının aradan qaldırılması haqqında BMT-nin Konvensiyasıdır.

Bu sənəddə deyilir: “Konvensiya ictimai-siyasi həyatda qadınlara bərabər iştirak imkanları (təhsil, sağlamlıq, əmək, səsvermə və seçilmə hüququ daxil olmaqla) verilməsinin bünövrəsini təmin edir. İştirakçı dövlətlər qadınların bütün insan hüquqları və əsas azadlıqlardan istifadəsini təmin etmək üçün bütün qanunverici və digər tədbirlərin görülməsinə razılıq vermişdir.”

**Gender təhsili nədir?**

Gender təhsili, xüsusilə də həm qızlara, həm də oğlanlara ünvanlanmışdırsa, müasir cəmiyyətdə gender bərabərliyinin yaranmasına imkan verən müsbət qüvvə ola bilər. Gender stereotiplərini məhdudlaşdıran gender təhsili kişi və qadınların əməkdaşlıq, hörmət ruhunda birgə yaşadığı əsl vətəndaş bərabərliyinə nail olmaqda uşaqlara kömək edir.

Gender təhsili cinslərin rollarına diqqətin cəlb edilməsindən başlanır. Bu, gender stereotiplərinin mənfi təsirinin tanınması və onunla əlaqəli bərabərsizliyin aradan qaldırılmasıdır. Qızlar üçün gender təhsilinin nəticəsi özünə qarşı böyük inam, təkid, müstəqillik və ictimai fəaliyyətdə iştirakdır. Oğlanlar üçün gender təhsilinin nəticəsi isə uğursuzluq qorxusunun aradan qaldırılması, aqressiyaya ilə mübarizə bacarığı, sosiallaşma və məsuliyyət səviyyəsinin yüksəlməsi, şəxsi sferaya daha çox diqqətdir.

Gender təhsilinin mühüm funksiyası faktların rəylərdən ayrılmasıdır. Hadisələrin və ya şəxsi davranışın təhlili ilə uşaqlar bu faktı norma kimi qəbul edərlər ki, qızlar özlərini oğlanlar kimi apara bilər, oğlanlar isə həssas və kövrək ola bilər. Bütün uşaqlar özlərini müxtəlif keyfiyyətlərə malik olan unikal və ali quruluşlu şəxsiyyət kimi qəbul etməlidirlər. Cinsi rollarla bağlı stereotiplər və ənənəvi gözləntilər qızlarda olduğu kimi, oğlanlarda da potensialın reallaşmasına, şəxsiyyətin inkişafına maneçilik törədə bilər.

Gender təhsili – təhsilin müəyyən növləri ilə məhdudlaşdırılmayan fasiləsiz prosesdir. Müəllimlər cinsi rolların stereotipləşməsindən qaçmalı, qızlara və oğlanlara fəaliyyətin istənilən növlərində bərabər imkanlar verməlidirlər. Qızları idmanla məşğul olmağa cəlb etməli, həmçinin oğlanları qayğı göstərmək fəaliyyətinin bütün növlərində iştirak etməyə yönəltməlidirlər. Həm oğlanlar, həm də qızlar xorda iştiraka, rəqslərə, dülgərlik işinə, yeməklərin hazırlanmasına, turist gəzintisinə, şahmat oyununa cəlb edilməlidirlər. Qızlar öz nailiyyətlərinə görə, oğlanlar isə qayğıkeşlik və həmrəylik hisslərinə görə müsbət cavab reaksiyası almalıdırlar.

Gender təhsilinin digər mühüm məqsədi ənənəvi qadın fəaliyyəti olan analığın və eləcə də qayğı, diqqət, əməkdaşlıq və dözümlülük kimi keyfiyyətlərin sosial dəyərlərinin tanınmasında uşaqlara yardım etməkdir. Bu tanınma kişilər və qadınlar arasında həqiqi partnyorluğa gətirib çıxarır ki, bu da gender təhsilinin əsas məqsədidir. Beləliklə, uşaqlar öyrənir ki, kişi və qadınların ailəyə və cəmiyyətə töhfəsi eyni qədər vacibdir, qadınlar və kişilər bərabərhüquqludur və eyni məsuliyyəti daşıyırlar.

Gender təhsilinin səmərəli olması üçün pedaqoqlar şəxsi gender stereotiplərini tanımalı və öz tədris metodikalarının, qız və oğlanlarla ünsiyyət və əməkdaşlıqlarının gender bərabərliyi ideyalarını hansı dərəcədə əks etdirməsi haqqında düşünməlidirlər.

**Müvafiq hüquq mühafizə alətləri**

**Avropa Şurası**

Avropa Şurası insanların əsas hüququ kimi kişi və qadınların bərabərliyini tanıyır. **İnsan hüquqlarının qorunması üzrə Avropa Konvensiyasının** 14-cü maddəsində bildirilir: **"**Hüquq və azadlıqlardan istifadə cins, irq, dil, din, siyasi və ya digər əlamətlər üzrə heç bir diskriminasiya olmadan təmin edilməlidir**."** Bu maddə müxtəlif təşkilatların fəaliyyəti üçün əsasdır. **Qadın və kişi bərabərliyinin təminatı üzrə Koordinasiya komitəsi** müvafiq hüquqi sənədlər üzrə qərar qəbul edən, siyasi tədbirləri və strategiyaları təyin edən, təhlil, tədqiqat və qiymətləndirməni həyata keçirən, qadın və kişilərin bərabərhüquqluluğunu təmin edən cavabdeh orqandır.

Avropa Şurası "Qadınlara qarşı məişət zorakılığını dayandıraq" kimi müxtəlif tədbir və kampaniyaların köməyilə gender zorakılığına qarşı fəal mübarizə aparır. Şuranın "Avropanı uşaqlarla və uşaqlar üçün qururuq" proqramı uşaqlara qarşı cinsi zorakılığın müxtəlif formalarına – insest, pornoqrafiya, fahişəlik, insan alveri və həmyaşıdı tərəfindən zorlamaya qarşı istiqamətlənmişdir.

**Birləşmiş Millətlər Təşkilatı**

"**Qadınlara qarşı diskriminasiyanın bütün formalarının ləğvi barədə Konvensiya**" onlara qarşı diskriminasiyanı qadağan edən, kişi və qadın bərabərhüquqluluğunun

xeyrinə addım atılmasına dövlətləri məcbur edən ilk beynəlxalq hüquqi sənəddir. Bu sənəd 1981-ci ildə qüvvəyə mindiyi andan etibarən siyasətdə, səhiyyədə, təhsildə, qanunvericilikdə, nikahda və ailə münasibətlərində qadın hüquqları uğrunda mübarizə aparır. Konvensiyanı ratifikasiya etmiş ölkələr onu tətbiq etməyə borcludurlar. Hökumətlər dörd ildən bir bu sahədə görülmüş işlər barədə hesabat verməlidir. 2000-ci ildən etibarən qadınlar və qadın qrupları hüquqlarının pozulması ilə bağlı Komitəyə şikayətlə müraciət edə bilər. Ciddi, yaxud davamlı pozuntular zamanı Komitə yoxlama təşəbbüsü göstərə bilər.

**Sual:** *Sizin ölkəniz “Qadınlara qarşı diskriminasiyanın bütün formalarının ləğvi barədə Konvensiya”ya qoşulubmu? Əgər elədirsə, son hesabat nə vaxt verilib? Bəzi qruplar hökumətin qərarlarından fərqlənən “müstəqil hesabat” veriblərmi? Aydınlaşdırmağa çalışın.*

2000-ci ildə BMT minilliyin bəyannaməsində verilmiş inkişaf məqsədlərinin həyata keçirilməsinə başladı. Əsas məsələlərdən biri 2005-ciilədək ibtidai və orta təhsildə, 2015-ci ilədək isə bütün səviyyələrdə cinslərin qeyri-bərabərliyinin ləğvidir. Bu proqram Avropa üçün əhəmiyyətlidir, çünki təhsilə bərabər çıxış imkanlarının olması tələbinə və qərarların qəbul edilməsi proseslərində qızların iştirakına tam olaraq riayət edilmir.

**Uşaq hüquqları haqqında Konvensiya**

Uşaq hüquqları haqqında Konvensiyanın 2-ci maddəsində təsdiq edilir ki, Konvensiyada zəmanət verilmiş hüquqlar hər hansı bir diskriminasiyasız təmin edilir. Maddə 18 valideynlərin ailədə uşaqlara qayğı göstərməsinə və onların balanslaşdırılmış roluna həsr edilmişdir, orada təsdiq edilir: “Hər iki valideyn uşaqların tərbiyəsinə görə cavabdehlik daşıyır və onların qayğısının əsasını uşağın maraqlarını ən yaxşı şəkildə qarşılamaq təşkil etməlidir”.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşları Əsgər Əsgərov və Kəbirə Hüseynova**

# İştirak

*"Həm böyüklər, həm də uşaqlar üçün iştirak mədəniyyətinin inkişafı demokratiya sahəsində çox önəmli dərs ola bilər."*

İştirak – insan hüququnun mühüm prinsipi və faktiki olaraq hamı üçün vətəndaş fəallığının həyata keçirilməsidir. Uşaqların iştirak hüquqlarının təsdiq olunması Uşaq hüquqları haqqında Konvensiyanın rəhbər prinsiplərindən və bu sahədə daha qabaqcıl innovasiyalarından biridir.

Konvensiyada uşaqların iştirak hüququnun bir neçə aspekti aydın şəkildə ifadə olunur:

- Onlara aidiyyəti olan bütün məsələlərdə şəxsi fikirlərini bildirmək hüququ (maddə 12);
- İstənilən obyektiv informasiyanı axtarmaq və əldə etmək hüququ da daxil olmaqla ifadə azadlığı (maddə 13);
- Fikir, vicdan və din azadlığı (maddə 14);
- Birləşmək azadlığı (maddə 15);
- Milli və beynəlxalq mənbələrdən məlumat almaq və materiallara giriş hüququ (maddə 17);
- Cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ (maddə 31);

**Nəyə görə uşaq iştirakı vacibdir?**

Səmərəli iştirakın vacib ilkin şərti uşaqların qərar qəbul etmə bacarıqlarına böyüklərin hörmət etməsi və onların tərəfdaş kimi qəbul edilməsidir. Valideynlərin uşaqlar üzərində hakimiyyəti və nəzarətinə əsaslanan ənənəvi münasibətlərin yerinə demokratik tərəfdaşlıq meydana gəlir. Əks halda uşaqların iştirakı sadəcə simvolik olur: uşaqlar öz fikirlərini bildirə bilirlər, lakin onların fikirlərinin qəbuluna və istifadəsinə təsir edə bilmirlər.

İştirakın mahiyyəti "İştirak pilləkəni"ndə yaxşı izah olunmuşdur. Rocer Hart səkkiz pilləli iştirak pilləkənini təsvir edir. Birinci üç pilləyə manipulyasiya, dekorasiya və formal iştirak daxildir ki, bunlar bütün prosesi korlayan yanlış iştirak üsullarıdır. Həqiqi iştirak formalarına daxildir: uşaqlara müəyyən rollar verən "məsələnin qoyuluşu

və məlumatlandırma” mərhələsi və böyüklərin həyata keçirdiyi proqramlara uşaqların məsləhətlər verdiyi və onların fikirlərinin nəticəyə necə təsir edəcəyini anladıqları “məsləhət və məlumatlandırma” mərhələsi. Ən yüksək mərhələlər hesab edilir: “Böyüklərin təşəbbüsü, uşaqlarla birlikdə qərar qəbulu”, “Uşaqların təşəbbüsü və idarəçiliyi” və “Uşaqların təşəbbüsü və böyüklərlə birgə qərarların qəbul edilməsi”. Bu son mərhələ uşaqlara bir-birinin məlumatlarının əlçatan olması və həyat təcrübəsinin öyrənilməsinin əsasında böyüklərlə birgə qərar qəbul etmə, birgə idarə etmə və birgə məsuliyyət daşıma imkanı yaradır.

**İştirak pilləkəni**

<table>
<tr><th colspan="3">Nümunələr</th></tr>
<tr><td>Uşaqlar öz məktəblərində problemi təyin edir, onun həlli layihəsini hazırlayır və onun yerinə yetirilməsinə böyükləri inandırırlar.</td><td>Uşaqların təşəbbüsü və böyüklərlə birgə qərarın qəbul edilməsi</td><td rowspan="4">İştirakın səviyyəsi</td></tr>
<tr><td>Uşaqlar öz qəzetlərini və ya radio verilişlərini hazırlayırlar</td><td>Uşaqların təşəbbüsü və idarəçiliyi</td></tr>
<tr><td>Oyun meydançasının planlaşdırılmasında iştirak etməyi uşaqlardan xahiş edirlər.</td><td>Böyüklərin təşəbbüsü, uşaqlarla birlikdə qərar qəbulu</td></tr>
<tr><td>Şəhərin meri müvafiq məsələdə uşaqlarla məsləhətləşir, onların fikri nəzərə alınır.</td><td>Məsləhət və məlumatlandırma</td></tr>
<tr><td>İctimai faydalı işin yerinə yetirilməsi üçün şagird qrupu yaradılır, işin məqsədi barədə uşaqlara məlumat verilir, uşaqlar hiss edirlər ki, problem onların nəzarəti altındadır.</td><td>Məsələnin qoyuluşu və məlumatlandırma</td><td></td></tr>
<tr><td>Öz fikirlərini yaxşı ifadə edən uşaqları həmyaşıdları ilə məsləhətləşmədən və hazırlaşmadan dəyirmi masada iştirak etmək üçün seçirlər.</td><td>Formal iştirak</td><td rowspan="3">İştirak etməmək</td></tr>
<tr><td>Uşaqlar tədbirdə oxuyub rəqs edirlər, lakin bunun nə üçün olduğunu zəif təsəvvür edirlər.</td><td>Dekorasiya</td></tr>
<tr><td>Uşaqları siyasi nümayişdə iştirak etməyə hazırlayır və siyasi plakatları daşımağa məcbur edirlər.</td><td>Manipulyasiya</td></tr>
</table>

Uğurlu iştirak bir layihə ilə məhdudlaşmayan, əksinə uşağın əhatəsində (ailədə, məktəbdə, qəyyumluq müəssisələrində, səhiyyədə, yerli icmada və cəmiyyətdə) iştirak mədəniyyətinin formalaşmasına dəstək olan fasiləsiz bir prosesdir. Həm böyüklər, həm də uşaqlar üçün belə iştirak mədəniyyətinin inkişafı demokratiya sahəsində çox mühüm dərs ola bilər. İnsan hüquqlarının dərindən anlaşılması və fəal vətəndaş mövqeyinin rəğbətləndirilməsi bütövlükdə cəmiyyət üçün səmərəlidir.

**Uşaqları iştiraka necə öyrətməli?**

Birinci növbədə uşaqların iştirakı üçün bu imkanları yaradan mühit lazımdır. Uşaqlar fikirlərinin əhəmiyyətli olduğunu hiss etdikdə və öz iştiraklarının məqsədini başa düşdükdə açılışırlar.

Uşaqlar böyüklər kimi fikirləşə və özünü ifadə edə bilmədikləri üçün onların iştirak prosesi konkret məsələ və təcrübəyə, həm də real həyati situasiyaya əsaslanmalı və inkişafına uyğun çətinlik dərəcəsinə əsasən fərqlənməlidir. Başlanğıc üçün böyüklər tərəfindən müəyyən edilmiş müxtəlif məsələlərə aid məsləhətləşmələr və fikir sorğuları təşkil etmək olar. Planlaşdırma, tətbiqetmə, idarəetmə, nəzarət və qiymətləndirmə proqramları daha fəal iştirakın göstəricisidir. Layihələr, araşdırmalar, şəxsi maraqların müdafiəsi, uşaqların təşəbbüsü ilə hazırlanan tamaşalar və ya böyüklərlə birlikdə idarə olunan təşkilat və müəssisələr nisbətən böyük yaşda olan uşaqlar üçün xüsusilə ibrətamiz və ciddi təcrübədir.

**Sual:** M*üxtəlif yaş mərhələlərində uşaqlar üçün hansı iştirakın uyğun olduğunu kim müəyyənləşdirir? Bu qərar necə qəbul edilir?*

Səmərəli iştirak prosesi müxtəlif vərdiş və bacarıqları inkişaf etdirir. Uşaqlar aktiv dinləmə üsulu ilə yeni məlumat qəbul edir, öz hüquqlarını və bir-birinin fikrini öyrənirlər. Onlar şəxsi fikirlərini formalaşdıraraq və səsləndirərək ünsiyyət, tənqidi düşüncə, təşkilatçılıq və həyati vərdişlərin səviyyəsini artırırlar. Onlar həqiqətən nəyisə dəyişə bildiklərini təcrübədə öyrənirlər.

Avropada insan hüquqları mədəniyyətinin yaradılması üçün uşaq iştirakının daim artırılması vacibdir. Böyüklərin kök salmış münasibəti ən ciddi maneədir. Buna görə də insan və uşaq hüquqları, etik təcrübə və araşdırmalar mövzusunda uşaqlara və böyüklərə əlavə təhsil verilməsi vacibdir. Uşaqlarla işləyən hər kəs uşaq iştirakının əsas

prinsiplərini dərindən mənimsəməlidir. İştirak mədəniyyətinin yaradılması insan və maliyyə resursları tələb edir, lakin nəticələr səyləri doğruldur.

**Yaxşı təcrübə nümunələri**

Avropanın müxtəlif ölkələrində uşaqların uğurlu iştirak nümunələrini tapmaq olar.

**Ailə:** Evdə uşaq iştirakı balaca uşaqların ailədə qərarların qəbul edilməsinə təsirindən başlaya bilər. Avropa Şurasının "Avropanı uşaqlarla və uşaqlar üçün qururuq" konfransında iştirak edən uşaqlar bildiriblər:

*"Biz evdə qərarların qəbul edilməsində müvəffəqiyyətlə iştirak edirdik... Biz asudə vaxtımızı necə keçirmək, nə yemək istədiyimizi, bəzən hətta hansı məktəbdə oxumağımızı seçirdik, ailədə məişət işlərini bölüşdürürdük, ailə problemlərini həll edirdik. Ailəvi tədbirləri təşkil edirdik."*

**Məktəb:** Məktəblər uğurlu iştirakın vacib modeli ola bilər. Məktəb qaydalarının birgə yazılması və ya sinfin bəzədilməsi və səliqə-səhmanın saxlanılmasının uşaqlara tapşırılması onların məktəb mühitinə qoşulmasına kömək edəcək yaxşı başlanğıc ola bilər. Lakin məktəb şuraları və uşaq parlamentləri yalnız onlara real qərar qəbul etmək hüququ verildikdə səmərəli işləyirlər. Uşaqlar, həmçinin təcavüz, təcrid və ya zorakılığın digər formaları kimi məktəb problemlərinin həllinə də cəlb oluna bilərlər. Qəzet, radio proqramı və ya internet səhifələrin hazırlanması; klubların, festivalların və kampaniyaların təşkili demokratik məktəb həyatına mühüm töhfədir.

**Asudə vaxt:** məktəbdənkənar proqramlar uşaqları əmin edər ki, iştirak dünyanı yaxşılığa doğru dəyişdirir. QHT-lər, qeyri-rəsmi tədbirlər, küçə proqramları, festivallar, internet və yeni media platformaları demokratik praktika üçün müxtəlif imkanlar təqdim edir. Məktəbdənkənar fəaliyyət məktəb layihələrini tamamlaya bilər.

**Həssas uşaq qrupları:** Bu qrupa daxil olan uşaqlar üçün iştirak çox mühümdür. O, həssas uşaqlar üçün imkanlar yaradır. Kasıb vəziyyətdə və uşaq evlərində yaşayan uşaqlar çox zaman hətta minimal iştirak formalarının olmamasından əziyyət çəkirlər. Uşaqlar uşaq müəssisələrinə, xəstəxanaya və ya cinəyatkar, zərərçəkən qismində polis istintaqına və yaxud məhkəmə prosesinə cəlb olunanda yaxşı hazırlıqlı personal mehriban mühit yaratmalıdır. Uşaqların maraqları ən yaxşı şəkildə o zaman nəzərə alına bilər ki, onlardan fikirlərini bildirmək və prosesləri şərh vermək xahiş olunsun.

**Hökümət orqanlarının işində uşaqların iştirakı**

**İcma səviyyəsində:** uşaqların öz ərazilərinin rifahını yaxşılaşdıra biləcək layihələrdə iştirak etməsi üçün çoxsaylı yaxşı imkanlar mövcuddur. Avropa Şurası bələdiyyələrin fəaliyyətində gənclərin iştirakını təşviq edən Tövsiyələr hazırlamışdır ki, bu, həm bələdiyyələrin, həm də uşaq qruplarının fəaliyyəti üçün yaxşı bir başlanğıc nöqtəsi ola bilər.

**Sual:** *Hökumət orqanlarının işində uşaqların iştirakını necə rəğbətləndirmək olar? Eyni zamanda onları böyüklərin manipulyasiyasından hansı formada qorumaq olar?*

Uşaqlarla müntəzəm olaraq məsləhətləşmələr aparan millət vəkilləri və siyasətçilərdən yaxşı nümunələr var. Məsələn, Londonun meri şəhərin bütün gənclərə daha rahat olması üçün nə dəyişiklik etmək haqqında uşaqlarla məsləhətləşir. Yerli əhalinin fəal iştirakı ilə uşaqların və gənclərin təcrid olunmasına qarşı mübarizə aparmaq məqsədilə Şotlandiyada "İcma tərəfdaşları" adlı beşillik proqram hazırlanmışdır. Bu proqramlar, metodlar və nəticələr tövsiyələr kitabında toplanmışdır.

**Milli səviyyədə:** bir sıra Avropa ölkələrində uşaqların iştirakını rəğbətləndirən milli siyasət mövcuddur. Məsələn, Almaniyada, Norveçdə və Böyük Britaniyada hökümət uşaqların, onların ailələrinin və ya qəyyumlarının, bütün uşaq fondlarının təşkili və idarəedilməsində effektiv iştirakını dəstəkləyir, bələdiyyələri və təşkilatları da buna çağırır. Belə yeniliklər təşkilat mədəniyyətində dəyişikliklər tələb etdiyinə görə onların praktiki tətbiqi bir çox hallarda çətinliklərlə üzləşir.

**Beynəlxalq səviyyədə**: uşaqlar üçün ən yaxşısı onların gündəlik təcrübələrinin nəzərə alındığı yerli və milli proseslərdə iştirak etməkdir. Bununla yanaşı, yaxşı planlaşdırılmış tədbirlərdə onlar beynəlxalq səviyyəli qərarların qəbul edilməsinə cəlb oluna bilərlər.

BMT-nin uşaqlara qarşı zorakılıq haqqında araşdırma proseslərində uşaqların və gənclərin iştirakı əsas dayaq nöqtəsi olmuşdur. Uşaqlar regional məsləhətləşmələrə qatılmış və onların tövsiyələri bu məsləhətləşmələrin yekun sənədlərinə daxil edilmişdir. Bu yeni üsulun təşkilatçılar üçün xeyli çətinliklər yaratmasına baxmayaraq, çox maraqlı və örnəkverici nəticələrə gətirib çıxardı.

**Uşaq iştirakının rəğbətləndirilməsi prinsipləri**

Beynəlxalq qeyri-hökümət təşkilatı olan və uşaqların hüquqları və rifahı üçün çalışan YUNİSEF uşaqların səmərəli iştirak prinsiplərini hazırlamışdır. Bu tövsiyələr istənilən formada iştirak üçün faydalıdır:

- Uşaqlar layihənin və ya prosesin mahiyyətini, nə üçün nəzərdə tutulduğunu və bu prosesdə öz rolunu anlamalıdırlar.
- Güc münasibətləri və qərar qəbulunun strukturu şəffaf olmalıdır.
- Uşaqları hər hansı bir təşəbbüsün erkən mərhələsinə cəlb etmək lazımdır.
- Uşaqlara yaşından, statusundan, etnik mənsubiyyətindən, qabiliyyətindən və ya digər amillərdən asılı olmayaraq eyni hörmətlə yanaşılmalıdır.
- Əsas qaydalar bütün uşaqlar üçün əvvəlcədən müəyyənləşdirilməlidir.
- İştirak könüllü olmalıdır və uşaqlara hər hansı bir mərhələdə iştirakdan imtina icazəsi verilməlidir.
- Uşaqlar onların fikir və təcrübələrinə hörmət edilməsi hüququna malikdirlər.

**Müvafiq hüquq müdafiə alətləri**

**Avropa Şurası**

İştirak, xüsusilə də gənclər üçün Avropa Şurasının fəaliyyətində əsas sahədir. Avropa Şurası gənclər sektorunu unikal şəkildə birgə idarəetməyə daxil etmişdir. Şuranın gənclər proqramları və onların büdcəsi məsələlərində Avropanın gənclər təşkilatları və hökümət nümayəndələri birgə qərarlar qəbul edirlər. Yerli və regional hökümətlər Konqresinin əməkdaşlığı ilə gənclərin bələdiyyə və regional qurumlarda iştirakına dair Avropa xartiyası 1992-ci ildə hazırlanmış və 2003-cü ildə təkmilləşdirilmişdir. Bu unikal vasitə yalnız gəncləri rəğbətləndirmir, həm də gənclərin və yerli hakimiyyət orqanlarının istifadə edə biləcəyi konkret fikir və vasitələri təqdim edir. 2007-ci ildə bu və digər fikirləri cəmləşdirən "Öz fikrini de" praktik təlimatı nəşr olunmuşdur.

**Birləşmiş Millətlər Təşkilatı**

İştiraka aid olan hüquqlar vətəndaş hüquqları, yəni vətəndaşa verilən azadlıq və məsuliyyətlə sıx bağlıdır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 29-cu

maddəsində ictimai həyatda iştirakın cəmiyyət və vətəndaşların özü üçün vacibliyi qeyd edilir:

*"Şəxsiyyətinin azad və tam inkişafı yalnız cəmiyyətdə mümkündür və hər kəsin cəmiyyət qarşısında məsuliyyəti vardır".*

Amma yalnız 1989-cu ildə, Uşaq Hüquqları haqqında Konvensiyanın qəbulundan sonra uşaqların iştirak hüququ və bunun faydası tanındı. Onların iştirakı cəmiyyət həyatının bütün sahələrində təmin olunur:

Maddə 9: uşağa qəyyumluq və himayə məsələlərinin araşdırılmasında iştirak etmək;

Maddə 12: uşağa aid olan bütün məsələlər üzrə qərar qəbulunda iştirak etmək;

Maddə 13: öz fikrini ifadə etmək; məlumatın qəbul edilməsi və təqdim edilməsi;

Maddə 14: fikir, vicdan və din azadlığı haqqında şəxsi rəyin olması;

Maddə 15: başqaları ilə birləşmək;

Maddə 23: məhdud imkanlı uşaqların ictimai həyatda fəal iştirak hüququ;

Maddə 30: etnik azlıqların və ya yerli əhalinin nümayəndəsi olan uşaqların öz icmasının və həmçinin bütövlükdə cəmiyyətin həyatında iştirak hüququ;

Maddə 31: mədəni həyatda tamhüquqlu iştirak və incəsənətlə məşğul olmaq.

Uşaq Hüquqları haqqında Konvensiyada "uşaq" 18 yaşına çatmamış şəxs kimi müəyyən edilir, lakin bu, hər bir uşağın səriştəli olduğunu və tamhüquqlu iştirak üçün kifayət qədər yetkin olmasını nəzərdə tutmur. Bu məsələni həll etmək üçün Konvensiyada **inkişaf edən qabiliyyətlər** prinsipi nəzərdə tutulur ki, bu da uşağı qəbul etməyi və onun artan qabiliyyətlərinə və yetkinləşməsinə əsaslanan tələblərinə cavab verməyi valideynlərə və dövlətə tövsiyə edir. Bir çox böyüklər və rəsmi müəssisələr uşaqlara hər yaşda iştirak hüququ vermək üçün özlərinin kök atmış münasibət və təcrübələrini yenidən qurmaq məcburiyyətində qalırlar.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİ-nin əməkdaşları Sədaqət Şükürlü və Mehdi Şükürov**

**Kütləvi informasiya vasitələri (KİV) və internet**

*“Avropa Şurası uşaqlar və onların müəllimlərinə informasiya və kommunikasiya xidmətləri və texnologiyalarından səmərəli istifadə imkanı yaradan kompüter savadlılığı və öyrənmə strategiyasını tövsiyə edir.”*

Cəmiyyətimizdə KİV o qədər vacib yer tutub ki, onu bəzən demokratiyanın ənənəvi 3 qolu: qanunvericilik, icra və məhkəmə hakimiyyətinə analoji olaraq “dördüncü hakimiyyət” adlandırırlar. Digərləri isə internet bloqlarını ”beşinci hakimiyyət” hesab edir, çünki onlar problemlərin müzakirəsində ənənəvi KİV-lə daha çox rəqabət aparırlar. İnformasiya vasitələrinin bu xüsusiyyəti informasiyanın əlçatanlığını təmin etsə də, həm də özlüyündə təhlükə daşıyır, xüsusən də uşaqlar üçün. İnformasiyanı əldə etmək üçün lazım olan çətin texniki bacarıqlar uşaqları şəbəkənin müxtəlif riskləri ilə üz-üzə qoya bilər.

Ümumdünya insan hüquqları Bəyannaməsinin 19-cu maddəsində hər bir insanın əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna malik olması, bu hüquqa maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı öz əksini tapmışdır. Uşaq hüquqları Konvensiyasının 13-cü maddəsində bu hüquq uşaqlara aid edilir. Digər beynəlxalq müqavilələrdə, milli konstitusiyaların çoxunda bu hüquq inkişaf etdirilir və mətbuat azadlığına zəmanət verilir, eyni zamanda şəxsi həyatın toxunulmazlığı hüququnun müdafiəsi üçün mətbuata məhdudiyyət qoyulur. Uşaq hüquqları Konvensiyasının digər iki maddəsində uşaqların informasiya toplamaq və yaymaq hüququ (13-cü maddə) və KİV-dən təhlükəsiz, düzgün, aydın informasiya almaq hüququ (17-ci maddə) müəyyən edilir. KİV uşaqlara dəqiq və uyğun olan məlumatın verilməsi məsuliyyətini daşıyır.

**Sual:** KİV sizin sinfinizdəki uşaqlara necə təsir edir? Hansı müsbət və mənfi təsirləri var?

Hal-hazırda KİV, informasiya və kommunikasiya texnologiyaları uşaqların həyatında mühüm rol oynayır. Uşaqlar hər gün saatlarla televizora baxırlar, amma daha çox zamanı isə öz həmyaşıdlarından mənimsədikləri bacarıqları istifadə edərək internetdə keçirirlər. Uşaqlar oyun, ünsiyyət, bloqların yazılması, musiqi dinlənilməsi, öz şəkillərinin yerləşdirilməsi, insanlarla onlayn rejimdə ünsiyyət qurulması, başqa adamların axtarışı üçün interaktiv vasitələrdən istifadə edirlər. Uşaqlarla valideynlərin İKT savadlılığı arasındakı fərqə görə bir çox valideynin övladının internetdə nə ilə məşğul olmasından xəbəri olmur.

Virtual dünya uşaqlar üçün imkanlar yaratsa da, onlara tələ də qura bilər. Elektron, rəqəmsal və interaktiv informasiya vasitələrindən istifadə uşaqlara müsbət təsir göstərir, çünki bunlar maraqlıdır, öyrədicidir və sosiallaşdırır. İstifadədən asılı olaraq bu, həm də uşaqlar və

cəmiyyət üçün zərərli də ola bilər. Virtual dünya uşaqların həyatını real həyat kimi formalaşdıra bilər (necə uyğunlaşmaq, necə daha çox dost əldə etmək və s.).

İnformasiya vasitələrinin, xüsusilə televiziyanın mənfi təsiri valideyn və müəllimlərin narahatçılığına və bir çox araşdırmalara səbəb oldu:

- **Televizor qarşısında keçirilən vaxt:** dəqiq təsdiqlənmişdir ki, televizor qarşısında çox vaxt keçirən uşağın məktəb nailiyyətləri aşağıdır; KİV və elektron resurslardan düşünülmüş istifadə qaydaları tətbiq edən valideynlərin uşaqlarının nailiyyətləri isə daha yüksəkdir.
- **Zorakılıq:** televizayada, filmlərdə və video oyunlarda göstərilməsindən asılı olmayaraq zorakılıq uşaqlara necə təsir göstərir? Onları aqressiv və soyuqqanlı edirmi? Onlarda katarsis effekti yaradırmı? Bu, bütün uşaqlara, yoxsa ancaq həssas olanlara müəyyən konteksdə təsir edir?
- **İstehlak ideologiyası:** müxtəlif məzmunlu reklamları uşaqları və onların vasitəsilə valideynləri manipulyasiya etməkdə günahlandırırlar - müəyyən qida məhsullarını (çox zaman uşaqlarda piylənmə epidemiyasına səbəb olan), paltar, ev üçün təmizləyici vasitələr, avtomobil, səyahət və s. aldırmaq məqsədilə manipulyasiyalar.
- **Stereotiplər:** KİV-i sosial streotiplərin, xüsusən cinsi rolların və milli stereotiplərin qorunmasında günahlandırırlar.

Bu narahatçılıqdan irəli gələrək bəzi ölkələr uşaq verilişləri zamanı reklam çarxlarını qadağan ediblər, bəzi ölkər isə “komendant saatı” tətbiq edir ki, müəyyən edilmiş saata qədər zorakılıq, qəddarlıq və pornoqrafiya əks etdirən səhnələr göstərilmir. Bəzi ölkələrdə isə valideynlər uşaqların müəyyən verilişlərə baxmasına mane olmaq üçün filtr (süzgəc) tətbiq edə bilirlər. Lakin texnologiyanın müasir inkişaf səviyyəsində mobil telefonların, internetin və televiziya kanallarının çoxluğu səbəbilə bu tədbirlərin böyük hissəsi səmərə vermir.

İnternet və mobil telefonlar kimi interaktiv informasiya vasitələri uşaqlar üçün əlavə təhlükə mənbəyidir: uşaqların yerləşdirdikləri şəxsi məlumatlar uyğunsuz reklam üçün istifadə edilə bilər, bu da “İnternet yırtıcıları” üçün fəaliyyət imkanı açar. Bəzən uşaqlar digər uşaqlara kobud mesajlar və alçaldıcı şəkillər göndərmək üçün nəzarətsiz qalmış internetdən istifadə edirlər. “Kiberzorakılıq” çox vaxt anonim olduğu üçün əlçatan və zərərlidir.

**İnformasiya hüququ və müdafiə hüququ**

İnformasiya mənbələri uşaq hüququnu və onların informasiya almaq hüququnu qoruyurmu?

- **Əlçatanlıq və onunla əlaqəli bərabərsizlik.** Hər kəsin internetə çıxışı eyni olmadığı üçün müxtəlif sosial statuslu uşaqlar arasındakı bərabərsizlik arta bilər. Belə “rəqəmsal baryeri” aşmaq üçün necə mübarizə aparmaq lazımdır?

- **İnformasiyanın arzuolunmaz məzmun və əlaqə formaları.** Aparılan tədqiqatların nəticəsinə görə, internetə daxil olan 9 yaşdan 19 yaşa qədər gənclərin yarısı heç olmasa həftədə bir dəfə təsadüfən pornoqrafiya izləyiblər. Orada qəddar obrazlar və ya müəyyən insan qrupuna qarşı düşmənçilik nümayiş edən xoşagəlməz kontekstlə qarşılaşdıqları üçün bəziləri "iyrənib" və ya "narahat olublar". Bununla necə mübarizə aparaq? Uşaqların informasiya vasitələrindən sərbəst istifadə imkanına senzuranın qoyulması onların informasiya hüquqlarına nə dərəcədə təhlükə yaradır? Və ya digər insanın ifadə azadlığı hüququna?
- **Yeni informasiya savadlılığı.** Adətən uşaqlar və gənclər internetdən istifadə bacarığına görə valideynlərlə müqayisədə özlərini təcrübəli sayır (böyüklər də belə fikirləşir) və bu fikir onların özünəinamını artırır və ailənin gözündə yüksəldir. Lakin uşaqların çoxu onlayn informasiyanın məzmununun və ya mənbələrin adekvat qiymətləndirilməsində, axtarışda və informasiyanın istifadəsində təcrübəsizdirlər. Uşaqların və böyüklərin informasiya savadlılığı sahəsində olan ehtiyaclarını təhsil necə nəzərə ala bilər?

**Sual:** Siz informasiyanın maksimal əlçatanlığı və öyrənməni təmin edərək, internetdən və informasiya texnologiyalarından istifadə etməyi uşaqlara necə öyrətmisiniz? Siz uşaqları internetdəki "zərərli" materiallardan necə qoruyursunuz?

**Mediatəhsil**

Bu sualların cavabı uşaqlara KİV-ə tənqidi yanaşmanı öyrətməkdədir. Mediatəhsil bütün uşaqları və böyükləri Kütləvi İnformasiya Vasitələrinin əhəmiyyətinin və təsirinin dərk olunmasına istiqamətlənir. Bu növ təhsil diqqəti uşaqların nəyə baxdıqlarına və baxdıqlarının onlara necə təsir edəcəyinə yönəldir. Məsələn, uşaqlardan müəyyən vaxt ərzində izlədikləri zorakılıq səhnələrini saymağı, reklamın təlqinetmə strategiyalarını təhlil etməyi və ya eyni informasiyanı ötürməyin müxtəlif variantlarını müzakirə etməyi xahiş etməklə reallığın müxtəlif təsvirlərini anlamaqda onlara kömək etmək olar.

Son 50 ildə mediatəhsildə 3 müxtəlif yanaşma olmuşdur:

- **"Vaksinasiya" yanaşması** Kütləvi İnformasiya Vasitələrinin neqativ təsirindən immunitet yaranmasına yönəlib.
- **Tənqidi yanaşma** informasiya mənbələrinin neqativ məzmununa tənqidi fikirlərin inkişafına yönəlib.
- **Dekodlaşdırma yanaşması** uşaqların müasir dünyanı dərk etmələri üçün onlara informasiya vasitələrinin "istehsalının" iqtisadi və sosial məzmununu, həmçinin məlumatların kodlaşdırılma texnikalarını anlamağa kömək etməyi nəzərdə tutur.

Bu yanaşmaların ardıcıllığı onu göstərir ki, əgər əvvəl uşaq informasiya vasitələrinin müdafiəsiz istehlakçısı kimi qəbul edilirdisə, indi o, şüurlu vətəndaş hesab edilir.

Yeni informasiya və kommunikasiya texnologiyalarının, xüsusən internetin inkişafı ilə onların əlçatanlığının üstünlükləri ilə yanaşı, riskləri də artdı. İnternet müxtəlif informasiya əldə etmək və distant ünsiyyət üçün çox gözəl bir vasitədir. Lakin alınan informasiyanın faydalılığının və ünsiyyətin pis niyyətlə olmamasının heç bir zəmanəti yoxdur.

Beləliklə, uşaqlarda tənqidi bacarıqları və KİV-in güclü potensialını anlamasını inkişaf etdirərək, mediatəhsil zamanla ayaqlaşmalıdır. Mediatəhsil, həmçinin radio və televiziya verilişləri, saytlar, internet bloqlar daxil olmaqla, müxtəlif kommunikasiya vasitələrindən istifadə edərək öz ideyalarını çatdırmağı uşaqlara öyrətməyə yönəlib. Mediatəhsil uşaqlarla işləyən böyüklər üçün də vacibdir. Valideynlər, müəllimlər, digər tərbiyəçilər uşaqlarının necə ünsiyyət qurduğunu və yaşadığını başa düşməyə səy göstərməlidilər.

Avropa Şurasının mediatəhsillə əlaqədar tövsiyələri:

*“İnformasiyanın arzuolunmaz məzmununu və informasiya və kommunikasiya mühitinin zərər riskini, onlar qeyri-qanuni olmasalar da, pornoqrafiya, zorakılıq və özünə zərər yetirmə, kimisə alçaltma, diskriminasiyanı təbliğ edən şəkillər, pedofillərlə kontakt (əlaqə), aqressiya və s. kimi zorakılığın formaları uşağın fiziki, emosional və psixoloji vəziyyətinə neqativ təsir edə biləcəyini dərk edərək... (Avropa Şurası) iştirakçı dövlətlərə uşaqların və müəllimlərin keyfiyyətli informasiya və kommunikasiya texnologiyalarının xidmətlərindən yararlanma imkanı almalarına yönəlmiş informasiya savadlılığı strategiyası yaratmağı təklif edir.”*

Avropa Şurasının media şöbəsində uşaqların, onların valideynlərinin və müəllimlərinin “informasiya cəmiyyətinə” lazım olan bilik və bacarıqlara yiyələnməsinə həsr olunmuş layihə var. Media şöbəsinin dərc etdiyi “İnternet savadlılığı üzrə vəsait: valideynlər, müəllimlər və gənclər üçün təlimat” informasiya və kommunikasiyanın mürəkkəb şəbəkəsi haqqında ümumi məlumat xarakteri daşıyır.

**Müvafiq hüquq müdafiə alətləri**

**Avropa Şurası**

**Avropa insan hüquqları Konvesiyasında** hər kəsin dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan məlumat və ideyaları almaq və yaymaq hüququna zəmanət verilir (10-cu maddə). Bu hüquq uşaqlara (usağı istismar edən, zorakılıq və pornoqrafik mənbələrdən başqa) və böyüklərə şamildir. Bu, AİHK-da “sağlamlıq və əxlaqı qorumaq” hüququ ilə bağlı öhdəliklərin təsdiqlənməsidir. Ancaq Konvensiyada “qeyri-münasib”liyin necə və kim tərəfindən müəyyənləşdirilməsi göstərilməmişdir.

**Kibercinayətkarlıq haqqında Konvensiyanın** 9-cu maddəsi uşaq pornoqrafiyası ilə bağlı cinayətlərə istinad edir və qeyd edilir ki, iştirakçı dövlətlər bu cinayətlərin qarşısını almaq üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

**Birləşmiş Millətlər Təşkilatı**

Əsas hüquqlardan biri olan insanların informasiya hüququ **Ümumdünya insan hüquqları Bəyannaməsinin (ÜİHB)** 19-cu maddəsində əks etdirilib:

*"Hər bir insan əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna malikdir: bu hüquqa maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir."*

Təbii ki, 1948-ci ildə Bəyannamə yazılarkən informasiya vasitəsi kimi internet haqqında heç kim düşünməmişdi. Hətta 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası **Uşaq hüquqları haqqında Konvensiyanı** qəbul edəndə əhalinin və uşaqların internetdən istifadə edəcəyini təsəvvür etmək imkansız idi. Lakin Uşaq hüquqları haqqında Konvensiyanın fikir və informasiya azadlığı üç ayrı maddəyə bölünür: 12-cı maddədə uşağın şəxsi fikrinin olması və o fikirlərin nəzərə alınması hüququna, 14-cü maddədə uşağın fikir, vicdan və din azadlığı hüququna zəmanət verilir. 13-cü maddədə uşağın informasiya və öz fikrini sərbəst ifadə etmək hüququ göstərilir:

*"Uşağın öz fikrini sərbəst ifadə etmək hüququ vardır, bu hüquqa sərhədlərdən asılı olmayaraq, hər cür informasiyanı və ideyaları şifahi, yazılı və ya çap edilmiş formada, incəsənət əsərləri formasında və ya istədiyi digər vasitələrin köməyi ilə axtarmaq, almaq və ötürmək azadlığı daxildir."*

Bu maddədə informasiya almaq üçün bəzi məhdudiyyətlər də qoyulub. Balans yaratmaq üçün təhlükəsizlik tədbirləri kimi uşaqların istismardan (19-cu və 36-cı maddə), əsasən cinsi istismardan müdafiəsi (19-cu və 34-cü maddə) təmin olunur.

Eyni zamanda Konvensiyada uşağın **inkişaf edən bacarıqları** və böyüməsi nəzərə alınır. Belə ki, ibtidai sinif şagirdi üçün nəzərdə tutulmayan hər hansı mənbədən gənclər istifadə edə bilər. Digər hüquqi problemlər kimi, bu sahədə verilən azadlıq tez-tez müdafiə ilə ziddiyyət təşkil edir və müzakirə tələb edir. Lakin hər bir halda həlledici faktor uşağın maraqlarının nəzərə alınmasıdır.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека.**

**Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşları Gülbəniz Nəcəfova, Aynur Rəhimova**

## Sağlamlıq və rifah

"Sağlamlıq mövzusu həm də iqtisadi və siyasi mövzudur".

Sağlamlıq – insanın əsas hüququ hesab olunur. Sağlamlıq hüququ cəmiyyətin bütün üzvləri üçün səhiyyəyə eyni çıxış deməkdir: tibb, sağlam qida, təmiz su, sanitar xidmətlər, psixoloji dəstək bura aid edilir. Sağlamlıq hüququ fundamental olaraq insanın digər hüquqları ilə əlaqəlidir. Bura sosial müdafiə, istirahət, asudə vaxt, əsasən də müvafiq həyat standartı hüquqları daxildir. Bir tərəfdən insan hüquqlarının pozulması sağlamlıq baxımından ciddi nəticələrə gətirib çıxara bilər (məsələn, zərərli ənənələr, insan alveri, işgəncə, insanlığa sığmayan, alçaldıcı münasibət, zorakılıq). Digər tərəfdən insan hüquqlarının təminatı, müdafiəsi, hörmətlə nəzərə alınması istiqamətində atılmış addımlar sağlamlığa müsbət təsir gostərir (məsələn, diskriminasiyadan azadlıq, müvafiq həyat standartları, təhsil).

Sağlamlıq eləcə də iqtisadi və siyasi məsələ olaraq qalır, çünki bərabərsizlik və səfalət xəstəliklərin və xəstə halların əsası olaraq qalır. 2005-ci il üçün Bəşəriyyətin sağlamlıq hesabatına istinadən, ifrat kasıblıq ölümün əsas səbəbi hesab edilir. Beləliklə, hesabatda kasıblığın bütün formaları ilə mübarizə məqsədləri mövcud səfalət və kasıblığın aradan qaldırılmasına xidmət edir.

**Sual:** *Diskriminasiya və səfalət (kasıblıq) işlədiyiniz uşaqlara necə təsir göstərir?*

Uşaqların ona görə xüsusi müdafiəyə ehtiyacı var ki, inkişaflarının vacib dövründə bu hüquqlardan istifadə edə bilsinlər. Uşaqların sağlamlıq hüququnun qorunması sanitar maarifləndirməni, reabilitasiya, istismar və zorakılıqdan qorunmanı da əks etdirir.

**Avropalı uşaqların sağlamlıq ilə bağlı problemləri**

Sağlamlıq ilə bağlı bir neçə problem insan hüquqlarına əməl edilməsinə, eləcə də avropalı uşaqların və gənclərin rifahının yaxşılaşdırılmasına mane olur:

**Yoluxucu xəstəliklər**

Uşaqları müxtəlif xəstəliklərdən qorumaq zəruridir. Xəstəliklərdən qorunma ana və uşaq sağlamlığının təminatından, qidalanmadan və immunizasiyadan başlayır. Vərəmin yayılması, antibiotiklərə qarşı dirənc, xəstəliklərlə mübarizə və sanitar maarifləndirmə digər prioritetlərə aid edilir.

**Ruhi sağlamlıq**

Sağlamlıq yalnız fiziki və tibbi məsələ deyildir. Hesablamalara görə, Avropa regionunda 10%-dən 20%-ə qədər uşaq bir və ya bir neçə psixi, yaxud davranışla bağlı problem yaşayır. Uşaqların və yeniyetmələrin ruhi sağlamlığının pozulması onların fikirlərinə, hislərinə, hərəkətlərinə ciddi şəkildə təsir edir. Psixi qüsur uşaqda

anadangəlmə olduğu kimi, mənfi həyat təcrübəsinin nəticəsi kimi də yarana bilər. Diqqətdən kənarda qalan, gündəlik ailə konfliktlərini müşahidə edən, fiziki və psixi zorakılığa, məktəbdə diskriminasiya və ya təqibə məruz qalan uşaqlar özünü aşağı qiymətləndirmədən əziyyət çəkir, məktəbdə pis nəticələr nümayiş etdirirlər. İnkişaf etmiş ölkələrdə ən çox yayılmış ruhi xəstəliklər bunlardır: diqqətin yayınması, depressiya, qidalanmada pozulma (anoreksiya, bulimiya), özünə xəta yetirmə, spirtli içki və ya narkotiklərdən istifadə, zorakılıq və hətta özünəqəsd. 12-17 yaşlıların 4%-i, 18 yaşlıların 9%-i depressiyadan əziyyət çəkir ki, bu da depressiyanı müxtəlif fəsadları olan ən geniş yayılmış pozuntu edir. Əksər hallarda psixo-sosial pozuntuları olan uşaqlar psixoloqların köməyinə ehtiyac duyurlar, lakin onlara pedaqoqların da köməyi dəyə bilər. Təhsil ocaqlarında göstərilən xüsusi diqqətin, ünsiyyətin, dəstəyin də uşaqlara böyük köməyi dəyir, bu, onlara öz problemlərini həll etməkdə və sosial vərdişlərə yiyələnməkdə yardım edir.

**Piylənmə**

Avropada artıq çəki uşaqların saqlamlığına zərər vuran geniş yayılmış problemlərdən hesab olunur: 20%-ə yaxın uşaq artıq çəkidən, üçdə biri isə piylənmədən əziyyət çəkir. Avropanın bəzi ölkələrində piylənmə 1980-ci illərdəki 10%-dən 1990-cı illərin sonuna 20%-ə qədər artıb. Nisbətən aşağı göstərici mərkəzi və şərqi Avropada müşahidə olunur.

İyirmi birinci əsrin böyük problemlərindən biri sayılan piylənmə uşaqların sağlamlığı üçün təhlükə yaradır. Cənubi Avropanın bəzi vilayətlərində üç uşaqdan biri artıq çəkidən əziyyət çəkir. Proqnozlar göstərir ki, 2010-cu ildə on uşaqdan biri və ya əhalinin 10%-i piylənmədən əziyyət çəkəcək, bu isə on beş milyon uşaq və yeniyetmə deməkdir. Piylənmədən əziyyət çəkən uşaqlar daha çox ikinci tip şəkərli diabetə, yüksək qan təyziqinə, yuxusuzluğa, psixoemosional problemlərə məruz qalırlar. Bundan əlavə, piylənmədən əziyyət çəkənlərin böyük hissəsi vaxt ötdükcə sağalmayacaq ki, bu da daha ciddi fəsadlara gətirib çıxararaq, onların həyat keyfiyyətini aşağı salıb, ömürlərini qısaldacaq.

Piylənmənin ictimai sağlamlıq üçün təhlükə olmasını nəzərə alaraq, Ümumdünya Səhiyyə Təşkilatının Avropa regional bürosu onu yaxın illər ərzində prioritet istiqamətli iş hesab edib. 2006-cı ildə Nazirlər konfransı region üzrə piylənmə problemi barədə maarifləndirmə işini və onunla siyasi müstəvidə mübarizə aparmağı qarşıya məqsəd qoymuşdur.

Piylənmə ilə mübarizə üçün uşaqların gündəlik fiziki hərəkətlərə; yağ, şəkər, nişastalı qidanı istisna edən və meyvə, tərəvəz, dənli bitkilərdən ibarət olan sağlam pəhrizə ehtiyacı vardır.

**Spirtli içki, narkotiklər və tütün**

Gənclərin erkən yaşda spirtli içkilərə meyilli olması AB-nin bir çox ölkəsində qorxulu tendensiya olaraq qalır. 15 yaşlı uşaqların 30%-i spirtli içkidən müntəzəm istifadə etdiyini deyir. Hər il Avropa regionunda 55000 min gənc spirtli içkiyə görə dünyasını dəyişir. Gənc Avropalılar arasında (15-29 yaş həddi) dörd ölümdən biri spirtli içki səbəbindən baş verir.

Avropa ölkələrinin çoxunda siqaretdən istifadə səviyyəsi yüksək olaraq qalmaqdadır. Erkən yaşlarından tütündən istifadə edən uşaqların sayı durmadan artır. Siqaret çəkən yaşlı insanların təqribən 80%-i on səkkiz yaşa qədər siqaret çəkməyə başlayıblar. Statistika göstərir ki, on beş yaşlı oğlanların 11-57% və qızların 12-67 %-i siqaretdən gundəlik istifadə edirlər. Şərqi Avropada on beş yaşa çatmış oğlanlar qızlara nisbətən daha çox siqaret çəkir. Qitənin şimal və qərb hissəsində bu statistik məlumat əks xarakter daşıyır.

50%-dən çox uşaq evdə, nəqliyyatda, məktəbdə, ictimai yerlərin qapalı məkanlarında passiv siqaret çəkmiş hesab olunurlar. Passiv siqaret çəkmə nəfəs problemləri ilə birbaşa bağlıdır: astma, ağ ciyər funksiyasının zəifləməsi. Bu problem uşaqlıqdan yaranaraq bütün ömür boyu insanı müşayiət edə bilər.

Narkotik və spirtli içkilərdən istifadənin "normaya çevrilməsi" davranış modelinə təsir edir. Tədqiqatlar belə bir tendensiyanı nümayiş etdirir ki, Avropa gəncləri arasında sərxoşluq və narkotik qəbuluna dözümlülük artır və hətta dəstəklənir.

**Məhdud imkanlar və xüsusi ehtiyaclar**

"Məhdud imkanlar" terminınə orta ağırlıq dərəcəsindən ağır dərəcəyə qədər əlillik növləri aid edilir: (məsələn, korluq, karlıq, əqli gerilik, yerimə qabiliyyətinin olmaması). "Xüsusi ehtiyaclar"a aid olan öyrənmə çətinliyi, davranış pozuntuları daha yüngül hallardır və yalnız uşaq məktəb yaşına çatdıqda özünü biruzə verir. Statistikaya nəzər salsaq, görərik ki, insanların 20%-nin əlillik problemi ilə birbaşa və ya dolayısı ilə təması vardır. Sağlamlıq imkanları məhdud uşaqları bir zamanlar cəmiyyətdən təcrid edərək gizlədirdilər. Lakin münasibət və siyasət başqa bir qənaətə gələrək təsdiqləyir ki, öz ailəsində yaşamaq, cəmiyyətdən dəstək görmək, adi məktəblərdə təhsil almaq bu uşaqlar üçün daha faydalıdır. Sağlamlıq imkanları məhdud uşaqlarla ünsiyyət digər sağlam uşaqlarla ünsiyyət kimi olmalıdır ki, onlar ailənin tamhüquqlu üzvü kimi böyüsünlər, öz valideyinləri, qardaş-bacıları, qohum və dostları ilə etibarlı münasibət qursunlar.

Əvvəllər sağlamlıq imkanları məhdud uşaqların müalicəyə ehtiyacları olduğu israr edilirdi. Onların qüsurlarının düzəlməsinin yalnız müxtəlif müalicə vasitələri ilə mümkünlüyü qeyd olunurdu. Uşağın bacarmadıqlarını vurğulayan "tibbi model" üstünlük təşkil edirdi. Lakin belə yanaşma bəzi faktları nəzərə almır. Bu da ondan ibarətdir ki, bütün sağlam uşaqlar kimi sağlamlıq imkanları məhdud uşaqlar da öz qabiliyyət və fərdilikləri olan fəal və emosional şəxsiyyətlərdir və onlar həm ailənin, həm də cəmiyyətin üzvüdür. Yəni bütün digər uşaqlar kimi onların da yaşadıqları ailənin və cəmiyyətin həyatında iştirak etmək, öz potensialını tam inkişaf etdirmək imkanı olmalıdır.

Əlbəttə, sağlamlıq imkanları məhdud uşaqların çoxunun ömür boyu intensiv müalicəyə və təhsildə dəstəyə ehtiyacı vardır. Lakin sağlamlıq imkanları məhdud uşağın ümumi sağlamlığı onun emosional, psixoloji, eləcə də fiziki sağlamlığından ibarətdir. Gündəlik həyatda bu uşaqlara qayğı göstərmək üçün onların ailələrinin xüsusi xidmətə ehtiyacları var.

Lakin əlilliyə münasibət çox ləng dəyişir. Bir tərəfdən YUNİSEF hesabatında göstərir ki, Mərkəzi və Şərqi Avropada sağlamlıq imkanları məhdud uşaqların sayı 1990-cı illərin əvvəllərindən üç dəfə artıb, bu, belə insanlara dəstək göstərərək onları olduqları kimi qəbul etməkdir – əsla onların artımını alqışlamaq deyil! Lakin buna baxmayaraq "xüsusi təhsil" bu regionda üstünlük təşkil edir və ümumi siyasəti əks etdirir. Sağlamlıq imkanları məhdud uşaqlara xüsusi dəstək əsaslandırılmış olmalıdır. Heyif ki, Şərqi Avropada "xüsusi təhsil"dən sui-istifadə edirlər ki, bu da seqreqasiyaya gətirib çıxarır.

**Sual:** *Sizin işlədiyiniz uşaqların yaxşı səhiyyəyə girişi varmı? Əgər yoxdursa, bu onların həyat və inkişafına necə təsir edir? Bu əsas hüquqdan istifadə üçün nəyi təmin etmək zəruridir?*

**Sağlam həyat tərzi sahəsində təhsil**

Sağlam həyat tərzi sahəsində təhsilin son məqsədi pozitiv münasibətin və təcrübənin tərbiyə olunmasıdır. Uşaqlar anlamalıdırlar ki, onlar özlərinin, ailələrinin və ümumilikdə cəmiyyətin xeyri naminə öz sağlamlıqlarını qorumalıdırlar. Əgər uşaqlar sağlam olsalar, həm öz həyatlarını, həm də digərlərinin həyatını yaxşılaşdıra bilərlər. Sağlam həyat tərzi sahəsində səmərəli təhsil uşaqlara öz təcrübələrində sağlam həyat tərzini bütün ömür boyu davam edən pozitiv yanaşma kimi anlamağa imkan verir. Bura aiddir: emosional sağlmlıq və şəxsi "mən"in müsbət obrazı; öz bədəninə hörmət və qayğı; fiziki hazırlıq; spirtli içki, narkotik, tütün kimi zərərli vərdişlər haqqında biliklər (məlumatın olması); sağlam qida; təhlükəsiz cinsi əlaqə. Cinsi tərbiyə yeniyetmələrin sağlamlıq haqqında lazım olan məlumatları alması və arzuolunmaz hamiləlikdən, cinsi yolla yoluxan xəstəliklərdən, seksual zorakılıqdan qorunması üçün xüsusilə əhəmiyyətlidir. Bu cür

biliklərin həmyaşıdlar tərəfindən də öyrədilməsi məqsədəuyğundur. Məktəbdə və ətrafda idmanla məşğul olmaq imkanı uşaqları öz sağlamlığına qayğı göstərməyə təşviq edir; ömür boyu davam edən vərdişlər formalaşdırır. Psixi pozuntulardan əziyyət çəkən uşaqlara dəstəkləyici təhsil səmərəli yardım təmin edə bilər.

**Uyğun gələn hüquq müdafiə alətləri**

**Avropa Şurası**

Avropa sosial xartiyasının (təkrar baxılmış) 11-ci maddəsində sağlamlıq haqqında geniş danışılır, qeyd olunur ki, hər bir kəs özünə xeyir gətirə biləcək şəkildə səhiyyənin ən yüksək mümkün standartından istifadə edə bilər. 13-cü maddədə qeyd edilir ki, "maddi imkanı olmayan hər bir insanın sosial və tibbi yardım hüququ vardır".

**Birləşmiş Millətlər Təşkilatı**

İnsan hüquqlarının Ümumi deklarasiyasının 25.1 maddəsində sağlamlıq insanın əsas hüquqlarına aid edilir və müvafiq həyat standartına uyğunlaşdırılır:

*"Hər bir insanın özünün və ailəsinin sağlamlığını və rifahını təmin edən həyat səviyyəsi hüququ (qida, geyim, mənzil, tibbi yardım, sosial xidmət və s. daxil olmaqla) və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq və digər vəziyyətlərdən asılı olduqda təminat hüququ vardır."*

Həmin maddədə, həmçinin uşaqların "xüsusi qəyyumluq və yardım" hüququ qeyd edilir. Bu hüquq insan hüquqlarına dair bir sıra digər beynəlxalq sənədlərdə daha da genişləndirlir. Məs., **İqtisadi, sosial və mədəni hüquqlar barədə beynəlxalq paktın** 12-ci bəndi.

**Uşaq hüquqları konvensiyasında (UHK)** müxtəlif nöqteyi-nəzərdən uşaqların sağlamlıq hüququ təsvir olunur.

- 3-cü maddədə sağlamlıq və təhlükəsizlik xüsusi qeyd edilir.
- 13-cü maddədə uşağın "informasiya axtarmaq, almaq, ötürmək" hüququ, eləcə də bütün növ ideyalardan – sanitar maarifləndirmə, inkişaf və cinsi həyat ilə bağlı informasiyadan istifədə məsələləri öz əksini tapmışdır.
- 17-ci maddədə uşaqların fiziki və ruhi sağlamlıqlarına dəstək məsələlərində KİV-lərin mühüm rolu olduğu qeyd edilir.
- Sağlamlıq imkanları məhdud uşaqlara həsr olunmuş 23-cü maddədə uşaqların fiziki və ruhi sağlamlığı üçün səhiyyəyə, profilaktik tədbirlərə və sosial inteqrasiyaya çıxış imkanına xüsusi yer verilir.
- 24-cü maddədə uşaqların sağlamlıq hüququ və dövlətin onu təmin etmək öhdəliyi daha ciddi qoyulur. Burada deyilir:

*“......uşağın öz sağlamlığı naminə təkmilləşdirilmiş tibbi xidmətlərdən, müalicə vasitələrindən istifadə edərək, sağlamlığını bərpa etmək hüququ. İştirakçı-dövlətlər çalışırlar ki, heç bir uşaq səhiyyə sisteminin müvafiq xidmətlərindən istifadə hüququndan məhrum olmasın.”*

24-cü maddədə sağlamlığın yaxşılaşdırılmasına dəstək olan vacib faktorlardan da danışılır. Bunlar sağlam qida, təmiz su, əlverişli ətraf mühitdir. Burada valideyn və uşaqlar üçün sanitar-gigienik maarifləndirmənin vacibliyi vurğulanır.

**Qadınlara qarşı diskriminasiyanın bütün formalarının ləğvi barədə Konvensiyanın** 12-ci maddəsində deyilir ki, qadın və qızların sağlamlığın qorunmasının, xüsusilə reproduktiv sağlamlıq məsələlərində kişi və oğlanlarla müqayisədə başqa tələbləri vardır.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşı Səadət Mənəfova**

**Sülh**

*Sülh mədəniyyətinə o zaman nail olmaq mümkün olacaqdır ki, planetin bütün sakinləri qlobal problemləri dərk edəcək, münaqişələrin həlli vərdişlərinə yiyələnəcək, qeyri-zorakı yolla ədalət uğrunda mübarizəni öyrənəcək, beynəlxalq insan hüquqları və ədalət prinsiplərinə riayət edəcək, mədəni müxtəlifliyi qiymətləndirəcək, Yer planetinə və bir-birinə hörmətlə yanaşacaqdır.*

*"Dünyanı sülh ruhunda təhsilə çağırış" Haaqa qlobal kampaniyası*

İnsan hüquqlarına hörmət mədəniyyətini yaratmaq sülh əldə edilməsi üçün vasitədir. Müharibə və zorakılıq həmişə insan hüquqlarının pozulmasına gətirib çıxarır. Davamlı, stabil sülhə və təhlükəsizliyə isə yalnız insan hüquqlarına riayət etməklə nail olmaq olar.

Baxmayaraq ki, Avropada XXI əsrdə hərbi əməliyyatlar aparılmır, amma o, yenə də uşaqlara birbaşa təsir edən münaqişələrdən azad deyil. Silahlı münaqişələr təhlükəsi Balkanlarda və Qafqaz regionunda mövcuddur. Bütün dünya bir-biri ilə sıx əlaqəli olduğuna görə, Əfqanıstan və İraqda baş verən silahlı münaqişələrin sorağı Avropaya (məsələn, Madridə, Londona) çatır. Eləcə də dünyada qeyri-hərbi təhlükələrin sayı artmaqdadır: quraqlıq, xəstəliklər, aclıq, irqçilik və dözümsüzlük – bunlar hamısı münaqişələrin səbəbi və nəticəsidir.

XX əsr insanlıq tarixində ən qanlı və qəddar dövr olub. XX əsrin müharibə qurbanlarının sayı digər yüzilliklərdə olan müharibə qurbanlarının ümumi sayından çoxdur. Bütün dünya Birinci və İkinci dünya mühribələrinə cəlb olunmuşdur. Bu müharibələr Avropanı xarabalığa çevirmişdi. Digər müharibələr ərazi münaqişələri ilə bağlı idi (məsələn, İspaniyada daxili münaqişələr, Kiprdə, Yunanıstanda və İrlandiyada). Avropada XX əsr keçmiş Yuqoslaviyada və Qafqazda müharibələr ilə başa çatdı. Müasir dünya yüksək texnologiyalar və qloballaşma səbəbi ilə dəyişikliklərə məruz qalır. Bu dəyişikliklər münaqişələrin təbiətini gözə çarpan şəkildə dəyişdirdi. Lakin mülki şəxslər arasında, uşaqlar da daxil olmaqla, qurban sayı hələ də böyükdür. Dünyada olan qaçqınların böyük hissəsi uşaqlardır. Onların çoxu öz vətənlərindəki silahlı münaqişələrdən qaçmaq məcburiyyətində qalır. Bundan başqa, ən azı yarım milyon 18 yaşdan kiçik qız və oğlan hərbi məqsədlərlə istismar edilir: hərbi əməliyyatlarda birbaşa iştirak edir, minalar düzür, arxa cəbhədə işləyir. Müharibə uşaqlara məhvedici təsir göstərir: bədənini və ruhunu yaralayır, onların ailələrini və sosial əhatəsini məhv edir.

**İnsan təhlükəsizliyi nədir?**

Tam yeni təhlükəsizlik konsepsiyası yaranmışdır – zorakılıq ilə müxtəlif tipli məhrumiyyətlər arasındakı əlaqəni qeyd edən insan təhlükəsizliyi konsepsiyası. İnsan təhlükəsizliyi konsepsiyası şəxsiyyətin və cəmiyyətin müdafiəsini həm birbaşa fiziki zorakılıq təhlükəsi, həm də dolayı təhlükələr (kasıblığın, iqtisadi və siyasi bərabərsizliyin, eləcə də təbii fəlakətlərin, xəstəliklərin nəticələri) kimi qiymətləndirir. Ölkə xarici təhlükə və ya daxili münaqişələrə məruz qalmaya bilər, lakin tam təhlükəsiz də olmaz, ona görə ki, qanunun aliliyini tam təmin etmək iqtidarında deyildir və ya ona görə ki, əhalinin böyük bir hissəsi aclıq nəticəsində öz evlərini tərk etmək məcburiyyətindədir, xəstəlik nəticəsində vəfat edir və ya yaşamaq üçün zəruri şeylərdən məhrumdur.

İnsan təhlükəsizliyi konsepsiyası insan hüquqlarının möhkəmlənməsinə xidmət edir, çünki o, həyatda qalmaq, insan ləyaqəti və əsas hüquq və azadlıqları (ehtiyac və qorxudan azad olmaq, öz yerinə qərar qəbul etmək hüququ) təmin edən sistemi dəstəkləyir. Nəticə əldə etmək üçün bu konsepsiya iki əsas strategiyadan istifadə edir:

- hüquqların reallaşması üçün imkanların *müdafiəsi*;
- hüquqların reallaşması üçün imkanların *təmin olunması*.

Müdafiə insanları birbaşa təhlükədən qoruyur, eləcə də təhlükəsizliyi təmin edən norma, proses və institutlar yaradır. Hüquqların reallaşması üçün imkanların təmin olunması insanlara öz potensialından geniş istifadə edərək, tam hüquqlu şəxs kimi məsələlərin qəbulu prosesində iştirakına imkan yaradır. İmkanların müdafiə və təminatı bir çox situasiyalarda bir-birini tamamlayır və zəruridir.

2003-cü ildə BMT-nin insan təhlükəsizliyi üzrə xüsusi qrupu “İnsan təhlükəsizliyi bu gün” adlı məruzə dərc etmişdir. Məruzə insan təhlükəsizliyinə nail olmaq və onu qoruyub saxlamaq istiqamətində əsas sualların təhlilinə həsr edilmişdir:

- Silahların yayılması da daxil olmaqla zorakı münaqişələrdə insanların müdafiəsi;
- Öz iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq niyyəti ilə və ya ozünü münaqişələrdən, insan hüquqlarının ciddi pozuntusundan müdafiə üçün qaçmaq məcburiyyətində olmuş insanların müdafiəsi və onlara insan hüquqlarının reallaşdırılmasına imkan yaradılması;
- Münaqişə sonrası vəziyyətlərdə yaşayan, o cümlədən müharibə səbəbli dağıntıların bərpa olunması ilə bağlı mürəkkəb vəziyyətdə olan insanların müdafiəsi və onlara insan hüquqlarının reallaşdırılmasına imkan yaradılması;
- Bütün dünyada minimal həyat səviyyəsini təmin etməklə iqtisadi təhlükəsizliyin dəstəklənməsi və insanlara səfalətdən qurtarmaq imkanının verilməsi;

- Baza tibbi xidmətə hamının çıxışının dəstəklənməsi; infeksion xəstəliklərlə mübarizəyə, səfalətin yaratdığı təhdidlərə, zorakılıq nəticəsində yaranmış sağlamlıq problemlərinə xüsusi diqqət yetirilir;
- Bütün insanlara ümumi baza təhsilinə çıxış imkanlarının yaradılması;
- Qlobal vətəndaşlıqla yanaşı, fərdilik və müəyyən qruplara aid olma hüququnun uzlaşdırılması.

**Sual:** *Sizin yaşadığınız yerdə insanların təhlükəsizliyinə hansı faktorlar mane olur? Onlar cəmiyyətdəki sabitliyə necə təsir edir? Bu mövcud təhlükə sizin işlədiyiniz uşaqlara necə təsir edir?*

**Sülh insan hüququ kimi**

Sülh yalnız zorakılıq və münaqişənin yoxluğu deyil, bu, elə birgə yaşayış üsuludur ki, cəmiyyətin hər bir üzvünün öz hüquqlarını reallaşdırmaq imkanı olsun. Baxmayaraq ki, sülh anlayışı formal şəkildə insan hüququ kimi kodlaşdırılmamışdır, qəbul edilmişdir ki, insan hüquqlarının reallaşdırılması üçün sülh zəruri elementdir və **üçüncü nəsil insan hüquqlarına** və ya **həmrəylik hüquqlarına** aid edilir. Bu hüquqlar ayrı-ayrı fərdlərlə deyil, daha çox bütün cəmiyyətlə, insan qrupları ilə bağlıdır, məsələn, sağlam ətraf mühit hüququ, dayanıqlı inkişaf hüququ, ümumbəşəri irsdən bəhrələnmək hüququ kimi. Sülh – insan hüquqlarına riayətin nəticəsidir: cəmiyyət öz xalqının hüquqlarını nə qədər müdafiə edib, onun maraqlarını qane edərsə, bir o qədər də zorakılıq və münaqişəni sülh yolu ilə həll etmək imkanları çoxalar.

YUNESKO-nun nümunəsinə əsaslanaraq, BMT-nin Ali Assambleyası 1999-cu ildə Sülh Mədəniyyəti Deklarasiyasını qəbul edib. Deklarasiyada qeyd olunur ki, sülh mədəniyyətinə təsir etmək cəmiyyətin bütün üzvlərinin çiyinləri üzərinə düşür, o cümlədən valideyinlərin, müəllimlərin, siyasətçilərin, jurnalistlərin, dini təşkilatların, ziyalıların, vətəndaş cəmiyyəti institutlarının, elmi, fəlsəfi, bədii, yaradıcı fəaliyyətlə məşğul olanların, səhiyyə və sosial işçilərin, bütün səviyyədən olan idarələrin, qeyri-hökumət təşkilatlarının.

**Mədəniyyətlərarası və dinlərarası dialoq**

*Mədəniyyətlər dialoqu – demokratik ünsiyyətin ən qədim və mühüm növü olaraq dözümsüzlüyün və zorakılığın məlhəmidir. Dialoqun məqsədi bizə çoxmədəniyyətli dünyada sülh şəraitində və konstruktiv şəkildə yaşamaq imkanı vermək və birliyi inkişaf etdirməkdir.*

*Avropa Surasının  mədəniyyətlərarası dialoqu:*
*www.coe.int| dg4 \intercultura l|default –en.asp.*

Genişlənməkdə olan miqrasiya, qloballaşma effekti və informasiya-kommunikasiya texnologiyalarının inkişafı insanları daha mobil edir. Belə inkişaf nəticəsində mədəni müxtəliflik hər bir Avropa ölkəsinin əsas xüsusiyyətinə çevrilmişdir. Belə müxtəliflik cəmiyyəti zənginləşdirməklə yanaşı, həm də yeni sosial və siyasi problemlər yaradır. İdentifikasiya məsələsi daha kəskin olduqca, stereotiplər, irqçilik, dözümsüzlük, diskriminasiya, zorakılıq, ksenofobiya dünyanı, milli və yerli cəmiyyətlərin strukturunu təhdid edir. Mədəniyyətlərarası dialoq  bu cür hallarla mübarizədə əsas alət olaraq, birgə yaşama vərdişləri,  birlik və mənsubiyyət hissi aşılayır. Mədəniyyətlərarası dialoq – fərqli mədəniyyətlərə məxsus fərd və qruplar arasında açıq  və nəzakətli fikir mübadiləsidir ki, bunun da nəticəsində dünyanı fərqli anlama daha dərindən dərk edilə bilər. Diskriminasiya, dini zəmində stereotiplərin dəf olunması məqsədilə dinlərarası dialoqa dəstək prosesində dini icmaların oynadıqları rolu qəbul etmək xüsusilə vacibdir.

**Sual:** *Sizin cəmiyyətdə  insanların birlikdə yaşamağına təsir edən müxtəlif dini qruplar varmı? Dini zəmində yaranan münaqişələr siz işlədiyiniz uşaqlara təsir edirmi?*

**Sülhün öyrənilməsi**

Əvvəllər nüvə müharibəsi nəticəsində ümumi məhvin qarşısının alınmasına hədəflənmiş sülh təhsili indi daha qlobal məsələyə – sülh mədəniyyətinin qurulmasına yönəlmişdir**.** O, münaqişə səbəblərinin (səfalət və diskriminasiyanın bütün formaları kimi) anlaşılması  və aradan qaldırılmasına, eləcə də münaqişələrin idarə edilməsi vərdişlərinin inkişafına istiqamətləndirilmişdir. Sülh yolu ilə münaqişələri həll etmək – anadangəlmə vərdiş deyil, bu vərdişi uşaq yaşlarından öyrənilib, təcrübədən keçirmək zəruridir. Mahatma Qandinin  dediyi kimi “əgər biz dünyada sülhə nail olmaq istəyiriksə, uşaqlardan başlamalıyıq”.

*......uşağın təhsili azad cəmiyyətdə anlaşma, sülh,  dözümlülük, kişi və qadın bərabərliyi, bütün xalqlarla, etnik, milli, dini qruplarla, eləcə də yerli  əhali ilə dostluq ruhunda şüurlu həyata hazırlığa istiqamətlənməlidir.*

*Uşaq hüquqları Konvensiyasının 29 d maddəsi*

Adətən uşaq baş verən münaqişəni  digər uşaqlarla, valideynlərlə, müəllimlərlə, başqa böyüklərlə birlikdə  yaşayır. Münaqişə  neqativ və məhvedici  olmur, adətən onu məhdudlaşdırıb, həll etmək mümkündür. Əksinə,  zorakılıq,  aqressiv güc nümayişi  və

hədsiz hakimiyyət insan hüquqlarının pozulmasına və dağıntılara gətirib çıxarır. Bu səbəbdən cəmiyyət münaqişənin qeyri-zorakı həlli üçün xeyli üsullar fikirləşib, məsələn, danışıqlar, digər əməkdaşlıq formaları. Bu üsulların nəticələri qarşılıqlı razılaşma (münaqişənin "qələbə - qələbə" həlli yolu) və kompromislərdir. Uşağa münaqişəni həll etməyi və zorakılıqdan imtina etməyi öyrətmək onun sosiallaşmasında vacib aspektdir.

**Sual:** *Sizin işlədiyiniz uşaqlar adətən münaqişəyə necə reaksiya verirlər? Siz uşaqlara münaqişəni daha yaxşı idarə etmək və onu həll etməkdə necə kömək edə bilərsiniz?*

Sülh təhsili uşaqlara davranışı dəyişmək üçün vacib olan bilik, vərdiş, münasibət və dəyərlər öyrədir. Yeni davranış uşaq və gənclərə imkan verəcək ki, həm açıq, həm də gizli münaqişələri və zorakılığı qabaqlasınlar; yaranmış münaqişəni sülh yolu ilə çözsünlər; şəxslərarası, qruplararası, milli, eləcə də beynəlxalq səviyyədə yaxşı münasibətlər qursunlar. Sülh təhsili uşaqlarda özünə inam hissini yüksəldir, problem həlletmə vərdişlərini inkişaf etdirir, təhlükəli davranışdan uzaq olmağa kömək edir.

BMT-nın strukturları YUNİSEF və YUNESKO sülh təhsili üzrə qarşılarına xüsusi vəzifə qoymuşdur. YUNİSEF-ə istinadən, sülh təhsili – məktəb və ya başqa təhsil təşəbbüsü olaraq:

**-** "Sülh bölgələri" rolunda çıxış edərək uşaqlara zorakı münaqişələdən azad mühit təklif edir.

**-** Uşaq hüquqları Konvensiyasında öz əksini tapmış əsas uşaq hüquqlarını təmin edir.

**-** Təhsil cəmiyyətinin üzvləri arasında sülh və hörmət mühiti yaradır.

**-** İdarəetmə qaydalarında və onların tətbiqində bərabərlik və qeyri-diskriminasiya prinsipləri nümayiş etdirir.

**-** Yerli mədəniyyətdə tətbiq olunan sülh quruculuğu biliklərindən, o cümlədən münaqişəni həll etməyin səmərəli və qeyri-zorakı üsullarından istifadə edir.

**-** Cəlb olunmuş bütün tərəflərin hüquqlarına və şəxsiyyətinə hörmətlə yanaşaraq münaqişələri həll edir.

**-** İmkan dairəsində tədris proqramına sülh, insan hüquqları, sosial ədalət və digər qlobal məsələləri daxil edir.

**-** Sosial ədalət və sülh dəyərlərinin açıq müzakirəsi üçün forum təşkil edir.

**-** İştirak**,** problem həll etmə və başqasının fikrinə hörmətlə yanaşmanı vurğulayan öyrənmə və öyrətmə metodlarından istifadə edir.

- Sülhməramlı vərdişlərdən təlim mühitində və həyatda praktik istifadə imkanları verir.

- Bütün müəlimlərin sülh, ədalət və hüquq məsələlərində peşəkar və davamlı inkişafı üçün şərait yaradır.

YUNESKO-nun işinin böyük hissəsi sülh, insan hüquqları və demokratiya uğrunda təhsilin inkişafına həsr olunmuşdur. 1990-cı ilin əvvəllərindən YUNESKO "sülh mədəniyyəti" üçün təhsil konsepsiyasının inkişafı ilə məşğuldur. Məqsəd "sülh mədəniyyətini inkişaf etdirməklə insan həyatına hörmət, azadlıq, ədalət, əməkdaşlıq, dözümlülük, insan hüquqları, kişi və qadın bərabərliyi kimi ümumi dəyərlərə əsaslanan dünyaya yeni baxış formalaşdırmaq", eləcə də "bu məqsədə çatmaq üçün təhsili və tədqiqatı dəstəkləməkdir".

**Müvafiq hüquq müdafiə alətləri**

**Avropa Şurası**

İnsan hüquqları və əsas azadlıqların müdafiəsi barədə Avropa Konvensiyasının preambulası sülh və insan hüquqları arasında əlaqənin vacibliyini vurğulayaraq, qeyd edir ki:

...... *əsas azadlıqlar ədalət və ümumbəşəri sülhün əsasıdır. Bu azadlıqlar o zaman ən yaxşı şəkildə təmin olunur ki, həm sırf demokratik siyasi rejim olsun, həm də insan hüquqlarına riayət olunsun.*

Konvensiyanın 5 maddəsində hər bir kəsin azadlıq və toxunulmazlığına təminat verilir, xüsusən də azadlıqdan məhrum edilmə cəzasına dövlətin qarışacağı təqdirdə.

Avropa Şurası xalqlar arasında tolerantlığın, qarşılıqlı anlayış və sülhün möhkəmlənməsinə istiqamətlənmiş bir sıra tədbirlər həyata keçirir, o cümlədən insan hüquqları təhsili, demokratik vətəndaşlıq təhsili, mədəniyyətlərarası və dinlərarası dialoqun təşkili kimi. 2007- ci ildə Avropa Şurası "Mədəniyyətlərarası dialoq haqqında ağ kitab" dərc etmişdir ki, bura Avropadaxili və Avropa ilə qonşu regionlar arasında mədəniyyətlərarası dialoqa davamlı siyasi dəstəyin prinsipləri daxildir.

**Birləşmiş Millətlər Təşkilatı**

Birləşmiş Millətlər Təşkilatı 1945-ci ildə "gələcək nəsilləri müharibə əzablarından qurtarmaq", "insan şəxsiyyətinin ləyaqət və dəyərlərinə, kişilər və qadınlar arasında hüquq bərabərliyinə yenidən inam yaratmaq", "beynəlxalq hüquq müqavilə və sənədlərinə hörmət və ədalətin hökm sürdüyü bir şərait yaratmaq", "daha geniş azadlıqlar əsasında sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına dəstək" məqsədilə yaradılmışdır.

Sülh təhsili bu məqsədlərə çatmaq üsulu kimi yaranmışdır. Bu təhsil İnsan hüquqları Deklarasiyasının 26 maddəsində öz əksini tapmışdır. Burada yalnız insanların təhsil hüququ təsbit edilmir, həm də deyilir ki, təhsil “insan şəxsiyyətinin tam inkişafına və insan hüquqlarına, əsas azadlıqlara hörmətin artmasına xidmət etməlidir.” O, “bütün xalqlar, dini qruplar, irqlər arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə, dostluğa dəstək verir” və Birləşmiş Millətlər Təşkilatının sülhü qorumaq fəaliyyətinə xidmət etməlidir.

Uşaq hüquqları Konvensiyasının 38 və 39-cu maddələrində silahlı münaqişə şəraitində uşaq hüquqlarının qorunmasından bəhs edilir. 38-ci maddəyə əsasən, “silahlı münaqişə zamanı uşaqların qorunması və onlara qayğı üçün bütün vasitələrdən istifadə etmək” nəzərdə tutulur. 39-cu bənd zorakı münasibətin, o cümlədən müharibənin qurbanı olmuş uşaqların “fiziki və psixoloji bərpasını, sosial reinteqrasiyasını” təmin etmək üçün zəruri tədbirlər həyata keçirməyə çağırır. Uşaqların silahlı qüvvələrdə xidmətə çağırılmasına qarşı mübarizəyə xüsusi diqqət yetirilir. 38-ci maddəyə əsasən, 15 yaşına çatmayan uşaqlar hərbi əməliyyatlarda iştirak edə bilməzlər, lakin 2000-ci ildə Ali Assambleyanın qəbul etdiyi Fakültativ protokola əsasən hərbi münaqişələrdə iştirak yaşı 18-ə qaldırılıb.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**
**Tərcümə: TİPİİ-nin əməkdaşı Səadət Mənəfova**

**Təhsil və istirahət**

*“Demokratiyanı öyrənməyin yeganə yolu demokratik şəkildə öyrətməkdir. Əgər belə bir əlaqə qurulsa, təhsilə daha yaxşı və daha geniş imkanlar verən və təhsildən insan hüquqlarına hörmətlə yanaşmağa keçidi təmin edən “uğurlar spiralını” yaratmaq olar.”*

*Avropa Şurası Baş katibinin müavini Mod de Bur-Bukikkionun çıxışından*



Təhsilin özü insan hüququdur. Bir şəxsin inkişafı üçün zəruridir və digər hüquqların əldə edilməsi və həyata keçirilməsinə vasitədir. İnsan Hüquqları üzrə Ümumi Bəyannamənin 26-cı maddəsi hər kəsin təhsil almaq hüququna malik olduğunu və təhsilin ən azı ibtidai səviyyədə pulsuz təmin edilməsinin məcburi olmasını nəzərdə tutur. Avropa İnsan Hüquqları Konvensiyasının 1-ci Protokolunun 2-ci bəndi hər kəs üçün təhsil hüququnu təmin edir. Bugünkü Avropada hamı üçün əlçatmaz olmayan orta məktəblər, peşə hazırlığı və universitet təhsili daha açıq olmalıdır.

Lakin pulsuz ibtidai təhsilə çıxış imkanı artıq kifayət deyil. Digər üç tələb yerinə yetirilməlidir:

1. **Bərabər imkanlar:** dövlət yalnız bərabər çıxış imkanı deyil, həm də uğur qazanmaq üçün bərabər imkanlar təmin etməlidir. Bu o deməkdir ki, bəzi uşaqlara əlavə yardım və xüsusi şərait lazım ola bilər. Məsələn, kar uşaqların zəruri olduğu halda onlara kömək üçün işarə dili, eşitmə cihazları və tərcüməçi hüquqları vardır. Fərqli ehtiyacı olan bütün uşaqlar üçün bu cür düzəlişlər edilməlidir ki, eyni məktəblərdə digər uşaqlarla birlikdə oxusunlar və uğur üçün bərabər imkanlara malik olsunlar. Məsələn, bəzi Avropa ölkələrində köçəri qrupların uşaqları valideynlərinin köçəri həyat tərzinə uyğunlaşdırılmış xüsusi təhsillə təmin edilmədikdə təhsil hüququndan məhrum ola bilərlər. Təhsildə uğur üçün bərabər imkanlar başqa aspektlərə də

diqqət etməlidir: uşağın ana dilindən istifadə, ev tapşırığını yerinə yetirmək üçün şərait, ədəbiyyatın əldə edilməsi və ya öyrənmə çətinlikləri. Ana dilində təhsil almaq yalnız məktəbdə uğur qazanmağa kömək etmir, bu, həm də bir mədəni hüquqdur. Uşaqları məktəbdən qovmaq və ya pis qiymət yazmaq təhsil problemlərindən çıxış yolu deyil. Bu problemlər yaxşı hazırlanmış müəllimlər tərəfindən (diferensial yanaşma tətbiq etməklə); sosial işçilər, vasitəçilər və ya psixoloqlar kimi digər personalın köməyi ilə həll edilməlidir. Təhsildə bərabər imkanlar yoxsulluqla mübarizədə əsas rol oynayır.

2. **Keyfiyyətli təhsil:** dövlət keyfiyyətli təhsilə bərabər giriş zəmanəti verməlidir. Çox tez-tez iki səviyyəli sistemlərlə qarşılaşmalı oluruq ki, bunlardan birində yaxşı hazırlanmış personal və keyfiyyətli infrastruktur elit təbəqə üçün, ikincisində isə yalnız ən zəruri sayılan texniki və insan resursları kasıb təbəqə üçün nəzərdə tutulur. Gələcək üçün zəruri bilik və bacarıqların əldə edilməsinə şərait yaradan və müəyyən yaş həddinə qədər olan insanlar üçün standart olan baza təhsilinə zəmanət verilməlidir. Lakin keyfiyyətli təhsil yalnız məktəblərə maddi dəstək şəklində və ya məktəbin effektivliyinin artırılması ilə yaradıla biməz.

YUNESKO-nun tərifinə əsasən, keyfiyyətli təhsil insan hüquqlarının üzərində qurulmalı və yeni sahələrə müraciət etməlidir; onların arasında: mədəni müxtəliflik, təhsildə çoxdillilik, qeyri-zorakılıq, sülh, davamlı inkişaf, sərbəstlik vərdişləri nəzərdə tutulur.

3. **İnsan şəxsiyyətinin tam inkişaf etməsi üçün təhsil:** İnsanların təhsilalma hüququ yalnız oxumaq və yazmaqdan ibarət deyil. İnsan Hüquqları Deklarasiyasında qeyd edilir ki, təhsil insan şəxsiyyətinin tam inkişafına və millətlərarası sülh əldə olunmasına istiqamətlənməlidir. Uşaq Hüquqları haqqında Konvensiyada (UHK) hər bir uşağın hüququ ola bilən təhsil haqqında fikir yürüdülür:

*“Uşağı azad cəmiyyətdə şüurlu həyata hazırlayarkən ona sülhü, dözümlülüyü, qadın və kişi bərabərliyini; xalqlar, etnik, milli və dini qruplarla, eləcə də yerli insanlarla dostluğu öyrətmək nəzərdə tutulur”*

*UHK, 29-cu bənd.*

Təhsil hüququ eləcə də insan hüquqları sahəsində təhsil hüququ hesab edilir. Bu holistik yanaşma formal və qeyri-formal təhsil çərçivələrində gerçəkləşə bilər. Qeyri-formal təhsillə adətən qeyri-hökümət təşkilatları məşğul olur və bu təhsil formal məktəb təhsilindən kənarda baş tutur. Bu iki formada təhsil bir-birini qarşılıqlı tamamlayır.

Bəzi uşaqlara qəribə görünə bilər ki, təhsil yalnız hüquq deyil, həm də öhdəlikdir. Onlar bu tələbi o zaman başa düşə bilərdilər ki, onların məktəbə getmək imkanı olmayan uşaqlar haqqında məlumatları olsun və bu məhrumiyyətin onların indiki və gələcək həyatlarına təsirini görsünlər.

Bu problemlə uşağın işləməsi məsələsi sıx bağlıdır. Böyük uşaqların “əmək hüququ” olduğu halda, uşaqların artıq və ya təhlükəli işlərdən xüsusi müdafiə hüququ vardır. Məktəbə getmək uşağın əsas “işi” sayılır. Lakin bəzi uşaqlar ailələrini təmin etmək üçün işləmək məcburiyyətində qalırlar. Əlbəttə, bütün uşaqlar öz ailələrinə kömək edə bilərlər və etməlidirlər. Bəzi uşaqlar yay aylarında işləyərək öz cib xərcliyini çıxarır və bu da onların həyatında vacib təcrübə olaraq tərbiyə komponentinə çevrilir. Uşaqlar bilməlidirlər ki, qanunlar onları istismardan, təhlükəli və ya sağlamlıq üçün zərərli fəaliyyətlərdən qoruyur. Uşağın işləməsi heç bir halda onun təhsil almasına, istirahətinə, oyununa mane olmamalıdır (UHK, 32 və 36-cı bəndlər). Uşaqlar keçmişdə yaşayan uşaqların necə istismar olmaları ilə hekayələr və filmlər vasitəsi ilə tanış ola bilərlər. Böyük uşaqlar uşaq işlərinin müasir formalarını öyrənməli və gənclər üçün adekvat işlə istismar arasındakı fərqi anlamalıdırlar.

**XXI əsrdə təhsil çağırışları və təhsil siyasətinin yeni prioritetləri**

1996-cı ildə YUNESKO Komissiyası dünyada mövcud olan və təhsilə təsir edən əsas gərginliklərin xülasəsini təqdim etdi:

1. qlobal və lokal məsələlər arasında gərginlik;
2. universal və unikal arasındakı gərginlik;
3. ənənə və müasirlik arasında gərginlik;
4. mənəviyyat və maddiyyat arasında gərginlik;
5. qısamüddətli və uzunmüddətli qiymətləndirmələr arasındakı gərginlik;
6. rəqabət və bərabər imkanlar arasında gərginlik;
7. biliyin müstəsna artımı ilə insanların onu mənimsəmək qabiliyyəti arasında gərginlik.

Bu çətinlikləri həll edə biləcək bir strategiya kimi YUNESKO təlimin “dörd sütunu”nu ortaya qoydu:

1. ***Birlikdə yaşamaq üçün təhsil**:* bu, əsasən o deməkdir ki, şagirdlərin digər insanlarla qarşılıqlı əlaqələrini şüurlu şəkildə qavraması üçün təhsil onlarda zəruri bacarıq və qabiliyyətləri artırmalıdır: münaqişələrin həlli, ümumi gələcəyə və ümumi məqsədlərə nail olmaq üçün başqaları ilə işləmə və planlaşdırma; plüralizmə və müxtəlifliyə (məsələn, cinsi, etnik, dini və ya mədəni) hörmət; cəmiyyətin həyatında fəal iştirak.

**2.** ***İnformasiya qazanmağı öyrənmək**:* bu o deməkdir ki, təhsil şagirdlərə bilik qazanmaq üçün alətlər əldə etməyə köməklik göstərməlidir: ünsiyyət, şifahi çıxış, savadlılıq, hesab və problemlərin həlli üçün mühüm öyrədici vasitələr verməli; geniş ümumi bilik və bir neçə sahədə dərin bilik əldə etmə; hüquq və vəzifələri anlamaq və ən əhəmiyyətlisi, öyrənməyi öyrənməkdir.

**3.** ***Praktk təlim (fəaliyyət üçün təlim):*** təhsil şagirdlərə aşağıdakıları verməlidir: peşə vərdişləri qazanmaq, müxtəlif həyati situasiyalarda düşünülmüş qərarlar qəbul etmək üçün

sosial və psixoloji keyfiyyətlər, yerli və qlobal bazarlarda iştirak, texniki vasitələrdən istifadə, öz əsas ehtiyaclarını ödəmək, özünün və başqalarının həyatını yaxşılaşdırmaq bacarıqları.

**4.** ***Yaşamağı öyrənmək:*** təhsil fərdi inkişafa dəstək olmalı; insanları daha böyük müstəqillik, ehtiyatlılıq, şəxsi məsuliyyət nümayiş etdirərək və tənqidi düşünərək fəaliyyət göstərməyə təşviq etməlidir. Təhsil potensialın tam inkişafına yönəldilməlidir: məsələn, yaddaş, arqumentasiya bacarığı, estetik zövq, mənəvi dəyərlər, fiziki qabiliyyətlər və ünsiyyət bacarıqları; sağlam həyat tərzi, idman və istirahət; öz mədəniyyətinə hörmət; etik və əxlaqi qaydalar; danışmaq və özünü müdafiə qabiliyyəti; psixi sabitlik.

Bu problemlər gələcəkdə təhsil məqsədlərinə nail olmaq üçün digər beynəlxalq təşkilatları yeni strategiyalar hazırlamağa təşviq etmişdir. Avropa Birliyi Lissabon Strategiyasında Avropa vətəndaşları üçün zəruri kompetensiyaları müəyyən etmişdir:

- ana dilində ünsiyyət;
- xarici dillərdə ünsiyyət;
- riyazi biliklər;
- təbiət elmləri və texnologiyada baza bilikləri;
- rəqəmsal texnika sahəsində biliklər;
- öyrənməyi öyrənmək;
- sosial və vətəndaş xüsusiyyətləri;
- təşəbbüs və sahibkarlıq;
- mədəniyyətə hörmət, mədəniyyətin nümayiş etdirilməsi.

İki əsas məfhum Avropa təhsil siyasətinə inteqrasiya olunur: ***öyrənən cəmiyyət*** və ***ömürboyu öyrənmə***. Elə bir icma ideyası təşviq olunur ki, orada insanlara həyat boyu öz səriştəliliyini inkişaf etdirmək üçün müxtəlif imkanlar təklif olunsun. Bu proseslərdə formal və qeyri-formal təhsilin bir-birini tamamlaması fikri get-gedə möhkəmlənir. İnformal təhsil mövzu və metodologiyaların geniş spektrini əhatə edə bilər. Onun daha çevik yanaşmaları formal təhsil sisteminə daxil olmaqdan məhrum olmuş milyonlarla funksional savadsız uşaq və yetkinləri savadlandıra bilər və onlara digər bacarıqlar aşılayar.

**Sorğu:** Siz nə vaxtsa qeyri-formal təlimdə iştirak etmisinizmi? Nə hiss etmisiniz? Bu təcrübə formal təhsil sistemində öyrənmə təcrübəsindən nə ilə fərqlənirdi?

**Dincəlmək və oynamaq hüququ**

Oyunlar uşaqların sağlamlığı və inkişafı üçün o qədər vacibdir ki, onlar Uşaq Hüquqları Konvensiyasının 31-ci maddəsində əsas hüquq kimi tanınır. Uşaqların Oynamaq Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Assosiasiyasının bəyanatına əsasən, “oyun... hər bir uşağın potensialını inkişaf etdirmək üçün əsas fəaliyyət növüdür... Çünki oyun sevməyi və həyatı kəşf

etməyi öyrədir”. İstənilən yaşda oynayan uşaq bacarıqlarını inkişaf etdirir, bədənini və təxəyyülünü məşq etdirir və son dərəcə əhəmiyyətli sosiallaşma prosesinə qoşulur. Uşaq Hüquqları Konvensiyasının həmin bəndində qeyd edilir ki, uşaqların “mədəni və yaradıcı həyatda tam iştirak etmək hüququ vardır və iştirakçı dövlətlər mədəni və yaradıcılıq fəaliyyəti, asudə vaxt və istirahət üçün uyğun və bərabər imkanlar təmin etməlidir”.

Oyun, mədəni və yaradıcılıq fəaliyyəti yalnız asudə vaxt və məmnuniyyət deyil. Bu fəaliyyət uşaq müstəqilliyinin inkişafına kömək edir və onun şəxsiyyətlərarası və mədəniyyətlərarası ünsiyyət vərdişlərini yaxşılaşdırır. Oyun və incəsənət vasitəsi ilə uşaqlar insan hüquqlarının hörmət, ləyaqət, bərabərlik, iştirak, ədalət və əməkdaşlıq kimi vacib prinsiplərini hiss edirlər.

O cümlədən idman da iştirakın, əməkdaşlığın, fədakarlığın,  məqsədyönlülüyün və pozitiv rəqabətin sosial dəyərini əks etdirir. Lakin idmanın bu tərbiyəvi aspektini anlamaq üçün pedaqoq və uşaqlar idmanla şüurlu şəkildə məşğul olmalı, idmanın təhlükəli tərəflərini bilməldirlər, xüsusilə də idman daha çox rəqabət əsaslı olduqda.

**Beynəlxalq təşkilatlar, insan hüququ və təhsil**

**YUNESKO-nun “Hamı üçün təhsil” proqramı**

2006-cı ildə Ümumdünya təhsil forumu Dakar fəaliyyət proqramı, “Hamı üçün təhsil” adlı yeni qlobal strategiya qəbul etmişdir ki, bu da növbəti onilliklərdə YUNESKO və hökumətlər tərəfindən həyata keçirilməlidir. Bu proqram kiçik yaşlı uşaqların sosial təminatı, keyfiyyətli təhsil, uşaqlar arasında cinsi qeyri-bərabərliyin aradan qaldırılması və müstəqilliyin artırılması kimi məsələlərə xüsusi diqqət ayırır.

**Avropa Şurası**

Avropa Şurasının təhsil sahəsində fəaliyyəti Avropa Mədəniyyət Konvensiyasına əsaslanır. Təhsil sahəsində iki əsas şöbə var: Məktəb, Məktəbdənkənar və ali təhsil idarəsi, Gənclər və idman idarəsi. Məktəb, məktəbdənkənar və ali təhsil idarəsinin fəaliyyəti demokratik vətəndaşlıq təhsili və tərbiyəsi vasitəsilə keyfiyyətli təhsil, müasir təhsil siyasəti, mədəniyyətlərarası dialoq məsələlərinə yönəlmişdir.

Gənclər və idman idarəsi siyasət təlimatları hazırlayır; yerli, milli və Avropa səviyyələrində uşaq və gənclər siyasətinin əlaqəli və səmərəli inkişafı üçün proqramlar yaradır. İdarə uşaq və gənclərin demokratik vətəndaşlığı, iştirak, insan hüquqları təhsili, sosial birlik və gənclərin iştirakına yönəlmiş beynəlxalq fəaliyyətlər üçün maliyyə və təhsil dəstəyini təmin edir. Gənclər şöbəsi qeyri-normal təhsil üzrə Avropa Sənədlər Mərkəzi kimi fəaliyyət göstərir.

Avropa Şurası həm də idmanı ədalətli rəqabətin və tolerantlığın təşviq vasitəsi kimi təbliğ edir, sağlam həyat tərzi və idmanı təşviq edir. Məsələn, Şura Avropa İttifaqı ilə əməkdaşlıqda

məktəblər və idman təşkilatları üçün “Qadağan olunmuş maddələrsiz idmana dair təlimat” və təhsil proqramları hazırlamışdır.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşı Arzu Əsədova**

## Vətəndaşlıq

*Yaşlılar onlara xas olan eqosentrizmlə adətən onları (uşaqları) vətəndaş kimi qəbul etmir, yaxud da onlara müasir dövrün deyil, gələcəyin vətəndaşları kimi baxırlar.*

Brayan Hou

**Müasir vətəndaşlığın çoxsaylı parametrləri:**

Sırf hüquqi mənada vətəndaş - qanunla insanların mülki və siyasi hüquqları qorunan dövlətin sakinidir və insanların bu dövlətə münasibətdə qarşılıqlı öhdəlikləri vardır: ölkənin qanunlarına tabe olmaq, hücum zamanı onu qorumaq ümumi işlərdə iştirak etmək. Vətəndaşlıq milliyyətdən və etnik mənsubiyyətdən fərqlidir; bu konteksdə milliyyət və etnik mənsubiyyət mədəni və dil ümumiliyi əsasında yaranan qruplardır. Əksər Avropa ölkələrinin əhalisi bir neçə millətdən ibarətdir. Eyni millətdən olan insanlar isə ayrı-ayrı qonşu dövlətlərdə yaşaya bilərlər. Dövlət **siyasi** və **geo-siyasi** qurum olduğu halda, millət **mədəni** və **etnik** təsisatdır. Vətəndaşlıq dövlətlə əlaqədardır və milliyyətdən asılı deyildir.

Hazırda "vətəndaşlıq" anlayışı insanlarla dövlət arasında hüquqi münasibətdən (əlaqələrdən) daha geniş məna daşıyır. Vətəndaşlıq yalnız mülki, siyasi hüquq və vəzifələr aid edilən hüquqi ölçü deyil, o, həmçinin psixoloji və sosial münasibətlərlə ölçülür. Vətəndaş olmaq insan şəxsiyyətinin müəyyən bir parçasıdır. İnsan cəmiyyətin üzvü olduğu üçün onun qayğısına qalır, bu qayğını cəmiyyətin digər üzvlərindən gözləyir, cəmiyyətin ümumi rifahı üçün birgə fəaliyyət göstərməyə can atır.

Geniş mənada vətəndaşlıq sadəcə sosiallaşma prosesi deyildir. O, özündə doğmalıq, mənsubolma, iştirak, cəmiyyət qarşısında öhdəlik hislərini birləşdirir. Cəmiyyətin bir hissəsi kimi vətəndaş cəmiyyətə təsir edə bilər, onun inkişafına və çiçəklənməsinə yardımçı ola bilər. Beləliklə, vətəndaş həm hüquq və vəzifələrin "alıcısı", həm də cəmiyyətin üzvüdür. Bu mənada bütün vətəndaşların ləyaqəti bərabərdir.

---

**Sual:** *Adi vətəndaşlar seçkilərdə səs verməklə yanaşı, hansı formada cəmiyyətin həyatında iştirak edə bilərlər? Onları buna necə cəlb etmək olar?*

---

**Vətəndaşlığın tarixi və müasir konsepsiyaları**

Vətəndaşlıq ideyasının tarixi inkişafı vətəndaşlığın bu çoxcəhətli aspektlərini başa düşməyə kömək edir.

Vətəndaşlığın qədim konsepsiyalarından biri qədim yunan şəhər-dövlətlərinə aiddir. Burada "vətəndaşlar" o şəxslər idi ki, qanunla dövlətin işində iştirak etmək hüququna malik idilər. Lakin əhalinin çox az bir qismi bu hüquqa malik idi: qullar və qadınlar sadəcə subyekt

idilər, əcnəbilər isə prinsipcə istisna edilirdilər. Vətəndaş hüququna malik olan azad kişilərin "vətəndaş mənəviyyatı" əsas keyfiyyət idi. Bu ənənə vətəndaşlığın vətəndaş üzərinə qoyduğu məsuliyyətə xüsusi diqqət verilməsinin səbəbi oldu.

Vətəndaşlığın milli mənsubiyyətlə əlaqəsi XIX əsrdə yarandı. Həmin dövrdə bütün Avropada milli dövlətlər yaranmağa başladı, vətəndaşın hüquqi statusu isə çox zaman milli dövlət ilə bağlı oldu, həmin dövlətin ərazisində bir neçə etnik qrup yaşasa belə. Bu dövrdə vətəndaşlıqla vətənpərvərlik arasında əlaqə möhkəmləndi.

Fransız inqilabının yaratdığı **vətəndaşlığa liberal baxış** bütün insanların hüququnun olmasına, etnik qrupa deyil, konstitusiyaya sadiqliyə diqqət edirdi. Səsvermə hüququ olanların sayı artdıqca, ədalət və siyasi hüquqlar da daha çox insan üçün reallığa çevrilirdi.

XX əsrdə **"sosial vətəndaşlığın**" tərəfdarları hesab edirdilər ki, vətəndaşlar dövlətdən vətəndaş və siyasi hüquqlar gözləmək imkanına malik olmalıdırlar. Ötən əsrdə ümumi rifah dövlətlərinin yaranması "insan hüquqlarına qazanc mənbələri və əmək şəraiti də daxil olmalıdır" deyən mütəfəkkirlərə borcludur.

Bu gün vətəndaşlıq müxtəlif mənalar daşıyır ki, bunlar da qarşılıqlı əlaqədir və bir-birini tamamlayır. Hazırda "**fəal vətəndaş mövqeyi**" öz cəmiyyətinin rifahının yaxşılaşması üçün iqtisadi imkanlardan, dövlət qulluğundan, könüllü fəaliyyətdən və s. istifadə etməyi nəzərdə tutur.

**"Avropa vətəndaşlığı"** müxtəlif cür şərh olunur. Avropa İttifaqı haqqında Maastrix müqaviləsinə əsasən Avropa İttifaqına daxil olan ölkələrin vətəndaşları İttifaqa, eləcə də öz dövlətlərinə münasibətdə daha çox hüquq və vəzifələr əldə edirlər. Avropa İttifaqının vətəndaşlarına verilən bu imtiyazlar üzv olan ölkələrin ərazisində sərbəst hərəkət və yaşamaq hüququ, eləcə də səs vermək və seçkilərdə öz namizədliyini Avropa Parlamentinə təqdim etmək hüquqlarını nəzərdə tutur. Lakin demək olmaz ki, bu gün "Avropa cəmiyyəti" yunan və ya çex cəmiyyəti kimidir. Avropa vətəndaşlığı hazırda real həqiqətlə uzaq ideal arasında yer tutur. "Avropa vətəndaşlığının ideal anlamı demokratiya, insan hüquqları və sosial ədalətlilik dəyərləri üzərindədir." Avropa vətəndaşlığı bir çox dəyərlər sisteminə (insan hüquqları, millilik, etnik mənsubiyyət, yerli icma, ailə, ideoloji qruplar və s.) aidlik hissini təmin edir. Avropa vətəndaşlığının tərkib hissəsi olan bu mürəkkəb və dinamik aidiyyət sistemi hər hansı milli mənsubiyyətə zidd deyil, əksinə inklüzivdir və yerli səviyyədə işləyir.

**"Dünya vətəndaşlığı**" "hər bir insan dünyanın vətəndaşıdır" ideyası üzərində qurulan yeni konsepsiyadır. Hüquqi mənada "dünya vətəndaşı" anlamı mövcud deyildir. "Dünya vətəndaşlığı haqsızlığa və bərabərsizliyə qarşı mübarizə aparmağı, bu istiqamətdə fəal çalışmaq arzusu və imkanını nəzərdə tutur. Bu, Yer kürəsinin dəyərli və unikal olmasının qəbulu və bizdən sonrakı nəsillərin gələcəyini təmin etməyi nəzərdə tutur. Dünya vətəndaşlığı

istənilən digər vətəndaşlıqla əla uzlaşır. Bu bir təfəkkür tərzidir və mütləq dünyanı yaxşılığa doğru dəyişəcəkdir."

"Vətəndaş" və "vətəndaşlıq" məfhumlarının xeyli tərifi olduğundan, milli dövlətin isə heç də həmişə çoxmədəniyyətli Avropaya uyğun konsept olmadığından, Avropa Şurası "vətəndaş" sözünü "cəmiyyətin üzvü" mənasında işlədir. "Milli dövlət" əvəzinə "cəmiyyət" sözü insanın yaşadığı yerli, regional və beynəlxalq mühiti daha yaxşı təsvir edir.

---

**Sual:** *Sizin vətəndaşlıq haqqında şəxsi təsəvvürləriniz necədir? Mobil və multikultural dünyada vətəndaşlığın meyarları hansılardır? Sizin cəmiyyətdə kimlərə vətəndaşlıq hüququ verilməməlidir?*

---

Bu gün vətəndaşlıq haqqında insanların təsəvvürləri bütün bu konsepsiyaların elementlərini müxtəlif nisbətlərdə özündə birləşdirir. Bəzi insanlar vətəndaşlıqda "vəzifələri", bəziləri isə "hüquqları" daha vacib element hesab edir. Bəziləri üçün vətəndaşlıq vətənpərvərliklə əlaqələndirilirsə də, digərləri vətəndaşlığı daha geniş mənada təsəvvür edirlər.

**Uşaqlar vətəndaş kimi**

Bir çox ölkələrin qanunvericiliyində əvvəllər uşaqlar valideynlərinin şəxsi əmlakı sayılardı. ***Patria potestas*** - (ata hökmranlığı) ataya övladı üzərində istənilən hüquq (o cümlədən öldürmək hüququ) verilməsi çoxdan sıradan çıxsa da, onun qalıqları hələ bir sıra ölkələrdə mövcuddur. Cəmiyyətdə adətən hesab edirdilər ki, uşaqlar ya "vətəndaş deyillər" ya da "hələ vətəndaş deyillər". Uşaq hüquqları haqqında Bəyannamənin 5 və 18-ci maddələrində uşaqlar, onların təhsili, təmsil olunması üzərində valideynlərin qəyyumluğu qəbul olunsa da, həmin Bəyannamənin 3-cü maddəsində valideynlərin uşaqlar üzərində hüquqları uşaqların marağı ilə məhdudlaşdırılır.

Uşaq hüquqlarının müdafiəçisi Brayan Hounun sözlərinə görə, uşaqlar hüquqi cəhətdən anadan doğulduqları gündən və ya vətəndaşlığı qəbul etdiyi zamandan vətəndaş sayılsa da, əksərən onları bu cür qəbul etmirlər və vətəndaş saymırlar. "Yaşlılar onlara xoş olan eqosentrizimlə adətən onları (uşaqları) ya vətəndaş kimi qəbul etmirlər, ya da onları hazırki dövlətin deyil, gələcəyin vətəndaşları hesab edirlər". Hou bu cür münasibətin iki əsas səbəbini göstərir: İqtisadi asılılıq və uşaqların psixoloji cəhətdən yetkinləşməməsi. O, qeyd edir ki, işləməyən valideynlər, təqaüdçülər, tələbələr və ya imkanları məhdud şəxslər kimi iqtisadi cəhətdən asılı insanlar vətəndaş kimi qəbul olunurlar. Bundan o nəticəyə gəlmək olar ki, uşaqlar vətəndaşlıq hüququna malik ola bilərlər, çünki, "vətəndaşlıq iqtisadi asılılıq deyil, birlik deməkdir".

**Sual:** *Uşaqlar həqiqətən vətəndaşdırlarmı? Yoxsa onlar “hələ vətəndaş deyil” və ya “gələcəyin vətəndaşlarıdırlar?*

---

Uşaqlarda həqiqətən yaşlılarda olan özünənəzarət, yetkinlik və koqnitiv yetişkənlik kifayət qədər deyildir. Lakin inkişaf bütün ömür boyu davam edən, arasıkəsilməyən prosesdir. Uşaqların koqnitiv inkişaf səviyyəsi isə onlara hörmətlə və yaşına uyğun vətəndaş kimi yanaşdıqda, müstəqil, sərbəst davranmaq imkanı verildikdə artır.

Milli qanunvericiliyə və İnsan Hüquqlarının Ümumi Bəyannaməsinə uyğun olaraq, uşaqlar da yaşlılar kimi eyni hüquq və vəzifələrə malikdirlər. Lakin eyni zamanda onların vətəndaşlığı fərqlidir. Uşaq Hüquqları Konvensiyasında göstərildiyi kimi uşaqların xüsusi *müdafiəyə* (məsələn: zorakılıqdan, qayğının olmamasından, iqtisadi və seksual istismardan), *təminata* (məsələn: səhiyyə, sosial təminat və ya keyfiyyətli həyat standartı kimi baza tələbatları, həmçinin milliyyət, fərdilik və ad hüququ) və onlara aidiyyatı olan bütün qərarların qəbul edilməsində *iştirak*a ehtiyacı vardır. Bu hüquqlar uşağın inkişaf xüsusiyyətlərinə, həmçinin vətəndaş kimi vəzifələrinə uyğun həyata keçirilməlidir. Uşaqlar da böyüklər kimi başqalarının hüquqlarına hörmət etməli və qanuna tabe olmalıdırlar. Lakin qanuna görə onların vəzifə və məsuliyyət səviyyələri yaşlarından asılıdır.

---

**Sual:** *Vətəndaş iştirakının hansı formaları uşaqlar üçün mümkündür və müvafiqdir?*

---

**Vətəndaşlıq üçün çağırışlar**

Hazırda Avropada ənənəvi vətəndaşlıq modelini pozan sosial hadisələr baş verir. Bəzi yerlərdə etnik münaqişələr və millətçiliyin inkişafı vətəndaşlığın yeni formalarının yaradılmasına əngəl törədir. Bundan əlavə, müasir miqrasiyanın yüksək səviyyəsi vətəndaşlıq haqqında üstünlük təşkil edən təsəvvürlərə əks təsir göstərir. Bəzi etnik azlıqların keçmişdə təqib olunan kollektiv özünüdərkinin yeni formalarının yaranması, daha çox avtonomiya və bərabərliyin yeni formalarının mövcudluğu vətəndaşlıq anlayışını mürəkkəbləşdirir. İnsanlar arasında sosial birləşmənin və həmrəyliyin zəifləməsi və ənənəvi siyasi institutlara olan inamın getdikcə daha da azalması demokratik vətəndaşlığın tərbiyə olunmasının əhəmiyyətini artırır.

**Demokratik vətəndaşlıq təhsili**

Demokratik vətəndaşlığın öyrənilməsi vətəndaş olaraq yaşadıqları cəmiyyətin rifahının yaxşılaşdırılmasına öz töhfəsini verməyə hazır olan qabiliyyətli, fəal və məsuliyyətli uşaq və gənclərin tərbiyə olunması prosesidir. Demokratik vətəndaşlıq təhsilinin üç məqsədi vardır:

1. Siyasi savadlılığın təmin olunması: siyasi və vətəndaş institutlarını tanımaq, sosial problemləri anlamaq;

2. Məntiqi təfəkkür, əməkdaşlıq və fəal dinləmə kimi vərdişlərin inkişafı;

3. Cəmiyyətin həyatına qoşulmaq və fəal iştirak etmək üçün dəyər və münasibətlərin formalaşdırılması.

Bu cür kompleks yanaşma demokratik vətəndaşlıq təhsilini yalnız bilik verən və məsuliyyət aşılayan ənənəvi vətəndaşlıq tərbiyəsindən fərqləndirir.

Avropa Şurası 1997-ci ildən demokratik vətəndaşlıq təhsili layihəsini həyata keçirir. O, məsələlər üzrə analtik qiymətləndirmə və mövcud siyasət prinsiplərini təqdim edir, həmçinin təlim materialları və müvafiq təcrübələri toplayır. 2002-ci ildə Avropa Şurasının Nazirlər Komitəsinin qəbul etdiyi tövsiyə hökumətləri demokratik vətəndaşlıq təhsilini təhsil islahatları siyasətinin prioritet məsələsi etməyə çağırır.

Hazırda uşaqların iştirakını rəğbətləndirmək onların öz təhsil prosesində iştirakının təminatı vasitəsilə xüsusi diqqətdə saxlanılır. 2006-2008-ci illərdə Avropa Şurası uşaqların hüquqlarının qorunması və zorakılığa qarşı mübarizə məqsədilə “Avropanı uşaqlarla və uşaqlar üçün qururuq” proqramını həyata keçirmişdir.

Uşaqların fəal vətəndaşlığa öyrədilməsinin ən yaxşı üsulu yaşadıqları çevrədə onların fəal iştirakı üçün şərait yaratmaqdır. Onlar öz hüquq və vəzifələrini öyrənər, evdə, məktəbdə, uşaq klublarında və yerli təşkilatlarda qərarların qəbul edilməsində iştirak etmək imkanından istifadə edə bilərlər.

**Müvafiq hüquq müdafiə alətləri**

**Avropa Şurası**

Demokratik vətəndaşlıq tərbiyəsi haqqında Nazirlər Komitəsinin tövsiyəsində (Rec (2002)12) göstərilir ki, demokratik vətəndaşlıq tərbiyəsi “azad, dözümlü və ədalətli cəmiyyətin” inkişafının əsasıdır. Avropa Şurası Avropanın insan hüquqlarının tanınması, qanunun aliliyi və demokratiyaya əsaslanan zəngin mədəni müxtəlifliyini dəyərli xüsusiyyət hesab edir. Şura vətəndaşlığı geniş mənada anlayır: “vətəndaşı cəmiyyətdə yaşayan şəxs kimi qəbul etmək olar... Nəzərə alsaq ki, milli dövlət artıq hakimiyyətin yeganə mərkəzi sayılmır, “vətəndaş” anlayışına daha bütöv yanaşma zərurəti yaranmışdır”. Vətəndaşlıq özündə “hüquq və vəzifələr, həmçinin bərabərlik, müxtəliflik və sosial ədalətlə bağlı məsələləri birləşdirir. O, həmçinin insan tərəfindən törədilmiş və cəmiyyətin (yerli, milli, regional və beynəlxalq) həyatına təsir edən fəaliyyətləri özündə birləşdirməlidir.

İnsan hüquqları üzrə Avropa Konvensiyasının bir sıra maddələrində səmərəli vətəndaşlığın reallaşması ilə bağlı hüquqlar göstərilmişdir: fiziki azadlıq və təhlükəsizlik

hüququ (maddə 5), fikir, vicdan və din azadlığı (maddə 9), ifadə azadlığı (maddə 10), dinc yığıncaq və birliklərdə fəaliyyət azadlığı (maddə 11) və təhsil hüququ (protokol №1, maddə 2.). Avropa Mədəniyyət Konvensiyasının I maddəsində göstərilir ki, iştirakçı ölkə "Avropanın ümumi mədəni sərvətlərinə öz milli töhfəsinin verilməsi üçün lazımi tədbirlər həyata keçirir".

**Birləşmiş Millətlər Təşkilatı**

İnsan hüquqlarının Ümumi Deklarasiyasında faktiki olaraq "vətəndaş" və ya "vətəndaşlıq" sözü işlədilmir, lakin insanın "dövlət mənsubiyyəti" anlayışı qeyd olunur. 15-ci maddədə göstərilir ki, "Hər bir şəxs vətəndaşlıq hüququna malikdir" və özbaşına heç kimi vətəndaşlıqdan məhrum etmək olmaz". Orada, həmçinin qeyd olunur ki, hər bir şəxs vətəndaşlığını dəyişə bilər.

Ümumi Deklarasiyanın 29-cu maddəsində həm də qeyd olunur ki, vətəndaşlıq hüququna vəzifələr də daxildir və vətəndaşlıq yalnız qanuni status olmayıb, həm də psixoloji və sosial əhəmiyyət kəsb edir. Hər bir şəxsin öz cəmiyyəti ilə bağlı məsuliyyətləri vardır. Cəmiyyət isə şəxsin azad və tam inkişafını təmin etməlidir.

**Uşaq hüquqları haqqında Konvensiyası** uşağın vətəndaşlıq məsələsinə müraciət edərək,

7-ci maddədə vətəndaşlığın olmamasının qarşısını almaq məqsədilə uşağın vətəndaşlığının qəbulu və müdafiəsi hüququna zəmanət verir;

8-ci maddədə şəxsiyyətə münasibətdə vətəndaşlığın vacibliyini vurğulayaraq hökuməti "uşağın özünün vətəndaşlıq da daxil olmaqla fərdiliyini saxlamasına" hörmətlə yanaşmağa çağırır.

Uşaq hüquqları haqqında Konvensiyada vətəndaşlıq anlayışı sırf qanuni çərçivədən kənara çıxır. İnsan hüquqları barədə daha əvvəlki sənədlər (məs., **Avropa Konvensiyası** və iki **Pakt)** də daxil olmaqla yaşlıların bir çox hüquqlarını özündə birləşdirir. Lakin Uşaq hüquqları haqqında Konvensiya yalnız yaşlıların deyil, uşaqların da cəmiyyət həyatının bütün sahələrində iştirak hüququ olduğuna diqqət yetirir ki, bu da vətəndaşlığın vacib göstəricisidir:

- maddə 9: uşaq üzərində qəyyumluq və hamilik barədə proseslərdə iştirak etmək;
- maddə 12: uşağa aid olan bütün məsələlərin həllində iştirak etmək;
- maddə 13: fikrini  bildirmək, məlumat almaq və vermək;
- maddə 14: fikir, vicdan və söz azadlığı məsələlərinə dair şəxsi rəy;
- maddə 15: başqaları ilə birləşmək hüququ;
- maddə 23: imkanları məhdud uşağın cəmiyyətin həyatında fəal iştirak etmək hüququ;

- maddə 30: azlıqlara və yerli əhaliyə mənsub olan uşaqların öz birliklərində və ümumilikdə cəmiyyətdə iştirak etmək hüququ;
- maddə 31: mədəni və yaradıcı həyatda iştirak etmək hüququ.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşı Bənövşə Tağıyeva**

## Yoxsulluq və sosial təcrid

*İştirakçı dövlətlər hər bir uşağın fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmaq hüququnu təsdiq edirlər.*

Uşaq hüquqları haqqında Konvensiya, maddə 27.1

Yoxsulluq vəziyyətində olan insan geyim, mənzil, qida və təmiz içməli su, müvafiq gəlir, iş, səhiyyə, təhsil və sosial xidmətlərdən istifadə hüququnu nəzərdə tutan yaşayış səviyyəsinə malik olmur. Yoxsulluq müharibə və təbii fəlakətlər nəticəsində ola bilər, yaxud hamını əhatə edə bilər. Ancaq hər bir halda yoxsulluq insan hüquqlarının pozulmasıdır. Bir şəxsin yaşayışı üçün lazımi şərait olmadıqda digər hüquqlar da, o cümlədən yaşamaq hüququ təhlükə altında olur. Dünya bankının hesabatına görə zəngin ölkələrdə yüz uşaqdan yalnız biri 5 yaşına qədər yaşamadığı halda, kasıb ölkələrdə bu rəqəm 100 nəfərdən onuna şamil edilə bilər. Firavan cəmiyyətdə yaşamaq heç də yoxsulluğun olmamasına zəmanət vermir. YUNİSEF-in uşaq yoxsulluğuna dair hesabatında göstərilir ki, dünyanın ən varlı ölkələrində belə uşaqların 3-25%-i yoxsulluq şəraitində yaşayır. Eyni hesabatda bildirilir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv olan 29 ölkədə 47 milyon uşaq və ya 6 uşaqdan biri müəyyən edilmiş milli yoxsulluq həddindən aşağıda yaşayır.

Bütün cəmiyyətlər insani bağları möhkəmlədərək, dağıdıcı qüvvələrə qarşı mübarizə apararaq sosial birliyə can atırlar. Cəmiyyətdə təbəqələşmənin əsas səbəblərindən biri zənginlər və yoxsullar arasında kəskin fərqlərin olmasıdır. Beləliklə, yoxsulluqla mübarizə təkcə cəmiyyətin yoxsul təbəqəsinin həyatını yaxşılaşdırmır, eyni zamanda insan hüquqları mədəniyyətinə öz töhfəsini verir və cəmiyyətin sosial birliyini gücləndirir.

> “*Uşaqlar yoxsulluğu böyüklər kimi qəbul etmirlər. Yoxsulluq uşaqların gündəlik həyatında pozğunluqlar yaradır və onların gələcəyinə güclü neqativ təsir göstərir.”*
>
> (Marta Santez Pais, YUNİSEF-in “İnnoçento” tədqiqat mərkəzinin direktoru)

İnsan hüquqları haqqında Konvensiyasının 27-ci maddəsi uşaqların fiziki, mənəvi, əqli, sosial inkişafı üçün vacib olan həyat şəraitini təmin edən hüquqlarını tanıyır və bütün dövlətləri uşaqların əsas tələbatlarını, xüsusən qayğıya, geyimə və yaşayış yerinə olan ehtiyaclarını ödəyə bilməyən valideynlərə köməklik göstərməyə çağırır. Uşaq hüquqları haqqında

Konvensiyasının 26-cı maddəsində hər bir uşağın inkişafına və normal şəraitdə böyüməsinə kömək edən sosial sığorta da daxil olmaqla sosial təminatın imkanlarından istifadə etmək hüququnun olduğu qeyd olunur. Lakin əksər ölkələrdə maliyyə imkanlarının və siyasi iradənin çatışmaması nəticəsində uşaqların ehtiyacları ödənilmir. Hətta varlı ölkələrdə belə xeyli sayda uşaq yoxsul vəziyyətdə yaşayır. Məsələn, Böyük Britaniyada hər 5 uşaqdan biri yoxsulluq şəraitində həyat sürür.

Avropa Birliyinə daxil olan Cənubi Avropanın üç ölkəsində (Portuqaliya, İspaniya və İtaliya) uşaq yoxsulluğunun səviyyəsi 15%-dən yuxarı, Şimali Avropanın dörd ölkəsində (Danimarka, Finlandiya, Norveç və İsveç) 5%-dən azdır. Şimali Avropanın doqquz ölkəsində uşaq yoxsulluğunun səviyyəsi 10%-ə endirilmişdir. Lakin uşağın rifahı ilə Ümumi daxili məhsul (ÜDM) arasında aşkar əlaqə görünmür. Məsələn, Fransa və Avstriya daxil olmaqla bir çox varlı ölkələrə nisbətən Çex Respublikasında uşaqların maddi rifah halı daha yüksəkdir. Norveç yeganə Avropa ölkəsidir ki, burada uşaq yoxsulluğunun səviyyəsi çox aşağıdır və bu azalmaqda davam edir.

Avropada baş verən siyasi, ekoloji və sosial dəyişikliklər uşaqlara bilavasitə təsir edir. Avropada yoxsulluq daha çox gənclərin aqibətidir (16% yaşlılarla müqayisədə 20% 0-15 yaşda uşaqlar və 21% 16-24 yaş arası gənclər kasıblıqdan əziyyət çəkir). Kasıb valideynlərlə yaşayan və ya valideynləri ilə yaşaya bilməyən, eləcə də etnik azlıqların uşaqları yoxsulluqdan və ayrı-seçkilikdən xüsusən əziyyət çəkirlər.

Şərqi və Cənubi Avropada vəziyyət daha da acınacaqlıdır. Son on ildə yoxsulluq şəraitində yaşayan uşaqların sayının xeyli azaldığına baxmayaraq, cənub-şərqi Avropada və Müstəqil Dövlətlər Birliyi ölkələrində dörd uşaqdan biri və ya 18 milyon uşaq indi də kasıblıqdan əziyyət çəkir və dözülməz şəraitdə yaşayır. *İnnocenti Social Monitor* 2006-cı il məruzəsinə əsasən, bölgələrdə iqtisadi yüksəliş müşahidə olunsa da, bu, uşaqların əksəriyyətinin həyat şəraitinin yaxşılaşmasında öz əksini tapmamışdır. Məruzədə belə qənaətə gəlinir ki, regiondakı ölkələr arasında böyük fərq olduğuna baxmayaraq, əksər ölkələr uşaqlar üçün lazımi vəsait ayırmırlar.

**Sual: Sizin fikrinizcə, yoxsulluğun hansı nəticələri uşaqların gələcəyinə dağıdıcı və uzunmüddətli təsir göstərir?**

Əksər ölkələrin hesabatından görünür ki, yoxsulluq şəraitində böyüyən uşaqlar daha tez-tez xəstələnir, məktəbdə öz imkanlarından aşağı səviyyədə oxuyurlar, təhsildə və

davranışlarında çətinlikləri var, erkən yaşında hamilə olurlar, az əmək haqqı olan işlə məşğuldurlar, çox zaman işsiz qalırlar.

Qeyri-əlverişli şəraitə görə yoxsulluqda yaşayan və yaxud da mənlikləri alçaldılan insanlar “sosial təcriddən” əziyyət çəkirlər. Kasıb valideynlərin uşaqları təhsildə, işdə və inkişafda sosial təcridolunmadan, ayrı-seçkilikdən xüsusilə əziyyət çəkirlər. Adekvat yaşayış şəraitinə malik olma hüququna əlavə olaraq, yoxsulluq uşaqları digər hüquqlardan da (təhsil almaq, istirahət və asudə vaxt, iştirak, digər vətəndaş və siyasi hüquqlardan) məhrum edir. Yoxsulluğa gətirən iqtisadi, siyasi və sosial proseslər bir-birini tamamlayaraq yoxsulların vəziyyətini daha da ağırlaşdırır. Bu səbəbdən milli azlıqlar qrupundan olan yoxsul uşaq irqi ayrı-seçkilikdən və məhrumiyyətlərdən ikiqat əziyyət çəkir. Əksər immiqrantlar, qaçqınlar, qaraçılar yalnız sosial təcrid ilə deyil, həm də qeyri-kafi təhsil, tibbi xidmətin əlçatan olmaması və uşaq əməyindən istifadə ilə üzləşir.

Dövlətlər uşaqların yoxsulluq problemi ilə ciddi məşğul olmalı, onları sosial xidmətlərlə (təhsil, səhiyyə, sosial təminat) və kommunal xidmətlərlə (su, nəqliyyat, elektrik enerjisi) təmin etməlidir. Yerli təşkilatlar da yoxsulluqla mübarizə məqsədilə qida, geyim, tibbi və təhsil sahəsində köməklərini əsirgəməməlidirlər. Dövlət və qeyri-dövlət təşkilatları əhalinin yoxsul təbəqəsinə gəlir gətirən layihələrdə iştirak imkanı verməli, kiçik biznesi dəstəkləməli, işə düzəlməyə yardım etməli və praktik vərdişlər formalaşdıran kurslar təklif etməlidir. Yoxsulları qida və yaşayış yeri ilə təmin etmək vacib, lakin problemlərin qısa müddətli həlli yoludur. Yoxsulluğun uzunmüddətli perspektivdə aradan qaldırılması qərar qəbul edilməsində yoxsulların iştirakını; belə əhali yaşayan ərazilərin inkişafına dəstək verilməsini; cinsi, etnik və sosial diskriminasiyanın aradan qaldırılmasını tələb edir.

İqtisadi inkişafın stimullaşdırılması, bazarın işinin əhalinin yoxsul təbəqəsinin xeyrinə yaxşılaşdırılması və yoxsulların bacarıqlarının artırılması yoxsulluğun aradan qaldırılması üçün əsas şərtlərdir. Həm ayrı-ayrı şəxslər, həm də dövlət və vətəndaş institutları bu strategiyanı həyata keçirmək üçün birləşməlidir.

Uşaq yoxsulluğu və marginalizm (kənarlaşdırma) təhlükə yaratdığı üçün son dövrlərdə bir neçə Avropa ölkəsi bu cür hallarla mübarizə məqsədilə dövlət strategiyaları hazırlamışdır. Bu inteqrativ strategiyalar yalnız dəstək üsullarını (sosial təminat, səhiyyə, məktəbəqədər təhsilə çıxış) yaxşılaşdırmır, həm də ailələrin və uşaqların yaşayış imkanlarının artmasına (məs., bütün uşaqlar üçün keyfiyyətli təhsilin əlçatanlığına; yaşlıların təhsilinə; yaşadıqları şəhər və bölgələrin inkişafı üzrə qərarların qəbul edilməsi prosesində uşaqların iştirakına) şərait yaradır. İrqçilik və ayrı-seçkiliklə mübarizə yoxsulluğun aradan qaldırılması strategiyasının əsasını təşkil edir.

**Müvafiq hüquq müdafiəsi alətləri**

**Avropa Şurası**

İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi üzrə Avropa Konvensiyasına 1961-ci ildə qəbul edilmiş və 1996-cı ildə yenidən baxılmış Avropa sosial xartiyası əlavə edilmişdir. İnsan hüquqları üzrə bir çox sənədlər kimi, insan hüquqlarının müdafiəsi üzrə Avropa Konvensiyası da diskriminasiyanın aradan qaldırılmasını xüsusi qeyd edir. Yoxsulluğu sosial təcridin nəticəsi kimi birbaşa qeyd etməsə də, bu sənəddə "əmlak mənsubiyyətinə... bu və ya digər əlamətlərə" görə ayrı-seçkiliyin qadağan edilməsi barədə danışılır. Avropa sosial xartiyası insan həyatının gündəlik aspektlərinə həsr olunmuşdur və yoxsulluğun bir çox əsas tərəflərinə toxunur:

- **Yaşayış yeri**: adekvat və əlçatan yaşayış məskəni, evsizlərin sayının azalması;
- **Səhiyyə**: hər bir insan üçün əlçatan və səmərəli tibbi xidmət, o cümlədən profilaktik tədbirlər;
- **Təhsil:** pulsuz ibtidai və orta təhsil, peşə oriyentasiyası xidmətləri, peşə hazırlığı və yenidən hazırlanmaya imkan yaradılması;
- **Məşğulluq:** tam məşğulluğu təmin edən sosial və iqtisadi siyasət;
- **Hüquqi və sosial müdafiə:** sosial təminat, sosial yardım və sosial xidmətlər hüququ, yoxsulluqdan və sosial təcriddən müdafiə hüququ.

Xartiyanın bu müddəalarının içərisində 30-cu maddə – yoxsulluqdan və sosial təcriddən müdafiə hüququ – əsas yer tutur.

"Yoxsulluqdan və sosial təcriddən müdafiə hüququnun səmərəli təmin edilməsi məqsədi ilə tərəflər öz üzərlərinə məsuliyyət götürürlər:

- Yoxsulluq və sosial təcrid şəraitində və ya bunların sərhədində yaşayan şəxslərin, eləcə də onların ailələrinin məşğulluq, mənzil, peşə hazırlığı, təhsil, mədəniyyət, həmçinin sosial və tibbi yardımlarla təmin olunması barədə yekdil və razılaşdırılmış tədbirlər həyata keçirilməsi;
- Dəyişən şəraitə uyğunlaşdırmaq zərurəti yarandıqda bu tədbirlərə yenidən baxılması.

**Birləşmiş Millətlər Təşkilatı**

**İnsan hüquqları haqqında ümumi Bəyannamənin** bəzi müddəaları öz xalqını adekvat yaşayış şəraiti ilə təmin etmək üçün dövlətləri uyğun xidmətlər yaratmağa və dəstək göstərməyə məcbur edir:

- Sosial təminat hüququ, maddə 22;
- Eyni əmək müqabilində eyni əmək haqqı almaq hüququ, maddə 23;

- İstirahət və asudə vaxt hüququ, maddə 24;
- Təhsil hüququ, maddə 26;
- Mədəni sahədə iştirak etmək hüququ, maddə 27.

25-ci maddə yoxsulluq və sosial təcridə birbaşa aiddir.

1. Hər bir şəxs onun özünün və ailəsinin səhhət və rifahını təmin etmək üçün lazım olan qida, geyim, tibbi xidmət və lazımi sosial təminat da daxil olmaqla həyat səviyyəsi hüququna və işsizlik, xəstəlik, əlillik, dul qalma, qocalıq və ondan asılı olmayan səbəblər üzündən yaşayış vasitələrinin itirilməsi zamanı təminat hüququna malikdir.
2. Analıq və uşaqlıq xüsusi qayğı və yardım almaq hüququna malikdirlər. Həm nikah nəticəsində, həm də nikahdankənar doğulmuş uşaqlar eyni sosial müdafiə xidmətlərindən istifadə etməlidirlər.

Özlərinə lazımi həyat şəraiti yaratmaq imkanı olmayan bütün xəstə, əlil, qoca və s. insanlara dəstək göstərmək üçün bütün dövlətlərin imkan və vəsaitləri olmur. Lakin dövlətlər öz imkanları daxilində dəstək verməlidir. İnsan hüquqları insan tələbatlarını birbaşa əks etdirir. Qida, geyim, mənzil və səhiyyə yalnız yaşamaq üçün deyil, həm də insan ləyaqətini qorumaq üçün vacibdir.

**Uşaq hüquqları Konvensiyasında** uşaqların iqtisadi rifah halına toxunan geniş müddəalar vardır. Uşaqlara qayğı və dəstək məsələsində əsas məsuliyyət daşıyan valideynlərdir. Əgər valideyn və ya qanuni qəyyum uşağa lazımi qayğı göstərməyə qabil deyildirsə, dövlət ona yardım göstərməlidir (maddə 18). Konvensiyaya uyğun olaraq uşaqlar, həmçinin aşağıdakı hüquqlara malikdirlər:

- Səhiyyə sisteminin ən mükəmməl xidmətlərindən, müalicə vasitələrindən, sağlamlığın bərpa olunmasından istifadə (maddə 24);
- Uşağın fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsi (maddə 27);
- Sosial sığorta da daxil olmaqla sosial təminatın bütün imkanlarından istifadə.

Konvensiyanın uşaq hüquqları haqqında müddəalarını reallaşdırmaq üçün bütün dövlətlərin maliyyə vəsaitləri və siyasi iradəsi olsa idi, dünyada evsiz və ac uşaqlar olmazdı.

**Mənbə:** **Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə:** **TİPİİ-nin əməkdaşı Bənövşə Tağıyeva**

**Zorakılıq**

*"İştirakçı-dövlətlər uşaqları onlara valideynlər, qanuni qəyyumlar və ya uşağa qayğı göstərən digər şəxslər tərəfindən hər növ fiziki və psixoloji zorakılıqdan, təhqirdən, süi- istifadədən, laqeyd və etinasız münasibətdən, kobudluqdan, istismardan, o cümlədən cinsi zorakılıqdan qoruyur".*

Uşaq hüquqları haqqında Konvensiya, 19-cu maddə



Zorakılıq – bədən xəsarətlərinə, sağlamlığa ziyan vurulmasına, məhrumiyyətlərə, hətta ölümə gətirib çıxaran güc tətbiqi və ya hədə-qorxudur. Bundan müəyyən bir məqsədlə istifadə edilə bilər. Məsələn, cəzalandırmaq, birisini öz iradəsinə qarşı hərəkət etməyə məcbur etmək. Bu, qəfil aqressiya aktı da ola bilər. Zorakılıq fiziki, verbal və ya psixoloji olur. Formasından asılı olmayaraq zorakılıq insan hüquqlarının pozulmasıdır. Uşaq Hüquqları Konvensiyasında və bir çox beynəlxalq və regional müqavilələrdə uşaqların fiziki toxunulmazlığı, təhlükəsizliyi və ləyaqəti təmin edilsə də, uşaqlara qarşı zorakılıq geniş yayılmaqdadır. İnsanların mənşəyindən və sosial vəziyyətindən asılı olmayaraq buna Avropanın bütün ölkələrində rast gəlmək olur.

Uşaqlara qarşı kobud rəftarı dörd kateqoriyaya bölmək olar:

**Emosional sui-istifadə:** Bu, söz ilə ifadə olunan mənəvi və ya psixoloji təhqir formalarını ala bilər. Buraya valideynin, onları əvəz edən qəyyumların hərəkəti və ya hərəkətsizliyi daxildir ki, bunlar ciddi davranış, koqnitiv, emosional və ruhi fəsadlar yarada və ya yaranmasına səbəb ola bilər.

**Qayğının olmaması** uşağın əsas ehtiyaclarını ödəyə bilməməkdir. Qayğının olmaması fiziki, təhsil ilə bağlı, emosional ola bilər. Fiziki qayğının olmamasına normal qida və ya geyim ilə təminatın, tibbi müalicənin olmaması, eləcə də nəzarətin və təbiət hadisələrindən qorumanın olmaması kimi amillər aiddir. Buraya uşaqların atılması da daxildir. Təhsil ilə bağlı qayğının olmaması uşaqların məktəbdən yayınması kimi hallara gətirib çıxarır; uşağın xüsusi təhsil ehtiyaclarını ödəmək iqtidarında olmamaq anlamına gəlir. Uşağa psixoloji laqeydlik sevginin, emosional dəstəyin

olmamasında, onu pis vərdişlərdən qorumaq bacarıqsızlığında (narkotik və ya spirtli içkilərin istifadəsinə imkan vermək daxil olmaqla) özünü göstərir.

**Fiziki zorakılıq** uşağa bədən xəsarəti yetirməkdir. Buraya uşağı yaralama, yandırma, zərbə endirmə, silkələmə, təpik vurma, döymə və digər fiziki zorakılıqlar daxildir. Bu cür bədən xəsarətləri böyüklərin uşağa zərər vermək istəyib-istəmədiyindən asılı olmayaraq fiziki sui-istifadə və ya zorakılıqdır. Məsələn, bədənə xəsarət yetirmə həddən artıq intizam cəzasının və yaşa uyğun olmayan fiziki cəzanın nəticəsi ola bilər.

**Cinsi zorakılıq:** Bu, uşağa uyğun olmayan cinsi davranış, ona yönəlmiş məcburi cinsi istismardır. Bura uşağın cinsiyyət orqanlarına toxunmaq, onu böyüklərin cinsiyyət orqanlarına toxunmağa məcbur etmək, cinsi əlaqə, insest, təcavüz, eksgibisionizm, cinsi istismar aiddir. Bu, məcburetmə, yalan, təzyiq, hədə-qorxu ilə bağlı olub uşaqlarda cinsi hislər və fəallıq yaratmaq məqsədi daşıyır. Yaşca böyük və ya daha məlumatlı uşaqlar, böyük şəxslər cinsi zövq almaq üçün uşağı istifadə edəndə cinsi zorakılıq baş verir. Cinsi zorakılıq uşaq üzərində hakimiyyətdən sui-istifadə; uşağın normal, sağlam, inamlı münasibətlər hüququnun pozulması deməkdir.

Bu növ zorakılıqlar uşaqların mənəviyyatının məhv olmasına gətirib çıxarır. Belə hallar onların sağlamlığına, təhsilinə və ünsiyyət qabiliyyətinə mənfi təsir edir. Uşaqda uzunmüddətli xəsarətlərə səbəb ola biləcək fiziki və emosional izlər buraxır. Aparılan tədqiqatlardan məlum olur ki, zorakılıqdan zorakılıq törəyir: zorakılığa məruz qalan uşaq gələcəkdə bir valideyn kimi zorakılıq tətbiq etməyə meyilli olacaq.

Bütün hallarda uşaqlara qarşı olan zorakılıqla mübarizə aparmaq lazımdır. İctimaiyyətin diqqətini cəlb etmək və qeyri-zorakılıq mədəniyyətini insanlara yeritmək üçün bu istiqamətdə maarifləndirmə, təhsil və güclərin səfərbər edilməsi artıq zərurətə çevrilir. Aydın siyasət və effektiv hesabatlılıq hüquq mühafizə fəaliyyəti ilə bərabər, qeyri-zorakılığın siyasi gündəmə gətirilməsi üçün zəruridir.

**Ailədə zorakılıq**

Bir çox Avropa ölkələrində uşaqlara qarşı zorakılığın bəzi formaları dəstəklənir, xüsusən də ailələrdə intizam tənbehi kimi fiziki cəzadan istifadə. Belə zorakılıq halları hüquq mühafizə orqanları tərəfindən cinayət kimi qəbul edilmir. Hətta dövlət ailədə zorakılığı qadağan edən qanun qəbul etsə belə, hüquq mühafizə orqanları bu istiqamətdə ölçü götürməkdən yayınırlar. Bu günə qədər hər həftə onlarla Avropalı uşaq kobud rəftar ucbatından həyatını itirir.

Zorakılıq uşağın gündəlik həyatında iştirak edən insanlar tərəfindən törədildiyi zaman və ya onların sığınacaq yerlərində baş verdiyinə görə (ailə, məktəb və xüsusi təşkilatlar) gizli qalır və bu cinayətlərin açılması mümkün olmur. Ailə zorakılığı uşaqlara qarşı ən gizli zorakılıq forması olduğu

üçün onunla bağlı statistik məlumatlar əldə etmək çox vaxt çətinlik yaradır. Bəzi uşaqlar ailə üzvləri tərəfindən zorakılığa, xüsusilə də cinsi zorakılığa məruz qaldıqda onlara qarşı çıxmaqdan qorxurlar. Bu sükunət uşaqlarla işləyən hər kəsin məsuliyyət yükünü artırır. Onlar uşaqlara qarşı zorakılığın əlamətlərini bilməli və bu cür əlamətlərlə qarşılaşdıqda dərhal xəbər verməlidirlər.

Avropa Şurasına üzv olan ölkələrin üçdə birində (Avstriya, Bolqarıstan, Xorvatiya, Kipr, Danimarka, Finlandiya, Almaniya, Macarıstan, İslandiya, İtaliya, Latviya, Norveç, Portuqaliya, Ruminiya, İsveç və Ukrayna) fiziki cəzalar ləğv edilmiş, digər ölkələr isə müvafiq hüquq islahatlarının aparılması astanasındadır. Bu müsbət dəyişikliklərə baxmayaraq bir çox ölkələrdə bədənə xəsarət yetirmə halları indiyə qədər məqbul cəza növü hesab olunaraq, qanuniləşdirilmişdir və bəzi ölkələrdə yol verilən qanuni cəza metodu hesab edilir. Ailədə bədən xəsarəti kimi cəzaların kökünü kəsmək üçün valideynlər uşaqları tərbiyələndirmə metodu kimi pozitiv və qeyri-zorakı hərəkətlər tətbiq etməlidirlər.

**Məktəblərdə zorakılıq**

Hər on şagirddən biri məktəbdə zorakılığa məruz qalır və bu rəqəm getdikcə böyüməkdədir. Uşaqlara qarşı olan zorakılığın səviyyəsi ölkənin iqtisadi rifahından çox uşaqlara cəmiyyətdəki münasibət və uşağın siyasi əhəmiyyəti ilə bağlıdır. Avropa məktəblərinin əksəriyyətində fiziki cəzanın qadağan olunmasına baxmayaraq təcavüz və qrup halında olan hücumlar geniş yayılmışdır. Digərlərindən fərqlənən uşaqlar: məsələn, daha ağıllı, daha iri və ya xırda görkəmə malik, dərisi digər uşaqlardan fərqlənən, nitqində qüsur olan və s. gülüş, qeybət, qaralama, qorxutma, təcrid, eləcə də fiziki güc qurbanı olaraq digər uşaqlar tərəfindən zorakılığa məruz qalırlar.

Məktəbdə təzyiq qrup zorakılığı və ya irqi mənsubiyyətə görə sataşma forması alaraq əsasən miqrantlara və etnik azlıqlara istiqamətlənmişdir. İndiki zamanda hücumlar çox vaxt virtual məkanda baş veriri: alçaldıcı fotolar təhqiramiz şərhlərlə internetdə yayılır. Bu formalı təqiblər əsasən anonim olduğuna və ani olaraq geniş yayılma imkanı olduğuna görə, uşağa xüsusilə ciddi ziyan vurur. Bu cür zorakılığa məruz qalmış uşaqlar üçün məktəb təhsil deyil, terror məskəninə çevrilir. Birləşmiş Millətlər Təşkilatının uşaqlara qarşı zorakılıq məruzəsində qeyd olunur ki, Avropada qızlar oğlanlara nisbətən daha çox təqibin qurbanı olur və məktəbdə baş verən zorakılığın 80 faizi 12 yaşdan 16 yaşa qədər olan yaş qruplarında baş verir.

Vacibdir ki, cəmiyyət məktəb zorakılığı problemini anlamaqla yanaşı, onu tamamilə rədd etmək atmosferi də inkişaf etdirilsin. Məktəb rəhbərləri, müəllimlər, valideynlər zorakılıq əlamətlərini sezməyi öyrənməli və cəld müvafiq tədbirlər görməlidirlər. Hər bir məktəb zorakılığın kökünü kəsmək üçün yaxşı düşünülmüş profilaktik siyasət hazırlamalı, uşaqlara konfidensial şikayət etmə imkanı

yaratmalıdır. Məktəblərdə zorakılıqla mübarizənin vacib aspektləri uşaqlar arasında maarifləndirmə işlərinin aparılması və qarşılıqlı kömək qruplarının yaradılmasıdır.

**İnternet və KİV qarşısında əlacsızlıq**

İnternet və digər KİV gəncləri müxtəlif risklərə məruz qoya bilər. İstər qəsdən, istərsə də düşünülmədən uşaq barədə qeyri-etik məlumatların, məsələn, zorakılığı əks etdirən şəkillərin, irqçi təbliğatın və ya pornoqrafiyanın nümayiş etdirilməsi də bir zorakılıq formasıdır. İnternet uşaqları pedofillərin təqiblərinə də məruz qoyur, hətta evdə belə. 2006-cı ildə Avropa Şurasının Nazirlər Komitəsi uşaqların yeni informasiya və kommunikasiya mühitində hüquqları haqqında xüsusi tövsiyə qəbul etmişdir.

**Cinsi istismar**

Uşaqlardan cinsi süi-istifadə və onların istismarı bugünkü Avropanın ciddi problemi olaraq qalır. İnsest, pornoqrafiya, fahişəlik, insan alveri, seksual cinsi istismar, yaşıdları tərəfindən təcavüzə məruz qalmalar uşaqların fiziki və psixoloji sağlamlığına ciddi ziyan vurur.

Avropada uşaqların 10-20 faizi cinsi təcavüzə məruz qalır. Lakin zərər çəkmiş uşaqların çoxu bu haqda heç bir məlumat vermir. Bir çoxları baş verənləri başa düşmək üçün çox gəncdirlər. Bəziləri etibar etdiyi və ya ona inanan insan olmadığından, yaxud utandığından, özünü günahkar hiss etdiyindən, xəyanətə məruz qaldığını hesab etdiyindən bu barədə heç nə danışmaq istəmirlər. Əksər hallarda uşaqların çoxu cinayətkarlar tərəfindən qorxudularaq manipulyasiya edilir. Bu cinayəti törədənlər çox zaman uşaqların ailə üzvü və ya yaxşı tanıdığı özündən yaşca böyük olan dostu olur.

Cinsi istismarın digər forması fahişəliyə məcbur edilmə və mütəşəkkil pedofiliyadır. Nəticədə qazanılan pul sutenyor (fahişəliyin təşkili ilə məşğul olan insan) adlanan şəxsə verilir. Silahlı münaqişələr şəraitində yaşayan, internatda məskunlaşan, mühacirətdə olan, səfalət içində yaşayan uşaqlar cinsi istismarın bütün formalarına daha çox məruz qalırlar. Uşaqları cinsi istismardan qorumaq üçün valideynlər, müəllimlər, sosial xidmət sahələrində fəaliyyət göstərən insanlar xüsusi səy göstərməlidirlər.

**Uşaq alveri**

İnsan alveri qul ticarətinin müasir variantıdır. İnsanlarla alınan və satılan bir məhsul kimi rəftar edilir, onlar istismarın bütün formalarına məruz qalırlar. İnsan alveri insan hüquqlarının pozulmasıdır. Bütün insanların toxunulmazlığına, ləyaqətinə qarşı olan bir cinayətdir.

İnsan alverinin qurbanı olmuş uşaq on səkkiz yaşına çatmamış istənilən şəxsdir ki, onu öz vətənində və ya xaricdə istismar edir, qaçırır, gizlədir, başqası ilə dəyişdirir və ya satırlar. Bəzi hallarda uşaqlar aldadılır – onlara səyahət və ya yeni bir məktəb vəd edilir; digər hallarda isə yoxsul ailələr uşaqları pula satırlar.

İnsan alverinə məruz qalan uşaqlar zorakılıq və cinsi istismar qarşısında acizdirlər. Onları öz şəxsiyyətini qorumaq, eləcə də ailədə yaşamaq, təhsil almaq, istirahət etmək və özlərini alçaldıcı hərəkətlərdən qorumaq hüququndan məhrum edirlər.

Avropada uşaq alveri adətən cinsi istismar və ya məcburi əməklə əlaqəlidir. Satılan uşaqları fahişəliklə məşğul olmağa məcbur edir, ərə verir və ya qeyri-qanuni yolla övladlığa götürürlər; onlar kənd təsərrüfatı və digər sahələrdə pulsuz və ya ucuz işçi qüvvəsi olaraq istismar edilir, eyni zamanda bu uşaqlardan əyləncə vasitəsi, yaxud dilənçi kimi istifadə olunur. Bütün bunlar qeyri-qanuni edildiyinə görə bu uşaqlar ictimaiyyətin gözündən gizlədilir və ona görə də onların şəxsiyyətini müəyyən etmək çətin olur. Yerli dili bilmədiklərinə görə, həm də üzərlərində böyük nəzarət olduğuna görə bu uşaqların qaçmaq, kömək istəmək imkanları da məhdud olur.

**Həssas uşaq qrupları**

Uşaqlara qarşı göstərilən zorakılq hər hansı bir qrup və ya cəmiyyətin müəyyən təbəqəsi ilə məhdudlaşmasa da bəzi uşaqlar sui-istifadəyə daha çox məruz qalır. Bunlara aiddir:

- **Evsiz şəhər uşaqları:** "Küçə uşaqları"nın, xüsusən də qızların cinsi istismar riski daha yüksəkdir. UNİSEF-in statistik məlumatına görə hazırda dünyada 100 milyondan çox uşaq küçədə yaşayır. Avropanın hər böyük şəhərində minlərlə küçə uşağına rast gəlmək olar və onların sayı işsizlik, yoxsulluq və mühacirət səbəbi üzündən artmaqda davam edir.
- **Sağlamlıq imkanları məhdud uşaqlar:** Sağlamlıq imkanları məhdud uşaqlar çox vaxt zorakılıq, cinsi istismar və süi-istifadənin qurbanı olsa da, uşaqları müdafiə təşkilatları nadir hallarda bu məsələlərlə məşğul olurlar. Sosial təşkilatlar uşaqlara "xüsusi" və ya "möhtac" möhürünü vuraraq SİM uşaqlara qarşı olan sui-istifadəyə "kömək edirlər". Bir çox hallarda isə SİM uşaqlara, xüsusən də qızlara, "yaxşı qurban" olmağı öyrədirlər. Onlar qızları oğlanlardan daha aşağı qiymətləndirirlər. SİM qızların təhsil, tibbi yardım, reabilitasiya müalicəsi almaq şansı və ya onların üzv olduğu cəmiyyətin həyatında iştirak etmək imkanı oğlanlarla müqayisədə daha azdır.
- **Qaçqın uşaqlar və mühacirlər:** Qaçqın və mühacirətdə olan uşaqlar evdə olduğu kimi, cəmiyyətdə də ksenofobiya aktı nəticəsində zorakılığa məruz qalırlar. Onların valideynləri qanun və hüquq normalarını bilmədikləri üçün uşaqların hüquqları pozulur. Belə uşaqlar ziyanlı ənənələrin də qurbanı olur: məsələn, qızların cinsi orqanlarının kəsilməsi, oğlanların bədəninə ritual çapıqların

vurulması. Ailədə yaşanan sarsıntılar və qeyri-sabitlik də uşaqlara qarşı zorakılığa gətirib çıxara bilər.

- **Erkən ana olan qızlar:** Özləri uşaq olduqlarından Uşaq Hüquqları Konvensiyasında nəzərdə tutulan hər cür müdafiəyə hüquqları olsa da, erkən ana olan qızları çox zaman yetkin insan kimi qəbul edirlər. Beləliklə, onlar müəyyən bir qanuni tələyə düşmüş olurlar. Bir tərəfdən uşaqlara aid olan müdafiə hüquqlarına sahib ola bilmirlər, digər tərəfdən isə çox gənc olduqları səbəbi ilə böyüklər üçün nəzərdə tutulmuş hüquqları tələb edə bilmirlər.

**Uşaqlara qarşı zorakılığın qarşısını almaq üçün nə edə bilərsiniz?**

- Uşaqların vəziyyətini müşahidə edin və hər hansı bir zorakılıq hadisəsi hiss edib gördüyünüz zaman xəbər verin;
- Uşaqların zorakılıqdan müdafiəsinə istiqamətlənmiş dövlət siyasətinə və proqramlarına nəzarət edin və uşaqların zorakılıqdan qorunması haqqında qanunvericilik aktı qəbul edilməsi yönümdə dövlət orqanlarına təzyiq göstərin;
- Yardım proqramı vasitəsi ilə ailələrə dəstək olun;
- Susmayın! Keçirdiyiniz və müşahidə etdiyiniz zorakılıqlar haqqında danışın;
- Cəmiyyətin zorakılığa olan dözümlü münasibətinə qarşı çıxın;
- Uşaqlara qarşı olan zorakılıq problemlərinə diqqət cəlb edin;
- Zorakılıq  əlamətlərinə diqqət yetirin;
- Uşaqlara qarşı olan qrup təcavüzü və digər zorakılıq formalarını qadağan etmək və kökünü kəsmək üçün məktəb və cəmiyyəti səfərbər edin;
- Uşaqlara sui-istifadədən və zorakılıqdan qorunmağı öyrədin;
- Uşaqlara qeyri-zorakı metodlarla münaqişələri həll etməyi öyrədin;
- Zorakılıq tətbiq etməyin.

**Müvafiq hüquq müdafiə alətləri**

**Avropa Şurası**

İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 3-cü maddəsində deyilir: “Heç kəs işgəncəyə və qeyri-insani, ləyaqəti alçaldan rəftar və cəza növlərinə məruz qalmalı deyil”. Bu fundamental hüququn təmin edilməsi və qorunması üçün Avropa Şurası zorakılığın bir çox aspektləri ilə məşğul olaraq, qanuni yollarla ictimayyətin diqqətini cəlb edərək xüsusi kampaniyalar (məsələn, insan alveri, gender əsaslı zorakılq, uşaq əməyi, KİV-də zorakılıq mövzularında) həyata keçirir.

- **İşgəncələrin və qeyri-insani rəftarın, cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi** azyaşlı məhkumların hüquqlarının qorunması standartlarını hazırlayır, gənc məhbusları müdafiə məqsədi ilə qeyri-məhkəmə mexanizmini təmin edir, mütəmadi olaraq uşaq cəzaçəkmə müəssisələrini ziyarət edir.
- **İnsan alverinə qarşı mübarizə Konvensiyası** insan alverinin qarşısını almağa, bu alverin qurbanı olanların hüququnu qorumağa və insan alverində iştirak edən şəxsləri təqib etməyə istiqamətlənmişdir. 2005-ci ildə qüvvəyə minmiş bu icbari müqavilə insan alverinin bütün formalarına, qurbanlarına, bütün növ istismara, o cümlədən cinsi istismar, məcburi əmək, köləlik və insan orqanlarının satışı məsələlərinə şamil edilir.
- Uşaq pornoqrafiyası ilə bağlı cinayətlər **Kibercinayətkarlıq Konvensiyasında** öz əksini tapıb. Konvensiyanın 9-cu maddəsində qeyd edilir ki, iştirakçı dövətlər "uşaq pornoqrafiyası ilə bağlı olan kompüterlərdən müxtəlif növ istifadəyə qarşı qanuni ölçü götürülməsini təmin etməlidir".
- 2007-ci ildə qəbul edilmiş **Uşaqların istismardan və cinsi xarakterli sui-istifadədən qorunması haqqında Konvensiya** uşaqlara qarşı sui-istifadəyə yönəlimiş ilk müqavilədir. Bu sənəd Avropa qanunvericiliyindəki boşluqları doldurmalı, Avropadakı uşaqların 10-20 faizinə təsir göstərən bu fəlakətə qarşı istiqamətlənmiş mübarizə üçün vahid qanun strukturunun yaranmasına xidmət etməlidir.

Avropa Şurasının bir çox tədbirləri və proqramları da uşaqlara qarşı zorakılıq probleminin həllinə xidmət edir.

- 2006-cı ildə Avropa Şurası "Uşaqlar üçün və uşaqlarla birlikdə Avropa qururuq" proqramının təşəbbüskarı oldu. BMT-nin Avropada uşaqlara qarşı zorakılıq Hesabatının davamı olan bu üçillik proqram uşaqlara qarşı müxtəlif zorakılıq formaları ilə mübarizəyə yönəlmiş, ailədə fiziki cəza, cinsi istismar, insan alveri və s. zorakılıq formalarını əhatə etmişdir. Proqram öz səlahiyyətləri çərçivəsində standartlar, rəhbər prinsiplər hazırlayır və Avropa hökumətlərinin, parlamentlərinin, yerli hakimiyyət orqanlarının, peşəkarların və QHT-nin iştirakı ilə ictimaiyyətin məlumatlandırılması və diqqətini cəlb etmək üçün güclü bir kampaniya keçirir.
- **İnsan hüquqlarının müdafiəsi ilə məşğul olan məsul şəxs** Avropa Şurasına üzv dövlətlərə yoxlama səfəri zamanı uşaqların hüquqlarını və onların zorakılıqdan müdafiəsi ilə sistemli şəkildə məşğul olur.
- 2006-cı ildə Avropa Şurası "İnsan satılmır" şüarı altında **insan alverinə qarşı kampaniyaya** başladı. Onun məqsədi müasir Avropada insan alverinin artmasına diqqət cəlb etmək idi. Kampaniya çərçivəsində yeni köləlik növlərinə qarşı ölçülərin götürülməsi, insan hüquqlarının müdafiəsi, insan alveri ilə məşğul olanların təqib edilməsi işıqlandırılır.

- 2007-ci ildə Avropa Şurasının Parlament Assambleyası küçə uşaqlarının vəziyyəti və bu problemin siyasi həllinin ümumavropa tədqiqatının təşəbbüskarı oldu.

**Birləşmiş Millətlər Təşkilatı**

İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin 5-ci maddəsində (İHUB, 1948) zorakılıqdan azadolma insan azadlığının fundamental hüququ kimi tanınır. Lakin bu qanun Uşaq Hüquqları Konvensiyasında daha dərin inkişafını tapdı (UHK, 1989). Konvensiyanın 19-cu maddəsində yolverilməz rəftarların bir çox formaları – cinsi sui-istifadə, psixoloji zorakılıq və istismar öz əksini tapmışdır:

*““İştirakçı-dövlətlər uşaqları onlara valideynlər, qanuni qəyyumlar və ya uşağa qayğı göstərən digər şəxslər tərəfindən hər növ fiziki və psixoloji zorakılıqdan, təhqirdən, süi- istifadədən, laqeyd və etinasız münasibətdən, kobudluqdan, istismardan, o cümlədən cinsi zorakılıqdan qoruyur”.*

Konvensiyanın 19-cu maddəsində olduğu kimi 37-ci maddədə də bir sıra qeyri-Avropa ölkələrində tətbiq olunan ölüm hökmündən uşaqları qorumaq haqqında bəhs olunur.

BMT-nin geniş yayılmış hüquq müdafiəsi aləti olaraq, Uşaq konvensiyası uşaqları müxtəlif növ zorakılıqlardan qoruyan fundamental hüquqi baza olaraq, onları dövlət və ya uşaq təşkilatları, eləcə də ayrı-ayrı şəxslərdən qoruyur. Uşaq hüquqlarının qorunması sahəsində çalışan təşkilatlar üçün Konvensiyanın rolu misilsizdir.

Uzun müddət ailədə uşağa istiqamətlənmiş zorakılıq ölüm halları, ağır bədən xəsarətləri istisna olmaqla “şəxsi məsələ” kimi cavabsız qalırdı. Lakin 1993-cü il Vyana Bəyannaməsində qadın və qızlara qarşı həm dövlət rəsmiləri, həm də fərdi şəxslər tərəfindən törədilmiş zorakılıq insan hüquqları pozuntusu kimi qəbul edilir. Elə həmin ildə, onun ardınca Ali Assambleyanın qərarı ilə **Qadınlara qarşı zorakılığın kökünün kəsilməsi haqqında Deklarasiya** qəbul olunur və qadınlara qarşı zorakılıq məsələləri üzrə xüsusi məruzəçi ekspert təyin edilir. Bu Deklarasiyada bütün məktəblərdə qadın və kişi davranışlarının xüsusiyyətləri haqqında xüsusi proqram tətbiq etmək çağrışları səslənir.

**Mənbə: Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008.**

**Tərcümə: TİPİİ-nin əməkdaşı Səadət Mənəfova**